ISBN: 978-9952-39-199-2

PROCEEDINGS

MINISTRY OF SCIENCE AND EDUCATION
REPUBLIC OF AZERBAIJAN

BAKU ENGINEERING UNIVERSITY

WITH THE JOINT ORGANIZATION BY THE MINISTRY OF SCIENCE AND EDUCATION REPUBLIC OF AZERBAIJAN AND BAKU ENGINEERING UNIVERSITY

BAKU ENGINEERING UNIVERSITY
INTERNATIONAL SCIENTIFIC AND PRACTICAL CONFERENCE

AZERBAIJAN IN THE INTERNATIONAL TRANSPORT SYSTEM:

GOALS AND PROSPECTS

AZERBAIJAN IN THE INTERNATIONAL TRANSPORT SYSTEM: GOALS AND PROSPECTS

PROCEEDINGS

BAKU ENGINEERING UNIVERSITY

24-25, May 2024, Baku, Azerbaijan
www.beu.edu.az

KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ, ELMİ HEYƏTİ VƏ KATİBLİYİ

TƏŞKİLAT KOMİTƏSİ

SƏDR:

Ağası Məlikov
Bakı Mühəndislik Universitetinin Elm və İnnovasiya məsələləri üzrə prorektoru

SƏDR MÜAVİNİ:

Hüseyn Mirzəyev
Bakı Mühəndislik Universitetinin Mühəndislik fakültəsinin dekanı

KONFRANSIN KATİBLİYİ

ELMİ KATİB

Bəxtiyar Namazov
Bakı Mühəndislik Universitetinin
"Logistika və nəqliyyat texnologiyaları" kafedrasının müdiri

MƏSUL KATİB
Nicat Kərimov
Bakı Mühəndislik Universitetinin
"Logistika və nəqliyyat texnologiyaları" kafedrasının dosenti

ÜZVLƏR

Professor Həmzağa Orucov
Bakı Mühəndislik Universiteti,
Tədris işləri üzrə prorektor
Dosent Bayram Hüseynzadə
Bakı Mühəndislik Universiteti,
Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor
Dosent Mikayıl Zeynalov
Bakı Mühəndislik Universiteti,
Maliyyə - təsərrüfat işləri üzrə prorektor
Professor Ramiz Hümbətov
Bakı Mühəndislik Universiteti, "Avtomatika, telekommunikasiya və energetika" kafedrasının müdiri
Dosent Manafəddin Namazov
Bakı Mühəndislik Universiteti, "Kompüter və informasiya texnologiyaları" kafedrasının müdiri
Dosent Asif Quliyev
Bakı Mühəndislik Universiteti, "Mexanika mühəndisliyi" kafedrasının müdiri
Dosent Osman Mirzəyev
Bakı Mühəndislik Universiteti, Mühəndislik fakültəsi, Tədris işləri üzrə dekan müavini
Professor Hüseyn Qurbanov
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, "Neftin qazın nəqli" kafedrasının müdiri
Ziya Ağayev
Abşeron Logistika MMC-nin idarə heyətinin sədri
Rauf Səfərov
Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Nəqliyyat sahəsinin tənzimlənməsi şöbəsi
Mirhəmid Bağırov
Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Avtomobil Nəqliyyatı İnfrastrukturu departamentinin direktoru
Professor Əziz Talıbov
Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin, Təlim tədris mərkəzinin direktor müavini
Professor Qasım Abdullayev
Azərbaycan Memarlıq və İnşaat Universiteti, "Nəqliyyat və logistika" kafedrasının müdiri
Dosent Razim Bayramov
Azərbaycan Texniki Universiteti, "Nəqliyyat logistikası və hərəkətin təhlükəsizliyi" kafedrasının müdiri

Dosent Qasım Manafov
Azərbaycan Texniki Universiteti, "Nəqliyyat texnikası və idarəetmə texnologiyaları" kafedrasının müdiri
Professor Ebru Demirci
İstanbul Üniversitesi, Ulaştırma ve Lojistik Fakültesi dekanı
Professor Zurab Şengeliya
Gürcüstan Texniki Universiteti, Nəqliyyat sistemləri və mühəndis mexanikası fakültəsi
Dosent Levkin Qriqori Qriqoryeviç
Omsk Dövlət Dəmiryolu Universiteti, "Nəqliyyatın iqtisadiyyatı, logistika və keyfiyyətin idarə edilməsi" kafedrası
Dosent Yepişkin İlya Anatolieviç
Rusiya Dəmir Yolları Akademiyasının direktoru
Dosent Şakir Əliyev
Azərbaycan Texnologiya Universiteti, "Maşın mühəndisliyi və logistika kafedrası"nın müdiri
Dosent Nazarov Şuxratjon
Tacikistan Texnoloji Universiteti, Düşənbə

DİZAYN VƏ TƏRTİBAT

İlham Əliyev

ISBN: 978-9952-39-199-2

Əlaqə məlumatı:
Əlaqə: *Konfransın məsul katibi – dos. Nicat Kərimov*
Telefon: *+994 (12) 349 99 66/67*
Fax: *+994 (12) 349 99 90*
Mobil & WhatsApp: *(+994 55) 745-09-46*
E-poçt*: logistics@beu.edu.az*
Ünvan*: Bakı Mühəndislik Universiteti, Xırdalan şəh., Həsən Əliyev küç., 12*

MÜNDƏRİCAT

SEKSİYA – 1
AZƏRBAYCANDA NƏQLİYYAT SİSTEMİNİN LOGİSTİK TƏŞKİLİ *7*

Azərbaycan respublikasının ərazisində logistika mərkəzlərinin optimal yerləşdirilməsi məsələsi
Əziz Talıbov, Elşən Həşimov *8*

Logistik prinsiplərə əsaslanaraq avtomobil yolları ilə yük daşıma sistemlərinin təkmilləşdirilməsi
Zabit Aslanov, Namiq Həmidov, Samirə Məhərrəmova *15*

Konteyner daşımalarının xüsusiyyətləri
Yadulla Həziyev, Gülşadə Axundova *19*

Nəqliyyat sistemi turizm xidmətlərinin inkişafının amili kimi
Bəxtiyar Namazov *23*

Lənkəran və Masallı şəhərlərində dayanıqlı ictimai nəqliyyat sisteminin xidmət keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı əhalinin məmnunluğunun öyrənilməsinin müqayisəli təhlili
Mahir Mustafayev, Elməddin Salayev, Nəsir Nəcəfov *31*

Потенциал международного транспортного коридора «север-юг» (российский сегмент)
Мамаев Э.А. Сорокин Д.В. *36*

Kiçik şəhərlərin mobillik layihələndirilməsi alqoritmi
Razim Bayramov, Mahir Mustafayev, Salayev Elməddin *42*

Analysıs of solutıon mechanısms for demand-based logıstıcs system operatıon ın enterprıses
Fuad Hasanov, Mehlika Arısoy *48*

Kənd təsərrüfatı məhsullarının avtomobil nəqliyyatı vasitəsi ilə daşınması
Fuad Həsənov Ədalət, Səbuhı Rüstəmov Faıq *56*

Mingəçevir şəhərində əhalinin ictimai nəqliyyat vasitələri və taksi avtomobilləri ilə yerdəyişmələrinə olan tələbatın təhlili
Əlləz Əliyev *60*

"Şamaxinka" adlanan ərazidə nəqliyyat və piyada şəraitinin yaxşılaşdırılması həlləri
Əlizadə Jalə, Çingiz Rəhimov, Əlləz Əliyev *66*

Xırdalan dairəsində nəqliyyat problemləri, mövcud çətinliklərin aradan qaldırılması həlləri
Qasımova Nisə, Çingiz Rəhimov, Allahverdi Şərifov, Abdinzadə Sevinc *72*

Əsəd Əhmədov küçəsində piyada keçidlərinin təkmilləşdirilməsi
Orxan Həsənov, Çingiz Rəhimov, Rauf Səfərov *76*

SEKSİYA – 2
NƏQLİYYAT TEXNOLOGİYALARI VƏ İNNOVASİYALAR *85*

Applıcatıon perspectives of smart technology in the creation of logistics information systems
Hashimova Albina *86*

Yük daşımalarında təhlükəsizlik və kibertəhlükəsizlik
Ülviyyə Quliyeva, Manafəddin Namazov *92*

Yüklərin avtomobil nəqliyyatı ilə çatdırılması üzrə səmərəli metodun müəyyənləşdirilməsi
İlham Cəfərli *96*

Təchizat zəncirində nəqliyyat və anbarın fəaliyyətinin nəzəri təsviri
Elmir Əlizadə *99*

Key trends development of the digital economy
Atdaeva Shırınjemal *104*

İnnovativ texnologiyaların sürət rejimlərinin tənzimlənməsinə təsir
Qaragöz Kərimov *105*

Nəqlıyyat texnologıyalarında innovasiyaların tədqiqi
Tünzalə Əlifova *108*

Avtoservis müəssisələrinin ehtiyatlarının logistik idarəolunma sistemlərinin məsələləri və amilləri
Abdinzadə Sevınc *111*

Nəqliyyatın idarə olunmasında informasiya kommunikasiya texnologiyalarının tətbiq perspektivləri
Quliyeva Nərmin, Tahir Quliyev *114*

Smart konteynerlərın tətbıqında yaranan problemlər və onların həlli
Dilan Məmmədov *119*

Logistika əməliyyatlarinda istifadə olunan yükqaldıran-nəqledici maşınların təsnifatı və təhlili
Hüseyn Mirzəyev, Osman Mirzəyev *127*

SEKSİYA-3
NƏQLİYYATDA İNVESTİSIYALAR VƏ BİZNES PLANLAŞDIRMA *135*

Dayanıqlı inkışafa yol xəritəsində nəqliyyat şəbəkələri üçün investisiya və biznes planlaşdırmasında innovasıyaların rolu və tətbiqi imkanları
Şəfiqə Rəsulzadə *136*

The importance of business planning in the transportation system of Azerbaijan
Abbasova Nurana *143*

Zəngəzur nəqliyyat dəhlizinin iqtisadi və logistik perspektivləri
Hüseyn Hüseynzadə *147*

Beynəlxalq "Şimal-cənub" nəqliyyat dəhlizi və Azərbaycanın onun istifadəsinin genişləndirilməsindən iqtisadi səmərəsi
Çobanzadə İsmayıl, Yusifzadə Elçin, Bağırov Bulud *150*

Influence of logistics on the growth of modern economy
Byashimova Sadap *154*

Dəmir yolu ilə neft məhsullarının nəqlinin səmərəli təşkili məsələləri
Leyla Həsrətova, Rufan İsmayılov *155*

Logistika və nəqliyyatın texniki innovasiyalarla modernləşdirilməsi
Bahar Hacıyeva *159*

SEKSIYA-4
NƏQLİYYAT DƏHLİZLƏRİ VƏ TƏCHİZAT ZƏNCİRİNİN İDARƏ EDİLMƏ PROBLEMLƏRİ *163*

Zəngəzur dəhlizinin qlobal inteqrasiyası və Avropaya açılan qapı
Sahib Əsgərov, Zeynəb Vəliyeva *164*

Azərbaycan üçün beynəlxalq nəqliyyat dəhlizlərinin əhəmiyyəti
Asəf Əliyev *168*

Construction of truck parks (truck parks) in the republic of Azerbaijan of the East-West transport corridor
Mirhamid Baghirov *172*

Средный коридор - вызов для транспортно-экспедиторских компаний региона
Тедорадзе Р.Г., Шенгелия З.А. *180*

Nəqliyyat dəhlizləri və təchizat zəncirinin idarə edilmə problemləri
Quliyev Ramil, Əliyev Ramazan *184*

Risk assessment in the supply chain
Ebru Demirci, Nicat Karimov, Ali Ahmed Mustafa *188*

Qarabağ və şərqi Zəngəzur iqtisadi rayonlarında nəqliyyat-logistika infrastrukturunun yaradılması
Göyüşov Nurlan, Əliyev Vüqar *193*

Şərq-qərb nəqliyyat dəhlizinin əhəmiyyəti
Qaragöz Hafizli *197*

Avropada TIR parklar ilə bağlı təhlükəsizlik tələbləri
Nicat Kərimov *199*

Azərbaycanda şimal-cənub yolu və onun perspektivi
Heydərov Şamil *203*

SEKSİYA-5
NƏQLİYYATIN EKOLOJİ PROBLEMLƏRİ VƏ DAYANIQLI NƏQLİYYAT *213*

Nəqliyyat və ekoloji problemlər
Yədulla Həziyev *214*

Environmental problems of transport in Azerbaijan
Turkan Sheydai *219*

Yaşıl logistikanın ətraf mühitə zərər verən vəziyyətlərin minimuma endirməsində və iqtisadiyyatda apardığı rolu
Məmmədova Şamama, İsmayılova Şəhla, Əliisa Azad *227*

Şəhər mobilliyində gender məsələsi
Razim Bayramov, Mahir Mustafayev, Məmməd Məmmədov *231*

Возможности снижения воздействия предприятий на окружающую среду за счет совершенствования пылегазоочистного оборудования и их анализа
Бобоев С.М. *237*

Bakı şəhərində yolların tıxac problemi və monorels nəqliyyat vasitəsinin təklifi
Səbinə Bürcəliyeva, Qoşqar Rəsulov *241*

Nəqliyyatın ekoloji problemlərinin aradan qaldırılmasının həll yolları və dayanıqlı nəqliyyatın inkişaf
Fəxrəddin Əhmədov *247*

Green supply chain concept, objectives, implementations and challenge
Ali Gojayev, Hazi Eynalov *252*

Nəqliyyatın ekoloji problemləri
Əliağa Sadıqlı *257*

Environmental issues and sustainable transportation: roads of the future
Mahammad Ismayilzadeh *260*

Dayanıqlı şəhər mobilliyi planlaşdırılmasının tətbiqi
Qüdrət Osmanlı *264*

Mobil inkişaf etməkdə olan ölkələrdə nəqliyyat sisteminin ətraf mühitə təsiri problemlərinin araşdırılması mexanizmləri
Vəliyeva Nətavan, Paşayeva Məleykə *268*

Yaşıl logistikanın tətbiqində mütərəqqi yanaşma
Ələkbərli Səfər *271*

Экологически чистый транспорт: перспективы и возможности применени
Гасанов Элвин *273*

Azərbaycanda turizm xidmətləri problemləri
Alıyarov Tural *278*

Детонационный метод экологической переработки отработанных смазочных материалов транспортных средств
Худавердиев Вугар, Мустафаев Ислам, Микаилова Амина *281*

Detonation method of ecological recycling of used lubricants of vehicles
Khudaverdıev Vugar, Mustafayev Islam, Mikailova Amina *284*

Nəqliyyat vasitələrinin saxlanılması üçün parklanma yerləri, yaşayış və qeyri-yaşayış obyektləri (kompleksləri, zonaları) üçün parklanma yerlərinin minimal sayının məcburi kvotası
Razim Bayramov, Allahverdi Şərifov, Çingiz Rəhimov, Rauf Səfərov *285*

Azərbaycan respublikasında elektromobillərin istismarının təşkil edilmə xüsusiyyətlərinin tədqiqi
Heybətulla Əhmədov, Qasım Manafov *295*

Füzuli beynəlxalq hava limanının Şuşa turizm destinasiyasının inkişafına təsiri
Gülnaz Abbasova *298*

Müasir dövrdə nəqliyyat sektorundakı yeniliklərin sürücü psixologiyasına təsiri
Etibar Quliyev, Hüseyn Xıdırov *301*

Avtomobil nəqliyyat-yol kompleksində ekoloji problemlər və həlli yolları
İlham Tağıyev, Ceyhun Talıbov, Pərvanə Məmmədova, Vüqar Səlimov *304*

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Bakı Mühəndislik Universitetinin birgə təşkilatçılığı ilə

BAKI MÜHƏNDİSLİK UNİVERSİETİ-BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRANS

AZƏRBAYCAN BEYNƏLXALQ NƏQLİYYAT SİSTEMİNDƏ:

HƏDƏFLƏR VƏ PERSPEKTİVLƏR

BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRASNS

Bakı Mühəndislik Universiteti, 24-25 May 2024-cü il, Bakı, AZƏRBAYCAN

PROCEEDINGS

S E K S İ Y A – 1

AZƏRBAYCANDA NƏQLİYYAT SİSTEMİNİN LOGİSTİK TƏŞKİLİ

24-25 MAY
Baku, Azerbaijan

AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏ LOGİSTİKA MƏRKƏZLƏRİNİN OPTİMAL YERLƏŞDİRİLMƏSİ MƏSƏLƏSİ

ƏZİZ TALIBOV
İdarəetmə sistemləri İnstitutu
BAKI, AZƏRBAYCAN

ELŞƏN HƏŞİMOV
Aəzərbaycan Texniki Unuversiteti
BAKI, AZƏRBAYCAN

Xülasə

Məqalədə Azərbaycan Respublikası ərazisində ehtimal edilən logistika mərkəzlərinin optimal yerinin təyinolunma məsələsinə baxılmışdır. Yük terminalları və gömrük məntəqələrinin koordinatları, sürücülərin iş və istirahət vaxtı barədə normalar, yüklərin toplanması və paylanmasını həyata keçirilən iqtisadi rayonlar, habelə avtonəqliyyat vasitələrinə texniki qulluq və təmir xidmətini göstərən mərkəzlər barədə şərti məlumatlar əsasında logistika mərkəzinin iqtisadi cəhətdən səmərəli yerləşdirilməsinin riyazi modeli verilmişdir. Həll üsulu təklif olunmuşdur.

Açar sözlər: Logistika mərkəzi, Terminal, Optimal yerləşmə, Nəqliyyat infrastrukturunun coğrafi məkanı, Riyazi modelləşdirmə, Veber problem

Abstract

In the article, the issue of determining the optimal location of possible logistics centers in the territory of the Republic of Azerbaijan was considered. A mathematical model of the economically efficient location of the logistics center is provided based on conventional information about the coordinates of cargo terminals and customs points, norms about drivers' work and rest time, economic regions where cargo is collected and distributed, as well as centers that provide maintenance and repair services for motor vehicles. A solution method is proposed.

Keywords: Logistics center, Terminal, Optimal location, Transport infrastructure geographical space, Mathematical modeling, Weber problem

Giriş

Ölkəmizdə sosial-iqtisadi inkişaf sahəsində əldə olunan uğurlar, yaradılan yeni perspektiv istiqamətlər, iqtisadi, sosial, elmi-texniki və maliyyə potensialı uzun bir dövrü əhatə edən iqtisadi inkişaf strategiyasının işlənib hazırlanmasını obyektiv zərurətə çevirmişdir. Bunun nəticəsi olaraq, 2016-cı ilin dekabr ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" fərman ilə əsas prioritet istiqamətlər üzrə yeni hədəflər müəyyənləşdirilmişdir (http://www.e-qanun.az/framework/34254, 2016, Əhmədov, H.M. və b. 2018).

Strateji Yol Xəritəsi ölkəmizin sosial-iqtisadi inkişafının mövcud vəziyyətinin sistemli və kompleks təhlilinin, qiymətləndirilməsinin, reallaşma mexanizmlərinin əsaslı surətdə yenilənməsini tələb edir. Yeni prioritet istiqamətlər bir daha təsdiqləyir ki, Strateji Yol Xəritəsi iqtisadiyyatın inkişafı ilə bağlı yeni yanaşmanı ortaya qoyur və iqtisadiyyatın şaxələnməsinə, neft gəlirlərindən asılılığın aradan qaldırılmasına imkan yaradır.

Strateji Yol Xəritəsində dayanıqlı iqtisadiyyatın qurulması təşəbbüslərinin tərkib hissəsi kimi hazırlanan "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" logistika, ticarət sahəsində iqtisadi inkişaf üzrə Azərbaycanın 2020–2025-ci ilədək və 2025-ci ildən sonrakı dövr üçün qısa, orta və uzun müddətli perspektiv istiqamətlərini müəyyən edir (http://www.e-qanun.az/framework/34254, 2016, Əhmədov, H.M. və b. 2018).

Ekspertlər hesab edir ki, Azərbaycanda həyata keçirilən çox mühüm infrastruktur layihələri ölkəmizi dünyanın ən böyük logistika mərkəzlərindən birinə çevirəcək. Çünki artıq ölkəmizdə sənayenin inkişafı məqsədilə sənaye park və zonalarının yaradılması işləri aparılır. Bütün bunlar onu

deməyə əsas verir ki, milli iqtisadiyyatın bütün sahələrində keyfiyyət məzmun və forma baxımından yeni inkişaf mərhələsi başlamışdır (Əhmədov, H.M. və b. 2018).



Şəkil 1. Azərbaycan Respublikasının avtomobil yolları

Son illər dünyada baş verən qlobal siyasi və iqtisadi dəyişikliklər, habelə bu dəyişikliklərə səbəb olan hərbi münaqişələr ölkələrarası daşımalar sisteminin də təkmilləşdirilməsinə, o cümlədən optimal dəhlizlərin seçilməsinə səbəb olmuşdur. Azərbaycan Respublikasının bir ərazi olaraq əlverişli coğrafi mövqedə yerləşməsi qlobal daşımalar prosesindən səmərəli şəkildə yararlanmasını labüd edir. Ölkəmizin coğrafi mövqeyi imkan verir ki, bütün qütblər istiqamətində və müxtəlif növ nəqliyyat vasitələri ilə həyata keçirilən beynəlxalq daşımaların dəhlizləri bu ərazidən keçsin. Hazırda ölkəmizin ərazisindən istifadə edərək multimodal daşımalar icra edilir və bu proses inkişaf etməkdədir.

Azərbaycanda logistik servis bazarının və logistika xidmətləri kompleksinin genişlənməsi, ölkə ərazisində regional (dayaq) logistik mərkəzlər şəbəkəsinin yaradılması və inkişafı, iri şirkətlərin, eləcə də beynəlxalq nəqliyyat dəhlizlərinin logistik infrastrukturunun fəaliyyəti, logistik idarəetmə bölmələri olan şirkətlərin sayının sürətlə artması, Azərbaycanın sənaye, xüsusilə də kənd təsərrüfatı sahələrində anbarlaşma logistikasının intensiv inkişafını tələb edir.

Bazar iqtisadiyyatı yolu ilə inkişaf edən ölkələrin təcrübəsi göstərir ki, inkişaf zamanı bir çox iqtisadi problemlərin aradan qaldırılmasında iqtisadiyyatın yeni sahəsi olan logistika amili böyük rol oynayır. Hazırda bazar münasibətləri sisteminin mürəkkəbliyi, məhsulların bölgüsü prosesi və keyfiyyətinə yüksək tələbkarlıq, çevik istehsal sisteminin yaradılması, məhsulların daşınması, saxlanılması və zəruri ehtiyatların təşkili, təchizat proseslərinin planlaşdırılması mexanizmi və servis xidmətləri logistikanın bir elm sahəsi kimi dünya iqtisadiyyatında tətbiqini zəruri edir.

Beləliklə, ölkə iqtisadiyyatının sürətli inkişafı və bu prosesdə logistika elminə geniş yer verilməsi, digər sahələrdə olduğu kimi, Azərbaycanın nəqliyyat sektorunda da logistikalaşmanın aparılmasını zərurətə çevirmişdir. Logistikanın nəzəri və metodoloji əsaslarının tətbiqi ilə logistika mərkəzləri sisteminin effektivlik göstəricilərinin müasir tələblər səviyyəsinə çatdırılması mümkündür.

Məqalədə Azərbaycan Respublikası ərazisində (şəkil 1) logistika mərkəzlərinin optimal yerləşdirilməsi məsələsinə baxılır, logistika mərkəzinin nəqliyyat dəhlizlərinin düyün nöqtələrində və ya onlara yaxın yerlərdə yerləşdirilməsi təklif olunur, logistika mərkəzinin iqtisadi cəhətdən səmərəli yerləşdirilməsinin riyazi modeli qurulur və onun ədədi həll alqoritmi verilir.

Məqalənin işlənməsində məqsəd Azərbaycan Respublikası ərazisində logistika mərkəzlərinin optimal yerləşdirilməsi məsələsinin aktuallığını əsaslandırmaq, müvafiq məlumatlar əsasında logistika mərkəzinin iqtisadi cəhətdən səmərəli yerləşdirilməsinin riyazi modelini və uyğun hesabat alqoritmini işləməkdir.

Logistika mərkəzinin yaradılması probleminin qoyulması üçün əsaslar

Azərbaycan iqtisadiyyatının müasir inkişaf dinamikasının təhlili yaxın perspektivdə yeni anbarlaşma, yükləmə-boşaltma, bölüşdürücü-terminal obyektlərinin və geniş tələbat məhsullarının saxlanması, emalı, komplektləşdirilməsi, bölüşdürülməsi və idarə edilməsi üzrə xidmətlər təklifinin artmasını göstərir ki, bu da Azərbaycan ərazisində dayaq logistik mərkəzlər şəbəkəsinin yaradılmasını və inkişafını labüd edir.

Azərbaycan Respublikası ərazisində yaradılacaq logistika mərkəzlərinin fəaliyyətinin əsas məqsədi aşağıdakılar hesab edilir:

- Yaxın regionlarda istehsal olunan məhsulun toplanması, daşınması və ixracı üzrə logistik funksiyanı yerinə yetirmək.
- İdxal olunan məhsulun boşaldılması və paylanması üzrə logistik funksiyanı yerinə yetirmək.
- Beynəlxalq daşımaları həyata keçirən avtonəqliyyat vasitələrinə, habelə ölkədə fəaliyyət göstərən daşıyıcıların avtonəqliyyat vasitələrinə texniki qulluq göstərilməsini və onların təmirini həyata keçirmək.
- Beynəlxalq daşımaları həyata keçirən sürücülərin iş və istirahət rejiminə riayət edilməsini və onların istirahət vaxtı avtonəqliyyat vasitələrinin zəmanətli qorunmasını təmin etmək.
- Yolda sıradan şıxmış avtonəqliyyat vasitələrinə yerində texniki yardım göstərmək və ya onları logistika mərkəzinə təxliyyə etmək. Sıradan çıxmış dartıcıların yerinə digər dartıcılar vermək, yüklərin çatdırılmasında fasilələri minimumlaşdırmaq.
- Beynəlxalq daşımaları həyata keçirən avtonəqliyyat vasitələrini lazımi ehtiyat hissələri, ləvazımatlar və materiallarla təmin etmək.
- Taxoqrafların diaqnostikasını, təmirini və plomblanmasını təmin etmək.
- Ölkədə fəaliyyət göstərən daşıyıcıların məsul şəxslərinin və sürücülərin maarifləndirilməsini, onların peşəkar səriştəsinin artırılmasını təmin etmək.
- Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin filialı rolunda onun funksiyasını regionlar üzrə həyata keçirmək və s.

Digər istehsal və xidmət müəssisələri ilə müqayisədə logistika mərkəzinin işinin səmərəliliyi, onun əlverişli coğrafi məkanda yerləşməsi ilə şərtlənir. Bu səbəbdən logistika mərkəzi yaradılarkən onun imkan daxilində əlverişli coğrafi məkanda yerləşdirilməsinə və xidmət göstərəcəyi məntəqələrə yaxın olmasına xüsusi diqqət yetirilir. Ümumiyyətlə, müəssisənin ərazidə əlverişli koordinatlarda yerləşdirilməsi optimallaşdırma nəzəriyyəsinin klassik məsələlərindən biri hesab olunur. Qabarıq çoxluqda bu tip məsələlərin həlli müəyyən optimallıq meyarını ifadə edən funksiyanın şərtsiz ekstremumunun hesablanmasına əsaslanır. "Veber məsələsini" buna misal göstərmək olar (müəyyən ərazidəki istehsalat müəssisələrinə xidmət edəcək anbarın yerinin təyin olunması haqda metod) (Luc-Normand Tellier, 2010). Bu məsələdə anbarın yerini ifadə edən elə nöqtənin (məntəqənin) tapılması tələb olunur ki, həmin nöqtədən müstəvi üzərində yerləşən sonlu sayda obyektlərə malların çatdırılmasına və onlara göstərilən xidmətlətrə çəkilən xərclər minimum olsun. Veber məsələsinə əsasən, anbarın yerinin müəyyənləşdirilməsi zamanı vahid yükün eyni bir məsafəyə daşınmasına çəkilən xərcin hər bir istehlak müəssisəsi üçün müxtəlif olması da nəzərə alınmalıdır. Bu baxımdan Veber məsələsinin həlli üçün anbarın axtarılan yeri paramertləşdirilir (ərazi ilə bağlı daxil edilmiş düzbucaqlı koordinatlar parametr olaraq götürülür). Ayrı-ayrı məntəqələrə (müəssisələrə) daşınma xərclərinin cəmini (koordinatlarından asılı olaraq) ifadə edən məqsəd funksiyası qurulur. Məsələnin həlli məqsəd funksiyanın minimumu kimi hesablanır.

Məsələnin baxıldığı çoxluq (zona, ərazi) mürəkkəbləşdikcə, yeni yanaşmalara ehtiyac duyulur. Məsələn, (Забудский, Г.Г., 2014)-də Veber məsələsinin baxıldığı çoxluq qabarıq çoxluqdan düzbucaqlı zonaların çıxarılması ilə alınan oblastdan ibarətdir. Bu tip tədqiqatlar çox zaman nəzəri xarakter daşıyır. Real yerləşdirmə məsələləri konkret coğrafi məkanla bağlı olur. İstər təchizat anbarı, istərsə də istehlak məntəqələri uyğun infrastruktur üzərində diskret nöqtələrdə verilir. Ona görə də diskret yerləşdirmə məsələsinə qraf üzərində baxılır (Панюков, А.В., 2014). Məntəqələr arasında

məsafə və daşıma xərcləri cədvəl şəklində verilir. Diskret yerləşdirmə məsələnin həlli zamanı, ənənəvi olaraq, aşağıdakı yanaşmalardan biri tətbiq edilir:

- Bütün mümkün variantların hesablanması ilə anbarın optimal yerinin təyin olunması. Bu halda anbarın yerləşdirilməsi məqsədilə təklif olunan yerdən daşınmaların həyata keçirilməsinə çəkilən ümumi xərcin məqsəd funksiyası qurulur. Bu funksiyanın sonlu sayda müxtəlif yerlərə uyğun qiymətləri hesablanaraq, onlar içərisindən əlverişli olanı seçilir. Bu cür yanaşma o zaman tətbiq olunur ki, baxılan diskter yerləşmə məntəqələrinin sayı az, məqsəd funksiyası isə sadə olsun.
- Məqsəd funksiyası mürəkkəb olduqda anbarın optimal yerinin tapılması üçün evristik yanaşmanın tətbiq edilməsi. Bu yanaşmanın mahiyyəti ondan ibarətdir ki, digər məntiqi mülahizələr əsasında mümkün həllər çoxluğundan uyğun olmayan (qəbuledilməz) variantları çıxarmaqla tam hesabatı az sayda məntəqə üçün həyata keçirirlər.
- Məqsəd funksiyasının xüsusiyyətləri imkan verirsə, anbarın yerinin optimal təyinolunma məsələsinin riyazi üsulların tətbiqi ilə həll edilməsi. Sadə halda Veber məsələsinin həlli üçün istehlakçıların tələbatından və qrafda paylanmasından asılı olaraq "ağırlıq mərkəzinin tapılması metodu" tətbiq edilir (Лукинский, В.С.,2008, Горяинов, А.Н. и др., 2009, Гаджинский, А.М., 2004).

Hazırda elmi-texniki ədəbiyyatda baxılan həllər çoxluğunun strukturundan, daşınmaların təşkilinin xüsusiyyətlərindən və digər faktorlardan asılı olaraq müxtəlif yerləşdirmə məsələləri tədqiq olunur. Logistika müəssisələrinin yerləşdirilməsi məsələlərinə həsr olunmuş bir sıra məqalələrin qısa xülasəsi (Talıbov, Ə.M., 2021)-də verilmişdir.

Geniş fəaliyyət dairəsinə malik müəssisələrdən fərqli olaraq, baxılan logistika mərkəzinin tədavül məntəqələri və xidmət göstərdiyi ərazi əvvəlcədən məlumdur və illər keçdikcə dəyişmir. Bu isə onun işinin səmərəliliyini təmin etməklə coğrafi məkanda optimal yerləşdirilməsi məsələsinin həllinə imkan verə bilər.

Qoyulmuş məsələnin həlli zamanı aşağıdakı amillər əsas götürülə bilər:

- beynəlxalq daşımaları həyata keçirən avtonəqliyyat vasitələrinin hərəkətinin orta sürətini 50 km/saat qəbul etməklə, yollarda 3.5 – 4.5 saatdan bir logistika mərkəzi olmalıdır (təxminən hər 200 km-dən bir);
- logistika mərkəznin funksiyası terminallar tərəfindən də həyata keçirilməlidir;
- logistika mərkəz müvafiq nəqliyyat dəhlizinin bilavasitə yaxınlığında olmalıdır;
- logistika mərkəz dəmir yol stansiyalarına və hava limanlarına mümkün qədər yaxın olmalıdır;
- ölkədə fəaliyyət göstərən daşıyıcılara və iqtisadi rayonlara, habelə iri şəhərlərə mümkün qədər yaxın olmalıdır.

Logistika mərkəzinin optimal yerinin təyinolunma məsələsində bu amillərin optimal göstəricilərinin və vəzifələrin icrasının effektivliyinin təmin olunması nəzərdən keçirilməlidir.

Hesab edək ki, yaradılan logistika mərkəzi ərazidə olan infrastruktura kifayət qədər yaxındır, ehtiyac olduqda yeni yolun salınması ilə onun infrastruktura çıxışı təmin edilir və həmçinin məntəqələr arasında məsafələr məlumdur. Aşağıda bu faktorlardan çıxış edərək, logistika mərkəzinin optimal yerinin müəyyənləşdirilməsi məsələsinin riyazi qoyuluşu üçün bir yanaşma təklif olunur.

Logistika mərkəzinin yerinin təyinolunma məsələsinin riyazi qoyuluşu

Bir qayda olaraq, logistika mərkəzinin işinin səmərəli təşkili onun mövcud nəqliyyat infrastrukturu üzərində yerləşdirilməsindən asılıdır. Yuxarıda qeyd edildiyi kimi, ehtiyac olduqda, yeni yolun salınması ilə yaradılan logistika mərkəzinin mövcud infrastruktura çıxışı təmin edilə bilər. Lakin bu çıxışı reallaşdıran yolun uzunluğu daşınmaların həyata keçirilməsi zamanı qət edilən ümumi yolun uzunluğundan dəfələrlə az olmalıdır. Bu baxımdan logistika mərkəzinin optimal yerləşdirilmə məkanının təyin olunması zamanı infrastruktura çıxış yolunun uzunluğu nəzərə alınmaya bilər. Başqa sözlə, logistika mərkəzinin yerini praktik olaraq mövcud infrastrukturun üzərində hesab etmək olar.

Həmçinin qeyd edək ki, logistika mərkəzinin yerinin müəyyənləşdirilməsi zamanı təhlükəsizlik və mühafizə, habelə ərazinin coğrafiyası (sıx meşələr, ərazidə olan çaylar, göllər, dərələr, dağ silsilələri və s.) ilə bağlı məhdudiyyətlər irəli sürülə bilər (Quliyev, B., 2021). Qeyd edilən məhdudiyyətləri nəzərə almaqla logistika mərkəzinin yerləşdirilməsi üçün mümkün ərazilər (çoxluqlar) təyin olunur. Lakin təcrübə göstərir ki, logistika mərkəzinin digər infrastruktur

obyektlərinə yaxınlığı ilə bağlı irəli sürülən tələblər baxımından belə ərazi məhdidiyyətləri önəmli rol oynamır.

Nəzərədə tutulur ki, logistika mərkəzləri ölkənin mürəkkəb topologiyaya malik əsas yollar şəbəkəsini əhatə etməlidir. Mərkəzlərin optimal yerləşdirilməsi baxımından məsələni sadələşdirmək üçün təklif olunur ki, magistral yollar bir biri ilə kəsişə bilərlər. Lakin hesab edilir ki, bu yolların ortaq hissəsi yoxdur.

Hər bir yolun formal prioriteti müəyyənləşdirir. Optimal yerləşdirilmə məsələsi əvvəlcə daha yüksək prioritetli magistral, sonra isə növbə ilə aşağı prioritetli yollar üçün həll ediləcək.

Məsələni sadələşdirmək üçün logistika mərkəzlərinin oprimal yerləşdirilməsi məsələsinə hər bir yol üçün ayrıca baxacağıq. Hesablama nəticəsində müxtəlif magistrallara aid olan logistika mərkəzləri bir-birinə yaxın olduqda, onların əvəzində yeni logistika mərkəzinin təyin olunması qərarqəbul edən ekspert tərəfindən həll ediləcək.

Beləliklə, magistral yolları prioritetinə görə $i = 1, 2, \ldots$ kimi nömrələyək. Onların ümumi sayı və uzunluğu ölkənin mövcud yol şəbəkəsi ilə şərtlənir və məlum hesab edilir. i-ci magistralın uzunluğun $s^{(i)}$ kimi işarə edəcəyik. Hər bir magistral yolun iki uc nöqtəsi (əvvəli-sonu) var. Bu nöqtələrdən birini başlabğıc nöqtə kimi qəbul etmək olar. Baxılan magistral üzrə infrastruktur məntəqələrinin yerini bu başlabğıc nöqtədən olan məsafə kimi təyin edəcəyik.

Magistralın heç olmasa bir uc nöqtəsində ölkə ərazisindən çıxış məntəqəsi olarsa belə yollar çoxluğunu K ilə işarə edək. Əgər, yolun hər iki ucu ölkə daxilindədirsə, belə yollar çoxluğunu V kimi işarə edək.

Hesab olunur ki, yollar üzərində müxtəlif tip infrastruktur obyektləri mövcuddur. Baxılan logistika mərkəzlərinin fəaliyyətində oynadığı rola görə müxtəlif tip infrastruktur obyektləri bir birindən fərqlənir. İnfrastruktur obyektlərinin müxtəlif tiplərini fərqləndirmək üçün onlara aid məlumatlarda aşağıdakı kimi $j = 1, 2, \ldots, m$ indeksini tətbiq olunacaq. Burada m müxtəlif tip infrastruktur obyektlərinin ümumi sayıdır.

1 – terminallar,

2 – fəaliyyət göstərən daşıyıcılar,

3 – dəmir yol stansiyalarını,

4 – hava limanlarını,

5 – yolların kəsişmə nöqtəsi və s.

j-ci tip infrastruktur obyektinin vaciblik yaxud əhəmiyyətlilik dərəcəsi ekspert rəyi əsasında müəyyən olunan $w_j > 0$ çəki əmsalları ilə müəyyən olunacaq. Hesab olunur ki, bu əmsallar müəyyənləşdirilib və məlumdur.

i-ci magistral boyunca yerləşən j-ci tip infrastruktur obyektinin başlanğıc nöqtədən olan məsafəsini $R_{j,k}^{(i)}$ kimi işarə edək, $k = 1, 2, \ldots k_j$. Burada k_j bu tip infrastruktur obyektlərinin ümumi sayıdır.

Baxılan i-ci magistral üzrə k nömrəli logistika mərkəzlərinin hesablanması nəzərdə tutulan yerinin başlanğıc nöqtədən olan məsafəsini $x_k^{(i)}$ kimi işarə edək, $k = 1, 2, \ldots$.

i-ci magistral üzrə daşımaları həyata keçirən avtonəqliyyat vasitələrinin orta hərəkət sürətini $v^{(i)}$ ilə işarə edək.

Sürücülərin iş və istirahət vaxtı barədə beynəlxalq normalara uyğun olaraq, onlar müntəzəm olaraq istirahət etməlidirlər. Bu istirahətin logistika mərkəzlərində həyata keçirilməsini nəzərə alaraq, onlar arasında məsafə üçün məhdudiyyətlər daxil edilir. Həmin tələblərə uyğun olaraq logistika mərkəzləri arasında məsafənin tənzimlənməsi

$$3.5 \cdot v^{(i)} \le \left| x_k^{(i)} - x_{k+1}^{(i)} \right| \le 4.5 \cdot v^{(i)}, \qquad (1)$$

bərabərsizliyi ilə verilə bilər.

$x_k^{(i)}$ kəmiyyətlərin optimal qiymətini hesablamaq üçün baxılan mağistralın K və ya V çoxluğuna aid olmasından asılı olaraq müxtəlif modellər tətbiq olunur.

Hesab olunur ki, ölkəyə giriş və çıxış məntəqələrindən ən çoxu S məsafədə mütləq logistika mərkəzi olmalıdır, burada S ekspert rəyi ilə müəyyən olunan ədəddir.

Tutaq ki, magistral K çoxliğuna aiddir. Bu zanman onun hər bir uc nöqtəsinin sərhəd olması

halına baxmaq olar. Fərz edək ki, magistralın başlanğıc nöqtəsi sərhəd nöqtəsidir. Onda bu magistral üzrə ilk logistika mərkəzinin yerini təyin etmək üçün aşağıdakı şərtləri irəli sürmək olar:

$$0 \le x_1^{(i)} \le S, \quad 2)$$

$$\sum_{j=1}^{m}\left(w_j \sum_{k}\left|x_1^{(i)} - R_{j,k}^{(i)}\right|\right) \to min. \quad 3)$$

(3) minimumu yalnız o infrastruktur obyektləri üzrə hesablanır ki, onlar üçün $R_{j,k}^{(i)} \le D^{(i)}$ olsun. Burada $x_k^{(i)}$ və $x_{k+1}^{(i)}$məntəqələri arasında hərəkət edən avtovəqliyyat vasitəsinin yolun birinci yarısında texniki ehtiyac olduqda $x_k^{(i)}$ məntəqəsinə yaxın infrastruktur obyektlərinə, yolun ikinci yarısında isə $x_{k+1}^{(i)}$ məntəqəsinə yaxın infrastruktur obyektlərinə üz tutacağını nəzərdə alaraq $D^{(i)} = 2 \cdot v^{(i)}$ götürülür.

(3) funksionalının forması məsələnin tələblərinə uyğun olaraq, magistralın baxılan hissində hər bir tip üzrə yaxın infrastruktur obyektlərinə qədər məsafələr cəminin çəkili cəmi kimi təyin olunmasına əsaslanır.

Yuxarıda deyildiyi kimi əgər magistralın son nöqtəsi sərhəd-keçid məntəqəsidirsə, onda bu magistral üzrə son logistika mərkəzinin yerini təyin etmək üçün (2) şərti aşağıdakı bərabərsizliklə əvəz olunur:

$$0 \le s^{(i)} - x_{k_0}^{(i)} \le S. \quad 4)$$

(3) şərtinin analoqu isə aşağıdakı şəkildə yazılır:

$$\sum_{j=1}^{m}\left(w_j \sum_{k}\left|x_{k_0}^{(i)} - R_{j,k}^{(i)}\right|\right) \to min. \quad 5)$$

Bu halda yalnız o infrastruktur obyektlərinə baxılır ki, onlar üçün $\left(s^{(i)} - R_{j,k}^{(i)}\right) \le 2 \cdot v^{(i)}$ bərabərsizliyi ödənsin.

Faktik olaraq (1)-(4) şərtləri baxılan magistral üzrə yerləşdirilməsi nəzərdə tutulan logistika mərkəzlərinin sayını hesablamağa imkan verir, bu say yuxarıda k_0 kimi işarə edilmişdir.

Magistralın V çoxluğuna aid olduqda, həmçinin K çoxluğuna aid magistralın uc nöqtələrinə yaxın logistika mərkəzlərinin yeri təyin olunduqdan sonra digərlərini yerinin hesablanması üçün (1) şərtləri daxilində aşağıdakı funksionalın minimal olması tələb oluna bilər:

$$\sum_{j=1}^{m}\left(w_j \sum_{k}\left|x_k^{(i)} - R_{j,k}^{(i)}\right|\right) \to min. \quad 6)$$

Məsələnin həll sxemi

Qoyulmuş məsələyə qərarqəbuletməyə yardım sistemi kimi baxılır. Məsələnin həll alqoritmini aşağıdakı kimi vermək olar.

Əgər yol K qrupuna aiddirsə, uc nöqtələrinə yaxın logistika mərkəzlərinin koordinatları (2)-(5) məsələlərindən təyin edilir. Bu mərkəzlər arasında məsafə asanlıqla hesablana bilər.

Baxılan yol V qrupuna daxildirsə yolun məlum uzunluğundan çıxış edərək digər logistika mərkəzləri baxılan yol hissəsində bib-birindən $4 \cdot v^{(i)}$ məsafədə müntəzəm yerləşdirilir. Alınmış yerləşmə variantı növəti addımlar üçün başlanğıc iterasiya hesab olunur.

Növbəti iterasiyada verilmiş k üçün (1) - (6) məsələsi həll edilir. Beləliklə, magistral üzrə təyin olunmuş birinci logistika mərkəzindən başlayaraq, növbəti logistika mərkəzilərinin optimal yeri hesablanır.

Qeyd edək ki, iterasiyalar nəticəsində mərkəzlərin sayı ilkin hesablanmış k_0 sayından fərqli ola bilər. Bu halda ekspert qərarı ilə logistika mərkəzlərinin sayı dəyişdirilə bilər.

Nəticə

- Yollar sisteminin mürəkkəb topologiyaya malik olmasını nəzərə alaraq ölkə magistralları üzrə logistika mərkəzinin optimal yerinin təyin olunması məsələsinin həlli üçün bir-biri ilə kəsişən yollara ayrı-ayrılıqda baxmaq təklif olunmuşdur;
- Hər bir yol üçün logistika mərkəzinin optimal yerinin təyin olunması məsələsinin riyazi modeli qurulmuş, onun iterativ həll alqoritmi verilmişdir;
- Hesablama nəticəsində müxtəlif magistrallara aid olan logistika mərkəzləri bir-birinə yaxın olduqda, onların əvəzində yeni logistika mərkəzinin təyin olunması məsələsi qərarqəbul edən ekspertə həvalə edilmişdir.

Ədəbiyyat siyahısı

1. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı: [Electronic resource], Baku, (2016).

URL: http://www.e-qanun.az/framework/34254 [In Azerbaijani: Decree of the President of the Republic of Azerbaijan "On Approval of Strategic Roadmaps for the National Economy and Key Sectors of the Economy"].

2. Əhmədov, H.M., Nəcəfov, E.M., Kərimov, B.Ə. və b. Nəqliyyat strukturunda logistikanin kompleks təminati, Monoqrafiya, Bakı, MAA-nın Poliqrafiya Mərkəzi, (2018), 274 p. [In Azerbaijani: Comprehensive logistics support in the transport structure, Monograph, N.M. Ahmadov, E.M. Najafov, B.A. Kerimov et al., Baku, Printing Center of MAA].

3. Luc-Normand Tellier, The Weber Problem: Solution and Interpretation, Geographical Analysis, State Ohio USA. 3 No.4 (2010) pp.215-233.

4. Забудский, Г.Г., Веремчук, Н.С. Решение задачи Вебера на плоскости сминимаксным критерием и запрещенными зонами, Известия Иркутского государственного университета, Серия «Математика», Иркутск. No.9 (2014) pp.10-25. [In Russian: G.G. Zabudskiy, N.S. Veremchuk, Solution of the Weber problem in the plane with the minimax criterion and forbidden zones, Bulletin of Irkutsk State University, Series "Mathematics", Irkutsk].

5. Панюков, А.В., Шангин, Р.Э. Точный алгоритм решения дискретной задачи Вебера для k-дерева, Дискретный анализ и исследование операций, Новосибирск. 21 No.3 (2014) pp.64-75. [In Russian: A.V. Panyukov, R.E. Shangin, An exact algorithm for solving the discrete Weber problem for a k-tree, Discrete analysis and operations research, Novosibirsk].

6. Лукинский, В.С. Модели и методы теории логистики: Учебное пособие. 2-е изд. СПб.: Питер, (2008) 448 p. [In Russian: Models and methods of logistics theory: Textbook, 2nd ed. Ed. V.S. Lukinsky, St. Petersburg, Piter].

7. Горяинов, А.Н., Ольхова, М.В., Современные методы и модели транспортного обслуживания логистических систем, Вісник Національного технічного університету «ХІІІ». Збірник наукових праць, Тематичний випуск: Нові рішення в сучасних технологіях, Харків. No.8 (2009) p.51-58. [In Russian: A.N. Goryainov, M.B. Olkhova, Modern methods and models of transportation services for logistics systems, Bulletin of the National Technical University "XIII", Collection of scientific papers. Thematic issue: New solutions in modern technologies, Kharkiv].

8. Гаджинский, А.М., Выбор места расположения склада, Справочник экономиста, Москва. No.8 (2004) pp. 47-55. [In Russian: A.M. Hajinski, Choosing a warehouse location, Spravochnik ekonomista, Moscow].

9. Talıbov, Ə.M. Azərbaycan Respublikası Silahlı Qüvvələrində avtotexniki təminatın logistikası, Milli təhlükəsizlik və hərbi elmlər üzrə elmlər doktoru dissertasiyası, Bakı, (2021) 388 p. [In Azerbaijani: A.M. Talibov, Logistics of automotive support in the Armed Forces of the Republic of Azerbaijan, Dissertation for a degree of Doctor of Sciences in National Security and Military Sciences, Baku].

10. Quliyev, B. Qoşunlarda logistika mərkəzinin yerinin təyin edilməsi ilə bağlı əsas amillərin tədqiqi, Milli Təhlükəsizlik və Hərbi Elmlər, Bakı. No.1 (2021) pp.60-66. [In Azerbaijani: B. Guliyev, Study of the main factors related to the location of the logistics center in the troops, National Security and Military Sciences, Baku].

LOGİSTİK PRİNSİPLƏRƏ ƏSASLANARAQ AVTOMOBİL YOLLARI İLƏ YÜK DAŞIMA SİSTEMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

ZABİT ASLANOV
Azərbaycan Universiteti (AU)
İqtisadiyyat və İdarəetmə fakültəsi
aslanov.zabit@mail.ru
BAKI, AZƏRBAYCAN

NAMİQ HƏMİDOV
Azərbaycan Memarlıq və İnşaat Universiteti (AMİU)
namikhamidov@gmail.com
BAKI, AZƏRBAYCAN

SAMİRƏ MƏHƏRRƏMOVA
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
samiramaharramova@gmail.com
BAKI, AZƏRBAYCAN

Xülasə

İşdə magistral yükdaşıma sisteminin elementi kimi təqdim olunur ki, bu da seçilmiş meyara uyğun olaraq nəqliyyat-logistika məkanının daim dəyişən mühitində onun iqtisadi səmərəliliyini artıracaq - material axınının təşviqi üçün ümumi xərcləri azaldılmasına baxılır. Avtomobil nəqliyyatı ilə yüklərin çatdırılması üçün logistika sistemlərinin təkmilləşdirilməsinin nəzəri və metodoloji əsasları, yüklərin daşınması ilə bağlı xərcləri azaltmağa imkan verən səmərəli idarəetmə elementi kimi logistikadan istifadənin əsaslandırılmasından ibarətdir. Onlar yol işlərinin vaxtının və prioritetinin hesablanması üçün elmi əsaslandırılmış metodların mövcudluğu, yüklərin daşınması ilə məşğul olan müəssisələrin logistika inteqrasiyası, material və müşayiət olunan axınların strukturu və həcmi, habelə logistikanın formalaşması ilə fərqləri araşdırılır.

Sistem elementlərinin hər biri öz xüsusiyyətləri ilə qiymətləndirilir. Xidmət aparatının xarakterik xüsusiyyəti onun ötürmə qabiliyyətidir (μ) - vaxt vahidinə xidmət edilən tələblərin sayı.

Avtomobil yolu ilə yükdaşıma sisteminin elementlərinin hər bir qarşılıqlı əlaqəsi xidmət aparatının ötürmə qabiliyyətinin özünəməxsus xüsusiyyətləri ilə xarakterizə olunur:

μ (yol xidməti – avtonəqliyyat vasitələri) – yol təşkilatlarının balansında olan müxtəlif yol xidməti obyektlərinin (nəqliyyat vasitələrinin qısamüddətli dayanması üçün yerlər, nəqliyyat vasitələri üçün dayanacaq olan istirahət yerləri, qəza-xilasetmə qurğuları və s.) tutumu;

μ (təchizatçı – nəqliyyat vasitələri) – yol kənarındakı müxtəlif xidmət obyektlərinin (motellər, mehmanxanalar, xidmət stansiyaları, yanacaqdoldurma məntəqələri, qida, rabitə, tibbi yardım və s.) tutumu;

μ (yol xidməti – təchizatçı) – material axını marşrutu üzrə yol şəbəkəsinin tutumu;

Daha əvvəl qeyd edildiyi kimi, göstərilən əlaqələr resursların itkisi ilə əlaqələndirilir ki, bu da ikinci mərhələdə saxlanılmasını tələb edir. Üstəlik, bu cür sorğuların axını resursdan - müvafiq istiqamətin ötürmə qabiliyyətindən artıq olarsa, birinci mərhələdə xidmətin keyfiyyət göstəricisi azalır.

Açar sözlər: logistika axını; nəqliyyat xərcləri; təchizat zənciri; avtomobil nəqliyyatı; iqtisadi təhlil; logistik prinsip.

Summary

It is presented in the work as an element of the highway freight transportation system, which will increase its economic efficiency in the ever-changing environment of the transport-logistics space according to the selected criterion - reduction of total costs for promotion of material flow is considered. The theoretical and methodological basis of the improvement of logistics systems for the delivery of goods by road transport consists in the justification of the use of logistics as an effective management element that allows to reduce costs related to the transportation of goods. They examine the existence of scientifically based methods for calculating the time and priority of road works, the

logistics integration of enterprises engaged in the transportation of goods, the structure and volume of material and accompanying flows, as well as the formation of logistics.

Each of the system elements is evaluated by its own characteristics. A characteristic feature of the service hardware is its throughput (μ) - the number of requests served per unit of time.

Each interaction of the elements of the road freight transport system is characterized by its own characteristics of the transmission capacity of the service equipment:

μ (road service - motor vehicles) - the capacity of various road service facilities (places for short-term parking of vehicles, rest areas with parking for vehicles, emergency rescue facilities, etc.) on the balance sheet of road organizations;

μ (supplier – vehicles) – capacity of various roadside service facilities (motels, hotels, service stations, gas stations, food, communication, medical assistance, etc.);

μ (road service – supplier) – road network capacity along the material flow route;

As mentioned earlier, the indicated relationships are associated with the loss of resources, which requires maintenance in the second stage. Moreover, if the flow of such requests exceeds the resource - the bandwidth of the corresponding direction - the quality of service indicator decreases in the first stage.

Keywords: logistics flow; transportation costs; supply chain; car transport; economic analysis; logistic principle.

Giriş

Problemin formalaşdırılması. Yüklərin, o cümlədən beynəlxalq daşımalarda daşınma xərclərinin azaldılması ölkənin nəqliyyat kompleksinin inkişafında dövlət siyasətinin əsas istiqamətlərindən biridir və bu, avtomobil nəqliyyatı ilə yüklərin daşınmasının səmərəliliyinin artırılması tələblərini müəyyən edir. Yüklərin daşınmasının təkmilləşdirilməsi mürəkkəb çoxparametrli məsələdir və hazırda nəqliyyat logistikasının öyrənilməsi obyektidir.

Daşıma marşrutlarının müəyyən edilməsi, çatdırılma sistemlərinin formalaşdırılması, logistika sistemlərinin və logistik mərkəzlər şəbəkəsinin inkişafı məsələlərinə həmişə artan diqqət yetirilmişdir. Eyni zamanda, avtomobil nəqliyyatı prosesinin infrastruktur komponenti praktiki olaraq tədqiqatçıların və təcrübəçilərin nəzərindən kənarda qalır ki, bu da avtomobil yollarının modernləşdirilməsi və ölkənin nəqliyyat-logistika sisteminin inkişafı problemlərinin yüksək ixtisaslaşmış və təcrid olunmuş həllinə gətirib çıxarır (Зак, Ю. А. 2017). Avtomobil nəqliyyatı ilə yüklərin daşınması sistemlərinin inkişafı üçün vacib praktiki vəzifələr hazırda qeyri-rəsmi olaraq qalır: avtomobil yolu ilə nəqliyyat axınına xidmət prosesinin əsas xüsusiyyətlərinin seçilməsi, nəqliyyat və istismar vəziyyətinin qarşılıqlı təsiri parametrlərinin qiymətləndirilməsi və qurulması. avtomobil yollarının və nəqliyyat axınlarının tərkibi və intensivliyi, avtomobil yollarının müasirləşdirilməsi üçün yol işlərinin aparılması üçün optimal proqramın formalaşdırılması (Колодізєва, Т. О. 2012). Təkcə nəqliyyat xərclərinin deyil, həm də logistika xərclərinin bir hissəsinin azaldılmasına təsir göstərə bilən tərəf kimi, yol sektoru nöqteyi-nəzərindən yükdaşıma sistemlərinin inkişafı problemləri ilə bağlı heç bir baxış yoxdur. İqtisadiyyatın hazırkı vəziyyəti bizi avtomobil nəqliyyatı ilə yüklərin daşınması sisteminin inkişaf etdirilməsi probleminə logistika nöqteyi-nəzərindən baxmağa vadar edir ki, bu da ayrı-ayrı elementləri vahid sistemdə birləşdirməyə kompleks yanaşma yolu ilə artıma nail olmağa imkan verir.

Nəşr mövzusu üzrə tədqiqatın təhlili. Logistika sistemlərinin layihələndirilməsi və inkişafı problemləri bir çox xarici və yerli alim və mütəxəssislərin tədqiqatlarında öz əksini tapmışdır.

Son illərin elmi işlərində logistika prinsiplərinin tətbiqi qlobal yükdaşımaları çərçivəsində mürəkkəb texniki sistem kimi avtomobil yolu ilə yükgöndərən və qəbul edənlərlə yol xidməti arasında qarşılıqlı əlaqə probleminə kompleks yanaşmağa imkan verir (Т. Р. Терешкина 2011).

Məqsəd: Elmi işdə ölkənin nəqliyyat-logistika sisteminin formalaşması proseslərinin elmi təminatının tərkib hissəsi kimi avtomobil nəqliyyatı ilə yüklərin çatdırılması üçün logistika sistemlərinin təkmilləşdirilməsinin nəzəri və metodoloji əsaslarının işlənib hazırlanması və uyğunlaşdırılmasını nəzərdən keçirmək lazımdır. İşin əsas məqsədi malların avtomobil nəqliyyatı ilə çatdırılması üçün logistika sistemlərinin təkmilləşdirilməsi üçün nəzəri və metodoloji əsasların işlənib hazırlanması və sosial yönümlü bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılmasıdır. Bu məqsədə çatmaq üçün avtomobil yolu yükdaşıma sisteminin bir elementi kimi təqdim olunur ki, bu da onun

istismarının səmərəliliyinə mühüm təsir göstərir. Magistral yolda nəqliyyat vasitələrinin hərəkətinin mahiyyətini logistika nöqteyi-nəzərindən təhlil etmək, yol şəraiti ilə logistika nəqliyyat axınları arasındakı əlaqəyə diqqət yetirmək və https://translate.google.md/contribute ilə riyazi aparatdan istifadə etməklə onu təkmilləşdirmək növbə nəzəriyyəsi nəzərdə tutulur.

Metodologiya. Sistemlərin fəaliyyətinin idarə edilməsi nəzəriyyəsi sistem daxilində əlaqələrin rəsmiləşdirilməsini tələb edir. Mahiyyətinin keyfiyyət və kəmiyyət xarakteristikası aparılmış və avtomobil nəqliyyatı ilə yüklərin daşınması sistemində elementlərin qarşılıqlı təsirinin qanunauyğunluqları müəyyən edilmişdir. Avtomobil yolunun nəqliyyat təminatında rolu və onun istismarı zamanı nəqliyyat-logistika məkanının yolun özünə təsiri aydınlaşdırılır. Bu mövzu öyrənilərkən sistematik yanaşmadan, ümumiləşdirmə və rasional problem həlli üsullarından, növbə nəzəriyyəsindən istifadə edilmişdir (В. В. Багинова 2016). Avtomobil yollarının fəaliyyətini logistika nöqteyi-nəzərindən idarə edərkən, magistral yollarla logistik nəqliyyat axınlarına xidmət göstərilməsi prosesinin əsas xüsusiyyətlərini tapmaq vacibdir. Onların qarşılıqlı əlaqəsinin təbiəti bizə avtomobil yolunu müxtəlif fasilələrlə və ya müntəzəm olaraq hərəkət edən nəqliyyat vasitələrindən, daimi və ya təsadüfi müddətdə müxtəlif texniki xidmət əməliyyatlarına məruz qalan yol şəraitinə tələblərin qəbul edildiyi bir sistem kimi nəzərdən keçirməyə imkan verir. Beləliklə, magistral xidmət aparatı, yol şəraitinin təmin edilməsi prosesi - logistika nəqliyyat axınlarına xidmət prosesi kimi qəbul edilir və növbə sisteminin riyazi aparatı bu elementlərin qarşılıqlı təsirini idarə etmək üçün tətbiq olunur (şək. 1).



Şəkil 1. Növbə sistemi kimi avtomobil yolu ilə yükdaşıma sisteminin elementlərinin qarşılıqlı əlaqəsinin blok diaqramı (Матюшин, Л. Н. 2016).

Magistral yolun istismarı (fəaliyyəti, istismarı) zamanı təchizatçılar (yükgöndərənlər), nəqliyyat vasitələrinin sahibləri, istehlakçılar (yük alanlar) və logistika təminatçıları üçün özünəxidmət baş verir. Bu proses, bir qayda olaraq, maddi bazanın aşınması və ya müxtəlif növ resursların istehlakı səbəbindən onun bütün iştirakçılarının müəyyən xüsusiyyətlərinin azalmasına səbəb olur (Матюшин, Л. Н. 2016).

Aşınma yol infrastrukturunun əsas fondlarının obyekti kimi avtomobil yolunun özünün nəqliyyat-istismar xüsusiyyətlərinin itirilməsini və avtonəqliyyat müəssisələrinin əsas vəsaitlərinin obyekti kimi nəqliyyat vasitələrinin texniki keyfiyyətlərinin azalması ilə xarakterizə olunur.

Resurs sərfiyyatı nəqliyyat vasitəsini idarə edərkən yanacağın istifadəsi, görülən işə görə sürücüyə əmək haqqının ödənilməsi və yorğunluq səbəbindən itirilmiş məhsuldarlığın bərpasına görə kompensasiya, nəqliyyat vasitəsinə mümkün texniki xidmət xərcləri, yükün marşrut boyunca yönləndirilməsi və s. Material axınlarının formalaşmasına və fəaliyyətinə kömək edən nəqliyyat-logistika məkanının mühiti əsasən mənfi təsir göstərir (məsələn, nəqliyyatın intensivliyinin artması yol örtüyünün yuxarı təbəqələrinin vəziyyətinin pisləşməsinə səbəb olur) xidmət prosesinin xarakteri və xidmət aparatının funksional parametrləri. Sistem parametrlərinin təkmilləşdirilməsi yol xidməti (yolun nəqliyyat və istismar keyfiyyətlərinin normativ tələblərə uyğunlaşdırılması) və logistika

təminatçılarının (daşıma marşrutlarının optimallaşdırılması, malların xüsusiyyətləri nəzərə alınmaqla rasional daşıma üsullarının seçilməsi və s.) fəaliyyəti ilə təmin edilir), sistemin bütün elementlərində resursların istehlakını kompensasiya edən.

Xidmət aparatının köhnəlməsi və nəqliyyat-logistika məkanının dəyişən mühitində özünəxidmət prosesi kortəbii şəkildə baş verərsə, sistem parametrlərinin bərpasına nəzarət mümkündür. Belə şəraitdə yolkənarı xidmət obyektləri nəqliyyat vasitələrinin ehtiyatlarını artırır, logistika xidmətlərinin geniş spektri təchizatçıların xərclərini optimallaşdırır, yol xidməti və logistika provayderlərinin birgə işi logistik nəqliyyat axınının işini rasionallaşdırır (yol xidməti - təhlükəsiz sürmənin təmin edilməsi). Şərtlər, logistika təminatçıları - material axınlarının hərəkət istiqamətinə uyğun olaraq nəqliyyat axını formalaşdırmaq). Bundan əlavə, yol xidməti xidmət aparatının yüksək nəqliyyat-istismar xüsusiyyətlərinə (optimal yol şəraiti), il boyu cari təmir, əsaslı təmir və yolların yenidən qurulmasına cavabdehdir (С. Е. Кравченко 2013, P. Isaac 2017).

Elmi yenilik: Magistral yol material axınlarının yaradılması və idarə olunmasının vahid ayrılmaz prosesində bir əlaqə kimi təmsil olunur. Yol elementlərinin formalaşdırılması və altsistemlərin nəqliyyat komponentlərinin daha sonra yollarla yüklərin daşınması üçün vahid sistemə inteqrasiyası təklif olunur. Sistem elementlərinin qarşılıqlı əlaqələri dağınıq iki mərhələli növbə sistemi şəklində rəsmiləşdirilir. Sistemin hər bir elementi öz xüsusiyyətləri ilə qiymətləndirilir. Müəyyən edilmişdir ki, milli nəqliyyat-logistika sisteminin formalaşması və inkişafı şəraitində istər ölkədaxili, istərsə də beynəlxalq təchizat zəncirlərində avtomobil yollarının rolunun və yerinin müəyyənləşdirilməsinə və onlara nöqteyi-nəzərdən baxılmasına ehtiyac vardır. Yük, nəqliyyat və materialı vahid bir bütövlükdə birləşdirən müasir texnologiyalar, informasiya və maliyyə axınları. Magistral yollar maddi axınların yaradılması və idarə olunmasının vahid ayrılmaz prosesində mühüm və zəruri həlqədir.

Yol və nəqliyyat komponentlərinin elementlərindən, yollarda yüklərin daşınması üçün vahid sistemə sonrakı inteqrasiya ilə alt sistemlər formalaşır ki, bu da bütün sistemin etibarlı və səmərəli işləməsinin təmin edilməsində hər bir elementin rolunu müəyyən etməyə və qiymətləndirməyə imkan verir.

Praktik əhəmiyyəti: Tədqiqatın nəticələri avtonəqliyyat müəssisələrinin, istehsalın və məhsulların tədarükünə cavabdeh olan müəssisə xidmətlərinin, yol təşkilatlarının əməkdaşları tərəfindən yol iş proqramı tərtib edilərkən elmi əsaslandırılmış qərarların qəbul edilməsi və yükdaşımanın rasional təşkili üçün alternativ imkanların yaradılması üçün istifadə edilə bilər.

Nəticə

1. Magistral yolların fəaliyyətini logistika nöqteyi-nəzərindən idarə etməklə, avtomobil yolu ilə logistik nəqliyyat axınlarına xidmət göstərilməsi prosesinin əsas xüsusiyyətlərini müəyyən etmək mümkün olur. Onların qarşılıqlı əlaqəsinin təbiəti bizə avtomobil yolunu müxtəlif fasilələrlə və ya müntəzəm olaraq hərəkət edən nəqliyyat vasitələrindən, daimi və ya təsadüfi müddətdə müxtəlif texniki xidmət əməliyyatlarına məruz qalan yol şəraitinə tələblərin qəbul edildiyi bir sistem kimi nəzərdən keçirməyə imkan verir. Beləliklə, magistral xidmət aparatı, yol şəraitinin təmin edilməsi prosesi - logistika nəqliyyat axınlarına xidmət prosesi kimi qəbul edilir və növbə sisteminin riyazi aparatı bu elementlərin qarşılıqlı təsirini idarə etmək üçün tətbiq olunur.

2. Avtomobil nəqliyyatı ilə yüklərin daşınması sisteminin elementlərinin qarşılıqlı əlaqələri səpələnmiş ikipilləli xidmət sistemi şəklində rəsmiləşdirilir. Birinci mərhələdə avtomobil yolu material axınlarının hərəkəti üçün lazımi şəraiti təmin edir, ikinci mərhələdə isə hərəkət zamanı itirilmiş müxtəlif növ ehtiyatlar bərpa olunur.

3. Sistem elementlərinin hər biri öz xüsusiyyətləri ilə qiymətləndirilir. Xidmət aparatının xüsusiyyəti onun ötürmə qabiliyyətidir. Avtomobil nəqliyyatı ilə yüklərin daşınması sisteminin elementlərinin hər bir qarşılıqlı əlaqəsi xidmət aparatının ötürmə qabiliyyətinin öz xüsusiyyətləri ilə xarakterizə olunur.

4. Bu problemin həlli, seçilmiş meyara uyğun olaraq nəqliyyat və logistika məkanının daim dəyişən mühitində sistemin bütün elementlərinin qarşılıqlı əlaqələrinin səmərəliliyini artırmağa imkan verəcək - material axınının təşviqi üçün ümumi xərclərin azaldılması.

Ədəbiyyat siyahısı

1. Зак, Ю. А. Транспортная задача в условиях стохастических данных о стоимости поставки грузов / Ю. А. Зак // Логистика сегодня. – 2017. – № 2. – С. 18–27.
2. Колодізєва, Т. О. Методичне забезпечення оцінки ефективності логістичної діяльності підприємств :монографія / Т. О. Колодізєва, Г. Р. Руденко. – Харків: Вид-во ХНЕУ, 2012. – 292 с.
3. Логистика и управление цепями поставок: монография / Т. Р. Терешкина, Л. Е. Баранова, Л. В. Войнова [и др.]. – Санкт Петербург: СПбГТУРП, 2011. – 155 с.
4. Логистика: монография / В. В. Багинова [и др.]. – Москва: РУСАЙНС, 2016. – 272 с.
5. Матюшин, Л. Н. Современные проблемы логистики в транспортной сфере / Л. Н. Матюшин // Логисти ка. – 2016. – № 11. – С. 44–47.
6. Содержание и ремонт автомобильных дорог: пособие начальнику линейной дорожной дистанции и дорожному мастеру по ремонту и содержанию автомобильных дорог / С. Е. Кравченко [и др.]. – Минск: БНТУ, 2013. – 239 с.
7. Isaac, P. Shortest path problem with arc failure scenario / P. Isaac, A. M. Campbell // EURO Journal on Transportation and Logistics. – 2017. – Vol. 6. – Iss. 2. – P. 139–163. doi: 10.1007/s13676-015-0092-6.

KONTEYNER DAŞIMALARININ XÜSUSİYYƏTLƏRİ

HƏZİYEV YADULLA HƏSƏN OĞLU
Naxçıvan Dövlət Universiteti.
Memarlıq və Mühəndislik fakültəsi.
Nəqliyyat mühəndisliyi və texniki fənlər" kafedrası
yadohazi@gmail.com
NAXÇIVAN, AZƏRBAYCAN RESPUBLIKASI

AXUNDOVA GÜLŞADƏ ƏLİ QIZI
Naxçıvan Dövlət Universiteti.
Memarlıq və Mühəndislik fakültəsi.
Nəqliyyat mühəndisliyi və texniki fənlər" kafedrası
gulsade.axundova.92@mail.ru
NAXÇIVAN, AZƏRBAYCAN RESPUBLIKASI

Xülasə

Məqalədə konteyner daşımalarının ölkədaxili və beynəlxalq yük daşımalarında mühüm rol oynadığı, səmərəli və etibarlı vasitə kimi qlobal logistika infrastrukturunun ən mühüm elementinə çevrildiyi, digər daşıma növləri ilə müqayisədə bir sıra üstünlüklərə malik olduğu qeyd edilir. Qlobal ticarətin artması, rəqəmsal texnologiyaların inteqrasiyası, ekoloji dayanıqlığın artması, multimodal nəqliyyatın inkişafı və limanların modernləşdirilməsi ilə konteyner daşımalarının qlobal logistika zəncirinin mühüm halqası olduğu vurğulanır. Qeyd edilir ki, Konteyner daşımaları yükdaşıma sahəsində səmərəli və etibarlı vasitədir. Konteynerlərdə yüklərin daşınmasının həcmi günü-gündən artır. Ev əşyalarından ibarət yüklərin konteynerlərdə daşınması ən faydalı daşımalardan hesab edilir. İqtisadi cəhətdən faydalı olan konteyner daşımalarında təkcə qablaşdırma materıalları hesabına hər il külli miqdarda qənaət əldə edilir.

Açar sözlər: yük daşımaları, qlobal ticarət, rəqəmsal texnologiya, multimodal nəqliyyat, logistika zənciri, innovasiya.

Annotation

The article states that container transportation plays an important role in domestic and international cargo transportation, becomes the most important element of the global logistics infrastructure as an efficient and reliable means, and has a number of advantages compared to other types of transportation. With the increase of global trade, the integration of digital technologies, the increase of environmental sustainability, the development of multimodal transport and the

modernization of ports, it is emphasized that container transportation is an important link in the global logistics chain. It is noted that Container transportation is an efficient and reliable means of transportation. The volume of cargo transportation in containers is increasing day by day. Transportation of household items in containers is considered one of the most useful transportations. Economically beneficial container shipping results in significant annual savings on packaging materials alone.

Keywords: cargo transportation, global trade, digital technologies, multimodal transportation, supply chain, innovation.

Giriş

İnnovativ texnoloji yeniliklərin biznes mənzərəsini hər gün dəyişdirdiyi müasir dünyada konteyner daşımaları qlobal logistikanın əsas elementlərindən birinə çevrilib. Dünya miqyaslı ticarət əlaqələrinin artması və müxtəlif regional iqtisadiyyatların inteqrasiyası ilə əlaqədar konteyner daşımalarına tələb hələ də yüksək səviyyədə qalmaqda davam edir. Araşdırmalara görə, qlobal ticarətin inkişaf tempi malların daşınmasına tələbatın aktuallığlnı diqtə edir. Bunun nəticəsində konteyner daşımaları qlobal logistika infrastrukturunun ən mühüm elementindən birinə çevrilir (Азиев, Ядулла, 2024).

Konteyner daşımaları bütün dünya üzrə malların daşınması üçün səmərəli və etibarlı vasitədir. Hal-hazırda konteynerlərdə yüklərin daşınması xeyli genişləndirilmişdir. Xüsusən də, az miqdarda olan yüklərin konteynerlərdə daşınması ən faydalı daşımalardan hesab edilir. Bu daşımalar böyük iqtisadi fayda verir. Konteyner daşımalarında təkcə qablaşdırma materıalları hesabına hər il külli miqdarda qənaət əldə edilir. Yüklərin konteynerlərdə daşınması zamanı qablaşdırma xərclərini azaltmaqla daşımanın maya dəyəri xeyli azalır, vaqona orta hesabla yük vurulması yaxşılaşdırılır, yükvurma-yükboşaltma əməliyyatlarına sərf olunan vaxt azalır. Nəticədə işçi qüvvəsinə və anbar binalarına ehtiyac azalır, vaqon dövriyyəsi sürətləndirilir, adi vaxtda örtülü vaqon tələb edən yüklərin açıq vaqonlarda daşınmasına imkan yaranır. Onu da qeyd etmək lazımdır ki, konteynerlərdə yüklərin daşınması zamanı müştərilərə xidmət göstərilməsi asanlaşır, daşıma zamanı yüklərin qorunması yüksək səviyyədə təmin olunur (Азиев, Я., 2024).

Tədqiqat metodu

Konteyner daşımalarını təşkil etmək üçün konteynerlərin qəbulunu, daşınmasını və saxlanmasını təmin edən xüsusi terminallar yaradılır. Konteyner terminalları dəniz limanlarında, dəmir yolu stansiyalarında və avtomobil depolarında yerləşdirilir. Yükdaşıma ilə məşğul olan əksər iri nəqliyyat şirkətlərinin öz terminalları var ki, bu da onlara müştərilərinə yüksək keyfiyyətli və asan xidmət göstərməyə imkan verir (Şəkil 1).

Şəkil 1. Konteyner terminalları

Digər daşıma növləri ilə müqayisədə konteyner daşımaları bir sıra üstünlüklərə malikdir:

- konteynerlərin xətti ölçüləri sabit olduğundan yükvurma və yükboşaltma əməliyyatları sadələşir, istər ölkə daxilində, istərsə də beynəlxalq müstəvidə yük daşımaları müxtəlif nəqliyyat vasitələri ilə həyata keçirilməsinə imkan yaranır;
- konteynerdəki yüklərin saxlanması və qorunması yüksək səviyyədə aparılır. Konteynerin metal döşəmə, tavan və divarları yükü zədələnmə, dağılma və müxtəlıf növ deformasiyalardan qoruyur;

- yüklər dəmir yolu stansiyalarında, limanlarda və terminallarda, həmçinin müştəri anbarlarında konteynerlərdə daşınıb saxlanıldığından əlavə anbarlara ehtiyac duyulmur;
- ədədi yüklərin konteynerlərdə başqa yüklərlə bir yerdə daşınmasının mümkünlüyü hesabına daşınma xərcləri azalır;
- yükləmə - boşaltma işlərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması, aralıq anbarlara ehtiyac olmaması hesabına xeyli miqdarda qənaətə nail olunur (https://trans.rokott.ru).

Sadalanan üstünlüklərlə yanaşı konteyner daşımalarının bəzi çatışmazlıqları var:
- xüsusi yükləmə metodikası olmalıdır;
- yol xərci hər gediş - dönüş üçün hesablanır.

Yüklərin daşınması üçün istifadə edilən konteynerlər müxtəlif meyarlara görə təsnif edilir. Konteynerləri iki növə bölmək olar:
- universal konteynerlər. Belə konteynerlərdə istənilən yükləri, o cümlədən, xüsusi yükləri daşımaq mümkündür (Şəkil 2).

Şəkil 2. Universal konteynerlər

- İxtisaslaşdırılmış konteynerlər. İxtisaslaşdırılmış konteynerlərdə xüsusi şərtlərə riayət edilərək yüklər daşınır. Belə konteynerlərdə yüklərin daşınması zamanı müəyyən olunmuş saxlama şəraitini (temperatur, rütubət, təzyiq və s.) yaratmaq tələb olunur (Şəkil 3).

Şəkil 3. İxtisaslaşdırılmış konteynerlər

Bəzən konteynerləri növlərinə görə aşağıdakı kimi də təsnif edirlər:
- quru yüklər üçün nəzərdə tutulan konteynerlər;
- tunel tipli konteynerlər. (hər iki tərəfi açıq);
- diyircəkli konteynerlər;
- izotermik konteynerlər (uzunmüddətli yük daşımaları üçün);
- soyuducu konteynerlər (tez xarab olan yüklər üçün);
- çən tipli konteynerlər (maye yüklərin daşınması üçün);
- üstü açıq konteynerlər (iri ölçülü yüklərin daşınması üçün).

Çəkisinə görə konteynerlər aşağıdakı kimi təsnif edilir:
- kiçik tonajlı (2,5 tondan 5 tona qədər);
- orta tonajlı (5 tondan 10 tona qədər);
- iri tonajlı (10 tondan yuxarı).

Lakin dünya praktikasında konteynerlər üçün istinad nöqtəsi kimi futla ifadə edilmiş uzunluq götürülür. Konteynerlər 10, 20, 30, 40 və 45 fut uzunluqda hazırlanır.

Hər bir konteyner ISO 830-1981 standartlarının tələblərinə cavab verməlidir:

- təkrar istifadə üçün uyğun olan kifayət qədər davamlı materialdan hazırlanmalıdır;
- istənilən nəqliyyat növü ilə - dəniz, dəmir yolu, avtomobil (hava nəqliyyatı üçün konteynerlər istisna olmaqla) ilə daşınmağa yararlı olan xüsusi dizayna malik olmalıdır;
- bir nəqliyyat növündən digərinə tez yükləmək üçün xüsusi qurğulara malik olmalıdır;
- yüklər asanlıqla konteynerə yüklənib - boşaldıla bilinməlidir;
- ən az 1 m^3 daxili həcmi olmalıdır.

Konteyner daşımalarının aşağıdakı növləri mövcuddur:

- dəniz nəqliyyatı konteyner daşımalarının əsas növüdür. Beynəlxalq daşımalarda konteynerlər dəniz yolu ilə xüsusi gəmilərə yüklənərək təyinat limanlarına çatdırılır.
- dəmir yolu daşımaları - dəmir yolu xətləri ilə konteynerlərin daşınmasıdır. Bu daşıma üsulu uzun məsafələrə sürətli çatdırılma tələb edən yüklər üçün uyğundur. Konteynerlər adətən xüsusi platformalar və ya vaqonlar vasitəsi ilə daşınır. quraşdırılır.
- avtomobil nəqliyyatı - yük maşınlarından istifadə etməklə konteynerlərin avtomobil yolu ilə daşınmasıdır. Bu çatdırılma üsulu malların qısa məsafələrə və ya dəmir yolu və ya dəniz nəqliyyatının daxil ola bilmədiyi çətin əlçatan yerlərə çatdırılması üçün uyğundur (https://sch-logistic.ru/).

Nəticə

Rəqəmsal texnologiyalar həyatın müxtəlif sahələrinə nüfuz edir və logistika da istisna deyil. Əşyaların İnterneti (IoT), süni intellekt (AI) və blokçeynin inkişafı ilə konteyner daşımaları daha şəffaf və səmərəli olur. Bu, yükləri daha yaxşı izləməyə, marşrutları optimallaşdırmağa və logistik prosesləri idarə etməyə imkan verir. Bu texnologiyalar sayəsində şirkətlər xərcləri azalda və xidmət keyfiyyətini yüksəldə bilər.

Okeanların çirklənməsi və karbon emissiyaları da daxil olmaqla ekoloji problemlər haqqında artan məlumatlılıq ilə konteyner daşımaları ekoloji dayanıqlığı yaxşılaşdırmaq problemi ilə üzləşir. Buna cavab olaraq, şirkətlər getdikcə daha çox diqqətlərini gəmiləri gücləndirmək üçün günəş enerjisindən istifadə etmək və son mil çatdırılması üçün elektrik yük maşınlarını təqdim etmək kimi daha yaşıl nəqliyyat üsullarının inkişafına yönəldirlər.

Müxtəlif nəqliyyat növlərini (məsələn, dəniz, dəmir yolu, avtomobil və hava) birləşdirən multimodal nəqliyyat getdikcə genişlənir. Bu, tədarük zəncirlərini optimallaşdırmağa, xərcləri azaltmağa və çatdırılma müddətlərini azaltmağa imkan verir. Gələcəkdə biz multimodal nəqliyyatda daha da artım və təkmil inteqrasiya gözləmək olar. Ümumiyyətlə, konteyner daşınması perspektivi ümidverici görünür. Qlobal ticarətin artması, rəqəmsal texnologiyaların inteqrasiyası, ekoloji dayanıqlığın artması, multimodal nəqliyyatın inkişafı və limanların modernləşdirilməsi ilə konteyner daşımaları qlobal logistika zəncirinin mühüm halqası olaraq qalır. Yeni tendensiyalara və innovasiyalara fəal uyğunlaşan şirkətlər gələcəkdə konteyner daşımalarının təqdim etdiyi imkanlardan ən yaxşı şəkildə yararlana biləcəklər (https://trans.ru/).

Ədəbiyyat siyahısı

1. Азиев, Ядулла. "Особенности и преимущества перевозок автотранспорта железнодорожным транспортом." *Scientific Collection «InterConf»* 188 (2024): 385-391.

2. Азиев, Я., Велиев, С., & Наджафов, Э. (2024). Особенности контейнерных перевозок на автомобильном транспорте. *Scientific Collection «InterConf»*, (190), 259-264.

3. https://trans.rokott.ru/

4. https://sch-logistic.ru/

5. https://trans.ru/

NƏQLİYYAT SİSTEMİ TURİZM XİDMƏTLƏRİNİN İNKİŞAFININ AMİLİ KİMİ

BƏXTİYAR NAMAZOV
Bakı Mühəndislik Universiteti
Mühəndislik fakültəsi
banamazov@beu.edu.az
BAKI, AZƏRBAYCAN

Xülasə

Tədqiqat işində dünyada və Azərbaycan Respublikasında turizmin inkişafı, onun əsas istiqamətləri, ona təsir edən amillər analiz olunmuş, turizmin inkişafında nəqliyyatın iştirakı, ayrı-ayrı nəqliyyat növlərinin və nəqliyyat infrastrukturunun rolu göstərilmidir. Turizmin ölkələrin iqtisadi inkişafında, ümumi daxili məhsulda payı, onun artırılma yolları və bu aspektdə nəqliyyatın çox vacib əhəmiyyəti vurğulanmışdır. Son illərdə Azərbaycanda turizmin gerilməsinin səbəbləri təhlil olunmuş, əsas səbəbin, pandemiya və regionda gedən siyasi-hərbi proseslər, Azərbaycan sərhədlərinin pandemiyadan sonra da bağlı qalması olduğu qeyd olunmuşdur. Turizm imkanları üçün geniş imkanlara malik olan Azərbaycan üçün bunun müvəqqəti olduğu vurğulanmış, Qarabağın azad olunmasının və aparılan quruculuq işlərinin turizmə təkan verəcəyinə əminlik ifadə olunmuşdur. Tədqiqat işində, daha sonra turizmin nəqliyyat infrastrukturunun tərkib hissələri, təsnifatı, xüsusiyyətləri, funksional təyinatları verilmiş, turizmin inkişafında nəqliyyat infrastrukturunun rolu geniş təhlil olunmuşdur. Nəqliyyat növlərinin müasir dövrdə turizmdə roluna diqqət edilmiş, onların istifadə yeri və payı qeyd olunmuşdur. Ümumdünya İqtisadi Forumunun turizmin inkişafı ilə bağlı dünya ölkələrində apardığı araşdırmalara, turizmin digər xidmət sahələri ilə müqayisədə rəqabətə davamlılığının yüksəldilməsi üçün tövsiyələrinə, hava və yerüstü nəqliyyat növlərinin infrastrukturuna verdiyi qiymətə diqqət ayrılmış, turizmin inkişafı üçün hava nəqliyyatının və yerüstü nəqliyyatın infrastrukturunun vacib xüsusiyyətləri qeyd edilmişdir. Tədqiqatda verilmiş faktların təsdiqi kimi Azərbaycan Dövlət Statistika Komitəsinin və Ümumdünya Turizm Təşkilatının göstəricilərindən, internet resurslarından istifadə olunmuşdur.

Açar sözlər: turizm, turist, nəqliyyat, nəqliyyat infrastrukturu, daşıma, Ümumdünya Turizm Təşkilatı, aeroport, vağzal.

Summary

In the research work, the development of tourism in the world and in the Republic of Azerbaijan, its main directions and the factors affecting it were analyzed. The participation of transport in the development of tourism, the role of different types of transport and transport infrastructure were shown. The share of tourism in the economic development of countries, in the gross domestic product, ways of increasing it, and the very important importance of transport in this aspect were emphasized. In recent years, the reasons for the decline of tourism in Azerbaijan have been analyzed. The main reason is the pandemic and the political-military processes taking place in the region, and the fact that Azerbaijan's borders remain closed even after the pandemic. It was emphasized that this is temporary for Azerbaijan, which has wide opportunities for tourism, and confidence was expressed that the liberation of Karabakh and the ongoing construction works will boost tourism. In the research work, the components, classification, characteristics, functional designations of the transport infrastructure of tourism were given, and the role of the transport infrastructure in the development of tourism was extensively analyzed. Attention has paid to the role of the types of transport in tourism in the modern era, their place of use and their share have been noted. Attention paid to the studies conducted by the World Economic Forum in the countries of the world regarding the development of tourism, recommendations for increasing the competitiveness of tourism compared to other service areas. The value given to the infrastructure of air and ground transport types. The important features of air transport and ground transport infrastructure for the development of tourism were noted. The indicators of the State Statistics Committee of Azerbaijan and the World Tourism Organization, Internet resources were used as confirmation of the facts given in the study.

Keywords: tourism, tourist, transport, transport infrastructure, transportation, World Tourism Organization, airport, station.

Giriş

Tədqiqat işinin məqsədi müasir mərhələdə ölkənin inkişafında turizmin, turizmin inkişafında isə nəqliyyat infrastrukturunun rolunu təyin etmək, mövcud və yeni elmi yanaşmalardan istifadəylə onun inkişafı və səmərəli idarə edilməsi yollarını araşdırmaqdır. Azərbaycan geniş turizm inkişafı olan, müasir nəqliyyat infrastrukturuna malik ölkədir. Azərbaycanda son illərdə çox saylı turizm obyektləri, istirahət mərkəzləri, otellər tikilib. Azərbaycan mötəbər beynəlxalq tədbirlərin təşkilatçısıdır, 2012-ci ildə Avroviziya Mahnı Müsabiqəsinə, 2015-ci ildə Bakıda Avropa Oyunlarına, 2016-cı ildən Bakı Formula-1 üzrə Avropa Qran Prisi yarışlarına ev sahibliliyi etmiş, 2024-cü il noyabrında COP-29 Beynəlxalq ekoloji forumu Bakıda keçiriləcəkdir. Bu və digər Beynəlxalq tədbirlərlə bağlı ölkəmizə minlərlə turist gəlir. Bütün bunlar turizmin inkişafında rolu baxımından tədqiqat mövzusunun aktuallığını müəyyən edir.

Tədqiqat işində turizmin inkişaf problemləri, turizmin inkişafında nəqliyyatın rolu, turizmin nəqliyyat infrastrukturu və onun inkişaf istiqamətlərinə baxılır.

Tədqiqat metodu

Tədqiqat gedişində ümumi elmi metodlar: tarixi, məntiqi, təsnifatlaşdırma və ya sistemləşdirmə üsulları tətbiq olunub. Aparılmış elmi araşdırma zamanı istifadə olunan cədvəllər verilib.

Əsas hissə

Ölkənin və ya regionun nəqliyyat sistemləri bir-birindən müxtəlif uzaqlıqda yerləşən şəhərləri, yaşayış məntəqələrini vahid iqtisadi və sosial məkanda birləşdirərək, ilk növbədə əhalinin və müəssisələrin həyat fəaliyyətinin təmin olunmasına yönəldilir. O ictimai istifadəli nəqliyyat vasitələrini, məsələn: avtobusları, tramvayları, şəhərətrafı elektrik qatarlarını, həmçinin nəqliyyat təyinatlı obyektləri (aeroportlar, vağzallar, avtovağzallar, platformalar, dayanacaq pavilyonları) və nəqliyyat yollarını (yerüstü, yeraltı, hava) özündə birləşdirir.

Nəqliyyat sisteminin inkişafının və fəaliyyətinin strateji məqsədi nəqliyyat vasitələri ilə iqtisadi inkişafın və Azərbaycanın mövcud və gələcək nəsillərinin həyat keyfiyyətinin yüksəldilməsidir. Nəqliyyat sisteminin inkişaf məsələləri onun strateji məqsədlərinin yerinə yetirilməsinə yönəldilən, birbaşa dövlətin uzunmüddətli sosial-iqtisadi və geopolitik məqsədləri ilə bağlıdır.

Nəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi, sosial sabitliyin təmini, regionlararası əlaqələrin və milli əmək bazarının inkişafı, magistral sərnişin nəqliyyatı xidmətlərinin əlverişliliyi və etibarlılığının yüksəldilməsi əsasında mümkündür.

Dünya iqtisadiyyatına Azərbaycanın inteqrasiyası və xarici ticarətin diversifikasiyası nəqliyyat infrastrukturuna yenidən baxılmasını, Azərbaycanın tranzit ölkə kimi potensialından istifadəni, yerli daşıyıcıların rəqabət qabiliyyətinin artmasını və ixrac nəqliyyat xidmətlərinin inkişafını adekvat olaraq tələb edir.

Geopolitik vəziyyətin dəyişməsi və Azərbaycanın dünya cəmiyyətinə inteqrasiyası nəqliyyata milli təhlükəsizlik sisteminin bir elementi kimi yeni tələblər irəli sürür. Gələcək nəsillər üçün təbii ehtiyatların qorunması və yaşayış səviyyəsinin yüksəldilməsi məsuliyyəti nəqliyyat sisteminin qurulmasını stabil inkişaf prinsipləri əsasında həyata keçirməyi zəruri edir.

Turizmi fenomen, hadisə, sistem, ictimai-mədəni qarşılıqlı təsirin və birliyin yeni üsulu, mürəkkəb sahələrarası kompleks adlandırırlar. Ümumdünya Turizm Təşkilatının (UNWTO) məlumatına görə 2023-cü ildə beynəlxalq turizm pandemiyadan qabaqkı səviyyənin 88%-nə çatmışdır. 2023-cü ildə dünyada beynəlxalq daşımaların sayı 1,3 mlrd-ı keçmişdir. 2023-cü ildə Yaxın Şərq, Avropa və Afrika turizm sahəsində daha böyük irəliləyiş əldə etmişdir. İlkin hesablamalara görə 2023-cü ildə beynəlxalq turizmdən daxil olan gəlir 1,4 trln ABŞ dollarına çatmışdır. Sərnişin daşımalarından daxil olan gəlir də nəzərə alınarsa 2023-cü ildə turizmdən daxil olan gəlir 1,6 trln ABŞ dolları olmuşdur.

Turizmin birbaşa ümumi daxili məhsulu ilə ölçülən turizmin iqtisadi payı 2023-cü ildə 3,3 trilyon ABŞ dolları olmuş və dünya ÜDM-in 3%-ni təşkil etmişdir.

Turizm sənayesi dünyada 320 milyondan çox iş yeri təmin edir. WTTC-nin (World Travel and Tourism Council – Dünya Səyahət və Turizm Şurası) hesablamalarına görə, turizm sektorunda maliyyə xidmətləri sektorundan iki dəfə çox insan çalışır (https://imes.su/press-tsentr/stati/item/1675-razvitie-mezhdunarodnogo-turizma-i-ego-vliyanie-na-ekonomiku).

Hal-hazırda beynəlxalq turizmin (səyahətlər və sərnişin daşınmaları) payına xidmətlərin dünya ixracının 30%-i, malların və xidmətlərin ixracının ümumi həcmində isə 6%-i düşür. İxracat kateqoriyası kimi turizm yanacağın, kimyəvi preparatların və qida məhsullarının ixracından sonra dünyada 4-cü yer və

eyni zamanda – inkişaf etməkdə olan ölkələrdə isə birinci yer tutur (The Travel & Tourism Competitiveness Report 2019).

Azərbaycanda turizm marağı obyektlərinin (təbii, müalicə-sağlamlıq, tarixi, mədəni) konsentrasiyası yüksəkdir, Azərbaycanda daxili və xarici turizmin inkişafı üçün çox gözəl imkanlar var, hərçənd hələ ki, bu sahələrarası sənayenin ölkənin ÜDM-da töhfəsi pandemiyadan əvvəlki 2,2%-lə müqayisədə 2020-ci ildə cəmi 1,2% olmuşdur (https://interfax.az/view/829146/az). 2012-ci ildə 2484,1 min nəfər gəldiyi halda 2022-ci ildə bu 1602,3 min nəfər olmuşdur, yəni 10 il ərzində 35,5% azalma olmuşdur. Ölkəmizə 2022-ci ildə gələn əcnəbi vətəndaşların 1058,1 min nəfəri (66,0 faizi) ölkəmizə turizm məqsədilə səfər etmişdir. Bu məqsədlə səfər edənlərin sayı keçən ilin müvafiq dövrü ilə müqayisədə 2,3 dəfə artmışdır. 2022-ci ildə xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayı 1489,5 min nəfər olmuşdur, bu 2012-ci illə müqayisədə 2,6 dəfə azdır. Qeyd etmək lazımdır ki, 2012-ci ildə ölkəyə quru yolla (avtomobil və dəmiryolu ilə) daxil olanların sayı 1296,1 min nəfər, hava yolu ilə daxil olanların sayı isə 946,4 min nəfər olduğu halda 2022-ci ildə quru yollarla 533,0 min nəfər (2,4 dəfə azalma), 2012-ci ildə hava yolları ilə 946,4 min nəfər, 2022-ci ildə isə 1042,1 min nəfər (1,1 dəfə artım) olmuşdur.

Son illərdə ölkəyə gələn və gedən turistlərin sayında belə azalma pandemiya dövrünün təsiri, Azərbaycan Respublikasının öz torpaqlarını işğaldan azad etməsi üçün aparmalı olduğu müharibə, qonşu ölkələrdən gələn təhlükə ilə bağlı ölkənin quru sərhədlərinin hələ də bağlı olması ilə bağlıdır. Heç şübhəsiz ki, son illərdəki bu geriləmə müvəqqəti haldır. Heç şübhəsiz ki, gözəl təbii imkanları, zəngin tarixi-mədəni irsi, geniş milli mətbəxi, sürətli sosial-iqtisadi inkişafı və sabitliyi olan ölkəmiz üçün bu müvəqqəti xarakter daşıyır. Azərbaycanda turizmin inkişafının böyük potensialı var. Azərbaycana xarici turistlərin cəlb edilməsi ölkənin iqtisadi inkişafına və xaricdə ölkəmizin turizm məkanı kimi daha çox tanınmasına təsir edə, iqtisadi inkişafımıza təkan verə bilər.

Pandemiyadan sonrakı dünya bazarının yüksək dəyişkənliyi, iqtisadi qeyri-müəyyənlik və yeni maliyyə və siyasi böhranlar təhlükəsi dövründə də dünyanın əksər regionlarında turizm davamlı inkişaf edir. UNWTO-nun beynəlxalq turizmin inkişafı üzrə proqnozuna görə 2024-cü ilin sonu üçün dünyada turizmin səviyyəsi postpandemiya dövründəkinə (2019-cu il) çatacaq.

Nəticə çıxarmaq olar ki, turizm müasir cəmiyyətin həyatının ayrılmaz hissəsinə çevrilib. Bu faktlar əksər halda uzaq qitələrə nəqliyyat əlaqələrinin mövcudluğu, bütün dünya sakinlərinin mobilliyinin artması, ayrı-ayrı ölkələrdə turist axınlarını qəbul etmək üçün aparılan siyasi və iqtisadi tədbirlər, nəqliyyatın inkişafı ilə izah olunur.

Cədvəl 1. Beynəlxalq turizmin dinamikası

İllər	Turistlərin gəlməsi		İllər	Turistlərin gəlməsi	
	mln. adam	əvvəlki ilə nəzərən, %		mln. adam	əvvəlki ilə nəzərən, %
1950	25	-	2006	**846**	4,8
1960	69	176	2007	**899**	6,3
1965	113	64	2008	**918**	2,1
1970	166	47	2009	**882**	-3,9
1975	222	34	2010	**939**	6,5
1980	278	25	2011	**982**	4,6
1985	320	15	2012	**1035**	5,6
1990	440	38	2013	**1090**	5,3
1995	541	23	2014	**1138**	4,4
2000	687	27	2030**	**1800**	12,5
2005	807	17			

** UNWTO proqnozları üzrə (görə).

Turist səfəri uyğun məqsəd və qalma müddəti olduğu halda zaman və məkan üzrə yerdəyişməylə təyin edilir.

Daimi yaşama yeri dəyişmədiyi halda turizm haqqında danışmaq mənasızdır. Turizm resursları müəyyən ərazilərə bağlıdır və onların populyarlıq və istifadə dərəcəsi belə regionların nəqliyyat əlaqələri ilə təyin edilir. Deməli, turizmə nəqliyyat sistemi ilə əlaqədən kənar baxıla bilməz. Məlum olduğu kimi nəqliyyat, əsasən malların və insanların coğrafi mövqeyinin dəyişmə ehtiyaclarının təmin olunması məsələlərini həll edir, turistlərin sayı regionun, turizm infrastrukturunun inkişaf səviyyəsi isə turistlərin ora gəlməsinin təmin edilmə dərəcəsini müəyyən edir. Müasir dövrdə turizm sistemində nəqliyyatın və

turizmin nəqliyyat infrastrukturunun rolu daim artır. Bu qismən turizmin və nəqliyyatın inkişaf tarixiylə bağlıdır.

Müasir dünyada əhalinin hərəkətliliyi artır, iqtisadi əlaqələr qlobal xarakter alır. Nəqliyyat dəhlizləri ölkələri və qitələri birləşdirib və səyahətçilər üçün yeni istiqamətlər açır. Planetin vahid sistemə çevrilməsinin bir neçə mərhələsi fərqləndirilir:

- birinci mərhələ - XV-XVI əsrlər – dəniz səfərlərinin inkişafı və böyük coğrafi kəşflər;
- ikinci mərhələ - XIX və XX əsrlərdə nəqliyyatın və rabitənin inkişafı;
- üçüncü mərhələ, indiki, - iqtisadi, istehsal və informasiya qloballaşması.

Dördüncü mərhələnin sosial qloballaşma mərhələsi olacağı gözlənilir. Mərhələlərin hər birində müxtəlif növ ölkədaxili və beynəlxalq – ticarət, mədəni, iqtisadi əlaqələrin formalaşmasında nəqliyyatın rolu müəyyənedici olub. Əlaqələrin genişlənilməsi kontaktların, işgüzar, idrak və əyləncə məqsədli səfərlərin artmasına səbəb olur.

Turizm, sahələrarası sənaye olaraq, bir çox digər iqtisadiyyat sektorunun inkişafından asılıdır. Amma turizmin inkişafına nəqliyyat xüsusi təsir göstərir və o artmaqda davam edir. Böyük sahələrarası kompleks kimi nəqliyyat turizmlə oxşar xüsusiyyətlərə malikdir və yalnız qonşu sahələr tərəfindən effektiv idarəetmə halında müvəffəqiyyətlə inkişaf edə bilər. Turizmin nəqliyyat infrastrukturu turist və nəqliyyat sahələrini əhatə edir və hər ikisinin kəsişən təsirinə çox ciddi məruz qalır, eyni zamanda, onlara da təsir göstərir.

Turizmin nəqliyyat infrastrukturunun (TNİ) tədqiqatının əhəmiyyəti onunla təyin edilir ki, turizmdə nəqliyyatın rolu dəyişir, nəqliyyat yalnız hərəkət vasitəsi, turizm resurslarının mümkünlüyünün təminatçısı, sahənin inkişaf amili olmur, həm də turizm resursu xüsusiyyətləri əldə edir.

Turizm infrastrukturu əlaqə yollarının (magistral yollar, keçid yolları, vağzallar, aeroportlar, limanlar və s.), kommunikasiyaların (su kəmərləri, elektrik və qaz şəbəkələri, istilik sistemləri, kanalizasiyalar, rabitə vasitələri və s.), turizm resursları, turizm nümayişi obyektləri, yerləşdirmə və qidalanma vasitələri, ticarət, məişət və müalicə-profilaktika xidməti obyektləri, idman tikintiləri, həmçinin turizm sənayesinin fəaliyyəti və inkişafı üçün lazım olan başqa obyektlər məcmusunu təşkil edir. Nəqliyyat infrastrukturu nəqliyyat kompleksinin əsasını təşkil edir və yüklərin və sərnişinlərin daşınması üçün istifadə olunan real nəqliyyat şəbəkəsi, həmçinin nəqliyyat vasitələrinin və daimi qurğuların effektiv istifadəsini təmin edən təşkilati strukturdur. Turizm baxımından, nəqliyyat infrastrukturunun əsas məsələsi – turist axınlarının azad hərəkəti üçün lazım olan şəraitin yaradılmasıdır (Stephen J.Page, 2009). Nəqliyyat infrastrukturu bəzi hallarda turist-ekskursiya xidmətləri göstərən (teploxodlarda kruizlər və gəzintilər, avtobus ekskursiyaları, avtoturizm və s.) turizm fəaliyyətinin sərbəst subyekti kimi çıxış edə bilər. Nəqliyyat təminatı turizm məhsulunun tərkibinə daxil olan əsas xidmət kompleksinin hissəsidir, nəqliyyat müəssisələrinə isə turizm sənayesini formalaşdıran spesifik turizm müəssisələri kimi baxılır (Heydərov, Ş.Ə., 2011). Beləliklə, turizm daşımanın təşkili prosesi və texniki vasitələrdən istifadəylə sıx bağlıdır. Burada infrastrukturun mənası haqqında danışmaq olar, çünki turizmin infrastruktur təminatı turist axınlarının həcminə, turist və nəqliyyat sahələrinin iqtisadi göstəricilərinə təsir edir.

Nəticə çıxarmaq olar ki, nəqliyyat və nəqliyyat infrastrukturu turizm sənayesinin və turizm infrastrukturunun tərkib hissələridir, yəni: TNİ-nu – turizmin infrastrukturuna, nəqliyyat infrastrukturuna və turizmdə müəssisələrin infrastrukturuna aid etmək olar. Beləliklə, turizmin nəqliyyat infrastrukturu turizmin və nəqliyyatın alt sistemi kimi, nəqliyyat və turizm xidmətlərinin bələdçisi və əhəmiyyətli ictimai-iqtisadi məsələlərin həllinin sistemi kimi özünü göstərir.

Bütövlükdə infrastruktur, sahələrarası xarakter daşıyır və istehsal sahələrinin, regionların və dövlətlərin inteqrasiyasını təmin edir. İnfrastrukturun ümumi sxeminə (şəkil 1) əsasən o, istehsal (ümumi təyinatlı və istehsal daxili) və qeyri-istehsal (institusional) sahələrinə bölünür.



Şəkil 1. İnfrastrukturun ümumi sxemi

TNİ-nin xüsusiyyəti ondan ibarətdir ki, çox zaman o yalnız turistlər tərəfindən deyil, həm də adi vətəndaşlar tərəfindən gündəlik ictimai-iqtisadi məsələlərin həlli üçün: şəxsi səfərlər, yüklərin və başqa məqsədlərin nəql edilməsi üçün istifadə olunur. Hərçənd xüsusi turizm nəqliyyatını və turizm marşrutlarını qeyd etməmək olmaz. Turizmin nəqliyyat infrastrukturu nəqliyyat vasitələrini, nəqliyyat obyektlərini, nəqliyyat yollarını, marşrutları və xidmətləri, nəqliyyat obyektlərində və vasitələrində servis və turizm obyektlərini, informasiya vasitələrini əhatə edən kompleksdir. Sxematik olaraq TNİ şəkil 2-də təqdim edilmişdir.



Şəkil 2. Turizmin nəqliyyat infrastrukturu

Daha aydın anlamaq üçün TNİ-nin bir neçə əsas əlamət üzrə təsnifatını hazırlamaq lazımdır:

• Mənsubiyyət üzrə:

- beynəlxalq (bir neçə dövlətin ərazisində yerləşmiş);
- milli (bir dövlətin sərhədləri daxilində yerləşmiş);
- regional (bir regionun daxilində yerləşmiş).

• Mülkiyyət növünə görə:

- dövlət (tək sahibkar dövlət olur);
- şəxsi (sahibkar şəxsi strukturlar olur);
- şəxsi-dövlət (sahibkarlar dövlət və şəxsi strukturlar olur).

• İstifadə tipinə görə:

- kütləvi turizm üçün (təyyarələrin, avtobusların, qatarların çarter reysləri, kruiz gəmiləri, turist avtobusları və s.);

- fərdi turizm üçün (şəxsi təyyarələr, fərdi yan alma körpüləri, yaxtalar, qəsrlər və s.);
- ictimai istifadə və turizm üçün (ictimai nəqliyyat, qatarlar, müntəzəm reyslər, aeroportlar, vağzallar və s.).

• İnkişaf dərəcəsinə görə:

- inkişaf etmiş (turizmin inkişafı üçün kifayət qədər sayda beynəlxalq, regional, yerli aeroportlar, dəmir yol qovşaqları və stansiyalar, avtovağzallar var, keyfiyyətli avtomobil yollarının marşrut şəbəkəsi və yol kənarı təsərrüfat inkişaf etmişdir);
- inkişaf edən (turizmin inkişafı üçün beynəlxalq, regional, yerli aeroportlar, dəmir yol qovşaqları və stansiyalar, avtovağzallar var, lakin kifayət sayda deyil, avtomobil yollarının marşrut şəbəkəsi və yol kənarı təsərrüfat inkişaf edir);
- inkişaf etməmiş (turizmin inkişafı üçün aeroportlar, dəmir yol qovşaqları və stansiyalar, avtovağzallar kifayət sayda deyil, avtomobil yollarının marşrut şəbəkəsi və yol kənarı təsərrüfat inkişaf etməyib);

• Funksional təyinatı üzrə:

- nəqliyyat vasitələri (avtobuslar, avtomobillər, qatarlar, çay və dəniz gəmiləri, başqa nəqliyyat vasitələri);
- nəqliyyat obyektləri (avtovağzallar, aeroportlar, vağzallar, limanlar, dayanacaq məntəqələri);
- nəqliyyat yolları (hava, çay, dəniz, dəmir yolları, avtomobil);
- nəqliyyat marşrutları (çay, dəniz, dəmiryolu, avtomobil, velosiped, piyada);
- nəqliyyat xidmətləri;
- informasiya vasitələri;
- nəqliyyat obyektlərində və nəqliyyat vasitələrində və nəqliyyat yollarının yaxınlığında servis və turizm obyektləri.



Şəkil 3. Turizmin nəqliyyat infrastrukturunun təsnifatı

TNİ demək olar ki, faktiki, bütün nəqliyyat kompleksini əhatə edə bilər. Deməli, bu kompleksin problemlərinin həlli turizmin inkişafıyla bağlı çox məsələləri həll edə bilər. Turizm və nəqliyyat bəzi oxşar xüsusiyyətlərə malikdir. Onlar çoxbəndli struktura malik böyük sahələrarası komplekslər olub, dünya təsərrüfatı üçün böyük əhəmiyyətə malikdirlər. Turizmin və turizm xidmətlərinin inkişafına təsir edən amillər xüsusi diqqətə layiqdir. Onlardan ən əhəmiyyətlisi nəqliyyatdır.

UNWTO nəqliyyatın 4 alt sahəsini turizm sahəsinə daxil edir: hava, dəmir yolu, quru və su, - sərnişin nəqliyyatıyla daşımalar tipik turizm xidmətləri siyahısına daxil olur və sayına görə digər bütün xidmət növlərini qabaqlayır. Səyahət, bir qayda olaraq, ən azı, iki nəqliyyat növünün istifadəsiylə bağlıdır. Avtobus, aviasiya və dəmir yolu daşınmaları turizm sahəsində daşımaların ümumi həcminin təxminən 88%-ni təşkil edir (Осипова, О.Я., 2006). Ancaq nəqliyyat növlərindən hər birinin turizmin inkişafına öz təsiri var.

Turizm xidmətlərinin inkişafına ən böyük təsiri aviasiya sahəsi göstərir. Heç nə, turizmə reaktiv mühərrikin və reaktiv təyyarənin yaradılmasının göstərdiyi təsirə bərabər təsir göstərməyib (Weaver, David B., 2000). Dəmir yollarında sürəli və yüksək sürətli qatarların hərəkətinin inkişafı bu nəqliyyat növünün böyük əhəmiyyət qazanmasına, aviasiya və avtomobil nəqliyyatıyla daha müvəffəqiyyətli rəqabət aparmasına kömək edir.

Avtomobil nəqliyyatı qısa məsafələrdə daha effektivdir. Bütün dünyada turizm sahəsində avtomobil nəqliyyatı daşımaları ən böyük paya malikdir – 42%, turistlərin transfer xidmətində və ekskursiyalar üçün nəqliyyatla təminatda isə, avtomobil nəqliyyatının payı 92%-ə çatır (Бутко, *И.И.*, 2006). Ancaq yüklənmiş yollar problemləri, yollarda yorğunluq, yol-nəqliyyat hadisələri, ətraf mühitin çirklənməsi və yanacağın dəyərinin artması onu dəmiryol nəqliyyatıyla müqayisədə daha az cazibədar edir.

Su nəqliyyatı dünya nəqliyyat axınında ən kiçik pay tutur, bu növün sürəti ən kiçikdir, marşrutların uzunluğu, sərnişin tutumu isə – ən böyükdür. Bütün nəqliyyat növləri ilə müqayisədə dəniz nəqliyyatı ən az kapital tutumludur. Dəniz və çay kruizləri son illərdə çox məşhur və əlçatan olub.

Şəhər sərnişin nəqliyyatı xüsusi əhəmiyyətə malikdir. Turistlər və işgüzar insanlar üçün cəlbedicilik nöqteyi-nəzərdən şəhər sərnişin nəqliyyatı əhəmiyyətli rol oynayır. Bu onunla bağlıdır ki, qeyri-mütəşəkkil turistlərin sayı artır, onlar isə xüsusi turist avtobuslarında deyil, müstəqil hərəkət etməyə üstünlük verir, yerli sakinlərin adi, məişət həyatını şəxsi təcrübəsində görmək istəyir. Buna görə də, nəqliyyat infrastrukturunu təkmilləşdirərkən yalnız yerli sakinlərin maraqlarını deyil, həm də potensial turistlərin maraqlarını nəzərə almaq, bu və ya digər obyektin TNİ elementi olmasını müəyyən etmək lazımdır.

Nəqliyyat kompaniyaları və təşkilatları – müasir beynəlxalq turizm bazarının beş əsas hərəkətetdirici qüvvəsindən biridir. Nəqliyyat turizm xidmətlərinin inkişafının əhəmiyyətli amili olmaqla bərabər, həm də turizm təşkilatlarının gəlirinə böyük təsir göstərir. Amerika turagentliklərinin 2/3-də ümumi dövriyyənin çox hissəsini aviabiletlərin satışları təşkil edir (The Travel & Tourism Competitiveness Report, 2019). Turizm və nəqliyyat kompaniyalarının sıx əlaqəsi bu sahələrin problemlərinin ümumiliyini və qarşılıqlı asılılığını müəyyən edir. Nəqliyyat xidmətlərinə qeyri-qənaətbəxş tələb dünya iqtisadiyyatı üçün ağır nəticələrə gətirib çıxara və beynəlxalq turizmin inkişafını yavaşıda bilər. Rəqabətə davam vermək üçün, ölkələr yeni texnologiyalara və infrastruktura investisiyalar yatırmaqla, dövlət tənzimləmə və maliyyə institutlarını müasirləşdirərək, idarəetmə metodlarını təkmilləşdirməli və mövcud nəqliyyat sistemlərinin işini yaxşılaşdırmalıdırlar.

Ümumdünya İqtisadi Forumunun (World Economic Forum) mütəxəssisləri turizm sahəsində müxtəlif ölkələrin rəqabətə davamlılığını dəfələrlə tədqiq edib. Tədqiqatda dünyanın 120-dən çox ölkəsi, həmçinin Azərbaycan iştirak edib. Ölkənin rəqabətə davamlılıq indeksi 14 qrup parametrlər üzrə hesablanır. Bu tədqiqat üçün aşağıdakı parametrlərin qiymətləndirilməsi daxil olduğu 6-cı qrup – "Hava nəqliyyatının infrastrukturu" xüsusi əhəmiyyət daşıyır:

1) hava nəqliyyatının infrastrukturunun keyfiyyəti;
2) daxili xətlərdə sərnişin-km üzrə daşıma həcmi;
3) beynəlxalq xətlərdə sərnişin-km üzrə daşıma həcmi;
4) əhalinin 1000 nəfərinə düşən uçuşların miqdarı;
5) aeroport şəbəkəsinin sıxlığı;
6) işləyən aviaşirkətlərin sayı;
7) beynəlxalq nəqliyyat şəbəkəsi.

7-ci qrup aşağıdakı parametrlər üzrə yerüstü nəqliyyatın infrastrukturuna qiymət verir:

1) yolların keyfiyyəti;

2) dəmiryol nəqliyyatının infrastrukturunun keyfiyyəti;
3) liman infrastrukturunun keyfiyyəti;
4) yerüstü nəqliyyatın infrastrukturunun keyfiyyəti;
5) yol şəbəkəsinin sıxlığı.

Nəqliyyat sistemi hər bir ölkənin, o cümlədən Azərbaycanın iqtisadiyyatın ən əhəmiyyətli sahələrindən biridir. Azərbaycanın nəqliyyat sisteminin inkişafı – ümumi daxili məhsulun (ÜDM) artımı, ictimai-iqtisadi sabitlik və dünya iqtisadiyyatına inteqrasiyasının artması amilidir. Nəqliyyatın etibarlı fəaliyyəti ölkənin bütövlüyünün vacib şərtlərindən biri və milli təhlükəsizliyin təminatıdır.

Nəqliyyat xidmətlərinin mümkünlüyü əhalinin yaşayış keyfiyyətini və iqtisadiyyatın inkişaf səviyyəsini müəyyən edən əsas parametrlərdən biridir. Bu baxımdan turizm və nəqliyyatın qarşılıqlı inkişafı Respublikanın iqtisadi, sosial, mədəni inkişafı üçün çox vacib amildir.

Nəticə

Tədqiqatın ayrı-ayrı müddəaları və tövsiyələri turizmin nəqliyyat infrastrukturunun potensialının artırılması yolu ilə turizmin inkişafı istiqamətində dövlətin və ayrılıqda götürülmüş regionların və müəssisələrin iqtisadi siyasətinin təkmilləşdirilməsi üçün istifadə edilə bilər. Tədqiqatın bəzi müddəaları "Turizmdə nəqliyyat xidmətləri", "Nəqliyyat infrastrukturu" fənlərinin tədrisində istifadə edilə bilər.

Ədəbiyyat siyahısı

1. Azərbaycanda Turizm, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Bakı, 2023
2. Heydərov, Ş.Ə., "Turizmdə nəqliyyat xidmətlərinin təşkili", Mingəçevir, «Mingəçevir Poliqrafiya Müəssisəsi» MMC 2011, 148 səh.
3. https://imes.su/press-tsentr/stati/item/1675-razvitie-mezhdunarodnogo-turizma-i-ego-vliyanie-na-ekonomiku
4. https://interfax.az/view/829146/az
5. Stephen, J.Page. Transport and tourism. Global perspectives. 3-rd edition, London: Pearson education Ltd. 2009. - 447 c.
6. The Travel & Tourism Competitiveness Report 2019. Travel and Tourism at a Tipping Point. World Economic Forum, 129 p.
7. Weaver, David B. Tourism management, John Wiley & Sons. Australia, Ltd., 2000, - 468 c.
8. Бутко, И.И. Транспортное обслуживание туризма: учеб. пособие / И.И. Бутко, В.А. Ситников. - М.; Ростов н/Д: МарТ, 2006. - 335 с.
9. Осипова, О.Я. Транспортное обслуживание туристов: учеб. пособие / О.Я. Осипова. - 2-е изд., доп. - М.: Академия, 2006. - 281 с.

LƏNKƏRAN VƏ MASALLI ŞƏHƏRLƏRİNDƏ DAYANIQLI İCTİMAİ NƏQLİYYAT SİSTEMİNİN XİDMƏT KEYFİYYƏTİNİN YAXŞILAŞDIRILMASI İLƏ BAĞLI ƏHALİNİN MƏMNUNLUĞUNUN ÖYRƏNİLMƏSİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

MAHİR MUSTAFAYEV
Azərbaycan Texniki Universiteti
Nəqliyyat və Logistika/Azərbaycan
mahir.mustafayev@aztu.edu.az
BAKI, AZƏRBAYCAN

ELMƏDDİN SALAYEV
Azərbaycan Texniki Universiteti
Nəqliyyat və Logistika/Azərbaycan
elmeddin.salayev@aztu.edu.az
BAKI, AZƏRBAYCAN

NƏSİR NƏCƏFOV
Azərbaycan Texniki Universiteti
Nəqliyyat və Logistika/Azərbaycan
necefov.nesir@aztu.edu.az
BAKI, AZƏRBAYCAN

XÜLASƏ

Şəhərlərdə əhalinin normal fəaliyyətinin təmin olunmasında əsas faktorlardan biri əhalinin nəqliyyat tələbatının ödənməsidir. Bu səbəbdən ən vacib kəşflərdən biri olan nəqliyyat vasitələri ictimai istehsalın müəyyən vasitəsi kimi özünü göstərməklə, çox böyük əməli və xalq təsərrüfatı əhəmiyyəti kəsb edir. Nəqliyyat vasitələri, eləcə də onların hərəkəti üçün vacib yolların olması ayrı-ayrı tarixi dövrlərdə hər bir xalqın maddi mədəniyyətin inkişaf səviyyəsini göstərən mühüm amildir. Nəqliyyat vasitələri ilə istehsal alətlərinin, əmək məhsullarının və insanların yerdəyişməsi həyata keçirilir. Nəqliyyat vasitələri hər hansı bir ərazinin təbii-coğrafi şəraitindən, onun relyef quruluşunun xarakterindən asılı olaraq yaranmışdır. Şəhər nəqliyyatının ən vacib hissəsi ictimai nəqliyyat ilə bağlıdır. Məqalədə Lənkəran və Masallı şəhərlərinin ictimai nəqliyyatından söz açılmışdır. Orada sakinlərin fikirləri öyrənilmiş və mütəxxəssislərin monitorinqi aparılmışdır.

Açar sözlər: Nəqliyyat, mobillik, şəhər, əhali, avtobus, ərazi.

SUMMARY

One of the main factors in ensuring normal population activity in cities is the meeting of the population's demand for transportation. Therefore, one of the most important discoveries is that by pretending to be a certain means of public production, they are very important to work and agriculture. The presence of vehicles as well as important routes for their movement is an important factor that shows the level of development of each nation's material culture during individual historical periods. Transportation is carried out by means of manufacturing tools, labor products, and people. Vehicles are derived from the natural environment of any area and depend on the nature of its landscape. The most important part of urban transportation is about public transport. The article cited public transportation in Lankaran and Masalli. It studied the opinions of the inhabitants and monitored experts.

Keywords: Transport, mobility, city, population, bus, territory.

GİRİŞ

İctimai nəqliyyatın işinin təşkili sərnişinlərin vaxt itkiləri ilə yanaşı onların əmək məhsuladrlığına da təsir göstərir. Şəhər nəqliyyat sisteminin vacib komponenti kimi şəhər ictimai nəqliyyatı şəhərin iqtisadi inkişafı ilə sıx əlaqədardır və onun inkişafında əhəmiyyətli yer tutur. Şəhər ictimai nəqliyyatına üstünlük verilməsi nəqliyyat resurslarından istifadə istiqamətində həlledici addım ola bilər. Belə ki, ictimai

nəqliyyatdan istifadə şəhər küçə və yollarında nəqliyyat sıxlığının aşağı düşməsinə səbəb ola bilər. Ona görə şəhər ictimai nəqliyyat növlərinin, xüsusilə də avtobusların marşrut şəbəkəsinin müntəzəm olaraq qiymətləndirilməsinə və ona əsasən də təkmilləşdirilməsinə ehtiyac var. Bu səbəbdən elmi-praktiki tədqiqatlara böyük ehtiyac yaranmış və bəzi şəhərlərdə bu kimi araşdırmalar aparılmışdır. Bu tədqiqatlardan biri də Azərbaycanın cənub-şərqində yerləşən və əhalisinin sayı 2024-cü il yanvar ayının 1-ə kimi 227481 nəfərə qədər çatmış Lənkəran və 225344 nəfər olan Masallı şəhərləridir. Lənkəran şəhərində əhalinin 38,5 faizini şəhər, 61,5 faizini kənd sakinləri, 50,4 faizini kişilər, 49,6 faizini isə qadınlar, Masallı şəhərində isə 22.74 faizini şəhər, 77.26 faizini kənd sakinləri, 50,33 faizini kişilər, 49,66 faizini isə qadınlar təşkil edir (Əhalisi | Azərbaycan Respublikası Lənkəran Şəhər İcra Hakimiyyəti (lenkeran-ih.gov.az). Şəhərlərin ərazisində əhalinin sıx yerdəyişməsi, həm göstərilən statistikadan həm də aparılmış monitorinqlərdən də görünmüşdür. Ümumiyyətlə şəhər ərazisində və onun ətraf kənd və qəsəbələrinə xidmət göstərilməsi üçün ictimai nəqliyyatdan da istifadə edilir. Bunun üçün Lənkəran və Masallı şəhərlərinin ətraf qəsəbələrindən şəhər mərkəzinə gəlmək üçün əhaliyə xidmət göstərən avtobus marşrutları mövcuddur. İctimai nəqliyyat xidmətlərinin keyfiyyətinin aşağı olması əhali arasında şəxsi nəqliyyat vasitələrinin sahiblərinin sayının artmasına səbəb olur. Bu isə tıxaclara və qəzalara, ətraf mühitin çirklənməsinə gətirib çıxarır (Rahman F., 2015). Ona görə də xidmətlərin keyfiyyətinin və səmərəliliyinin artırılması, ictimai nəqliyyatdan istifadənin təşviq edilməsi üçün tədbirlərin görülməsi vacib və zəruridir. Buna əsaslanaraq deyə bilərik ki, ictimai nəqliyyat xidmətlərindən sərnişin məmnuniyyətinin öyrənilməsi çox mövzulu məsələdir. Bu səbəbdən şəhərdə ictimai nəqliyyatın xidmət keyfiyyətinin ölçülməsi məqsədilə monitorinqlər və əhali arasında sorğular keçirilmişdir, sorğular və monitorinqlər göstərmişdir ki, ictimai nəqliyyatın işinin yaxşılaşdırılmasına ehtiyac vardır. Təhlil zamanı avtobus marşrutlarında xidmətin keyfiyyətini azaldan amillər aşkar edilib. Bundan başqa, burada əhalinin avtobus nəqliyyatının seçilməsinin səbəbləri, avtobus nəqliyyatının çatışmayan cəhətləri, ixtisaslaşdırılmış avtobus yollarının effektivliyi, alternativ ictimai nəqliyyatdan istifadəyə olan münasibət araşdırılıb (Kolawole Ojo Thomas, 2017). İctimai nəqliyyat xidmətlərinin keyfiyyətinin aşağı olması şəxsi avtomobillərin sayının artmasına səbəb olur, bu da tıxaclara və qəzalara çevrilir, ətraf mühitin çirklənməsi hallarını artırır (Dashdamirov, F., 2022). Alternativ həllərdən biri də tıxacı azaltmaqla ictimai nəqliyyatın işini optimallaşdırmaqdır (Paulo Siga Thomaz, 2016).

ƏDƏBİYYAT ANALİZİ

İctimai nəqliyyat xidmətlərinin keyfiyyətinin qiymətləndirilməsi və əsasən xidmət keyfiyyətinə təsir edən amillərin müəyyən edilməsi üçün müxtəlif işlərdə müxtəlif üsullardan istifadə olunur.

Paula Siga Thomas tərəfindən təklif olunan üsul məmnunluq səviyyəsini qiymətləndirmək üçün əhali ictimai nəqliyyat xidmətləri ilə universitet şəhərciklərindən keçən marşrutlar üzərindədir və bu da qeyri-səlis məntiqə əsaslanır. Sərnişinlərin məmnuniyyətini qiymətləndirmək üçün anketlər hazırlanmışdır rahatlığın, parkinqin/terminalın, avtomobilin performansının və sürücünün bacarığının müəyyən etmişdir (Verma A., S.L. Dhingra, 2001).

Bakı sürətlə inkişaf edən və böyüyən şəhərlərdən biri olduğundan, yollarda hər gün tıxac və sıxlıq hallarına rast gəlinir. Təbii ki, əhalinin sayının, məskunlaşma ərazilərinin və nəqliyyat vasitələrinin sürətlə artması da bu məsələdə mühüm rol oynayır. Eyni zamanda yollarda sürücülərin sayının çoxalması qəzaların baş vermə səbəblərini nisbətən artırır. Pik saatlarında yollarda həddən artıq çox maşının olması saatlarla sürən tıxaclara, yolayrıclarında isə qəzalara səbəb olur.

DİN NİİM [2] - nin təhlilləri göstərir ki, yollarda sıxlıq daha çox səhər 07:30-10:00, axşam isə 17:30-19:30 saatlarında yaranır. Ancaq bəzi küçələr də var ki, həmin yollarda günün müxtəlif vaxtlarında sıxlıq müşahidə olunur (Rəhimov, Ç.H., 2017, Rəhimov, Ç.H., 2022).

Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin təhlillərinə əsasən, Bakının "Şamaxinka" adı adlanan ərazisində tıxac saatlarını əks etdirən cədvəl aşağıda göstərilmişdir (Rəhimov, Ç.H., 2017, Rəhimov, Ç.H., 2022):

Cədvəl 1.

Səhər saatlarında sıxlıq müşahidə olunan yol				
S/S	Küçə/prospekt	Ərazi	İstiqamət	Saat
1	Moskva prospekti	Şamaxinka" dairəsi	mərkəz	07:30-10:00
Axşam saatlarında sıxlıq müşahidə olunan yol				
1	Moskva prospekti	"Şamaxinka" dairəsi	hər iki	18:00-20:45

Qeyd edək ki, NİİM[3] Bakı yollarında avtomobil sıxlığını azaltmaq və hərəkətin intensivliyini təmin etmək məqsədilə mütəmadi olaraq 44 küçə və prospekt üzrə "yaşıl dalğa" rejimi tətbiq edir (Rəhimov, Ç.H., 2017, Rəhimov, Ç.H., 2022).

Son dövrlər küçələrdə sürətölçənlər və kameralar quraşdırılsa da işıqforlarla bağlı problem hələ də öz həllini tapmayıb. Xüsusən Bakıətrafı qəsəbələrdə və mikrorayonlardakı işıqforların çoxu işləmir. Bir sıra ərazilərdə isə işıqforlara istiqamətverici işarələr qoyulmadığından tez-tez qəzalar baş verir yaxud tıxaclar yaranır. Digər tərəfdən, bir sıra ərazilərdə işıqforlar ağacların yaxud müxtəlif maneələrin yanında yerləşdiyindən sürücülər onları görə bilmir.

Moskva prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsi - Bakının "Şamaxinka" adlanan ərazisində uzun illərdir ki, tıxacların olması sürücülərə problem yaradır. Qeyd olunan ərazi sıx məskunlaşma zonası hesab edilir. Paytaxtın şimal qapısı - "Şamaxinka" adlanan ərazisində" hər iki tərəfdə tıxac yaranır. Bu ərazidə işıqforların olmaması nəqliyyat vasitələrinin sıxlığının yaranmasına səbəb olur və hər gün tıxac yaşanır. Əvvəllər həmin ərazidə günün pik saatlarında sıxlıq olurdusa, indi bütün saatlarda yolda avtomobillərin hərəkəti saatda 5-10 kilometr olur.

[1] YNH - Yol Nəqliyyat Hadisələri
[2] DİN NİİM – Daxili İşlər Nazirliyi Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi
[3] NİİM – Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi

Şəkil 2. "Şamaxinka" adlanan ərazidə mövcud tıxac halları

Yollarda svetoforların qurulması və onların lazımi vəziyyətdə işləməsinə nəzarət Azərbaycan Respublikası DİN BDYPİ[4]-nin "Siqnal" İxtisaslaşdırılmış Layihə İstehsalat İdarəsi tərəfindən həyata keçirilir [4-5].

Paytaxt ərazisində aparılan monitorinqlər zamanı bəzi yolayrıcılarında quraşdırılan işıqforların dirəkləri qısa olduğundan sürücülər işıqforları görməkdə çətinlik çəkirlər, hətta belə kəsişmələrdə bir neçə dəfə yol-nəqliyyat hadisəsi də baş verib.

Yol qəza hadisələrinin sayının aşağı salınması, eyni zamanda, yollarda nəqliyyatın sıxlığının yaranmaması üçün paytaxtda rəqəmli işıqforların quraşdırılmasına başlanılmışdır.

Rəqəmli işıqforların quraşdırılması BDYPİ[5]-nin təşkilatçılığı və sifarişi əsasında həyata keçirilir. Hazırda paytaxtın əksər nöqtəsində belə işıqfor quraşdırılmışdır.

[4] DİN BDYPİ – Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsi
[5] BDYPİ - Baş Dövlət Yol Polisi İdarəsi

Şəkil 3. Ərazinin peyk görüntüsü

TƏKLİF EDİLƏN HƏLLƏR

Moskva prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsi - Bakının "Şamaxinka" adlanan ərazisində günün bütün saatlarında tıxac və sıxlıq olur. Səbəb isə nə qədər qəribə olsa da avtomobillər deyil, işıqforların olmamasıdır. Xüsusən günün pik saatlarında sözügedən ərazidə sürücülərin avtomobili nizamsız şəkildə idarə etməsi tıxaca, hərəkətin iflic olmasına səbəb olur.

Qeyd edilən ərazidə nəqliyyat vasitələrinin növbəliliyin təmin edilməsi məqsədilə işıqfor obyektlərinin quraşdırılması təklif edilir. İşıqfor obyektlərinin quraşdırılması nəticəsində:

- ✓ kəsişmədə nəqliyyat axınları arasındakı mövcud konflikt nöqtələri aradan qaldırılacaq;
- ✓ hərəkətin növbəliliyi təmin olunacaq;
- ✓ xaotik hərəkətin qarşısının alınması nəticəsində nəqliyyat ləngimələri aradan qaldırılacaq.

İşıqfor obyektlərinin quraşdırılması nəticəsində kəsişmədə nəqliyyat axınları arasındakı mövcud konflikt nöqtələri aradan qaldırılacaq və hərəkətin növbəliliyi təmin olunacaq.

Üstdən görünüş



Yandan görünüş

Şəkil 4. Təklif edilən işıqfor obyektlərinin quraşdırılmasından sonra ərazinin təsviri maketi

NƏTİCƏ

Moskva prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsi - Paytaxtın "Şamaxinka" adlanan ərazisində tıxacın qarşısını almaq, nəqliyyat sıxlığının aradan qaldırılması məqsədilə işıqforların quraşdırılması təklif edilir. Təklif edilən hissədə işıqforların quraşdırılması nəticəsində avtomobillər rahat və maneəsiz şəkildə hərəkət edə biləcəklər.

Moskva prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsi - "Şamaxinka" adlanan ərazidə işıqfor obyektlərinin quraşdırılması nəticəsində:

- ✓ kəsişmədə nəqliyyat axınları arasındakı mövcud konflikt nöqtələri aradan qaldırılacaq;
- ✓ hərəkətin növbəliliyi təmin olunacaq;
- ✓ xaotik hərəkətin qarşısının alınması nəticəsində nəqliyyat ləngimələri aradan qaldırılacaq.

İşıqfor obyektlərinin quraşdırılması nəticəsində kəsişmədə nəqliyyat axınları arasındakı mövcud konflikt nöqtələri aradan qaldırılacaq və hərəkətin növbəliliyi təmin olunacaq.

Nəticədə Moskva prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsi - Bakının "Şamaxinka" adlanan ərazisində svetofor obyektlərinin quraşdırılması nəticəsində avtomobillərin həmin ərazidə kəsişməsi aradan qaldırılaraq və tıxac müəyyən qədər azaldılmış olacaq.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Cavadov,Ə.Ə "Avtomobil daşımaları və vahid nəqliyyat sistemi Bakı 2009.
2. Cavadov,Ə.Ə "Daşımalar və vahid nəqliyyat sistemi" Bakı 2010.
3. Tağızadə, Ə., R.Bayramov "Yol hərəkətinin təşkili və təhlükəsizliyi" Bakı-2002.
4. Rəhimov, Ç.H. Trafik sorunlarına innovativ yanaşma, innovasyon sürecında oyunla trafik eğitiminin önemi ve Azerbaycanda uygulanma potensiyeli. 2017, Çingiz Rəhimov.
5. Rəhimov, Ç.H. NƏQLİYYAT TƏLƏBATI – MÖVCUD VƏ PROQNOZLAŞDIRILAN GÖSTƏRİCİLƏR, 2022, AzMİU.

XIRDALAN DAİRƏSİNDƏ NƏQLİYYAT PROBLEMLƏRİ, MÖVCUD ÇƏTİNLİKLƏRİN ARADAN QALDIRILMASI HƏLLƏRİ

QASIMOVA NİSƏ
Nəqliyyat və logistika fakültəsi
Azerbaijan Technical University
qasimovanise@gmail.com
BAKU, AZERBAIJAN

ÇİNGİZ RƏHİMOV
Nəqliyyat və logistika fakültəsi
Azerbaijan Technical University
turan.cingiz@mail.ru
BAKU, AZERBAIJAN

ALLAHVERDİ ŞƏRİFOV
Nəqliyyat və logistika fakültəsi
Azerbaijan Technical University
s.allahverdi@mail.ru
BAKU, AZERBAIJAN

ABDİNZADƏ SEVİNC
Nəqliyyat və logistika fakültəsi
Azerbaijan Technical University
s.abdinzade@mail.ru
BAKU, AZERBAIJAN

XÜLASƏ

Nəqliyyat sisteminin inkişafı Azərbaycan Respublikası üçün böyük əhəmiyyət kəsb edir. Ölkə iqtisadiyyatının infrastruktur sahələri olan enerji, rabitə, təhsil, səhiyyə ilə yanaşı, nəqliyyat cəmiyyətin həyat fəaliyyətinin ilkin tələbatını təmin etməklə sosial, iqtisadi, xarici siyasət və digər dövlət prioritetlərinə nail olmaq üçün mühüm rol oynayır.

Son illər ölkəmizdə ictimai həyatın bütün sahələrində əldə edilən dinamik inkişaf respublikamızın geosiyasi əhəmiyyətini xeyli artırmışdır. Bütün bunlarla yanaşı, qlobal iqtisadi məkanda cərəyan edən sosial-iqtisadi proseslərdə fəal iştirak etmək, xarici bazarlara səmərəli çıxış, rəqabət qabiliyyətli milli sənayeyə sahib olmaq kimi vacib vəzifələrin icrası zərurətə çevrilmişdir. Müasir dövrdə dünya gündəmini zəbt edən qloballaşma, sürətli inteqrasiya, davamlı inkişaf və s. məsələlər ölkəmiz üçün də xüsusi aktuallıq kəsb edir.

Dünya ölkələri arasında iqtisadi əlaqələrin genişlənməsi və inteqrativ proseslərin sürətlənməsi nəqliyyat sisteminin hər bir ölkənin milli iqtisadiyyatının əsas sütunlarından olduğunu təsdiqləmişdir. Nəqliyyat xidmətlərinin sosial-iqtisadi mahiyyətini aydınlaşdıran tədqiqatçılar bu sistemin geniş təkrar istehsalın mühüm şərti olduğunu çoxdan sübut ediblər. Bu baxımdan iqtisadiyyatda genişmiqyaslı köklü islahatların aparıldığı indiki şəraitdə nəqliyyatın xüsusiyyətlərini, iqtisadi və sosial proseslərin gedişində onun rolunu dəqiqliklə nəzərə alan siyasətin formalaşdırılması və həyata keçirilməsi çox vacibdir. Ona görə də nəqliyyat sisteminin davamlı inkişafı böyük həcmli kapital qoyuluşunu, çoxlu sayda iri nəqliyyat qovşaqlarının tikintisini və yenidən qurulmasını tələb edir.

Açar sözlər: tıxac, dairəvi kəsişmə, piyada keçidi, nəqliyyat problemləri, turbo dairə.

Abstract

Khirdalan is a land where many are abundant. This causes congestion. The narrowness of Khirdala's main energy routes limits transportation. The hours and precautions related to this situation become more clear. Mostly during peak hours of the day

The inadequacy of the public transport system or its inefficient use increases the use of private cars, leading to an increase in energy density.

Insufficient or ineffective traffic lights, road signs and traffic police in Khirdalan roundabouts create activity in managing its movement.

Keywords: traffic jam, roundabout, pedestrian crossing, traffic problems, turbo circle.

Mövcud vəziyyətin təhlili

Xırdalan Abşeron rayonunun Xırdalan şəhər inzibati ərazi dairəsində şəhərdir və Abşeron rayonunun inzibati mərkəzidir. XIV əsrin əvvəllərində kənd kimi yaranan, sovet dövründə isə şəhər tipli qəsəbəyə və Abşeron rayonunun mərkəzinə çevrilən Xırdalan 1930–1940-cı illərdə Binəqədi tərkibində qəsəbə, 1950-ci illərin birinci yarısında Maştağa, 1950–1960-cı illərdə yenidən Binəqədi rayonunun tabeliyinə verilmiş, Azərbaycan SSR Ali Soveti rəyasət Heyətinin 4 yanvar 1963-cü il tarixli fərmanı əsasında yaradılmış Abşeron rayonunun mərkəzi kimi fəaliyyət göstərmişdir (http://pop-stat.mashke.org/azerbaijan-cities.htm, stat.gov.az. 2024, www.anl.az. 2023).

1936-cı ildə şəhər tipli qəsəbə, 2 oktyabr 2006-cı ildə isə şəhər statusu almışdır. Azərbaycan Respublikası Milli Məclisinin 2 oktyabr 2006-cı il tarixli, 148-IIIQ saylı Qərarı ilə Bakı şəhərinin Binəqədi rayonunun inzibati ərazisindən Abşeron rayonunun Xırdalan qəsəbəsinə, ona həmsərhəd olan hissəsindən 462 ha (Sulutəpə qəsəbəsindən 208 ha, 28 May qəsəbəsindən 254 ha) verilmişdir. Azərbaycan Respublikası Milli Məclisinin 2 oktyabr 2006-cı il tarixli, 149-IIIQ saylı Qərarı ilə Bakı şəhərinin Abşeron rayonunun Xırdalan qəsəbə inzibati ərazi vahidi tərkibindəki Xırdalan qəsəbəsinə şəhər statusu verilmiş, Xırdalan qəsəbə inzibati ərazi vahidi Xırdalan şəhər inzibati ərazi vahidi adlandırılmışdır (AR Milli Məclisinin 2 oktyabr 2006-cı il tarixli, 149-IIIQ saylı Qərarı, Population statistics of Eastern Europe, 2012).

Xırdalan dairəsindəki mövcud nəqliyyat problemləri

1. Şəkil 1-dən gördüldüyü kimi Xırdalan dairəsindən keçdikdən sonra piyada yolu yoxdur. Bu da insanların rahat hərəkət etməsində problemlərə yol açır.

Şəkil 1. Xırdalan dairəsi

Xırdalan dairəsində piyada yolları yaradıla, şəhər ərazisində insanların təhlükəsiz və rahat şəkildə hərəkət etmələrini təmin edə bilər. Piyada yolları geniş və aydınlıq olmalıdır ki, bu da piyadanın hərəkətini asanlaşdırır və onların təhlükəsizliyini təmin edir. Xırdalan dairəsində piyada yolları təklil edilsə, insanların bir-biri ilə rahat əlaqələr qurmasına və şəhər ətrafında aktiv olaraq dolaşmasına kömək edəcəkdir. Yolların düzgün təmiri və yaxşı idarə edilməsi, şəhər sakinlərinin günlük həyatını daha rahat və sürətlə aparmağa kömək edər.

2. Xırdalan dairəsində günün əksər saatlarda tıxac baş verir. Bunun ilk səbəblərindən biri şəxsi avtomobillərin həddindən artıq çox istifadə olmasıdır (http://pop-stat.mashke.org/azerbaijan-cities.htm, stat.gov.az. 2024, www.anl.az. 2023).



Şəkil 2. Xırdalan dairəsində yaranan tıxac

Sürücülərin yol hərəkəti qaydalarını pozması nəqliyyatın hərəkətini pozur və tıxaca səbəb olur (http://pop-stat.mashke.org/azerbaijan-cities.htm, stat.gov.az. 2024, www.anl.az. 2023)..

Qəzalar, yol işləri və ya yolun bağlanması kimi gözlənilməz hallar nəqliyyatda tıxaca səbəb olur. Xırdalan dairəsindəki tıxac hallarının interaktiv təsviri Şəkil 3-də verilmişdir.

Şəkil 3. Xırdalan dairəsindəki tıxac hallarının interaktiv təsviri

3. Yağış yağan zaman tunelin ətrafında böyük həcmdə su kütləsi yığılır. Tunelin tikildiyi ərazidə kanalizasiya xətti yenilənsə də, köhnə xəttə qoşulmayıb. Bu isə tikinti işlərinin aparıldığı ərazidə problemlərin yaranmasına, əsasən də tıxaca səbəb olub.

Təkliflər

1. Xırdalan dairəsi yolları genişləndirilə bilər;
2. Xırdalandakı dəmir yolu stansiyasından birbaşa Şamaxı yoluna yeni birləşmə yolu açıla bilər;
3. Xırdalan şəhərinə metro xətti çəkilə bilər.

Bununla yanaşı, şəhər ətrafında əlavə yollar yaratmaq mümkündür. Həmçinin, avtomobil yollarının genişləndirilməsi, dairəvi yolların inşası, yeni yol layihələri tərtibatı və infrastruktur proqramları ilə şəhər ətrafında alternativ yollar yaradıla bilər. Bu tədbirlər nəqliyyatın effektivliyini artırmağa və səyahət zamanını azaltmağa kömək edəcəkdir.

Xırdalan dairəsinin yenidən təşkili ilə dairəvi yol ayrıcında nəqliyyat problemləri aradan qaldırıa bilər. Nümunəvi həll yolu şəkil 4-də verilmişdir.

Şəkil 4. Nümunəvi həll yolu

Nəticə

Xırdalan dairəsi təklif edilən turbo dizaynda yenidən təşkil edilərsə daha səliqəli, geniş olur və tıxac daha az olar.

Ədəbiyyat siyahısı

1. http://pop-stat.mashke.org/azerbaijan-cities.htm.
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. "İnzibati ərazi bölgüsü təsnifatı, 2024" (PDF) (az.). stat.gov.az. 2024-02-28.
3. "Kəndlə şəhərin qovuşduğu məkan". www.anl.az. 2023-03-23.
4. "Azərbaycan Respublikasının Abşeron və Bakı şəhəri Binəqədi rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 2 oktyabr 2006-cı il tarixli, 148-IIIQ saylı Qərarı".
5. "Azərbaycan Respublikasının Abşeron rayonunun Xırdalan qəsəbəsinə şəhər statusunun verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 2 oktyabr 2006-cı il tarixli, 149-IIIQ saylı Qərarı".
6. "Population statistics of Eastern Europe". 2012-04-18

ƏSHƏD ƏHMƏDOV KÜÇƏSİNDƏ PİYADA KEÇİDLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

ORXAN HƏSƏNOV
Nəqliyyat və logistika fakültəsi
Azerbaijan Technical University
hsnovorxan6@gmail.com
BAKU, AZERBAIJAN

ÇİNGİZ RƏHİMOV
Nəqliyyat və logistika fakültəsi
Azerbaijan Technical University
turan.cingiz@mail.ru
BAKU, AZERBAIJAN

RAUF SƏFƏROV
Nəqliyyat fakültəsi
Azerbaijan University of Architecture and Construction
rauf.seferov.1988@mail.ru
BAKU, AZERBAIJAN

XÜLASƏ

Son illərdə Bakı şəhərində sürətli iqtisadi inkişaf, əhalinin sayının artması, işgüzar fəallığının genişlənməsi, müxtəlif təyinatlı binaların və obyektlərin tikintisinin vüsət alması nəqliyyat sisteminin fəaliyyətinə öz təsirini göstərmişdir. Belə ki, Bakı şəhərində nəqliyyat vasitələrinin sayının çoxalması yol hərəkətini kəskin şəkildə intensivləşdirmişdir. Nəticədə, Bakı şəhəri də bütün iri şəhərlərə xas olan nəqliyyat problemləri ilə üzləşmişdir. Bunlardan mövcud küçə-yol şəbəkəsinin hərəkətin yaranmış gərginliyinin öhdəsindən tam gələ bilməməsi, buraxılış qabiliyyətinin aşağı düşməsi, Bakının nəinki mərkəzi hissəsində, eləcə də şəhərə girişi-çıxışı, tranziti təmin edən bütün istiqamətlərdə, xüsusilə pik saatlarında gündəlik həyat ahənginə mənfi təsir göstərən çoxlu tıxacların əmələ gəlməsi və piyadaların maneəsiz keçidlərinin olmaması qeyd edilməlidir.

Məqalənin məqsədi piyadaların maneəsiz keçidlərinin təşkili məqsədilə Əsəd Əhmədov küçəsində piyada keçidlərinin təkmilləşdirilməsi istiqamətində təkliflər verilməsi və həll yollarının müəyyənləşdirilməsidir. Bu məqsədlərə nail olunması üçün bir sıra müasir təkliflər hazırlanaraq, onların üstünlükləri izah edilmiş və tətbiqinin zəruriliyi əsaslandırılmışdır.

Açar sözlər: Piyada, piyada keçidi, tıxac, 3D piyada keçidləri, yol qurğuları, yeraltı və yerüstü keçidlər.

Keywords: Pedestrian, pedestrian crossing, traffic jam, 3D pedestrian crossings, road facilities, underground and overpasses.

Ümumi baxış

Nəqliyyat sisteminin inkişafı Azərbaycan Respublikası üçün böyük əhəmiyyət kəsb edir. Ölkə iqtisadiyyatının infrastruktur sahələri olan enerji, rabitə, təhsil, səhiyyə ilə yanaşı, nəqliyyat cəmiyyətin həyat fəaliyyətinin ilkin tələbatını təmin etməklə sosial, iqtisadi, xarici siyasət və digər dövlət prioritetlərinə nail olmaq üçün mühüm rol oynayır (Rəhimov Ç.H., 2017, Rəhimov Ç.H., 2022)

Son illər ölkəmizdə ictimai həyatın bütün sahələrində əldə edilən dinamik inkişaf respublikamızın geosiyasi əhəmiyyətini xeyli artırmışdır. Bütün bunlarla yanaşı, qlobal iqtisadi məkanda cərəyan edən sosial-iqtisadi proseslərdə fəal iştirak etmək, xarici bazarlara səmərəli çıxış, rəqabət qabiliyyətli milli sənayeyə sahib olmaq kimi vacib vəzifələrin icrası zərurətə çevrilmişdir. Müasir dövrdə dünya gündəmini zəbt edən qloballaşma, sürətli inteqrasiya, davamlı inkişaf və s. məsələlər ölkəmiz üçün də xüsusi aktuallıq kəsb edir (Cavadov,Ə.Ə, 2010, Tağızadə, Ə., 2002).

Bu gün ölkə iqtisadiyyatının sürətli və hərtərəfli inkişafında nəqliyyat sektorunun xüsusi yeri var. Bu sektor məhsul və xidmətlərin istehsalı, paylanması və istehlakı sahəsində fəaliyyət növlərini əhatə edir və bütün iqtisadi fəaliyyətlər məcmusunda inkaredilməz rola malikdir.

Mövcud vəziyyətin təhlili

2023-cü ildə 1636 və ya 2022-ci illə müqayisədə 1,9 faiz az yol-nəqliyyat hadisəsi baş vermiş, bu hadisələr nəticəsində zərər çəkən şəxslərin sayı 2,7 faiz azalaraq 2229 nəfər olmuşdur. Onlardan 862-si həlak olmuş, 1367-si isə yaralanmışdır. Hadisələrin 42,5 faizi gündüz, 38,9 faizi gecə, 18,6 faizi isə toran vaxtı baş vermiş, 31,5 faizi həftənin şənbə və bazar günlərinə təsadüf etmişdir [6-7].

Yol-nəqliyyat hadisələrinin 87,1 faizi yaşayış məntəqələrində baş vermiş, bu hadisələr nəticəsində həlak olanların sayı ötən ilə nisbətən 8,2 faiz artaraq 636 nəfər, yaralananların sayı isə 2,3 faiz azalaraq 1299 nəfər olmuşdur (http://www.stat.gov.az., https://elmi-spektr.com/-piyada-olumleri/).

Cədvəl 1. Yol-nəqliyyat hadisələrinin və zərərçəkənlərin sayı

Göstəricinin adı	2023-cü il	2022-ci ilə nisbətən, faizlə
Bütün yol-nəqliyyat hadisələri – cəmi	1636	98,1
Məkanına görə:		
magistral avtomobil yollarında	211	82,1
yaşayış məntəqələrində	1425	101,0
İşıqlılıq vəziyyətinə görə:		
gündüz vaxtı	695	92,7
toran vaxtı	304	106,3
gecə vaxtı	637	100,8
Yol örtüyünün vəziyyətinə görə:		
quru yol örtüyü	1551	98,4
digər (yaş, buz və s.)	85	92,4
Zərərçəkənlərin sayı, nəfər	2229	97,3
həlak olanlar	862	103,4
yaralananlar	1367	93,9

Bütün yol-nəqliyyat hadisələrinin 39,7 faizi nəqliyyat vasitələrinin və piyadaların, 38,2 faizi bir neçə nəqliyyat vasitəsinin, 22,1 faizi isə bir nəqliyyat vasitəsinin iştirakı ilə baş vermişdir. Yol-nəqliyyat hadisələri nəticəsində həlak olanların 75,4 faizini, yaralananların isə 72,3 faizini kişilər təşkil etmişdir.

Nəqliyyat vasitələrinin sərxoş vəziyyətdə idarə olunması səbəbindən ölümlə və ya bədən xəsarəti alınması ilə nəticələnən 22 hadisə baş vermiş, nəticədə 6 nəfər həlak olmuş, 29 nəfər yaralanmışdır. Hadisələrin 17-si minik avtomobillərinin sürücüləri tərəfindən törədilmişdir.

2012-2022-ci illər ərzində baş verən yol - nəqliyyat hadisələrinin statistikası cədvəl 2-də verilmişdir (http://www.stat.gov.az).

Cədvəl 2. Yol - nəqliyyat hadisələri

	2012	2013	2014	2015	2016	2017	2018	2019	2020	2021	2022
Yol-nəqliyyatı hadisələrinin sayı	2.892	2.846	2.635	2.220	2.006	1.833	1.817	1.870	1.587	1.649	1.668
Ərazi üzrə											
Avtomagistral yollarda	425	365	342	286	260	225	182	233	183	182	257
Yaşayış məntəqələrində	2.467	2.481	2.293	1.934	1.746	1.608	1.635	1.637	1.404	1.467	1.411
Yaşayış məntəqələrinin hüdudlarından kənarda	-	-	-	-	-	-	-	-	-	-	-
Aylar üzrə											
Yanvar	175	238	162	198	131	142	124	116	147	121	134
Fevral	140	173	148	153	124	106	103	119	145	119	127
Mart	191	225	205	161	155	139	140	139	126	122	126
Aprel	200	231	196	161	140	140	139	138	90	104	117
May	265	231	243	163	162	142	121	141	112	144	126
İyun	276	248	239	198	176	160	161	158	135	127	158
İyul	278	228	228	202	203	173	164	143	126	161	176
Avqust	271	275	260	210	213	153	159	170	133	149	137
Sentyabr	278	283	262	205	178	161	149	148	128	118	130
Oktyabr	302	257	251	182	180	162	149	173	126	171	156
Noyabr	248	216	220	187	174	182	199	230	155	150	152
Dekabr	268	241	221	200	170	173	209	195	164	163	129
Həftənin günlərinə görə											
Bazar ertəsi - Cümə axşamı	1.633	1.624	1.485	1.230	1.116	1.050	1.034	1.055	916	929	939
Cümə	408	376	394	319	314	251	255	263	213	238	208
Şənbə	431	412	385	330	292	258	280	286	239	240	259
Bazar	420	434	371	341	284	274	248	266	219	242	262
İşıq şəraitinə görə											
Gündüz vaxtı	1.217	1.164	1.066	963	883	797	744	840	676	694	750

Toran vaxtı	512	511	519	414	393	340	370	366	355	338	286
Gecə vaxtı	1.163	1.171	1.050	843	730	696	703	664	556	617	632
Yol örtüyünün vəziyyətinə görə											
Quru yol örtüyü	2.618	2.641	2.459	2.070	1.869	1.751	1.701	1.792	1.491	1.547	1576
Digər (yaş,buz və s)	274	205	176	150	137	82	116	78	96	102	92
Tiplər üzrə yol-nəqliyyat hadisələri - cəmi	2.892	2.846	2.635	2.220	2.006	1.833	1.817	1.870	1.587	1.649	1.668
Nəqliyyat vasitələri və piyadaların iştirakı ilə	1.065	1.097	988	923	882	938	863	816	664	721	683
Bir nəqliyyat vasitəsinin iştirakı ilə	711	680	653	499	394	331	366	425	362	355	374
Bir neçə nəqliyyat vasitələrinin iştirakı ilə	1.116	1.069	994	798	730	564	588	629	561	573	611
arxadan vurulma və toqquşmalar	150	124	128	94	98	60	67	81	35	54	73
yolların kəsişdiyi yerdə	150	151	123	94	105	77	80	120	85	93	72
qarşıdan toqquşmalar	761	725	684	560	486	398	400	397	409	392	422
digər, dayanmış nəqliyyat vasitəsinə vurma və s.	55	69	59	50	41	29	41	31	32	34	44
Yol- nəqliyyat hadisələrində həlak olanların sayı, nəfər	1.168	1.164	1.124	894	759	750	722	821	696	706	834
o cümlədən yaş qrupları üzrə:											
9 yaşdan kiçik	38	46	48	41	34	34	27	33	20	23	29
10-14 yaşında	23	14	29	18	16	16	17	16	7	14	19
15-17 yaşında	28	40	18	20	5	20	16	20	17	20	18
18-20 yaşında	44	42	37	31	17	24	21	22	17	17	22
21-24 yaşında	102	118	121	89	46	52	40	65	39	38	49
25-64 yaşında	837	798	779	594	536	512	516	561	512	510	593
65 və çox	96	106	92	101	105	92	85	104	84	84	104
Yaralananların sayı, nəfər	2.997	2.948	2.676	2.265	2.003	1.719	1.711	1.702	1.410	1.452	1.456
o cümlədən yaş qrupları üzrə:											
9 yaşdan kiçik	108	126	118	90	80	95	81	69	50	64	59
10-14 yaşında	73	77	82	74	60	71	57	67	54	56	54
15-17 yaşında	97	100	70	68	60	48	53	60	46	49	43
18-20 yaşında	179	166	136	111	68	61	62	65	62	72	46
21-24 yaşında	405	409	316	277	209	162	172	163	127	140	123
25-64 yaşında	2.019	1.957	1.849	1.560	1.437	1.175	1.206	1.195	1.003	983	1.055
65 və çox	116	113	105	85	89	107	80	83	68	88	76

Azərbaycan Republikasının "Yol hərəkəti haqqında" Qanununa əsasən, "piyada – nəqliyyat vasitələrindən kənarda yol hərəkətində iştirak edən və yolda hər hansı iş görməyən şəxsdir". Aşağıdakı cədvəl son on ildə Azərbaycanda baş vermiş ümumi yol nəqliyyat hadisələrində piyadaların vurulma payını əks elətdirir (http://www.stat.gov.az., https://elmi-spektr.com/-piyada-olumleri/).

Cədvəl 3. Son on ildə Azərbaycanda baş vermiş ümumi yol nəqliyyat hadisələrində piyadaların vurulma payı

İllər	**2009**	**2010**	**2011**	**2012**	**2013**	**2014**	**2015**	**2016**	**2017**	**2018**
Piyadaların vurulma payı (%)	39,6	39,8	38,7	36,8	38,5	37,5	41,6	44	51,2	47,5

Cədvəldən də göründüyü kimi, son on ildə Azərbaycan Respublikasında baş verən yol nəqliyyat hadisələrinin böyük bir hissəsi piyadaların vurulması ilə nəticələnmişdir. Narahatlıq doğuran digər bir məqam isə bu tendensiyanın getdikcə artmasıdır. Aşağıdakı cədvəldən də göründüyü kimi, Azərbaycanda baş verən yol nəqliyyat hadisələrinin əsas səbəbkarı sürücülərdir (https://elmi-spektr.com/-piyada-olumleri/).

Cədvəl 4. Azərbaycanda baş verən yol nəqliyyat hadisələri

İllər	2012	2014	2016	2018
Baş vermiş yol-nəqliyyat hadisələrinin ümumi sayı	2892	2635	2006	1817
Sürücülərin yol hərəkəti qaydalarını pozması (%)	86.3%	93.4%	95.2%	92.6%
Piyadaların yol hərəkəti qaydalarını pozması (%)	10%	4%	3%	6%

Növbəti cədvəldə Azərbaycanda il ərzində qeydə alınan ölümlə nəticələnən ümumi yol nəqliyyat hadisələrinin sayı verilmişdir. Yəni, buradakı rəqəmlər sadəcə piyadaların deyil, eləcə də digər yol istifadəçilərinin (minik avtomobili, avtobus, yük maşını, velosipedçi və s.) iştirakı ilə baş verən ölümlə nəticələnən yol nəqliyyat hadisələrini əks etdirir.

Cədvəl 5. igər yol istifadəçilərinin (minik avtomobili, avtobus, yük maşını, velosipedçi və s.) iştirakı ilə baş verən ölümlə nəticələnən yol nəqliyyat hadisələri

İllər	2010	2011	2012	2013	2014	2015	2016	2017	2018
Ölümlə nəticələnən yol nəqliyyat hadisələrinin	925	1016	1168	1164	1124	894	759	750	722

Diqqət çəkən məqam ondan ibarətdir ki, 2013-cü ildən etibarən davamlı olaraq Azərbaycanda baş vermiş ölümlə nəticələnən ümumi yol nəqliyyat hadisələrinin sayı azalsa da, piyada ölümlərinin sayı artmaqda davam edir. Belə ki, əgər 2015 və 2016-cı illərdə müvafiq olaraq 333 və 319 nəfər piyada yol-nəqliyyat hadisələri nəticəsində həlak olmuşdursa, 2017 və 2018-ci illərdə müvafiq olaraq 359 və 345 nəfər piyada yol-nəqliyyat hadisələri nəticəsində həyatını itirmişdir. Aşağıdakı qrafikdə, Azərbaycanda 2007-2016-cı illərdə baş vermiş piyada ölümlərinin ümumi yol nəqliyyat hadisələrində ölənlərin sayına görə faiz nisbəti əks olunmuşdur (https://elmi-spektr.com/-piyada-olumleri/).



Şəkil 1. Azərbaycanda 2007-2016-cı illərdə baş vermiş piyada ölümlərinin ümumi yol nəqliyyat hadisələrində ölənlərin sayına görə faiz nisbəti

Göründüyü kimi, Azərbaycanda piyada ölümlərinin ölümlə nəticələnən yol nəqliyyat hadisələrinə görə faiz nisbəti son illərdə artmaqda davam edir. Xüsusən qeyd olunan tendensiya 2015-ci ildən etibarən özünü bariz şəkildə göstərir. Birmənalı olaraq qeyd edilməlidir ki, Azərbaycanda yol təhlükəsizliyi ilə bağlı ən narahatedici məqam artan piyada ölümləridir. Məlumat üçün qeyd edim ki, 2007-2016-cı illərdə heç bir Avropa İttifaqı ölkəsində piyada ölümlərinin ümumi yol nəqliyyat hadisələrində ölənlərin sayına görə faiz nisbəti 40% olmayıb. Təəssüflər olsun ki, Avropa İttifaqı ölkələri arasında piyadalar üçün ən təhlükəli yollar hesab edilən Latviya və Rumıniya yolları ilə müqayisədə belə Azərbaycanda vəziyyət daha pisdir. Aşağıdakı qrafikdə Azərbaycanın Avropa İttifaqı ölkələri ilə 2016-cı il üzrə piyada ölümlərinin ümumi yol nəqliyyat hadisələrində ölənlərin sayına görə faiz nisbətinin müqayisəsi əks olunmuşdur.



Şəkil 2. Yol nəqliy yat hadisələrinin baş vermə yeri və işıqlılıq şəraiti

Azərbaycanda baş verən yol nəqliyyat hadisələri haralarda baş verir və bu hadisələrin işıqlıq şəraiti ilə əlaqəsi nədir? Aşağıdakı qrafikdə 2010-2017-ci illərdə baş vermiş yol nəqliyyat hadisələrinin baş vermə ərazisi üzrə faiz bölgüsü əks olunmuşdur.



Şəkil 3. 2010-2017-ci illərdə baş vermiş yol nəqliyyat hadisələrinin baş vermə ərazisi üzrə faiz bölgüsü

Buradan görünür ki, baş verən yol ölümlərinin böyük əksəriyyəti yaşayış məntəqələrinə yaxın ərazilərdə baş verir. Bəs görəsən bunu şərtləndirən səbəb və ya səbəblər nədir? Bu suala cavab tapmaq üçün respublika yollarında baş verən yol nəqliyyat hadisələrinin baş vermə şəraitini müəyyənləşdirməliyik. Növbəti qrafikdə 2010-2017-ci illərdə respublikada baş vermiş yol nəqliyyat hadisələrinin işıqlıq şəraitinə görə təsnifatı aparılmışdır.



Şəkil 4. 2010-2017-ci illərdə respublikada baş vermiş yol nəqliyyat hadisələrinin işıqlıq şəraitinə görə təsnifatı

2010-2017-ci illərdə respublikada baş verən yol nəqliyyat hadisələrinin təxminən 60%-i gecə və toran vaxtı baş vermişdir ki, bu da yolların, xüsusən şəhər yollarının, küçə yollarının işıqlandırılması və gürünürlüyü məsələsini gündəmə gətirir (http://www.stat.gov.az., https://elmi-spektr.com/-piyada-olumleri/, https://google.az.).

Bütün bunları nəzərə alaraq, paytaxt Bakının nəqliyyat strukturunda əsaslı dəişiklər olmalıdır. Əsasən də insanların daha çox yaşadığı küçələrdə piyada keçidlərinə ciddi əhəmiyyət verilməlidir. Düzdür, paytaxda bir çox ərazidə piyada keçidləri salınıb lakin çox istifadə olunduqları üçün artıq silinib bəzi yerlərdə heç bilinmir bəzi yerlərdə isə bir başları bardürə yaxın olan hissələri qalıb.



Şəkil 5. İnsanların daha çox yaşadığı küçələrdə piyada keçidləri

Göründüyü kimi, demək olar ki, nəqliyyat vasitəsisinin sürücüsü yoldakı xətlənməni tamamilə görmür.

Bu ərazi Əshəd Əhmədov 17 ünvanında Dadaş Bünyazadə küçəsinin kəsişməsidir. Əvvəllər orda piyada keçidləri üçün xətlənmə olub, lakin indi yenilənməlidir.

Peyk şəklində görüdüyü kimi baxılan ərazidə xətlənmə olub, amma zaman kecdikcə silinib və indi görnmür. Əshəd Əshədov küçəsi istiqamətində biraz yuxarıda Böyük Bravo supermarketi yolun sağında-solunda isə Bazar Store yerləşir onların da önündə olan piyada kecidi silinib görsənmir və piyadalar yolu necə gəldi kecir bu da günün pik saatlarında sürücülərə və yol-nəqliyyat şəraitinə böyük maneə yaradır.

TƏKLİFLƏR

2018-ci ildən ehtibarən Naxçıvan Muxtar Respublikasında qurulmağa başlayan 3D piyda keçirdlərini pataxt Bakıda da istifadə edilməsi məqsədəuyğun hesab edilir.

Şəkil 6. 3D piyda keçirdləri

3D piyada keçidləri həm sürücülərin, həm də piyadaların görməsini rahatlaşdırır və gecə vaxtı piyada keçidi zolaqlarının qarşısının işqlandırması da olarsa, hərəkin səlis və rahat olmasına xidmət göstərir.

Şəkil 7. Əshəd Əhmədov küçəsinin piyada keçidi zolaqları

Bu tip piyada keçidləri eyni zamanda küçə və yolları estetik və dizayn baxımından daha da cəlbedici göstərir. Əsasən Əshəd Əhmədov küçəsinin 17-ci küçə ilə kəsişməsindən Böyük Bravo supermarketinin qarşısında yerləşən 3 piyada keçidini bu cür hazırlamaq 5 iş günü ərzində başa gələr və bu prosesin xərci təxminən 1100 azn təşkil edər. Təklif edilir ki, paytaxt Bakıda bu küçədən başlanaraq 3D piyada keçirdlərinə keçirilməsi yol hərəkəti təhlükəsizliyini artırmaqla piya ölümlərinin də azalmasına səbəb ola bilər.

Şəkil 8. Naxçıvan MR, Heydər Əliyev Muzeynin qarşısı

Xəritədə qırmızı işarələnən yerdə iki piyada keçidinin yeri göstərilmişdir. Birinci halda piyada keçidindən biraz qabaqda işıqfor var və onun qarşısında piyadaların keçidləri təmin edilə bilər.

Qeyd edilməlidir ki, 2018-ci ildə Azəraycanda ilk dəfə Naxçıvan Muxtar Resubliksasıda həyata keçrilən bu lahiyə özünü doğrultmuş və piyadaların təhlükəsiz keçidlərinə şərait yaratmışdır.

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən (https://elmi-spektr.com/-piyada-olumleri/, https://google.az.):

I. Avtomagistralların yaşayış məntəqələrindən keçən hissələrində yerüstü və ya yeraltı keçidlər arasında məsafə 400-800 metr, digər avtomobil yollarının yaşayış məntəqələrindən keçən hissələrində isə piyada keçidləri arasında məsafə 150-300 metr (yolayrıcıları arasında daha az məsafə olduğu hallar istisna olmaqla) olmalıdır.

II. Avtomobil yollarında yerüstü və ya yeraltı keçidlər aşağıdakı hallarda tikilməlidir:

1. avtomagistrallarda - bu Qanunun 9-1-ci maddəsinin I və II hissələri nəzərə alınmaqla;

2. digər avtomobil yollarında - nəqliyyat vasitələrinin hərəkət şiddəti 300 avtomobil/saatdan, piyadaların hərəkət şiddəti 3000 adam/saatdan və yolun hərəkət hissəsinin eni 14 metrdən çox olduqda.

III. Bu Qanunun 9-1-ci maddəsinin III hissəsinin 2-ci bəndində nəzərdə tutulan avtomobil yollarında yerüstü və ya yeraltı keçidlərin tikilməsi vacib olan digər hallar müvafiq icra hakimiyyəti orqanı tərəfindən

müəyyən edilir.”.

Qanunun 2-ci bəndini nəzərə alaraq bu ərazidə yuxarıda xəritədə işarə edilmiş yerlərdə piyada keçidləri təşkil edilə və mövcud keçidləri təkminləşdirilə bilər. Yeni Yasamalın mərkəzi hissəsindəki qeyd edilən ərazinin uzunluğu 400 metrdən çoxdur və ətrafda böyük iyaşə obyetktləri vardır. Yuxarıda xəritədə işarə edilmiş ərazilər arasindakı məsafə 150 metrdir. Bu ərazidə piyada keçidlərinin təkminləşdirilməsi yol hərəkəti təhlükəsizliyini artırmış olacaqdır. Sürücülər isə piyada keçirdini daha əvvəldən rahat gördüyü üçün daha ehtiyyatlı olmağa məcbur olacaq və piyadaların etibarlı keçidləri təmin edilmiş olacaqdır.



Əvvəli vəziyyət

Sonrakı vəziyyət

Şəkil 9. Yeni Yasamalın mərkəzi hissəsindəki qeyd edilən ərazi

Piyada keçidlərinin təşkili üçün çəkiləcək xərcin bazar qiymətinə uyğunluğu

Piyada keçidlərinin təşkili üçün çəkiləcək xərclərin bazar qiymətinə uyğunluğu hesablamş və aşağıda verilmişdir.

Bazar qiyməyinə uyğun olaraq yol hərəkəti üçün nəzərdə tutulmuş yol boyasının 1 litrinin qiyməti 30 azn-dir. 3D piyada kecidlərində 2 rəng olur, ağ və sarı bir piyada kecidinin təşkil edilməsində 2 litr ağ və 4 litr sarı boya istifadə olunur, bu da bazar qiymətinə uyğun olaraq 300 azn edir. Bir usta bu işi 1 günə görür, onun da əmək haqqı 30 azn, bir piyada keçidi üçün 330 azn təşkil edir. 3 piyada keçidi bu nisbətdə 990 azn təşkil edir.

Boyanı yerə çəkmək üçün istifadə olunan süngər 3 azn-dir, biri ağ, digəri isə sarı rəng olduğu üçün 2 süngər istifadə olunacaq, bu da 6 azn təşkil edir. Cəmi 3 piyada kecidi üçün 18 azn dir. Əlavə olaraq boyaya qatılan su 5 azn-dir, 3-ü üçün 15 azn edir. Ümumilikdə qeyd edilən prosesin baş tutması üçün 1023 azn iş həcmi müəyyənləşdirilir.

İş prosesində ortaya cıxan əlavə xərcləri də nəzərə alsaq, bu işin görülməsi 1100 azn təşkil edə bilər və 3 günə bitirilə bilər. Əlavə görüləcək zəruri işləri də nəzərə alaraq 5 iş günündə piyada keçidlərinin təkminləşdirib istifadəyə verilməsinin mümkünlüyü müəyyən oluna bilər.

NƏTİCƏ

Təklifin həyata keçirilməsi nəticəsində Əshəd Əhmədov küçəsində piyada keçidlərinin təkmilləşdirilməsi vəyol hərəkəti təhlükəsizliyini artırmış olacaqdır. Nəticə etibarilə sürücülər isə piyada keçirdini daha əvvəldən rahat gördüyü üçün daha ehtiyyatlı olmağa məcbur olacaq və piyadaların etibarlı keçidləri təmin edilmiş olacaqdır.

İSTIFADƏ OLUNUŞ ƏDƏBIYYAT:

1. Rəhimov, Ç.H. Trafik sorunlarına innovativ yanaşma, innovasyon sürecında oyunla trafik eğitiminin önemi ve Azerbaycanda uygulanma potensiyeli. 2017, Çingiz Rəhimov.
2. Rəhimov, Ç.H. NƏQLİYYAT TƏLƏBATI – MÖVCUD VƏ PROQNOZLAŞDIRILAN GÖSTƏRİCİLƏR, 2022, AzMİU.
3. Cavadov,Ə.Ə "Daşımalar və vahid nəqliyyat sistemi" Bakı 2010.
4. Tağızadə, Ə., R.Bayramov "Yol hərəkətinin təşkili və təhlükəsizliyi" Bakı-2002.
5. http://www.stat.gov.az.
6. https://elmi-spektr.com/-piyada-olumleri/
7. https://google.az.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Bakı Mühəndislik Universitetinin birgə təşkilatçılığı ilə

BAKI MÜHƏNDİSLİK UNİVERSİETİ-BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRANS

AZƏRBAYCAN BEYNƏLXALQ NƏQLİYYAT SİSTEMİNDƏ:

HƏDƏFLƏR VƏ PERSPEKTİVLƏR

BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRASNS

Bakı Mühəndislik Universiteti, 24-25 May 2024-cü il, Bakı, AZƏRBAYCAN

PROCEEDINGS

S E K S İ Y A – 2

NƏQLİYYAT TEXNOLOGİYALARI VƏ İNNOVASİYALAR

24-25 MAY
Baku, Azerbaijan

APPLICATION PERSPECTIVES OF SMART TECHNOLOGY IN THE CREATION OF LOGISTICS INFORMATION SYSTEMS

HASHİMOVA ALBİNA CHİNGİZ GIZI

Azerbaijan State Academy of Physical Education and Sport –Head lecturer Economy
Albina-hesimova@mail.ru
BAKU, AZERBAİJAN

Summary

Analysis of the state of logistics and development trends in the world economy shows that in many ways, the state of logistics and supply chain management (SCM) is a key factor in increasing the competitiveness of enterprises. The global economic crisis clearly demonstrated how important it is for companies not only to reduce costs, but also to find new innovative solutions to maintain business stability in difficult and poorly predictable macroeconomic conditions. Firms that were able to correctly assess the situation and reorganize in time to new integration and coordination tracks, both internal logistics business processes and relations with counterparties in the supply chain, were able to not only maintain their positions, but also achieve significant achievements. In the modern economy, the use of integrated logistics principles is one of the main sources of sustainable competitive advantage for companies.

Keywords: logistics, supply chain, types of transport, logistics information systems, quality indicators.

Introduction. The development course of scientific and technical progress has led to the creation of information technologies, the use of computer and communication systems for the creation, collection, transmission, storage and processing of information for all areas of public life. Complex combinations of market relations, existing infrastructure and strategic management have formed the following dominant directions for the development of information technologies:

- formation and development of a new category of information products available in the form of software, databases and expert support services;
- properly implemented information product keeps its value longer than special carriers;
- ability to interact with logical elements of information technologies;
- means the opportunity to carry out an ideal exchange of information products;
- elimination of intermediate transitions due to the application of new technologies that ensure the transformation of information into accessible and convenient forms for immediate use by the consumer;
- the use of new information technologies leads to the creation of a more perfect market, which is understood as a market with a minimum number of intermediate connections between the buyer and the seller;
- manifests itself in the elimination of the difference between the use of information in everyday life and for production purposes.

Studying the information provision of the logistics process involves the following tasks: review of the role, importance and prospects of the use of information technologies, problems of application of information technologies in the field of logistics, as well as a brief overview of the main software products used in logistics systems[1,2].

Logistics information systems

The importance, role and prospects of using information technologies in logistics Modern logistics cannot be imagined without the active use of information technologies. It is difficult to imagine the formation of supply chains and the organization of their work without intensive, permanent, operative information exchange, without prompt response to market needs. Today, it is almost impossible to ensure the quality of goods and services demanded by consumers without using information systems and software systems to analyze, plan and support commercial decision-making in logistics systems, moreover, this is thanks to the development of information. Automation of systems and technologies and typical technological operations has become the dominant form of organizing the distribution of logistics

goods. The following priority directions in the development and improvement of global transport technologies and business have been announced:

* Mobility.
* Internet.
* Multimodality.

There was a conclusion about the need to move from competition between modes of transport to their active interaction on the multimodality and logistics platform. Indeed, all three general trends in the development of transport technology are central to the concept of modern globalization and market adaptation. It is characteristic that many modern trends in business development are aimed at the active use of electronic forms of business transactions. This is also reflected in the names of promising and effective electronic technologies: e-mobility, e-business, e-logistics; m-commerce etc. Prospects of future application of information systems and technologies in transport and logistics are impressive. Among them: information integration in transport based on internet and telematics to ensure global trans-European monitoring of goods movement; development of a network of high-speed toll roads with remote payment forms; improvement of internal and external document circulation in companies; formation of a network of virtual forwarding agencies and intermediary firms on the Internet to ensure self-organization processes in relations between customers and suppliers of goods and services; solving the problems of traffic stoppages at borders through the active application of GreenCustom - Green Customs technologies based on electronic document management (EDI ElectronicData Interchange); electronic forms of contracts and payments for goods and services in open commercial systems; global mobile communications provided by low-orbit satellite systems such as Globalstar; information integration with consumers on the internet intranet technologies platform of goods distribution and transport service companies; Mobile control based on WAP technologies and more.

Strategy and organization of logistics information supply at the firm level, the logistics system is divided into a number of structures that can be represented as horizontal functional subsystems in the field of procurement, production and distribution. Logistics integrates them into a system with common goals and objectives, which lie in minimizing the costs of the entire logistics chain, rather than individual elements. The tool of such a union is the information support of the company's logistics process, starting from the purchase of products to their sale[3,4].

With the development of logistics systems, the need for the application of logistics information systems, which allows to organically connect all logistics subsystems into a single whole, was felt more and more. At the current level of development of production, information is an independent factor of production, its potential opens wide prospects for strengthening the competitiveness of firms. One of the most important conditions for the successful operation of the company is the presence of such an information system, which allows all activities (production and service, including transport and storage services) to be coordinated and managed based on the principles of a single integrity. One of the approaches to creating a model of information flows in production is the analysis of the existing management system. This involves the reduction of certain production areas to separate components, combining them, you can get a structural model to analyze options for the structure of the enterprise. The structural model should consist of two main elements: production capacity and means of material flow organization. Combining these elements, researchers and organizers of the system divide the entire structure of the enterprise into buffer and technological parts. It includes all activities - from the reception of raw materials to the delivery of the finished product to the buyer. The main criterion that distinguishes technological zones is focused on the question: is the object of labor in a stationary state or is it set in motion. After receiving the answer to this question, it is further determined what specific data is collected, processed and transferred to ensure optimal material flow control. The transferred data groups defined in this way should include the following nine data elements, which are the basis for data control of the entire structure of inventory turnover:

1. type of delivery product;
2. quantity or its volume;
3. origin of the subject of delivery;
4. location (location);
5. time of arrival at the settlement;
6. time of departure from the settlement;

7. transport system;
8. shipping time.

The data groups listed are compiled for all placements and for each movable object. The last stage of building the information model of the system is related to the distribution of the received data on two computer systems with different fields of activity. One system (related to transfer orders) controls and manages the flow of materials, while the other controls production itself and controls the backlog of materials that are directly affected by the production process[5].

The presence of an advanced information structure of production provides two aspects of the overall logistics process. First, this system allows to organically link the flow of goods and materials with the production as well as the overall planning and management system at the firm level. The existence of such a relationship ideally allows to ensure that no relevant decision regarding the production process can be taken and implemented without linking it to the overall strategy and goals of production. Second, it covers all levels with both direct (top-down) and reverse (bottom-up) transitions, allowing the upper level to obtain sufficient information about the state of individual production relationships and to react quickly to ongoing changes. Such a system can quickly affect production processes:

a) provision of currently needed products to the market;

b) fulfillment of targeted orders of consumers in the shortest possible time;

c) maintaining high quality continuously.

In the conditions of fierce competition, special importance is attached to the planning and management of the company's production and marketing activities. First of all, it is necessary to use the following main types of information stored in the memory of automated information systems for information support of management decisions in the field of sales:

1) history of the sales market (analysis by region), types of sales operations; 2) market and sales forecasts; 3) competition, its history, situation, prospects; 4) market share, its history and analysis; 5) prices and prices; 6) expenses; 7) market (sales) models; 8) control of personnel activity; 9) territorial planning, periods of business trips, personal distribution of business trips; 10) sources of requests for switching to a new product; 11) register of buyers; 12) outgoing and received information; 13) printing and sending mail; 14) control of responses and analysis of the results of advertising activities; 15) calculation of marketing activity; 16) movement of orders, settlement, budget and reporting; 17) access to internal and external information[6,7].

The formation of an integrated information system for the supply, production, marketing of the enterprise is a complex and multifaceted process that uses the achievements of modern information technologies, the latest computer systems, etc.

Currently, paperless information exchange technologies are widespread. This direction of logistics has evolved into advanced technologies supported by software and hardware. Electronic Data Interchange is a process that allows one company's computers to communicate and even transact with another company's computer. To realize these possibilities, companies use standard exchange protocols and enter into commercial agreements with each other. In the field of distribution in the United States, for example, there are two standard protocol systems - the standards of networks for the exchange of information between commercial enterprises and the general communication standard. Standard computer protocols for transaction processing at the same location have been developed and used for the following transactions: purchase orders; orders for shipment of goods;obtaining advice for shippers; filling invoices; various payments; registration of waybills for transportation of goods; to get information about transported goods.

The current level of development of computer technology and information technology allows to obtain the necessary information in almost any quantity and at all stages of the order through the channels of the company. To solve such problems, integrated information systems provide new opportunities, with the help of which all the necessary information is organized according to the goals and principles defined by logistics.

Logistic transaction sequences of documents using codes can be shown in the example given in table 4. The transaction code used here identifies the relevant document.

Application of standards in logistics information computer technologies is constantly expanding.

According to the authoritative experts of a number of companies, the information infrastructure created on the basis of modern, high-speed computers and appropriate software within individual

structural units and companies as a whole transforms information from an auxiliary (service-providing) function.

Stages and problems of application of information technologies in the field of logistics: the concept of automated management systems, widespread in the 1960s and 1970s, has undergone significant changes today. From an independent specialized unit for data collection and processing, an automated management system is gradually turning into a distributed information service. The quality and accessibility of the information necessary for specialists, as well as the convenience of its presentation and use for solving, are in the foreground. Conceptual changes in the approaches to working with information about logistics systems in companies are particularly evident[8].

- çatdırılma marşrutlarının avtomatik və əl ilə planlaşdırılması;
- uçuşların formalaşdırılması;
- uçuşları dəstəkləmək üçün resursların idarə edilməsi;
- uçuş əməliyyatlarına nəzarət;
- şirkətin tarif siyasətinin idarə edilməsi;
- qarşılıqlı əlaqənin idarə edilməsi;
- giriş nəzarəti;

analitik hesabatların alınması;

elektron xəritələrdə məlumatların vizuallaşdırılması.



Şəkil 1. Nəqliyyat idarəetməsini yönləndirmək**.**

Alt sistem istifadəçiyə tam və əvvəlcədən hazırlanmış nəqliyyat axınlarını avtomatik və əl ilə yaratmaq imkanı verir:

1. nəqliyyatın hərəkətinin planlaşdırılması xərcləri;
2. nəqliyyatın hərəkətinin uçuşun icrasına nəzarət.



Şəkil 2. 1C: TMS Logistics proqramının iş sxemi

Nəqliyyat axınının hərəkəti üçün müxtəlif istiqamətlərdə müxtəlif növ nəqliyyat vasitələri ilə daşınma üçün qanuni tələblərə cavab verən çap blankları paketi yarada bilərsiniz.



Şəkil 3. Nəqliyyat axınının hərəkət qrafiki

Alt sistem istifadəçiyə əvvəlcədən planlaşdırılan səfərləri yerinə yetirmək üçün nəqliyyat vasitələrinin və işçilərinin ayrılması və ya axtarışı üçün ərizələri emal etmək imkanı verir [8].

Elektron xəritələrdə məlumatların vizuallaşdırılması üçün alt sistem müəyyən bir nəqliyyat vasitəsinin marşrutunu tərtib edərkən dispetçerin rahatlığını artırmağa imkan verir. Elektron kartlar yoxdursa, bu alt sistemin funksiyaları aktiv deyil.

OpenStreetMap – WEB kartoqrafiya, faktiki marşrutların monitorinqi üçün uyğundur (məhsulun çatdırılmasının QLONASS monitorinqi), pulsuz kartoqrafiya. Windows və Linux OS altında işləyir.

ITOB: Kartoqrafiya – marşrutun formalaşmasına nəzarət etmək üçün WEB kartoqrafiya, bütün bölgələr üçün uyğun olan yol hərəkəti qaydalarına uyğun marşrutlar yaratmağa imkan verir. Windows və Linux OS altında işləyir [7].

"1C: QLONASS/GPS Peyk Monitorinq Mərkəzi" ilə integrasiya

"1C: TMS"-in "1C: QLONASS/GPS Peyk Monitorinq Mərkəzi" ilə birgə istifadəsi sistemin funksionallığını genişləndirəcək və hərəkət edən obyektlərin, nəqliyyat vasitələrinin və ya personalın real vaxt rejimində əlavə monitorinqinə və nəzarətinə imkan verəcək:

1. obyektin yerini və faktiki yürüşünü izləmək;
2. faktiki yanacağın sərfiyyatı haqqında hesabatlar, yanacağın doldurulması və drenajlarının uçotu;

3. müxtəlif hadisələr baş verdikdə bildirişlər;
4. planlaşdırılmış marşrutlardan sapmaların qarşısının alınması;
5. nəqliyyat təhlükəsizliyini təmin etmək üçün SOS panik düyməsindən siqnal qəbul etmək;
6. sürət həddinə nəzarət, icazə verilən sürəti aşmaq;
7. gəzinti işçilərinin işinə nəzarət.

Sürücülər və ya kuryerlər Android əməliyyat sistemi ilə işləyən mobil cihazlarla təchiz oluna bilər. "1C: TMS"-dən planlaşdırılmış tədarüklər tapşırığı qəbul edən və hər mərhələdə onun gedişatının vəziyyətini əks etdirən işçilərə mobil cihazlara ötürülə bilər. Beləliklə, dispetçer və logistik real vaxt rejimində tapşırıqların yerinə yetirilməsinə nəzarət edə, mətn mesajları mübadiləsi edə, fotoreportajlar qəbul edə və obyektin trayektoriyasına nəzarət edə bilər.

Proqram 1C: TMS Logistics: Nəqliyyatın İdarə Edilməsi yük daşımaları sahəsində müxtəlif vəzifələrlə üzləşən müəssisələr üçün yaradılmışdır [9].

Nəqliyyat axınlığı və multimodal yüklərin təşkili də daxil olmaqla, bir çox nəqliyyat logistikasını avtomatlaşdırmağa imkan verir. Sənaye həlli ümumi məlumat və analitik platforma (DBMS) əsasında fəaliyyət göstərən "nəqliyyat planlaması", "sürücü iş stantsiyası", "nəqliyyat vasitələrinin idarə olunması" və "GLONASS / GPS monitorinqi" modullarından ibarətdir. Bu proqram, Android əməliyyat sistemli mobil qurğularda, PC-də, "sürücü iş stansiyası" modulunda quraşdırılmışdır. Yük idarəetmə sistemi üçüncü tərəf şirkətlərindən öz nəqliyyat və ya sifariş xidmətlərini istifadə edən yük daşıyıcı şirkətlər üçün nəzərdə tutulmuşdur. Proqram, çatdırılma xidmətləri ilə hər hansı bir şirkət üçün faydalı olacaq, çünki bu, şəhərin, şəhərlərarası və beynəlxalq malların daşınması barədə bütün detalları planlaşdırmağa və nəzarət etməyə imkan verir. Funksional proqram yük daşımalarının bütün mərhələlərini idarə etməyə imkan verir - mənfəətlərin hesablanması və işçilərin fəaliyyətini təhlil etmək üçün vəzifələri və planlaşdırma marşrutlarını tərtib etməkdən. Sistem, tətbiqlər göndərilir və mesajlar mübadiləsi vasitəsilə sürücülər üçün mobil proqram ilə bir-birinə bağlıdır [10].

Nəqliyyatın idarə edilməsi nəqliyyat logistikasının avtomatlaşdırılması problemlərinin kompleks həlli üçün proqram məhsuludur. Sifariş idarəetmə sistemi kimi istifadə olunur. Materialların və ya xidmətlərin istehsal mənbəyindən məhsul və ya xidmətlərin istehlakçısına çatdırılmasının avtomatlaşdırılması problemini həll edir və optimal marşrutlar yaradır. Müxtəlif nəqliyyat növlərini nəzərə alaraq tədarük zəncirindəki əlaqələri birləşdirir. Nəqliyyatın idarə edilməsi və hərəkət edən obyektlərin QLONASS monitorinqi üçün funksionallıq mövcuddur (nəqliyyat vasitələrinə və ya yükün özünə nəzarət). Sistemin funksionallığı logistika və təchizat zəncirinin idarə edilməsi üzrə bütün tapşırıqları əhatə edir. Standart funksionallıq istifadəçi ehtiyaclarına uyğun olaraq fərdiləşdirilə bilər və spesifik xüsusiyyətlərdən və fəaliyyət miqyasından asılı olaraq demək olar ki, hər hansı bir şirkətin tapşırıqlarına uyğunlaşdırıla bilər. Bu, proqramın imkanlarından maksimum istifadə etməyə, nəqliyyat proseslərinin idarə edilməsinin səmərəliliyini artırmağa imkan verir [10].

NƏTİCƏ

Nəqliyyat sahəsində İKT-nin bir çox yeni tətbiqləri artıq inkişafın və/və ya kommersiya tətbiqinin müxtəlif mərhələlərindədir. Bu proqramlar yük və ya sərnişinlər üçün Nəqliyyat sistemlərinin bütün növlərini əhatə edir. Bu yazıda biz hazırda ağıllı nəqliyyat sistemlərini inkişaf etdirmək üçün istifadə olunan əsas texnologiyaları nəzərdən keçirərək, ağıllı nəqliyyat sistemləri və tətbiqləri ilə bağlı dərin araşdırma apardıq. Biz bu texnologiyalardan istifadə edərək çətinlikləri, tarixi və ağıllı nəqliyyat tətbiqlərini vurğuladıq. Bundan əlavə, biz ağıllı nəqliyyat sistemlərinin inkişaf sxemlərini təmin edən ümumi arxitekturaları müzakirə etdik. Biz bu texnologiyalarla bağlı bir neçə cari tədqiqatı, eləcə də bu sistemlərin nəzəri qiymətləndirmələrini topladıq. Daha sonra bu tətbiqlərin istifadəsini ağıllı nəqliyyat sektorunda tətbiq olunan seqmentlərə genişləndirdik.

Bundan əlavə, funksionallığı təmin etmək üçün bu ağıllı nəqliyyat sistemlərinin istifadə etdiyi rabitə protokolları təhlil edilmişdir. Ümumi rabitə protokolları, eləcə də hazırda nəqliyyat sistemlərinin problemlərini təkmilləşdirmək üçün bu protokollardan istifadə edən sistemlər izah edilib. Hal-hazırda bu sistemlərin üzləşdiyi problemlər bu məqalədə, eləcə də cəmiyyətimizdə bu sistemlərin problemlərinin yaxşılaşdırılmasına xeyirli təsir göstərə biləcək gələcək tədqiqatlarda həll edilmişdir. Bu yazıda biz hazırda ağıllı nəqliyyat sistemlərini inkişaf etdirmək üçün istifadə olunan əsas texnologiyaları nəzərdən keçirərək, ağıllı nəqliyyat sistemləri və tətbiqləri ilə bağlı dərin araşdırma apardıq. Biz bu texnologiyalardan istifadə edərək çətinlikləri, tarixi və ağıllı nəqliyyat tətbiqlərini vurğuladıq. Bundan əlavə, biz ağıllı nəqliyyat sistemlərinin inkişaf sxemlərini təmin edən ümumi arxitekturaları müzakirə

etdik. Biz bu texnologiyalarla bağlı bir neçə cari tədqiqatı, eləcə də bu sistemlərin nəzəri qiymətləndirmələrini topladıq. Daha sonra bu tətbiqlərin istifadəsini ağıllı nəqliyyat sektorunda tətbiq olunan seqmentlərə genişləndirdik.

Bundan əlavə, bu ağıllı nəqliyyat sistemlərinin funksionallığını təmin etmək üçün istifadə olunan rabitə protokolları təhlil edilmişdir. Ümumi rabitə protokolları, eləcə də hazırda nəqliyyat sistemlərinin problemlərini təkmilləşdirmək üçün bu protokollardan istifadə edən sistemlər izah edilib. Hal-hazırda bu sistemlərin üzləşdiyi problemlər bu məqalədə və cəmiyyətimizdə bu sistemlərin problemlərinin yaxşılaşdırılmasına xeyirli təsir göstərə biləcək gələcək tədqiqatlarda həll edilmişdir.

ƏDƏBİYYAT SİYAHISI

1. İmanov T. (2005). "Logistikanın əsasları" (I hissə), Bakı, Təhsil nəşr, 474 səh.
2. İmanov T., Məmmədov A.T. (2005). "Logistikanın əsasları" (II hissə) Bakı, Təhsil nəşr, 670 səh.
3. Şabanlı N. (2021). "Nəqliyyat logistikası" Bakı, Red line nəşr, 120 səh.
4. Maier R., Passiante G., Zhang "Creating value in networks" International Journal of Innovation and Technology Management, S. 2011, vol. 8, №3, p.357-371.
5. Yəhyayeva E., Şixəliyeva S., Osmanova G. (2019). "Logistika" Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ) GmbH Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) nəşr, 62 səh.
6. Абдулгазис В. С. (2015) "Особенности участи РФ в международных перевозках железнодорожным транспортом" "Теория и практика современной науки". стр.145-178.
7. Абдулгазис В. С. (2016) "Международные перевозки: учебное пособие" Симферополь: ИП Хотеева Л. В. 124 стр.
8. Афонин А. М. (2018) "Транспортная логистика: организация перевозки грузов: учебное пособие" М.: ФОРУМ: Инфра-М. 368 стр.
9. Берман Н.Д. "К вопросу о цифровой грамотности" / Современные исследования социальных проблем (электронный научный журнал). 2017. Т. 8. № 6-2. стр.35-38.
10. https://www.1cbit.ru/1csoft/1s-predpriyatie-8-1s-logistika-upravlenie-perevozkami/

SMART KONTEYNERLƏRIN TƏTBIQINDƏ YARANAN PROBLEMLƏR VƏ ONLARIN HƏLLI

DILAN MƏMMƏDOV

AZTU-NUN NƏZDİNDƏ BAKI TEXNİKİ KOLLECİNİN MÜƏLLİMİ
BAKI, AZƏRBAYCAN

Xülasə

Smart konteynerlərin tətbiqində yaranan problemlərin həlli məqsədilə, uzaqdan IoT bağlantısı üçün nəzərdə tutulmuş uzun məsafəli, az enerjili, batareya ilə işləyən sensorlar və simsiz rabitə protokolları getdikcə inkişaf edir. Məqalədə problemlərin həlli məqsədlə LoRa (Long Range) texno-logiyasına əsaslanan LPWAN (Low-power Wide-area Network) protokolu rabitə standartı LoRaWAN (Long Range Wide Area Network) texnologiyası təklif olunur.

Açar sözlər: LPWAN, LoRa, LoRaWAN, əşyaların interneti.

PROBLEMS ARISING IN THE APPLICATION OF SMART CONTAINERS AND THEIR SOLUTIONS

Abstract

Long-range, low-power, battery-powered sensors and wireless communication protocols designed for remote IoT connectivity are increasingly being developed to address the challenges of smart container deployment. In order to solve problems, LoRaWAN (Long Range Wide Area Network) technology, a communication standard LPWAN (Low-power Wide-area Network) protocol based on LoRa (Long Range) technology, is proposed.

Keywords: LPWAN, LoRa, LoRaWAN, Internet of Things.

Giriş

Smart konteyner müxtəlif sensorlar, geolokasiya sistemləri və real vaxt rejimində onun yerini və yükün vəziyyətini izləməyə imkan verən digər qurğularla təchiz edilmiş daşıma vahididir.

Beynəlxalq bazarın inteqrasiyası və iqtisadi fəaliyyətin qloballaşması ilə yanaşı, beynəlxalq ticarət və logistika görünməmiş sürətlə inkişaf edir, Qlobal ticarətdə logistik daşımaların 80%-i konteyner daşımaları vasitəsilə həyata keçirilir. Konteyner daşımaları yüksək səmərəliliyi, rahatlığı və təhlükəsizliyinə görə müasir daşımaların mühüm növünə çevrilmişdir. Konteyner daşınmasında Əşyaların interneti (IoT- Internet of Things) texnologiyası konteynerləri daha ağıllı edir və ənənəvi konteyner daşımalarında təcrid olunmuş obyektləri birləşdirməyə imkan verir.

Ümumiyyətlə, smart konteynerə, real vaxt rejimində izləmə və monitorinqi təmin etmək üçün Əşyaların interneti texnologiyaları, sensorlar və GPS izləmə ilə inteqrasiya olunmuş Əşyaların interneti (IoT) ilə dəstəklənən konteynerlər aiddir.

Adi konteyneri "ağıllı" edən əsas texnologiyalar:

• konteynerin içərisindəki şəraitə nəzarət etmək üçün temperatur, rütubət, sürətlənmə sensorları.
• konteynerin yerini izləmək üçün GPS/QLONASS;
• məlumatların ötürülməsi üçün 4G/5G rabitə sistemləri;
• sistemlərin avtonom enerji təchizatı üçün quraşdırılmış batareyalar;
• uzaqdan girişə nəzarət üçün cihazlara giriş və bloklama;
• identifikasiya və izləmə üçün RFID etiketləri.

Bütün bu texnologiyalar konteyneri terminalların, multimodal nəqliyyat - logistika mərkəz-lərinin vahid informasiya sisteminə inteqrasiya edir və onun vəziyyətini və hərəkətini uzaqdan izləməyə imkan verir.

Smart konteynerlərdən istifadənin üstünlükləri çoxdur: yüklərin təhlükəsizliyinin artırılma-sından logistik proseslərin optimallaşdırılmasına və itkilərin azaldılmasına qədər.

Aşkar üstünlüklərinə baxmayaraq, smart konteynerlərin tətbiqi bir sıra problemlərlə üzləşir: konteynerlərin sensorlar və rabitə modulları ilə təchiz edilməsinin yüksək qiyməti; böyük məlu-matların toplanması və emal edilməsi üçün terminalların, limanların, multimodal nəqliyyat-logis-tika mərkəzlərinin İT infrastrukturunun modernləşdirilməsinə ehtiyac; konteyner daşıyıcılarının və multimodal nəqliyyat-logistika mərkəzlərinin fərqli platformalarını inteqrasiya etməkdə çətinlik; kiber hücumlar və yük məlumatlarına icazəsiz giriş riskləri.

Smart konteyner çoxlu logistika vahidlərinə də tətbiq oluna bilən və rəqəmsal platformanın analitik aləti vasitəsilə malların davamlı monitorinqinə, eləcə də tədarük zəncirlərinə real vaxt reji-mində nəzarət etməyə imkan verən kompleks inteqrasiya olunmuş yük çatdırılması həllər sistemi üçün nəzərdə tutulmuşdur.

Logistika sahəsində rəqəmsal texnologiyalar, o cümlədən sensorlar (IoT) və süni intellekt fiziki və rəqəmsal dünyaları birləşdirir, ənənəvi xətti tədarük zəncirlərini rəqəmsal tədarük zəncirlərinə (Digital Security Controls - DSC) əsaslanan ağıllı, sürətli tədarük şəbəkələrinə çevirir. Sonuncu blokçeyn və IoT texnologiyaları ilə birlikdə rəqəmsal logistikanın əsasını yaradır, istehlak-çılara real vaxt rejimində yüklərin daşınmasını izləmək və yüklərin hərəkəti mərhələlərinə baxmaq imkanı verir.

Əşyaların interneti (IoT) ağıllı altlıqlar və konteynerlər yaradır ki, bu da daşınan malların izlənməsini və ya onların anbarda axtarışını xeyli asanlaşdırır. IoT texnologiyalarının tətbiqi aşağı-dakı effektləri yaradır:

• yük daşıma xərclərinin və yol gecikmələrinin azaldılması;
• daşımanın şəffaflığının artırılması və insan amilinin minimuma endirilməsi;
• texnikanın təmiri və texniki xidmətin optimallaşdırılması;
• daşımaların "uberizasiyası" (GoCargo, Can Deliver), bu da vasitəçiləri və ekspeditorları aradan qaldırmağa imkan verir.

Smart konteynerlərin sayı ildən ilə artır. Ona görə də onlar üçün müəyyən innovasiyalar üçün tələblər işlənməsinə zərurət yaranır. Bu istiqamətdə çox saylı həllər mövcuddur.

Smart konteynerlərin tətbiqində yaranan problemlərin LoRaWAN texnologiyası ilə həlli

LoRaWAN, Sigfox, NB-IoT və LTE-M daxil olmaqla LPWAN sənayesində çoxsaylı texnologiyalar birgə mövcuddur və inkişaf edir.

LoRaWAN termini rabitə protokolunu və şəbəkənin sistem arxitekturasını göstərir və Lora fiziki səviyyəsi böyük bir məsafədə bir əlaqə təmin edən bir modulyasiyadir. Qovşaq batareyasının xidmət

müddətinə, şəbəkənin tutumuna, xidmət keyfiyyətinə, təhlükəsizliyə və tətbiqlərin müx-təlifliyinə ən çox təsir edən LoRaWAN-dır. GSMA tərəfindən aparılmış araşdırma və müqayisədə LPWAN, LoRaWAN məkanına yönəlmiş müxtəlif texnologiyalar, bütün digər texnologiyalarla müqayisədə 3-5 dəfə üstünlük göstərir.

LoRa, adətən çox uzun məsafələrə kiçik bir siqnal ilə məlumat ötürmək üçün istifadə edilən, Əşyaların İnterneti üçün yeni rabitə standartıdır. LoRa "Uzaq" sözünün sinonimidir. Adından aydın olur ki, LoRa-nın əsas xüsusiyyəti uzaq ötürmədir.

LoRaWAN açıq şəbəkə standartıdır və onun kanal səviyyəsinə girişi idarəetməsi LoRa Alliance tərəfindən dəstəklənir.

LoRaWAN texnologiya yığını təhlükəsiz iki istiqamətli rabitə, mobillik və lokalizasiya xid-mətlərini təmin edən çoxsaylı səviyyələrdən ibarətdir. Bu səviyyələrə daxildir:

• Son qovşaqlar və ya Cihazlar: Son qovşaq, LoRaWAN şlüzü ilə aşağı güclə əlaqə qura bilən tezlik ötürücü və digər funksiyalarla təchiz edilmiş cihaz və ya hər hansı obyektdir.

• Şlüzlər: Bunlar son cihazlarla şəbəkə serveri arasında körpü rolunu oynayan cihazlardır (qəbul edən və ötürən antenalar). Onlar son cihazlardan siqnal alır və onları şəbəkə serverinə ötü-rürlər.

• Şəbəkə Serveri: Şəbəkə Serveri bütün ötürülən məlumatların düzgün istiqamətləndirilmə-sini təmin edən proqram təminatıdır. LoRaWAN şəbəkəsini idarə edən mərkəzi cihazdır. O, cihaz-ların tanınmasını (autentifikasiyasını) həyata keçirir, son cihazlar və proqram serverləri arasında mesajları yönləndirir və şəbəkə təhlükəsizliyini təmin edir.

• Tətbiq Serveri: Şəbəkə serverində işləyən proqram təminatı. Bu, son cihazlardan məlu-matları qəbul edən, onları emal edən və proqrama çatdıran serverdir.

LoRaWAN şlüzü LoRa şəbəkə rabitə protokolunu TCP/IP protokoluna çevirə və LoRaWAN cihaz məlumatlarını şəbəkəyə ötürə bilən LoRa şəbəkə konnektorudur. Bu, WiFi cihazlarını şəbə-kəyə qoşmaq üçün sənaye simsiz istiqamətləndiricinin qurulmasına bənzəyir. Şlüzlər adətən istifa-dəçilər və ya həll təminatçıları tərəfindən yerləşdirilir və adətən digər əhatə dairəsi olmadan uzaq regional mərkəzlərdə yerləşdirilir.

LoRaWAN Bulud Serveri cihaz əlaqələrini və kommunikasiyalarını idarə edən bulud xid-məti mərkəzidir. Veb server fiziki server və ya bulud serveri ola bilər. Veb server buludda olduqda, qovşaq xidməti kimi şlüz "paket yönləndirmə" adlanan rejimdə, sadəcə olaraq havadakı bütün orijinal LoRa məlumat paketlərini veb serverə ötürən rejimdə işləyir. Bu rejimdə məlumatların şifrələnməsi və paketin şifrəsinin açılması, cihazın idarə edilməsi və qoşulması, verilənlərin təhlili və emalı kimi bütün məlumatlar AES (Advanced Encryption Standard - Elektron məlumatların şifrələnməsi standartı)-də saxlanılır, bu da serverin idarə edilməsini və yenilənməsini, verilənlərin oxunmasını və emalını asanlaşdırır.

LoRaWAN texnologiyası bir çox sənayedə, o cümlədən geniş çeşiddə IoT cihazlarını inteq-rasiyası üçün çox uyğundur, çünki onlar çox az enerji sərfiyyatı ilə uzun məsafəli rabitəni təmin edə bilirlər. LPWAN həllərini böyük miqyaslı IoT şəbəkələrini ucuz qiymətə yerləşdirmək istəyən təşkilatlar üçün cəlbedici edən digər mühüm amil xərc səmərəliliyidir. Bundan əlavə, LPWAN-ın batareya ilə işləyən cihazlarla uyğunluğu və əlverişsiz şəraitdə işləmək qabiliyyəti onun cəlbedi-ciliyini artırır, geniş inteqrasiyasını və LPWAN bazarının genişlənməsini təşviq edir. Bundan əlavə, təcrid olunmuş və ya əlçatmaz yerlərdə əlaqə həllərinə tələbat LPWAN bazarının böyüməsinə təkan verir. Ənənəvi kommunikasiya infrastrukturlarının yerləşdirilməsi qeyri-mümkün və ya bahalı ola biləcəyi böyük coğrafi ərazilərdə LPWAN həlləri əlaqə təmin etməkdə üstündür.

LoRaWAN şəbəkəsinin arxitekturası (şəkil 1) təhlükəsiz iki istiqamətli rabitə, mobillik və lokalizasiya xidmətlərini təmin edən çoxsaylı səviyyələrdən ibarətdir.



Şəkil 1. LoRaWAN şəbəkəsinin arxitekturası

LoRaWAN-ın üstünlükləri:

• Aşağı enerji istehlakı: LoRaWAN cihazları çox aşağı enerji sərfiyyatına malikdir və bu, onlara bir neçə il batareyalarla işləməyə imkan verir.

• Geniş Əhatə Sahəsi: LoRaWAN şəbəkələri geniş əhatə dairəsinə malikdir və bu, onları uzun məsafəli rabitə tələb edən həllər üçün uyğun edir.

• Aşağı məlumat sürəti: LoRaWAN şəbəkələri aşağı məlumat sürətinə malikdir, yəni onlar bir anda kiçik həcmdə məlumat ötürə bilirlər. Bununla belə, bu, bir çox IoT tətbiqləri, o cümlədən nəqliyyat-logistika üçün kifayət edir.

• Aşağı qiymət: LoRaWAN şəbəkələrinin yerləşdirilməsi və saxlanması nisbətən ucuzdur və bu, onları geniş çeşidli həllər üçün uyğun edir.

Çeviklik: LoRaWAN şəbəkələri çevikdir və xüsusi tələblərə uyğun olaraq konfiqurasiya edi-lə bilər.

• Təhlükəsizlik: LoRaWAN çox standart şifrələmə və təhlükəsizlik sisteminə malikdir. LoRa təhlükəsizlik sistemi iki əsas fərqli, lakin bir-biri ilə əlaqəli səviyyəyə bölünür.

Bunlara şəbəkə və tətbiq təhlükəsizliyi deyilir. Şəbəkə şifrələmə səviyyəsi LoRa son qavşa-ğının unikallığını və bütövlüyünü təmin edir.

Tətbiq təhlükəsizliyi, istifadə etdiyiniz şəbəkə buludunun sahibinin son istifadəçi kimi məlumatlarınıza daxil olmamasını təmin edir.

LoRaWAN şəbəkəsi, həmçinin qabaqcıl şifrələmə kodlarının digər iki səviyyə ilə inteqraiya olunub. Onlar:

LoRa son qovşaqları və şəbəkə serveri tərəfindən istifadə edilən və tanınan unikal 128-bit şəbəkə seans açarı alqoritmi.

Son bağlantıda tətbiq səviyyəsində tanınan və ötürülən unikal 128-bit proqram seans açarı alqoritmi.

LoRaWAN rabitə protokolu LoRaWAN şəbəkəsində ötürülən məlumatları şifrələyir. Məlu-matlar adi radio tezliyi ilə ötürüldüyü üçün, LoRaWAN şəbəkəsindəki bütün məlumatlar adətən iki dəfə şifrələnir.



Şəkil 2. LoRaWAN-ın üstünlükləri

Ağıllı konteynerin gömrük əməliyyatlarını dəyişdirə biləcəyi iki konkret istifadə halı vardır:

Qapının açılması və real vaxt rejimində bildirişi

Qapının icazəsiz açılması/bağlanması konteyner və/və ya yüklə bağlı qanunsuz hərəkətlərin identifikatoru kimi istifadə edilə bilər.

IoT sensorları bu cür icazəsiz hərəkətləri aşkarlayır və real vaxt rejimində smart konteynerin

idarəetmə qülləsi vasitəsilə gömrük orqanlarına məlumat verir.

Məlumatların emal, idarə edilməsi, ötürülməsi, monitorinqi və hətta "virtual ploblama" bir yerdə - ağıllı konteynerin dispetçer qülləsindən həyata keçirilir.

LoRaWAN® temperatur və rütubət sensoru LW002-TH həm temperaturu, həm də rütubəti ölçmək üçün effektiv və rahat olan müasir texniki rütubət və temperatur sensorudur. Müasir tempe-ratur və rütubət sensorlarından fərqli olaraq, 8000 mAh enerji təchizatı olan və daxili doldurul-mayan batareyaya malikdir. LW002-TH cihazı qapalı və açıq mühitlərə uyğun olduğundan geniş istifadə və tətbiqlərə malikdir.

LW008-MT seriyası qapalı və açıq məkanda yerləşdirmə üçün nəzərdə tutulmuş kiçik ölçülü

LoRaWAN izləyiciləridir və onlar bir çox sahələrdə, o cümlədən logistikada və digər aktiv izləmə ehtiyaclarında tətbiq olunur.

Şəbəkə quruluşu baxımından simsiz LoRaWAN protokolu çox sadədir. Onun şəbəkə struk-turu rabitə uzaqlığını artırmaq və enerji istehlakını azaltmaq üçün LoRaWAN son cihaz istifadəsini təşviq edən ulduz topologiyasıdır. Nümayiş və sınaqdan sonra bu ulduz strukturu şəbəkə struktu-rundan daha aşağı enerji istehlakı, geniş əraziyə malik IoT tətbiqi ssenarisi üçün daha uyğundur.



Şəkil 3. LoRaWAN –ın iş prinsipi

Ulduz topologiyası şəbəkə dizaynı mərkəzi məlumat emal rejimidir. Hər bir LoRaWAN son cihaz məlumatları çoxsaylı LoRaWAN şlüzlərinə ötürür və sonra LoRaWAN şlüz məlumatları mər-kəzi serverə ötürülür. Mərkəzi server toplanmış məlumatları mərkəzləşdirilmiş şəkildə idarə və emal edir, server mesajın planlaşdırılmasını, təhlükəsizlik araşdırmasını və məlumat ehtiyatının aşkarlanmasını tamamlayır. Mərkəzi server LoRaWAN son cihaz haqqında bəzi məlumatları veri-lənlərə uyğun olaraq qaytarır ki, LoRaWAN müəyyən cavab verə bilsin.

LoRaWAN-ın çatışmazlıqları:

- LoRaWAN rabitə şəbəkəsində məlumat ötürmə sürəti aşağıdır.
- Lisenziyasız tezlik diapazonlarında məlumat zolağında müdaxiləyə məruz qala bilər.
- LoRaWAN şəbəkə konstruksiyası böyük həcmdə məlumatların ötürülməsini dəstəkləmir.

Texnologiyanın sürətli inkişafı hazırda ən çox istifadə edilən dördüncü nəsil (4G) şəbəkələr yeni cihazların və tətbiqlərin tələblərinə çətinliklə cavab verir. Buna görə də mobil telekom-munikasiya üçün yeni standarta ehtiyac yaranıb. Yeni beşinci nəsil mobil (5G) standartı 2016-cı ilin iyulunda təqdim edilib və o vaxtdan bəri inkişaf etdirilir. 5G-nin planlarına təkcə sürətli mobil internet bağlantısı deyil, həm də 4G şəbəkəsinin əsas məqsədi olan aşağı gecikmə, kritik biznes sahələri və IoT tətbiqləri üçün aşağı enerji istehlakı və kütləvi rabitə daxildir.

5G-nin mühüm xüsusiyyəti texnologiyanı daha sürətli tətbiq etmək üçün 4G və 5G şəbəkə-lərinin birlikdə (hibrid) işləyə bilməsidir. Bu o deməkdir ki, hər iki şəbəkə eyni radiotezliklərdə işləyir və buna görə də 4G və ya 5G istifadə edən istənilən cihaz şəbəkəyə qoşula bilər. 5G-nin məqsədləri aşağıdakılardır: birincisi, 5G mobil şəbəkəsindən istifadə etməklə ən azı 1 Qbit/s sürət əldə edilməlidir. ikincisi, bir gediş-gəliş üçün gecikmə bir millisaniyədən az olmalıdır.

Şəkil 4. 5G və 4G əlaqəsi

LPWAN texnologiyasında 5G şəbəkəsinin tətbiqi LoRaWAN rabitə şəbəkəsində məlumat ötürmə sürətinin yüksəldilməsini, 1 Qbit/s tezlik, bir gediş-gəliş üçün gecikmə 1 millisaniyədən az olması isə məlumat zolağında müdaxilənin qarşısını alır və böyük həcmdə məlumatların ötürül-məsini imkan yaradır.

Uzun məsafəli ulduz şəbəkəsini canlı etmək üçün şlüz çox yüksək ötürmə qabiliyyətinə və ya çox sayda qovşaqdan gələn mesajları qəbul etmə qabiliyyətinə malik olmalıdır. LoRaWAN şəbə-kəsi bunu yüksək ötürmə qabiliyyəti, adaptiv məlumat sürətlərinin və şlüzdə eyni vaxtda mesajların birdən çox kanalda qəbul edilməsinə imkan verən çoxkanallı multi-modemli ötürücüdən istifadə etməklə əldə edilir.

Ötürmə qabiliyyətinə təsir edən ən mühüm amillər paralel kanalların sayı, məlumat sürəti (efir vaxtı), faydalı yükün uzunluğu və qovşaq ötürmə tezliyidir. LoRa yayılmış spektr modulyasi-yası olduğundan, müxtəlif yayılma amillərindən istifadə edildikdə siqnallar bir-birinə əsasən orto-qonal olur. Yayılma faktoru dəyişdikcə effektiv məlumat ötürmə sürəti də dəyişir. Şlüz eyni kanalda eyni vaxtda bir neçə fərqli məlumat sürətini qəbul edə bilməklə bu xüsusiyyətdən faydalanır. Əgər qovşaq yaxşı əlaqəyə malikdirsə və şlüzə yaxındırsa, onun həmişə ən aşağı məlumat sürətindən isti-fadə etməsi və mövcud spektri lazım olduğundan daha uzun müddət doldurması üçün heç bir səbəb yoxdur.

Məlumat ötürmə sürəti artdıqca, efirdə olma vaxtı azalır və digər qovşaqlar tərəfindən ötü-rülmə üçün daha çox potensial yer açılır. Adaptiv məlumat sürəti də qovşaq batareyasının ömrünü optimallaşdırır. Adaptiv məlumat sürətinin işləməsi üçün kifayət qədər aşağı keçid tutumu olan simmetrik yuxarı və aşağı bağlantılar tələb olunur. Bu xüsusiyyətlər LoRaWAN şəbəkəsinin çox yüksək ötürmə qabiliyyətinə malik olmasına və onun genişlənməsinə imkan verir.

Şəbəkənin yerləşməsində minimum həcmli infrastruktur və böyük tutum tələb olunarsa, mə-lumat ötürmə sürətini artıraraq daha çox şlüz əlavə edilə bilər, məlumat ötürmə sürətinin artması, digər şlüzlərdə dinləmələri azaldır və tutumu 6-8 dəfə artırır. Digər LPWAN alternativləri, aşağı kanalın buraxma qabiliyyətini məhdudlaşdıran və ya aşağı kanalın diapazonunu yuxarı kanalın diapazonuna asimmetrik edən texnologiya mübadilələri səbəbindən LoRaWAN-ın miqyasına malik deyil.

NƏTİCƏ

Smart LoRa cihazları və LoRaWAN standartı çatdırılan yüklərin daha yaxşı izlənilməsini, nəzarətini və təhlükəsizliyini təmin edir. LoRaWAN-ın geniş əhatə dairəsi və aşağı enerji sərfiyyatı irimiqyaslı simsiz qoşulmalara və məlumatların ötürülməsinə imkan verir ki, bu da daşıma zamanı konteynerlərin və yüklərin yerini dəqiq izləməyə, habelə onların cтатusuna nəzarət etməyə imkan verir. LPWAN texnologiyasında 5G şəbəkəsinin tətbiqi LoRaWAN texnologiyasının smart kontey-nerlərdə istifadəsində yaranan problemlərin həllində mühüm rol oynayacaqdır.

Azərbaycan Respublikası orta dəhlizdə mühüm tranzit nəqliyyat qovşağında yerləşdiyinə görə, yüklərin böyük həcminin konteynerlərlə daşınmasını nəzərə alsaq, ölkəmizdə qurulacaq ağıllı multimidal nəqliyyat - logistika mərkəzlərində, terminallarda, limanlarda 5G şəbəkəsinin tətbiq olunduğu LoRaWAN texnologiyasından istifadəni daha məqsədəuyğun hesab etmək olar.

ƏDƏBİYYAT SİYAHISI

1. Интеллектуальные контейнеры: Будущее грузоперевозок в морских портах
Категория: Инновации Опубликовано: 08 Октябрь 2023
2. Aydem Retail LoRaWAN nədir? Üstünlükləri nələrdir? 28 iyul 2023-cü il
3. Apilioğulları L. “Lpwan sensörlerin özellikleri ve iot uygulamalarina etkileri” Int. J. of 3D
4. Printing Tech. Dig. Ind., 4(2): 152-160, (2020).
5. Edlhuber Jonas, IoT and 5G Communication, Ulm University, 24 Ağustos 2021
6. Pratt, K. Marry, Top 12 IoT Applications and Examples in Business, TechTarget, 14 Haziran 2023
7. Лилиана Крутоног, Дмитрий Савицкий. Смарт-контейнер: облачные технологии для эффективной логистики
8. А. А. Королёва. Экономические эффекты цифровой логистики Журнал Белорусского государственного университета. Экономика. 2019
9. Светлана Долгая. «Умный» контейнер отправился в кругосветное путешествие – искать проблемы цепочки поставок RUUA 29 мая 2019
10. Peter Gutierrez. Tranzit mallara nəzarət etmək üçün IoT-dən istifadə 23 may 2017-ci il
11. Lora Aliance Introduction. https://lora-alliance.org, September, 21, 2019
12. Верхулевский Константин. Особенности и тенденции развития технологии LoRaWAN
info@icquest.ru

LOGİSTİKA ƏMƏLİYYATLARINDA İSTİFADƏ OLUNAN YÜKQALDIRAN-NƏQLEDİCİ MAŞINLARIN TƏSNİFATI VƏ TƏHLİLİ

Hüseyn Mirzəyev, Osman Mirzəyev

Bakı Mühəndislik Universiteti
humirzeyev@beu.edu.az, omirzayev@beu.edu.az
Bakı, Xırdalan

Classification and Analysis of the Hoisting and Transportation Machines for Logistics Operations

Xülasə: Məqalədə yüklərin nəqliyyat vasitələrinə, anbarlara və digər təyinat məntəqlərinə yüklənilməsində və ya boşaldılmasında, yaxın məsafələrə nəql edilməsində, loogistika əməliyyatlarında istifadə olunan yükqaldıran-nəqledici maşın, mexanizm və avadanlıqların ümumi çoxmeyarlı və çoxparametrli təsnifatlandırılması aparılmışdır. Geniş ədəbiyyat analizi nəticəsində yeni təsnifatlandırma sxemləri işlənilmiş və tövsiyə edilmişdir. Logistika əməliyyatlarında yerinə yetirilən işlərin həcmindən, nəql olunan yükləri növlərindən asılı olaraq tələb olunan yükqaldırıcı-nəqledici avadanlığın səmərəli seçilməsi metodikası təklif edilmişdir. Təqdim olunan metodika yükqaldıran-nəqledici maşınların ümumi analizində, nəql olunan yüklərin növlərindən, həcmindən, nəqlolunma məsafəsindən asılı olaraq ilkin seçim mərhələsində tələb olunan yükləmə-boşaltma avadanlığının, mexanizminin və ya maşınının seçilməsində istifadə edilə bilər. Blok şəklində təsnifatlandırma sxemləri konstruktiv xüsusiyyətlərinə, texniki imkanlarına görə bir-birindən kəskin fərqlənən bu maşın və mexanizmlərin ilkin mərhələdə tanıdılması və mənimsənilməsi üçün faydalı ola bilər.

Açar sözlər: yükqaldırn-nıqledici maşınlar, konveyerlər, kranlar, yükləyicilər, yükləmə-yükboşaltma

Giriş.

Yükqaldıan-nəqledici maşın və ya avadanlıqları istifadəsi olmadan yükləmə-yükboşaltma əməliyyatlarının yerinə yetirilməsini, loğistika işlərinin uğurla icra edilməsi mümkün deyildir. Yüklərin nəql edilməsi üçün onların növündən, görülən işlərin həcmindən, funksional, ekoloji, təhlükəsizlik və s. tələblərindən asılı olaraq müxtəlif yükləmə-yükboşaltma və nəqletmə avadanlıqlarından, mexanizm və maşınlarından istifadə etmək olar. Bu avadanlıq və maşınların seçilməsi üçün ilk növbədə onların təsnifatı ilə tanış olmaq, tətbiq sahələrinin, funsial imkanlarını və texniki göstəricilərini təyin etmək lazımdır.

Məqalədə logistika əməliyyatlarında istifadə edilən maşın, mexanim və avadanlıqların ümumi təsnifatı işlənilmiş, onların seçilməsi və istifadəsi üzrə tövsiyələr verilmişdir.

Ədəbiyyat analizi.

Yükqaldırıcı-nəqledici avadanlıqların 27 mənbəyə əsaslanmaqla müxtəlif aspektlərə görə seçilməsi analiz edilmişdir (Bouh, 2015). Müəyyən edilmişdir ki, seçim probleminin həlli üçün hazırlanmış sistemlər tərəfindən istifadə olunan 50 yükqaldıran-nəqledici avadanlıq növləri vardır. Buna görə də seçim sistemləri probleminin səmərəli həlli üçün daha etibarlı və praktik olmalıdır. Davamlı inkişaf edən bazara görə, daha çox yükqaldıran-nəqledici avadanlıq və maşınlar mövcuddur. Bu da ayrı-ayrı yük və materialların daşınması üçün avadanlıq növlərinin və atributlarının daha tam yeni təsnifatının işlənməsini tələb edir. Onların kateqoriya, sinif və növlərinin təsbit edilməsi və sistemləşdirilməsi seçim etibarlılığının yüksəldilməsi üçün praktiki əhəmiyyət kəsb edir.

Tipik şərtlər və işləmə mühiti üçün uyğun yükqaldırıcı-nəqledici avadanlığın seçilməsi çox meyarlı qərar qəbul etmə problemi kimi müəyyən edilmiş (Chakraborty, 200), göstərilmişdir ki, seçim prosedurunun strukturlaşdırılmamış olması, analitik iyerarxiya prosesi kimi effektiv və çox kriteriyalı qərar qəbuletmə alətinin tətbiqini tələb edir. Analitik iyerarxiya prosesi (AİP) daha asan və məntiqli seçimlərə nail olmaq üçün qərar qəbul etmə problemlərini daha xırda detallara ayırır. (Chakraborti və Banik, 2006) xüsusi idarəetmə mühiti altında optimal material daşıma avadanlığının seçilməsində AİP texnikasının tətbiqinə çalışmış, hər bir meyarın, alt meyarın və onun nisbi əhəmiyyətinin ikili

müqayisə matrislərindən istifadə etməklə ölçmüş və sonra hər bir alternativ avadanlığın ümumi sıralaması müəyyən etmişlər.

Təsnifatlandırma metodu.

Məqalədə yükqaldıran-nəqledici maşın və avadanlıqların çoxmeyarlı, funksional və konstruktiv təsnifatlandırma metodikası işlənmişdir.

Yükqaldıran-nəqledici avadanlıqları ümumi halda 6 qrupa bölmək olar: sadə yükqaldırıcı qurğular, qaldırıcılar, qaldırıcı kranlar, fasiləsiz nəqledici maşınlar, liftlər və yükləyicilər (şək.1). Bu təsnifat (Əhmədov və Nəcəfov, 2014)-də müəyyən oxşarlıqla verilmişdir.

Yükqaldıran maşınların mexanizmlərinin hesablanma metodikası sadə şəkildə (Miriyev, 1997) metodik vəsaitində də öz əksini tapmışdır. Daha geniş və ətraflı hesabata [3, 19, 21, 23 və 24]-də rast gəlmək olar.

Onur, Kara və Mert [5] öz işlərində göstərmişlər ki, müvafiq yükqaldırıcı-nəqledici avadanlığın seçilməsi üçün bir çox maddi və qeyri-maddi amilləri nəzərə almaq lazımdır. Onlar çox meyarlı qərarların qəbulunu bu ziddiyyətli amilləri təhlil etmək üçün faydalı bir yanaşma kimi təklif etmişlər. Bunun üçün onlar yükqaldırıcı-nəqledici adanlıq alternativlərinin müxtəlif subyektiv meyarlar çərçivəsində qiymətləndirilməsi üçün meyarların çəkiləri linqvistik terminlərlə ifadə etməklə, qeyri-səlis məntiqilə bu cür problemləri həll etməyə cəhd etmişlər. Seçimdə əsas məqsəd həm də xərclərin səmərəliliyini artırmaq olmuşdur.

Şəkil 1. Yükqaldırıcı-nəqledici maşınların ümumi təsnifat bloku.

Şəkil 2-də yükqaldıran-nəqledici maşınların ümumi konstruktiv təsnifat bloku verilmişdir. Burada şəkil 1-dəki ümumi təsnifat bloku genişləndirilmiş, altı qrupun hər birinin altqrupları müəyyən edilmişdir. Sadə yükqaldırıcı qurğular olan bucurqad, tal, polispast və digər tərtibatlar (Şəkil 3) əsasən mexanikləşdirmə və avtomatlaşdırma səviyyəsi çox aşağı olan yükləmə-boşaltma meydançalarında, təmir-bərpa sahələrində, anbarlarda istifadə olunur. Onların tətbiqi ilə yük qaldırma, boşaltma və nəqletmə işlərinin ilkin mexaniklşdirilməsi həyata keçirilmiş, əmək məhsuldarlığının artırılmasını nail olunmuşdur.

Yükləyicilərin əsas növləri olan elektrokarlar və avtokarlar xüsusilə anbar işlərinin yerinə yetirilməsində istifadə olunur, mobilliyi və çevikliyi ilə fərlənirlər.

Yükqaldıran kranların əsas növlərinin, xüsusilə qülləli və tırtıllı kranların konstruksiyaları, əsas parameter və xarakteristikaları [6]-da, onların hesablanması və layihələndirilməsi, həmçinin texniki qulluğunun təşkili məsələləri [7]-də daha ətraflı verilmişdir.

Müasir rəqabətli dünyada müxtəlif alternativlər içərisindən birini seçmək çox çətin və mürəkkəb məsələdir, xüsusən də məlumatlar qeyri-müəyyən və qeyri-dəqiq olduqda. [8]-də materialların emalı sistemini optimallaşdırmaq üçün sənayedə yük və materialların daşınması avadanlığının seçilməsi üçün Analitik İerarxiya Prosesi (AHP) adlanan çox meyarlı qərar qəbuletmə vasitələrindən biri tətbiq edilmişdir. Seçim hər birində üç alt meyar olan dörd meyar əsasında aparılmış, ümumi nəticələr göstərmişdir ki, avtomatlaşdırılmış idarəolunan nəqliyyat vasitələri (AİN) avtokar və konveyerlə müqayisədə əczaçılıq sənayesində materialların nəql olunmasında üçün daha əhəmiyyətlidir.



Şəkil 2. Yükqaldıran-nəqledici maşınların konstruktiv təsnfat bloku.



Şəkil 3. Sadə yükqaldırıcı qurğuların təsnifat bloku.

Bucurqad dedikdə adətən yükqaldırıcı mexanim başa düşülür. Amma bəzən yükqaldıran maşının hərbir işçi mexanizmi də bucurqad adlandırılır. Bu mənadə bucurqad və intiqal terminləri sinonim kimi işlədilə bilər. Bucurqadları müxtəlif əlamətlərə görə təsnifatlandırmaq olar (şəkil 4). İlk növbədə idarəolunma üsuluna görə əl və mühərrik intiqallı bucurqadları fərqləndirmək lazımdır. Müasir dövrdə mühərrik intiqallı bucurqadlar geniş yayılmışdır. Onlarda əsasən elektrik, bəzi hallarda isə hidravlik mühərriklər tətbifadə edilir. Bucurqadın əsas konstruktiv elementləri mühərrik (əgər varsa), mufta, əyləc (əgər varsa), dartı elementi, ötürücü və icraedici mexanizmlərdir. Dartı elemnti kimi əksər hallarda kanatdan, nadir hallarda zənzirdən, icraedici element kimi müxtəlif növ barabanlardan istifadə edilir.



Şəkil 4. Bucurqadların təsnifat bloku.

Yükləyicilər (şəkil 5) təyinatına görə ümumi və xüsusi təyinatlı, yükqaldırma qabiliyyətinə görə yüngül - (2t-a qədər, orta – 3 – 5 t; ağır – 10 – 40 t-a qədər, yükləyicilərə bölünür. Yüklərin 70 – 100 m məsafəyə 10 km/saat-a qədər sürətlə nəql edilməsində elektroyükləyicilərdən, 100 – 200 m

məsafəyə 15 km/saat və daha böyük sürətlərlə nəql edilməsində isə avtoyükləyicilərdən istifadə etmək əlverişlidir [26].

Elektrorəfləyicinin yükqaldırma qabiliyyəti adətən 2 t-dan çox olmur. Amma yükqaldırma qabiliyəti 3,2 t, çəngəlinin qaxma hündürlüyü 12 m, frontalyerdəyişməsi 800 mm olan xüsusi elektrorəfləyicilər də vardır. Elektrik arabaları adi elektroyükləyicilərdən qabarit ölçüsünün və kütləsinin daha kiçik olması, həm də yüksək çevikliyi ilə fərqlənirlər. Əsasən aeroportlarda, dəmiryolu və dəniz vağzallarında, fabrik və zavodlarda və s. istifadə olunurlar. Yükləyicilərin bir iş sikli 18 əməliyyatı yerinə yetirməklə tamamlanır.

Qaldırıcılar dedikdə yükün şaquli, bəzi hallarda isə şaquli müstəviyə nəzərən 15 dərəcəyə qədər maili müstəvilərdə qaldırılmasını həyata keçirən liftlər və inşaat qaldırıcılar nəzərdə tutulur. Quyuların qazılmasında və istismarında istifadə edilən qaldırıcı-qazma qurğularını, sərnişinlərin sərt maili müstəvilərdə hərəkətini təmin edən funikulyorları da qaldırıcılara aid etmək olar.



Şəkil 5. Yükləyicilərin təsnifat bloku.

Yüklərin şaquli istiqamətdə nəql olunmasında əsasən yük liftlərindən istifadə olunur (şəkil 7). Onlar da bələdçili və bələdçisiz olmaqla iki qrupa alınır. Bir də yükqaldırma qabiliyyəti 300 kq-a qədər olan kiçik yük liftləri də vardır. Ümumiyyətlə yük liftləri qapalı məkanda yüklərin şaquli istiqamətdə nəql olunmasında əvəzolunmaz logistik nəqliyyat maşınıdır. Müasir yük liftlərinin yükqaldırma qabiliyyəti geniş diapazonda dəyişir, 0,5-tondan 50 tona qədər çatır. Lift elektik və ya hidravlik intiqallı ola bilər. Hidravlik liftlər yalnız 20 m məsafə hündürlüyə qədər yüklərin nəql edilməsində əlverişlidir. Daha böyük qladırma hündürlüyü tələb olunduqda elektrik intiqallı barabanlı liftlərdən istifadə etmək tövsiyə olunur.



Şəkil 6. Qaldırıcıların təsnifat bloku.



Şəkil 7. Liftlərin təsnifat bloku.

Qaldırıcı kranlar universal və xüsusi təyinatlı olmaqla əsas yükqaldırıcı maşınlardır. Sənayenin müxtəlif sahələrində, o cümlədən logistika əməliyyatlarının yerinə yetirilməsində geniş istifadə edilir. Onların ümumumi təsnifat bloku şəkil 8-də verilmişdir. Konstruksiyasına görə körpülü və qollu olmaqla iki ümumi qrupa ayrıla bilər. Qollu kranların əsas növlərindən olan qülləli kranlar inşaat işlərində geniş tətbiq edilirsə, onların digər növləri olan portal kranlar terminal və limanlarda logistik əməliyyatların yerinə yetirilməsində əvəzsiz hesab olunur. Körpülü kranların digər bir növü olan çatma kranlar da həmin sahələrdə əvəzolunmaz yükqaldırıcı-nəqledici maşın hesab olunur. Bu kranlar nəinki çox ağır yüklərin qaldırılması, hətta onların 200 m məsafəyə qədər nəql olunması imkanına da malikdirlər.

Logistika əməliyyatları üçün mobil kranların tətbiqi imkanları çox genişdir. Yüksək mobillik və çeviklik qabiliyyətinə malik bu kranlara, demək olar ki, istənilən yükləmə-boşaltma meydançalarında rast gəlmək olar.



Şəkil 8. Yükqaldıran maşınlar müxtəlif meyarlar üzrə təsnifatlandırma bloku.

İş prosesli müddətində müxtəlif növ yüklərin arasıkəsilmədən, fasiləsiz yüklənib boşaldılma imkanına malik olan fasiləsiz nəqliyyat maşınlarına aeroport, dəniz limanı və s. kimi xidmət-servis sahələrindən tutmuş axın xətlərinin tətbiq edildiyi nəhəng zavodlara qədər bir çox yerlərdə rast gəlmək olar. Onların təsnifatlandırma bloku şəkil 9-da verilmişdir. Bu nəqledici maşınların ən geniş yayılmış növləri konveyerlərdir. Onları dartı elementli və dartı elementsiz olmaqla iki qrupa ayırmaq olar.

Konveyerlərdən kənd təsərrüfatı, dağ-mədən sənayesi və digər sahələrdə də ədədi və səpmə yüklərin nəql olunmasında istifadə edilir.



Şəkil 9. Fasiləsiz nəqliyyat maşınlarının təsnifatlandırma bloku.

YQNM-ın əsas parametr və xarakteristikaları.

Yükqaldıran-nəqledici maşınların əsas parameter və xaraketristikaları maşının təyinatı, konstruksiyası və növündən asılı olaraq onun işgörmə qabiliyyətini xarakterizə edən əsas fiziki və ya həndəsi kəmiyyətlərdir. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Həndəsi parametrlər
2. Kinematik parametrlər
3. Dinamik parametrlər

Yükqaldıran maşınların əsas parametrləri sxemdə göstərilmişdir.



Şəkil 10. Yükqaldıran maşınların əsas parametrləri

Körpülü və qollu kranlar üçün əsas parameter və xarakteristikaların təhlili aşağıda verilmişdir.

Həndəsi parametrlər, uzunluq ölçüsünün vahid ilə (m) dəyərləndirilir – Yükqaldırma hündürlüyü, kranın aşırımı, qolun aşılışı (işçi radius), kranın bazası, arabacığın bazası, kranın təkərlərarası məsafəsi, arabacığın təkərlərarası məsafəsi, kranın dönmə radiusu, qarmağın endirilmə dərinliyi, çıxış dayaqları (autrigerlər) arasındakı məsafələr, maşının qabarit ölçülərini, saxlama və aşma momentinin hesablanmasını xarakterizə edən digər xətti ölçülər;

Kinematik parametrlər – Yükqaldırma sürəti, m/s; fırlanma tezliyi, 1/dəq; oturtma sürəti m/s; kranın və arabacığın hərəkət sürətləri, m/s və ya m/dəq; nəqlolunma sürəti, km/saat; siklin davamiyyəti, s.

Dinamik parametrlər – Yükqaldırma qabiliyyəti, kq, t, N, kN; yükləmə momenti, kq·m, t·m, N·m, kN·m; kranın ümumi kütləsi, t; kranın konstruktiv kütləsi, t; oxlara düşən yüklər, kN; təkərlərə düşən yüklər, kN; elektrik mühərriklərinin gücü, kVt; daxiliyanma mühərrikinin gücü, kVt; məhsuldarlıq, t/saat, m^3/saat, əd./saat.

Yükləyicilərin əsas parameter və xarakteristikaları da aşağıdakılardır:

Həndəsi parametrlər – çəngəlin qalxma hündürlüyü, çəngəlli yüktutucunun sərbəst gedişi, dirəyin mailliyi, dər., dirəyin tam ümünluğu, yükləyizinin baza və koleyası; qabarit ölçüləri (uzunluğu, eni, hündürlüyü), klirens (yer səthindən yükləyicinin ən aşağı nöqtəsinə qədər olan məsafə), dönmə radius (daxili və xarici), çəngəlli tutucunun maksimal eni, qabaq oxdan çəngəlin bağlanma nöqtəsinə qədər olan məsafə.

Kinematik parametrlər – yükqaldırma (endirmə) sürəti, m/s və ya m/dəq; hərəkət sürəti, m/dəq; nəqlolunma sürəti, km/saat.

Ümumiləşdirilmiş təsnifatlandırma.

1. *Avtomatlaşdırılmış İdarəolunan Nəqliyyat vasitələri (AİN):* AİN-lər anbar, fabrik və digər xidmət sahələrində materialların daşınması üçün son zamanlar geniş istifadə edilən öz-özünə idarəolunan nəqliyyat vasitələridir. Onlar əvvəlcədən təyin olunmuş yolları izləyir və ya naviqasiya üçün sensorlardan istifadə edirlər. Əsas üstün cəhətləri odur ki, işlərin səmərəliliyini, məhsuldarlığını artırır, insan əməyi nəticəsində ortaya çıxabiləcək səhv və xətaları azaldır, 24/7 rejimində materialların daşınması üçün ideal işləyirlər. Mənfi cəhətləri qiymətlərinin və quraşdırma xərclərinin yüksək olması, sabit yollara görə bəzən çevikliyinin məhdud olmasıdır.
2. *Konveyer sistemləri:* Öncədən müəyyən olunmuş trassa üzrə materialların fasiləsiz olaraq lent, zəncir, kanat kimi dartı və lövhə, diyircək, çalov, təknə və s. kimi yükdaşıyıcı elementlər vasitəsilə nəql olunmasını təmin edən avadanlıqlardır. Əsas müsbət cəhətləri məhsuldarlığının, faydalı iş əmsalının yüksək olması, yükləmə və boşaltma işlərinin fasiləsiz həyata keçirilməsi, axın xətlərinin təşkili üşün ideal olmasıdır. Mənfi cəhətləri kimi quraşdırma üçün daha çox yer tələb olunması, texniki xidmət xərclərinin nisbətən yüksək olmasıdır.
3. *Avtomatlaşdırılmlş saxlama və axtarış sistemlər:* Böyük anbarlarda yüklərin çoxsıralı və çoxcərgəli rəflərdə saxlanması və axtarışı üçün robot kranlarla kombinəedilmiş bir sistemdir. Əsas müsbət cəhətləri müxtəlif növ, çoxçeşidli yüklərin yüksək sıxlıqla sistemli şəkildə saxlanılmasını, sürətli axtarışını və inventarların dəqiq idarəedilməsini təmin etməsidir. Mənfi çəhətləri kimi ilkin inivestisiya xərclərinin yüksək olmasını, komples avtomatlaşdırma v texniki xidmət işlərinin tələb edilməsini göstərmək olar.
4. *Şaquli lift modulları:* Yükləri, elementləri avtomatik əldə edən tutucuları, kameraları olan şaquli saxlama sistemləridir. Əsas üstünlükləri erqonomik olması, kiçik hissələrin səliqəli saxlanılma imkanı və yerə qənaət etməsidir. Mənfi cəhətləri olaraq hər modul üçün məhdud tutumun təyin edilməsini göstərmək olar.
5. *Paletləşdiricilər:* Nəql olunan malların altlıqlarını (paletləri) yığan və ya dağıdan maşınlardır. Əsas sütünlükləri yükləmə və boşaltma işlərinin sürətli aparılması, əmək tutumunu azaltması və paletlərin dayanıqlı yığılmasını təmin etməsidir. İlkin inivestisiya və texniki xidmət xərclərinin yüksək olması çatışmayan cəhətləridir.
6. *Monipulyatorlar:* Robotik qol olaraq "seç və yerləşdir" sistemi üzrə işləyən proqramlaşdırılabilən maşınlardır. Yüklərin qaldırılması, çeşidlənməsi və yerləşdirilməsinə qədər bir çox əməliyyatları yerinə yetirməklə insan əməyini qismən və ya tam əvəz edə bilir. Müsbət cəhətləri geniş diapozonda proqramlaşdırılma bilməsi, manevr imkanlarının yüksək olması, dəqiq işləməsidir. Mənfi cəhətləri mürəkkəb proqramlaşdırma tələb etməsi və yüksək dəyərə sahib olmasıdır.
7. *Yedəkləyicilər:* Yedək arabaları və ya traktorları olan bu nəqliyyat vasitələri mallarla yüklənmiş arabaları və qoşquları çəkir. Üstün cəhətləri çevik və məhsuldar olması, toplu daşıma üçün, müxtəlif yük ölçülərinə münasib olmasıdır. AİN-lərlə müqayisədə sürətinin məhdud olması çatışmazlığı hesab edilə bilər.

Nəticə.

Yükləmə-boşaltma, yükqaldırma-endirmə və nəql etmə işlərində istifadə olunan avadanlıq, maşın və mexanizmlərin tətbiqi imkanları araşdırılmış onların təsinfatlandırma bloklarının işlənməsinə cəhd edilmişdir. Nəticədə yükqaldıran-nəqledici maşınların konstruktiv əlamətlərə görə ümumi təsnifat bloku işlənmiş, sonra onun əsas növləri təsnifatlandırılmışdır. Təqdim olunan metodika logistika əməliyyatlarının yerinə yetirilməsində yüklərin yüklənməsi, boşaldılması, nəql edilməsi, çeşidlənməsi, saxlanılması və s. işlərdə tələb olunan avadanlıq və ya maşının seçilməsində istifadfə edilə bilər.

ƏDƏBİYYAT

1. Bouh, M. A., & Riopel, D. (2015, October). Material handling equipment selection: New classifications of equipments and attributes. In *2015 International Conference on Industrial Engineering and Systems Management (IESM)* (pp. 461-468). IEEE.
2. Chakraborty, S., & Banik, D. (2006). Design of a material handling equipment selection model using analytic hierarchy process. *The International Journal of Advanced Manufacturing Technology*, *28*, 1237-1245.
3. Əhmədov B.B., Nəcəfov Ə.M. (2014). Yükqaldıran maşınlar: Bakı: Turxan, - 627 s.
4. Miriyev S.M., Çərkəsov Ş.B., Yusubov S.T. Yükqaldırıcı maşınlardan laboratoriya praktikumu. Bakı, 1997.
5. Onut, S., Kara, S. S., & Mert, S. (2009). Selecting the suitable material handling equipment in the presence of vagueness. *The International Journal of Advanced Manufacturing Technology*, *44*, 818-828.
6. Shapiro K.L., Shapiro J.P. (2011). Cranes and Derricks.
7. Verschoof J. (2002), Cranes– Design, Practice, and Maintenance.
8. Zubair, M., Maqsood, S., Omair, M., & Noor, I. (2019). Optimization of material handling system through material handling equipment selection. *International Journal of Progressive Sciences and Technologies*, *15*(2), 235-243.
9. Абрамович И.И (1989), Грузоподъемные краны промышленных предприятий
10. Александров М.П.(1985), Подъёно-транспортные машины.
11. Астахов А.И. (1969), Автомобильные краны.
12. Берлин Н.П (2005), Погрузочно-разгрузочные, транспортирующие и всопомогателные машины и устройства.
13. Бернацкий В.В. Специализированный подвижной состав грузового автотранспорта: Часть 2. - М.: МГТУ "МАМИ", 2007. – 124 с.
14. Вайнсон А.А. (1989), Подъёно-транспортные машины.
15. Гохберг М.М. (1988), Спровочник по кранам.
16. Громов А.Ю., Иванов С.Е. Транспортные и погрузочно-разгрузочные средства. В двух частях. Часть 1. Транспортные средства. Учебное пособие. Санкт-Петербург, Издательство СЗТУ, 2009. − 238 с.
17. Додонов Б.П. (1990), Грузоподъемные и транспортные устройства.
18. Зырянова А.Б., Кучумов Е.Г., Корепанова Е.Н.(2009), Расчеты механизмов кранов для лесных грузов.
19. Иванченко Ф.К. и др. Расчеты грузоподъемных и транспортирующих машин. Киев, 1975.
20. Инновационное развитие подъемно-транспортной техники: материалы Всерос. науч.-практ. конф. (26–27 мая 2022 года, г. Брянск) / под ред. К.А. Гончарова. – Брянск: БГТУ, 2022. – 212 с.
21. Казак С.А. и др. Курсовое проектирование грузоподъемных машин. М.,1989.
22. Кравченко В.А. Специализированный подвижной со став. Курс лекций / В.А. Кравченко. – Зерноград: 2008.− 216 с.
23. Марон Ф.Л., Кузьмин А.В. Справочник по расчетам механизмов подъемно-транспортных машин. Минск, 1977.
24. Павлов Н.Г. Примеры расчетов кранов. Л., 1976.
25. Станевский В.П. (1984), Строительные краны.
Zəngəzur dəhlizi ilk növbədə Orta Asiya, Azərbaycan və Ermənistanı Sakit Okeandan Türkiyəyə birləşdirən mühüm sosial-iqtisadi, siyasi və geostrateji əhəmiyyətə malik bir dəhlizdir. Zəngəzur dəhlizi Rusiya, Azərbaycan, Türkiyə və Ermənistan arasında dəmir yolu şəbəkəsini genişləndirmək imkanı yaradaraq və regionun ticarət fəaliyyətinə, regionda ticarət dövriyyəsinin artımına, region ölkələri arasında, eləcə də bu ölkələrin digər dövlətlər ilə qarşılıqlı əməkdaşlığının inkişafına ciddi təkan verəcəkdir. Bütün bunlar həm də, müəllifi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev olan Zəngəzur dəhlizinə gələcəyin etibarlı barışıq (sülh) və iqtisadi inkişaf amili kimi yanaşmağa əsas verir. Bu tarixi ticarət yolu istər region, istərsə də dünya üçün yeni perspektiv deməkdir. Bu dəhlizin yeni imkanları maraqlı dövlətləri özünə cəlb edir ki, Türkiyə ilə quru əlaqələrinin yaranması, Türkiyə-Orta Asiya, Türkiyə-Çin ticarət əlaqələrini də genişləndirməyə kömək edəcəkdir. Hazırda bu istiqamətdə ticarət dövriyyəsi Türkiyə-Orta Asiya 6 milyard, Türkiyə-Çin 21 mlrd. dollar təşkil edir ki, Zəngəzur dəhlizi bu istiqamətlərdə də uzunmüddətli və ciddi artımlar vəd edir. Eyni zamanda, Zəngəzur dəhlizi "Bir Kəmər-Bir Yol" layihəsi çərçivəsində Azərbaycan üzərindən Çin-Türkiyə və əks istiqamətdə yük daşımalarını əhəmiyyətli dərəcədə artıma imkan yaradacaqdır. Qeyri-region ölkəsi olmasına baxmayaraq, Çin dövləti də Zəngəzur dəhlizinin açılmasına maraqlıdır. Reallıq ondan ibarətdir ki, Çin artıq ABŞ-ı Avropa İttifaqının əsas ticarət tərəfdaşlığından sıxışdırıb çıxarıb. Artıq, Avropa İttifaqı ilə Çin arasında ümumi ticarət dövriyyəsi 600 milyard avroya yaxınlaşır və bu göstərici ilbəil artır. Yalnız, 2021-ci ilin yekunlarına görə Avropa Çinə 203.7 milrd. avro və ya əvvəlki illə müqayisədə 2% çox əmtəə və xidmət ixrac edib, 384.6 milrd. avro dəyərində və ya əvvəlki il ilə müqayisədə 5.4% çox əmtəə və xidmət idxal edib. Çinin "Bir Kəmər-Bir Yol" layihəsi çərçivəsində planlanan 3 ticarət yolundan biri olan "Orta Dəhliz" nəqliyyat dəhlizi Zəngəzur dəhlizininin önəmini daha da artırır. "Bir Kəmər-Bir Yol" layihəsi üçün xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biri ticari-iqtisadi əlaqələrin ucuz, təhlükəsiz, sürətli yolla təşkil edilməsindən ibarətdir. Bu məqsədlə şərti olaraq "Şimal Dəhliz", "Orta Dəhliz" və "Cənub Dəhliz" kimi terminlər də daxil edilib. "Şimal Dəhliz" Rusiya ərazisindən keçərək Avropaya uzanan, "Orta Dəhliz" Mərkəzi Asiya-Azərbaycan-Gürcüstan-Türkiyəni əhatə edən marşrutu, "Cənub Dəhliz" isə Cənubi Asiya ölkələri ərazisindən keçərək İranı da əhatə edən istiqamətdir. Məsələ burasındadır ki, bu üç əsas yol Cənubi Qafqazda Azərbaycan ərazisində kəsişir. Bu situasiyada Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin cəlbediciliyi artır və bu marşrut üçün yeni fürsətlər yaranır. 2023-cü il martın 14-də Transxəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi boyu "Bir pəncərə" prinsipindən istifadə etməklə tranzit gömrük prosedurunun sadələşdirilməsi layihəsi ilə bağlı region ölkələrinin gömrük xidmətləri ekspertlərinin görüşü keçirilib. Bildirilib ki, dəhlizin cəlbediciliyinin artırılmasına töhfə vermək məqsədilə region ölkələrinin gömrük xidmətləri gömrük əməliyyatlarının rəqəmsal həllər əsasında sadələşdirilməsi, sərhədkeçmənin sürətləndirilməsi istiqamətində mühüm addımlar atır və görüş bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Yeni yaradılan Transxəzər Gömrük Tranzit Portalı orta dəhliz ölkələrinin gömrük orqanları tərəfindən elektron şəkildə təqdim edilən sənəd və məlumatların öncədən emalı hesabına yüklərin tranzit ölkələrin ərazisindən sürətli keçidini təmin edən, quru və dəniz limanları arasında multimodal daşınmalar üçün səmərəli nəzarətə şərait yaradan, yaşıl mühitə töhfə verən Şərqlə Qərbin Xəzər dənizi üzərində rəqəmsal qovşaq mexanizmidir.

Cədvəl 1: Azərbaycanın illər üzrə LPI göstəricisi

İl	Xal	Yer
2007	2.24	114
2010	2.64	92
2012	2.48	119
2014	2.45	128

Bu cür dəhlizlərin yaradılması logistik daşımalar baxımından olduqca effektivdir. Alternativ daşınma yolları aktiv mobillik kimi xarakterizə olunan sərfəli imkanlarla aşağı qiymətə kapitalların, mal və xidmətlərin effektiv axınını formalaşdırır. Nəqliyyat və telekommunikasiya sahəsində irəliləyişlər başlanğıc məntəqədən təyinat məntəqəsinə qədər daşınma müddətində azalmaya səbəb olur. Daşınma prosesi müddətində vaxta nə qədər qənaət olunduğunu ölçmək üçün zaman və məkan yaxınlaşmasının (Space-time convergense) kəmiyyətini müəyyən etmək lazımdır.

Bu zaman səyahət vaxtının dəyişməsi (ΔTT) prosesin baş verdiyi müddətə (ΔT) bölünür. Nəqliyyat dəhlizlərinin vaxt və xərc baxımından iqtisadi fayda gətirməsi həmin ölkənin logistik performans indeksinin artmasına da səbəb olur. Gömrük işi, beynəlxalq daşınmanın mümkünlüyü, logistik xidmət keyfiyyəti, izlənilə bilirlilik, vaxtında təslim və s. kimi logistik göstəricilərə əsasən logistik performans indeksi tərtib olunur. Cədvəl 1-dən göründüyü kimi, Azərbaycan logistika sektoru maksimum LPİ xalını 2010-cu ildə almışdır. Ondan sonrakı illərdə logistika sektorunda artım qeydə alınmamışdır. Qeyd etmək lazımdır ki,

Dünya Bankının 2016 və 2018-ci illərdəki LPİ hesabatlarında Azərbaycan yer almamışdır.

Mənbə: Dünya Bankı, https://lpi.worldbank.org

Zəngəzur nəqliyyat dəhlizinin regional əməkdaşlıqda rolu

Azərbaycan tərəfinin məqsədi və mövqeyi qətiyyətli, eyni zamanda aydındır ki, Zəngəzur dəhlizi, hər şeydən əvvəl, regional əməkdaşlıq qarşısında illərdir dayanan maneələrin aradan qaldırılmasına xidmət etməlidir. Daha sonra regionda dayanıqlı və möhkəm sülh və sabitlik, həmçinin perspektiv imkanlar yaratmalıdır. Dəhlizin mümkün imkanlarını nəzərə alan bir çox dövlətlər artıq bu reallığı qəbul edərək Zəngəzur dəhlizini dəstəkləyir. Əməkdaşlıq fonunda Azərbaycan "Altılıq" platformanı da təklif edir. Bu platforma region ölkələrini bir-birinə daha da yaxın edəcək. Azərbaycan, Rusiya, Türkiyə, İran, Gürcüstan və Ermənistanın əməkdaşlıq və təhlükəsizlik sahələrində ortaq fəaliyyət göstərmək üçün xüsusi platformada birləşməsi nəzərdə tutulub. Yəni bu ölkələr regiondan kənarda olan qüvvələrlə əməkdaşlıq və təhlükəsizlik məsələlərində razılaşdırılmış formada və bir əməkdaşlıq formatının üzvləri kimi iştirak etməlidirlər. Deməli, Zəngəzur dəhlizi həmin altı dövlət üçün geosiyasi və geoiqtisadi aspektlərdə eyni dərəcədə əhəmiyyət kəsb edir və onun təhlükəsizliyi onların hər birinin vəzifəsidir. Belə ki, Cənubi Qafqazda hansısa dövlətin hegemon davranışına son qoyulur. Burada Azərbaycan, Rusiya, Türkiyə, Gürcüstan və İran bir yerdə aparıcı rol oynamalıdır. Digər bir məsələ isə Azərbaycanın istənilən əməkdaşlıq platformasına Ermənistanı da aid etməsidir. Bu humanizm bölgədə uzunmüddətli sülh və əməkdaşlıq baxımından olduqca əhəmiyyətlidir.

NƏTİCƏ

Nəticə olaraq deyə bilərik ki, Zəngəzur dəhlizinin yaxın gələcəkdə açılışının olması reallıqdır. Yerli və xarici şirkətlər tərəfindən dəhliz üzərində intensiv işlər gedir, yol ötürücüləri, tunellər tikilir. Bu isə cənab Prezident İlham Əliyevin "Ermənistan istəsə də, istəməsə də Zəngəzur dəhlizi açılacaq. İstəməsə, zorla həll edəcəyik" fikirlərini bir daha xatırladır. Deməli, dəhlizlə bağlı hər bir dövlət daha çox dəhlizdən yararlanmaq barədə düşünməlidir. Qeyd edildiyi kimi, Zəngəzur dəhlizi üçün xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biri də iqtisadi əlaqələrin səmərəli, təhlükəsiz və sürətli yolla təşkil edilməsindən ibarətdir. Artıq, dünyanın böyük gücləri, iri dövlətləri də Zəngəzur dəhlizinin əhəmiyyətini qəbul edir və layihənin reallaşmasına dəstək verirlər. O cümlədən, regionun ən böyük dövləti olan Rusiya Federasiyasının Prezidenti Vladimir Putin də Zəngəzur dəhlizinin açılması ilə bağlı qəti mövqe nümayiş etdirir. Qlobal məkana, xüsusilə Avropaya çıxış üçün səmərəli olan, intensiv nəqliyyat əlaqələri vəd edən Zəngəzur dəhlizi, ilk növbədə region dövlətləri üçün daha genişmiqyaslı imkanlar yaradacaqdır. Ona görə də, ayrı-ayrı ölkələr dəhlizdən daha səmərəli istifadəyə yönəlmiş tədbirlər həyata keçirməlidirlər. Bu regionun inkişafı üçün çox vacibdir.

ƏDƏBIYYAT SIYAHISI

1. Gulahmadov M., Ramil Huseyn, (2023). The Zangazur Corridor as the new haulage hub for integration and cooperation in South Caucasus
2. https://customs.gov.az/az/faydali/xeberler/5351
3. https://lpi.worldbank.org
4. İsmailzade F, Babayev B, (2021). Compass Policy Brief, the Economic Importance of The South Caucasus' Zangazur Corridor
5. Karimli İ., Zangazur, (2022). Corridor's Importance in Facilitating Cargo Between Türkiye & Central Asia Highlighted, https://caspiannews.com/news-detail/zangazur-corridors-importancein-facilitating-cargo-between-turkiye-central-asia-highlighted-2022-6-8-0/
6. Mikheil Ukleba, Mamuka Tsikhelashvili, (2021). South Caucasus and regional opportunities in terms of transport and logistics corridor development
7. Nəsirov Ə., Zəngəzur nəqliyyat dəhlizinin regional və qlobal əhəmiyyəti, İpək Yolu, No.1, 2022, səh.62-69
8. The Impact of the Opening of Zangezur Corridor On Regional Transportation And Communication Lines, Analysis, AIR Center, https://aircenter.az/uploads/files/Zangezur%20Corridor.pdf

BEYNƏLXALQ "ŞİMAL-CƏNUB" NƏQLİYYAT DƏHLİZİ VƏ AZƏRBAYCANIN ONUN İSTİFADƏSİNİN GENİŞLƏNDİRİLMƏSİNDƏN İQTİSADİ SƏMƏRƏSİ

Çobanzadə İsmayıl Məmməd oğlu, h.e.n., dosent
ismayilcobanzade54@gmail.com

Yusifzadə Elçin Nazim oğlu, t.e.n., dosent
y.n.elchin@gmail.com

Bağırov Bulud İbrahim oğlu, baş müəllim
arpachay@bk.ru
Azərbaycan Memarlıq və İnşaat Universiteti
"Nəqliyyat" fakultəsi, bölmə: Nəqliyyat dəhlizləri və təchizat zəncirinin idarə edilmə problemləri
Bakı şəhəri, Azərbaycan Respublikası

Xülasə

Son illər Azərbaycan Respublikasının nəqliyyat sektorunda bir sıra irimiqyaslı infrastruktur layihələri həyata keçirilmişdir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin, müasir hava limanlarının tikintisi, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri istiqamətində beynəlxalq əhəmiyyətli avtomobil yollarının çəkilməsi, dəmir yolu xətlərinin yenilənməsi ölkənin ticarət əlaqələrinin genişləndirilməsində mühüm rol oynayır.

Açar sözlər: "Şimal-Cənub" nəqliyyat dəhlizi, nəqliyyat infrastrukturu, nəqliyyat xidmət- ləri, iqtisadi səmərə, tranzit marşrutu.

Abstract

In recent years, a number of large-scale infrastructure projects have been implemented in the transport sector of the Republic of Azerbaijan. The construction of the Baku International Sea Trade Port complex, modern airports, the construction of internationally important highways in the direction of the East-West and North-South transport corridors and the renewal of railway lines play an important role in the expansion of the country's foreign economic relations.

Key words: "North-South" transport corridor, transport infrastructure, transport services, economic efficiency, transit route.

Giriş

Azərbaycan coğrafi mövqeyinə görə iki iri nəqliyyat dəhlizinin kəsişməsində yerləşir. Bu nəqliyyat xətlərinin tam və effektiv istismarı Azərbaycanın müstəqilliyi və iqtisadiyyatının möhkəmlənməsində böyük əhəmiyyət kəsb edir. Azərbaycandan keçən Şərq-Qərb dəhlizi – TRACEKA, Avropa ilə Asiyanı birləşdirən ən qısa marşrut hesab olunur. Artıq həyata keçirilən bu marşrutla hər il milyonlarla ton yük daşınır. Gələcəkdə onun sərnişindaşımada rolu daha da artacaq. Lakin Azərbaycanın ərazisindən keçəcək digər qlobal nəqliyyat xətti - Cənub-Simal dəhlizi də onun üçün böyük əhəmiyyət kəsb edir. Bu marşrut İran və Rusiya ərazisindən keçməklə, Yaxın Şərq və Cənub-Şərqi Asiyadan Avropaya yükdaşımalarının sürətini artıracaq. Bu xəttin uzunluğu Süveyş kanalı ilə Hindistandan Avropaya olan daşınma xəttindən 3 dəfə qısadır [3].

Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi yaradıldıqdan sonra bir çox ölkələrin diqqətini cəlb etmiş və bu dəhlizə maraq yaratmışdır. Bundan sonra Sazişə Belarus Respublikası, Ermənistan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Oman və Suriya qoşulub. Azərbaycan Respublikası Sazişə qoşulmaq üçün 21 dekabr 2001-ci ildə verdiyi rəsmi notaya 2005-ci ildə müsbət cavab almış və 20 sentyabr 2005-ci ildə onu imzalayaraq, beynəlxalq nəqliyyat dəhlizi haqqında Sazişə qoşulmuşdur [4].

"Şimal-Cənub" sazişinə qosulmaqda ölkəmiz üçün əsas məqsədlər aşağıdakılardır:

• Tranzit yük və sərnişin daşımalarının təşkilində beynəlxalq nəqliyyat əlaqələrinin səmərəliliyinin artırılmasına nail olmaq;

• Dəhlizin üzv ölkələri arasında dəmir yolu, avtomobil, dəniz, çay və hava nəqliyyatı xidmətlərinin beynəlxalq bazarına çıxış üçün şəraitin yaradılması istiqamətində işlərin aparılması;

• Beynəlxalq tranzit daşımaların həcminin artırılmasına yardımın göstərilməsi;

• Nəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyinin təmin edilməsi;

• Razılaşdırılmış və qəbul edilmiş nəqliyyat siyasətinin həyata keçirilməsinə uyğunluq;

• Bütün nəqliyyat növləri üçün müqavilə (dəmir yolu, dəniz, avtomobil, çay və hava nəqliyyatları daşımaları təmin edən nəqliyyat infrastrukturu və nəqliyyat vasitələrinə aiddir).

Şəkil 1.1 "Şimal-Cənub" nəqliyyat qovşağı

Hindistan burada istisnadır, çünki o, yalnız dəniz yolları ilə iştirak etməlidir. Ötən müddət ərzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan Respublikasının ərazisindən keçən hissəsində işlərin sürətləndirilməsi haqqında sərəncam imzalamış, hansı ki, sözügedən nəqliyyat dəhlizi layihəsinin reallaşdırılması istiqamətində atılan əsas addım hesab olunur və işlərin sürətləndirilməsinə imkan verir.

Müstəsna haldır ki, bu marşrutlar üzrə tranzit daşımaların həcmi son nəticədə ən əlverişli texniki, istismar, tarif və digər şərtlərdən asılıdır. Ekspertlər hesab edir ki, "Şimal-Cənub" dəhlizinin Azərbaycandan keçmə variantı daha cəlbedicidir. Belə ki, məsafənin qısa, mövcud nəqliyyat infrastrukturu və tranzit ölkənin olması, müxtəlif nəqliyyatlara daha az vaxtın sərf edilməsi, burada

əsas amil rolunu oynayır. Azərbaycan ərazisindən keçən "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin ümumi uzunluğu 511 kilometrdir [2].

Coğrafi və potensial tranzit ölkə imkanları nəzərə alınmaqla Azərbaycan Respublikasının bu böyük layihədə iştirakı ölkəmiz üçün geoiqtisadi əhəmiyyət kəsb edir. Mövcud nəqliyyat infrastrukturunun bərpası və inkişafı ilə əlaqədar işlərə artıq başlanılıb və bu məqam nəzərə alınmaqla, Prezident İlham Əliyevin imzaladığı son sərəncam görülən işlərin daha da sürətləndirilməsi üçün mütləq şərtdir.

Azərbaycanın "Şimal-Cənub" nəqliyyat dəhlizinə qoşulması və dəhliz boyu yük və sərnişin daşımalarında fəal iştirakı, habelə ondan istifadənin genişləndirilməsi respublikamızın iqtisadi

maraqlarına xidmət edərək, a.ağıdakılara nail olmağa imkan yaradacaq:

- tranzit yüklərin daha çox cəlb edilməsinə;
- ümumi yüklərin həcminin və gəlirlərin artmasına;
- ölkəmizin nəqliyyat infrastrukturunun inkişafına;
- yeni iş yerlərinin açılmasına;
- bir çox sosial problemlərin həllinə şərait yaradacaq.

Onu da vurğulamaq lazımdır ki, Çin və Hindistan kimi sürətlə inkişaf edən ölkələrin "Şimal-Cənub" nəqliyyat dəhlizinə marağı layihənin əhəmiyyətini artıran əsas amildir. Artıq məlumdur ki, Hindistandan müxtəlif yüklərin daşınması üçün yeni marşrut İranın Bəndər-Abbas limanından keçməklə Hindistanın Mumbay şəhərindən başlayacaq və Rusiyanın Həştərxan və ya Bakı limanına çatdırılacaq. Tranzit ölkə və iqtisadi əhəmiyyət kəsb edən əsas amillərdən biri kimi bu məqam

Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Əsasən Hindistan və Cənub-Şərqi Asiya ölkələrindən yüklərin İranın Bəndər-Abbas limanından Transxəzər marşrutu ilə Bakıya çatdırılması böyük iqtisadi əhəmiyyətə malikdir. Hesablamalara görə, bu marşrutla ildə 10-15 milyon ton yük daşınması planlaşdırılır və Azərbaycan tranzitdən 250-300 milyon dollar iqtisadi gəlir əldə edə bilər. Bunun üçün Azərbaycanın hərtərəfli perspektivləri var. Dəhlizin Qərb marşrutunun Cənub-Şərqi Asiyadan Avropaya yüklərin daşınması üçün 10-15 faiz ucuz başa gələcəyi və Süveyş kanalı vasitəsilə yüklərin daşınmasından 800 kilometr az məsafə qət edəcəyi gözlənilir [1]. Bundan əlavə, araşdırmalar göstərir ki, daşınma müddəti 20 gün azalacaq ki, bu da malların mənzilə daha etibarlı şəkildə çatdırılmasını təmin edəcək. Bu baxımdan "Şimal-Cənub" nəqliyyat dəhlizinin Qərb marşrutunun fəaliyyət göstərməsi Azərbaycan üçün daha böyük strateji əhəmiyyət kəsb edir.

Şəkil 1.2 "Şimal-Cənub" nəqliyyat dəhlizi

Şimal-Cənub nəqliyyat dəhlizinin Qərb marşrutunun açılması Azərbaycanın Avrasiyanın əsas tranzit-logistika mərkəzinə çevrilməsi strategiyasının reallaşması istiqamətində çox böyük addım olacaq. Bu, Azərbaycanın layihədə fəaliyyətinin genişləndirilməsinin iqtisadi səmərəsinin artırılmasına əminlik yaradır.

Hazırda Xəzər dənizində Rusiya-İran, Azərbaycan-Türkmənistan-Qazaxıstan bərə xətlərinin istismarı, dəniz limanlarının və lazımi infrastruktura malik dəmir yollarının olması "Şimal-Cənub" dəhlizi layihəsinin həyata keçirilməsini asanlaşdıran əsas amillərdəndir. Yəni həm Cənubi Qafqaz,

həm də Mərkəzi Asiya ölkələrinin zəngin təbii sərvətlərə və geniş satış bazarlarına malik olması "Şimal-Cənub" dəhlizinin təkcə iqtisadi səmərəsini deyil, həm də siyasi əhəmiyyətini artırır.

Dünya təcrübəsinə nəzər salsaq, tranzit potensialı təkcə iqtisadi deyil, həm də dövlətin beynəlxalq aləmdə yerini müəyyən edən siyasi amildir. Eyni zamanda, keyfiyyətli tranzit xidmətləri dövlət büdcəsinin formalaşmasında mühüm rol oynayan şərtlərdən biri hesab olunur. Aparılan araşdırmalar göstərir ki, Avstriya, Almaniya, Səudiyyə Ərəbistanı, Baltikyanı və bir sıra başqa ölkələr əlverişli coğrafi mövqelərindən istifadə edərək, tranziti öz milli büdcələrinin əsas gəlir mənbəyinə çevirə biliblər. Ümumiyyətlə, tranzit potensialına sahib olmaq və bu potensialdan bəhrələnmək istəyi müasir dünyada demək olar ki, dinamik inkişaf edən hər bir dövlətin strateji hədəflərinə aiddir. Çünki tranzit əməliyyatları valyuta gəlirlərinin artması ilə yanaşı, digər müsbət nəticələrin əldə olunmasına imkanlar yaradır və bu amillər "Şimal-Cənub" Beynəlxalq nəqliyyat

dəhlizinin genişləndirilməsində Azərbaycanın iqtisadi səmərəsini artıran əsas səbəblərdəndir və onun istifadəsi ölkəmizə olan etimadı və onun siyasi nüfuzunu daha da artırır.

Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin genişləndirilməsində və ondan istifadəsində Azərbaycanın iqtisadi faydası çox böyük olaraq, qeyri-neft sektorunun şaxələndirilməsinə də zəmin yaradacaq, yükdaşımalardan əldə olunan gəlirləri artıracaq, ölkəmizin beynəlxalq aləmdə mövqeyini geosiyasi və geoiqtisadi baxımdan möhkəmləndirəcək.

Nəticə

Beynəlxalq "Şimal-Cənub" nəqliyyat dəhlizinin genişləndirilməsi Azərbaycanın iqtisadi səmərəsini, milli büdcənin gəlirlərini, onun istifadəsi isə ölkəmizə olan etimadı və dövlətimizin siyasi nüfuzunu daha da artırır.

Ədəbiyyat

1. Государственная программа модернизации и модернизации сети автомобильных дорог Азербайджанской Республики (2006-2015 годы).

2. Железнодорожная линия Баку-Тбилиси-Карс: экономические оценки и социальный эффект. Новые интеграционные инициативы в Евраазии: современное состояние и перспективы. Материалы II Евраазийского форума социальных наук. Баку: издательство «Экономический университет».

3. Винокуров Е. (редактор), Ахунбаев А., Усманов Н., Забоев А. (2022). Международ- ный транспортный коридор Север-Юг: инвестиции и мягкая инфраструктура. Отчеты и рабо- чие документы 22/2. Алма-Ата, Москва: Евраазийский банк развития.

4. Смотри презентацию г-на Медхата Саада Элдина, генерального директора Египет-ского центра исследований экспорта и импорта, под названием «Глобальная контейнерная индустрия 2008/2009: аналитический отчет о кризисах рынков» (ноябрь 2009 г.). Доступно онлайн по адресу http://www.ecsei-eg.com/The%20Report%202009.pdf.

INFLUENCE OF LOGISTICS ON THE GROWTH OF MODERN ECONOMY

Byashimova Sadap
teacher
Institute of Telecommunications and Informatics of Turkmenistan
(Ashgabat, Turkmenistan)
sapargulw@gmail.com

Abstract

The article examines the role and importance of logistics systems in the modern economy. The essence of logistics systems and their functions in this area is studied.

Key words: logistics systems, economics, logistics.

Sustainable development of our country's economy in the near future is impossible without the development of the logistics system. Global trends in global economic development indicate that the formation of markets for needs leads not only to the development of the market of producers. As a consequence of this process, under the influence of a number of reasons and factors, the development of logistics systems as a whole occurs. The main task of the logistics system is the timely delivery of goods to the customer at the required location and at the proposed cost level. The role of logistics in the country's economy is determined by the systemic interaction of the main factors: economic, organizational, economic, informational, technical, specific, related to the regulation of economic processes. In most foreign countries, the active development of logistics has led to the emergence of logistics systems. The rapid growth of logistics systems has led to the fact that they have crossed the borders of one state. Today, interstate and transnational macro-logistics systems are being developed to facilitate the movement of information, goods, capital and people across borders.

The reasons for the growing interest in logistics and logistics systems are due to the needs of business development and the national economy of the country. Initially, the efforts of enterprises in the production of products were aimed mainly at reducing production costs. Currently, supply is beginning to exceed demand, so entrepreneurs and businessmen are increasingly beginning to recognize the importance of applying logistics principles and approaches in their activities.

Everything changes - changes in market conditions, supply and demand, technologies and materials. Increasing competition leaves no place for relaxed leaders. To beat competitors, it is not enough to offer the minimum price; it is necessary to accurately and timely fulfill the customer’s requirements and at the same time reduce the costs of manufacturing and delivering the goods to the consumer. Taking into account that the conditions of globalization of the world economy combine the results of the efforts of many companies in the production of one product, the complexity of the tasks being solved becomes clear. The solution is to be simplified by introducing logistics and logistics management principles into business practice.

The increase in the scale of application of logistics in the economic activities of business entities is explained by the desire to achieve competitive advantages in production - through the rational use of existing capacities, reduction of working capital reserves, cooperation, diversification, optimization of planning, etc. Being part of an economic system of a higher order, enterprises producing products cannot do without interaction with other organizations that make up the market infrastructure.

It is the economic and organizational connections of enterprises producing goods and services that make it possible to carry out exchange processes and bring manufactured products to the consumer. Logistics is a necessary component of these processes. The economic space of logistics correlates with the concept of a logistics system, which combines ideas about the effective integration of logistics activities within supply chains.

Thus, in modern conditions, logistics and logistics systems are becoming important elements of the development potential of the market economy of our country, an important production segment of the economy. Logistics is increasingly clearly emphasizing its specific role as an energetic locomotive, driving the transport conveyor for the supply of services, transportation of goods, organizing flows in the production of products, thereby ensuring movement forward towards achieving the goals of increasing the well-being of all citizens of the country, national and economic independence.

Reference

1. Anikin B.A., Rodkina T.A. Logistics and Supply Chain Management, 2012
2. Arkadyev K.G. Logistics systems and role in the modern economy, 2015

DƏMİR YOLU İLƏ NEFT MƏHSULLARININ NƏQLİNİN SƏMƏRƏLİ TƏŞKİLİ MƏSƏLƏLƏRİ

LEYLA HƏSRƏTOVA, RUFAN İSMAYILOV

Bakı Mühəndislik Universiteti
Mühəndislik fakültəsi/Nəqliyyatın ekoloji problemləri və dayanıqlı nəqliyyat
lhesratova@beu.edu.az, rismayilov8@std.beu.edu.az
BAKI, AZƏRBAYCAN

Xülasə

Məqalə neft məhsullarının dəmiryol nəqliyyatı ilə daşınmasına həsr olunub. Burada seçilmiş nəqliyyat növünün mahiyyəti, müasir dövrdə yaranan səbəbləri ətraflı qeyd olunub. Tarix göstərir ki, həm Azərbaycanda, həm də başqa ölkələrdə neft məhsulların nəqlinə həmişə böyük diqqət yetirilmişdir. Bu gün də ölkəmizin dünya neft sektorunda payı 33,3 mln. ton (0,8 %) təşkil edir (ru.wikipediya, 2023). Həmçinin müxtəlif növ netf məhsullarının nəqlində istifadə olunan sisternlərin xüsusiyyətlərinə baxılıb. Müxtəlif nəqliyyat növlərinin texniki göstəricilərinin xidmət səviyyələrinə görə sinifləşmə cədvəli tərtib olunub. "Qiymət-keyfiyyət"model matrisi onu göstərir ki, dəmiryol nəqliyyatı daha böyük sistemin tərkib hissəsi, yəni logistika nəqliyyat zənciri kimi qəbul edilməlidir.

Açar sözlər: sistern, dəmiryol nəqliyyatı, neft məhsulları, daşıma

Summary

The article is devoted to the transportation of oil products by railway transport. Here, the essence of the chosen type of transport, the reasons for it in modern times are mentioned in detail. History shows that great attention has always been paid to the transportation of oil products both in Azerbaijan and in other countries. Today, our country's share in the world oil sector is 33.3 mln. tons (0.8%) (ru.wikipedia, 2023). The characteristics of the cisterns used in the transportation of various types of netf products were also reviewed. A table of classification of technical indicators of different types of transport according to service levels has been drawn up. The "price-quality" model matrix shows that railway transport should be considered as a part of a larger system, that is, a logistics transport chain.

Key words: tanker, railway transport, oil products, transportation

Giriş

Neft sənayesi sahə məhsullarının kəşfiyyatı, hasilatı, emalı və daşınmasının ardıcıl proseslərindən ibarət iqtisadiyyat sahəsidir. Bütün bunlar birbaşa yataqlarda aparılır. Ölkəmizin neft hasilatı sərt iqlim şəraiti ilə əhatə olunmasa da daha çox yerin və dənizin dərinliklərindən çıxarılır, bu, ilk növbədə, infrastruktur elementləri olan ərazilərin əlavə nəqliyyata yanaşmasını tələb edir.

Təcrübədə yük əməliyyatının əsas prosesinin həqiqətən daha aşağı maya dəyərinə baxmayaraq, dəmir yolu ilə nəqlinin ümumi dəyəri əhəmiyyətli dərəcədə yüksək ola bilər. Təchizat büdcəsi mütəxəssislər tərəfindən tərtib edilərkən, yükləmə, boşaltma əməliyyatları və yükün digər hərəkətləri üçün bütün əlavə xərcləri nəzərə alaınraq"dairə üzrə" daşınma dəyəri qəbul edilir. Buna görə çatdırılma "qapıdan qapıya" həyata keçirilmədiyi halda, yəni dəmir yolu, su və ya hava ilə nəql olunduqda, layihənin dəyərinə həmişə nəqliyyat vasitəsinə yüklənmə xərclərini, başqa bir nəqliyyat vasitəsinə yükləməyi, malın nəzərdə tutulduğu obyektə çatdırılmasını əlavə etmək lazımdır. Nəticədə, əlavə əməliyyatların dəyəri əsas nəqliyyat xərclərini aşa bilər. Əlavə əməliyyatların reallaşdırılması zamanı mallara ziyan vurma riski (məsələn, yükləmə zamanı) və çatdırılma tarixinin baş verməməsi riski (yükləmə və boşaltma prosedurlarında növbələr, nəqliyyat gecikmələri və s.) artır. Məqalədə bu və başqa problemlərə toxunulub.

Tədqiqat metodu

Neft müxtəlif sənaye sahələrində lazım olan qiymətli təbii sərvətdir (az.wikipedia.org (2023). Neft emalı şirkətləri hər gün yüzlərlə ton neft məhsulları dəmir yolu ilə göndərirlər. Bu cür çatdırılma təhlükəsizlik, optimal qiymət-sürət nisbəti və böyük həcmdə məhsulları dərhal göndərmək imkanı ilə fərqlənir. Dəmir yolu ilə neft məhsullarının daşınmasının xüsusiyyətlərini daha ətraflı nəzərdən keçirək.

Dəmiryol nəqliyyatına tələbat

Dəmiryol nəqliyyatı 150 ildən artıqdır ki, müxtəlif məhsulların çatdırılması üçün istifadə olunur. Bu çatdırılma üsulu hətta neft emalı texnologiyasından da əvvəl yaranıb. Və məhz neft məhsullarının dəmir yolu ilə daşınması ən populyar oldu.

Dəmiryol nəqliyyatı - neft və neft məhsullarının nəqlində əsas yerlərdən birini tutur. Hazırda nəql olunan bütün neft və neft məhsullarının təqribən 40%-i dəmiryolu ilə daşınır. Dəmir yolu ilə neft və neft məhsullarının nəql olunmasının əsas xüsusiyyətlərindən biri odur ki, o, ilin fəsillərindən asılı olmayıb bütün il boyu işləyir. Dəmiryolu ilə neft və neft məhsullarının daşınmasının müsbət cəhətləri ilə yanaşı, onun qüsur, mənfi cəhətləri də vardır. Belə ki, onun tikintisi böyük həcmdə əsaslı vəsait qoyuluşu tələb edir, istismar xərcləri çox olur, xidmət və təmir işlərinə çoxlu vaxt və vəsait sərf edilir.

Biraz tarixə nəzər yetirək

Azərbaycanda ilk dəmir yolunun çəkilişinə 1878-ci ildə başlanmışdır və 1880-cı ilin yanvarında Bakı-Sabunçu-Suraxanı xətti istifadəyə verilmişdir. Bu xətt neft mədənlərini kerosin 72 zavodları və dəniz portu ilə birləşdirdi və neft daşınmasında mühüm rol oynadı. 1883-cü ildə Bakı-Tiflis xətti istifadəyə verildi və əvvəllər Tbilisidən Batuma və Potiyə çəkilmiş xətlər vasitəsilə Xəzər və Qara dəniz portları arasında birbaşa əlaqə yaradıldı. 1900-cu ildə istifadəyə verilən Biləcəri-Dərbənd xətti Zaqafqaziya Şimali Qafqaz və keçmiş SSRİ-nin başqa respublikaları və rayonları ilə, 1908-ci ildə istifadəyə verilən Culfa-Noraşen-Masis dəmiryolu isə Culfa stansiyasını Yerevanla və Zaqafqaziyanın digər məntəqələri ilə birləşdirdi. Bu xətlərdə nəinki sərnişin daşınırdı, həm də neft və neft məhsulları nəql edilirdi (İ.Ş. Elyazov, E.H. Həsənli, L.M. Həsrətova, 2014).

Bu gün, tarixə Azərbaycanda dəmir yolunun əsasının qoyulması kimi düşdü. Dünyada ilk dəfə olaraq bu dəmir yolu xəttində nefti sisternlərdə daşımağa başladılar. Sonrakı 20 il dəmiryol tikinitisinin yüksək inkişafı ilə qeyd olunmuşdur. 1883-cü ildə neftin Qara dəniz limanlarına çatdırılması üçün Bakı-Tiflis-Batumi, 1890-cı ildə isə Biləcəri Dərbənd magistral xətləri çəkildi.

Dəmir yolu vaqonları ilə neft məhsullarının göndərilməsinin müasir səbəbləri:

1. **Dəmir yolu ilə çatdırılma sahəsində infrastrukturun inkişafı.** Həm Azərbaycanda, həm də bütün dünyada uzun və qısa məsafələrə yüklər göndərməyə imkan verən çox sayda dəmir yolları var.
2. **Yük daşıma sürəti.** Hava nəqliyyatı yükləri qatarlardan daha sürətli çatdıracaq. Ancaq təyyarələr bir uçuşda böyük həcmdə yükləri çatdıra bilməyəcəklər, xüsusən də ehtiyatlı yanaşma və təhlükəsizlik standartlarına uyğunluq tələb edən neft məhsullarından danışırıqsa. Buna görə də, neft üçün dəmir yolu çənləri digər çatdırılma variantlarından daha sərfəlidir.
3. **Yüklərin həcmi.** Bir qatarın bir səfərdə daşıya biləcəyi yükün həcminə görə, onunla yalnız böyük dəniz nəqliyyatı müqayisə edilə bilər.
4. **Hava şəraitinin çatdırılmaya təsirin olmaması.** Qatarlar il boyu şəhərlər arasında hərəkət edir. Təyyarələr kimi qar yağmasından və dumandan, və avtomobillər kimi buzdan qorxmurlar.

5. **İqtisadi səmərəlilik.** Eyni miqdarda yükün qatar və ya avtomobillə bərabər məsafəyə daşınmasının maliyyə xərcləri əhəmiyyətli dərəcədə dəyişir. Lokomotiv icarəyə götürmək avtoqatarların xidmətlərindən istifadə etməkdən daha ucuzdur.

Bütün bu üstünlüklər neft məhsullarının dəmir yolu ilə daşınmasına olan tələbatı izah edir.

Dəmir yolu ilə neft və neft məhsullarını daşımaq üçün sisternlərdən istifadə edilir. Sistern latın sözü olub, su tutumu, yaxud su anbarı deməkdir. Stasionar sisternlər beton, dəmir-beton, polad, alüminium ərintilərindən hazırlanır. Dəmiryol sisternləri silindirik formalı qaynaqlanmış metal rezervuardan ibarət vaqondur. Mayeni boşaltmaq üçün xüsusi axıdıcı qurğu ilə təchiz edilir. Tutumu 140 tona qədərdir. Beləliklə də, dəmir yolu neft və neft məhsullarının ölkədaxili və ölkədən kənar daşınmasında mühüm rol oynayır.

Neft məhsulları yalnız müvafiq sertifikatlaşdırmadan keçmiş xüsusi sisternlərdə daşına bilər. Belə taraların tutumu 50 tondan 120 tona qədərdir. Onlar 8 mm qalınlığında təbəqə poladdan hazırlanır. Sisternlər bir-birindən aşağıdakı meyarlara görə fərqlənir: ölçülər, tutum, avadanlıq, yükgötürmə qabiliyyəti, əlavə avadanlıqların mövcudluğu və istehsalda istifadə olunan polad dərəcəsi.

Neft tədarükü üçün sisternlərin istənilən versiyası təhlükəsizlik tələblərinə və standartlara uyğun olmalıdır. Onlar artan güc, buxar müqaviməti, benzin müqaviməti və müxtəlif kimyəvi maddələrə qarşı müqavimət ilə xarakterizə edilməlidir. Yanğın təhlükəsizliyi qaydalarına riayət etmək üçün sisternlərin elektrostatik boşalmaya davamlı olması vacibdir.

Sisternlərin konstruksiyası mühəndislər tərəfindən hazırlanır. Sisternlər neft məhsullarının yüklənməsi və boşaldılması üçün alətlərlə təchiz olunmalıdır. Yükləmə yuxarı xüsusi deşiklər vasitəsilə həyata keçirilir. Boşaltma maşının altındakı lyuklar vasitəsilə həyata keçirilir.

Bundan əlavə, hər bir dəmir yolu sisternləri aşağıdakılarla təchiz edilmişdir:

- Mütəxəssislər tərəfindən texniki nəzarət üçün müşahidə platformaları.
- Konteynerlərə xidmət üçün xarici və daxili pilləkənlər.
- Neft məhsullarının tökülməsinin qarşısını alan boşaltma və doldurma cihazları.
- Nəqliyyat parametrlərini göstərən nəzarət-ölçü alətləri.
- Yanğının və ya gözlənilməz alovlanmanın qarşısını almaq üçün yanğınsöndürmə vasitələri.

Sisternlərin konstruksiyası mühəndislər tərəfindən hazırlanır. Sisternlər neft məhsullarının yüklənməsi və boşaldılması üçün alətlərlə təchiz olunmalıdır (ADY" QSC, 2020). Yükləmə yuxarı xüsusi deşiklər vasitəsilə həyata keçirilir. Boşaltma maşının altındakı lyuklar vasitəsilə həyata keçirilir (şək. 1).

Şəkil 1. Biləcəri yuyucu-buxarlayıcı stansiyasında aparılan işlərin təsviri

Bütün texniki şərtlərə uyğunluğu təmin etmək üçün hər bir sistern sınaqdan keçirilməlidir. Neft məhsulları üçün taralara olan tələblərin hər bir bəndi üçün sınaqdan keçirilir.Hər növ neft məhsulunun öz qablaşdırma variantı var. Özlü neft bitumunu daşımaq üçün yüngül neft məhsulları üçün sisternlərdən istifadə etmək yolverilməzdir və əksinə.

Daşıma prosesində bir neçə nəqliyyat növündən istifadə etməklə daşımaların təşkili üçün nəqliyyat və texnoloji sistem kimi intermodal çatdırılmalar, neft yükləri də daxil olmaqla müasir, geniş istifadə olunan texnologiyadır.

Neft nəqlinin nisbi mobilliyi rəqabət üstünlüyü kimi yük dövriyyəsi və istismar uzunluğuna görə lider mövqe tutan dəmir yolu nəqliyyatına malikdir. Bununla belə, neftin dəmir yolu ilə daşınması son qiymətin 30%-dən çoxunu təşkil edir, neftin boru kəməri ilə daşınması isə 10-15%-dir. Bu rəqəmlərin balanssızlığı gələcəkdə dəmir yolu ilə neft daşımalarının inkişafına təsir göstərmək zərurətini müəyyən edir.

Rəqabəti artırmaq və dəmir yolunun mövqeyini möhkəmləndirmək üçün qiymət siyasəti ilə xidmətlərin keyfiyyətini tarazlaşdırmaq lazımdır.

Həmçinin dəmiryol nəqliyyatının keyfiyyət parametrlərinə görə qalib gəldiyi neft yükləri və daşıma növləri üzrə ixtisaslaşma (yüksək keyfiyyətli xam neft, neft məhsulları və kiçik müəssisələr - neft istehsalçıları və istehlakçıları - əsas "boru"ya çıxışı olmayan).

Cədvəl 1. *İri yükgöndərənlər tərəfindən nəqliyyat növlərinin qiymətləndirilməsi*

Nəqliyyat növləri	**Sürət ("qapıdan-qapıya" çatdırılma vaxtı**	**Göndərmə-lərin teziyi (sutka ərzində qrafik üzrə)**	**Dayanıqlıq (çatdırılma qrafiklərinin yerinə yetirilməsi)**	**Əlçatanlıq (xidmət olunan coğrafi nöqtələrin sayı)**	**T-km-ə düşən qiyməti**
Avtomobil	2	2	2	1	4
Dəmiryol	3	4	3	2	3
Su	4	5	4	4	1
Hava	1	3	5	3	5
Boru	5	1	1	5	2

Mənbə: *"Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2024"*

Xidmət səviyyəsinə görə əsas xidmətlərin 5 sinfə differensiallaşdırılması (cəd. 1) aşağıdakı kimi aparılır (Н.П. Терёшина, 2006):

1-ci sinif. Cədvəli yerinə yetirmək üçün ciddi öhdəliklər olmadan, ərizənin təqdim edilməsi prosedurunun və son tarixlərin mövcud tənzimləyici şərtlərinə, çatdırılma sürətinə uyğun olaraq göndərin. Daşınma həcminin üç variantı üçün tətbiq edilir: qatar (marşrut daşımaları), vaqon daşımaları və kiçik daşınmalar, hər bir seçim üçün müvafiq olaraq artan tarif.

2-ci sinif. Daşıyıcının müəyyən edilmiş tarixdən əvvəl malları çatdırmaq üçün ciddi öhdəlikləri ilə çatdırılma. Texnoloji cəhətdən bu, ya qrafikə prioritet (müəyyən edilmiş müddətlər) daşınması daxil edilməklə əvvəlcədən ərizə verməklə, ya da yükün sürətləndirilmiş şəkildə göndərilməsi ilə əldə edilir. Qatar birləşmələri və vaqon daşımaları üçün uyğundur.

3-cü sinif. Vaxtında çatdırılma öhdəliyi ilə sürətli çatdırılma. Müştəri prioritet (sabit vaxt) daşıma cədvəlinə daxil olmaq üçün əvvəlcədən ərizə təqdim etməlidir. Qatar birləşmələri və vaqon daşımaları üçün uyğundur.

4-cü sinif. Vaxtında çatdırılma öhdəliyi ilə sürətli çatdırılma. Müştəri əvvəlcədən sorğu təqdim etməlidir, lakin nəqliyyatın başlamasına qısa müddət qalmış onu ləğv etmək imkanı verilir. Bu sinif yalnız vaqon yük daşımalarına aiddir.

5-ci sinif. Xidmətin maksimum çevikliyi - əvvəlcədən ərizə təqdim etmədən vaxtında çatdırılma. Sinif yalnız vaqon yük daşımalarına şamil edilir.

Bu seqmentin inkişafı üçün hədəf istiqamətlər neft məhsullarının, yüksək keyfiyyətli xam neftin, əsas "boru"ya çıxışı olmayan yataqlardan və zavodlardan az miqdarda neftin, eləcə də sürətlə daşınmasıdır.

Neft daşımaları seqmentinin (şək. 2) inkişafı üçün hədəf istiqamətlər neft məhsullarının, yüksək keyfiyyətli xam neftin, əsas "boru"ya çıxışı olmayan yataqlardan və zavodlardan az miqdarda neftin, eləcə də sürətlə daşınmasıdır. boru kəməri nəqliyyatı ilə tam əhatə olunmayan artan ixrac bazarlarıdır.



Şəkil 2. Model matrisinin "qiymət-keyfiyyət" koordinatlarında yerləşdirilməsi

Nəticə

Təhlillər göstərir ki, dəmiryol nəqliyyatının idarə edilməsinin ən mühüm istiqamətləri: neft bazarının tələblərinə cavab verən innovativ, yəni daha qənaətcil və mütərəqqi texnologiyalara keçid, nəqliyyat proseslərinin səmərəliliyinin əhəmiyyətli dərəcədə artırılmasıdır.

Yükün "vaxtında" çatdırılması minimum əmək, maddi və maliyyə resursları sərf olunmaqla həyata keçirilməli olduğundan, yük axınları üçün logistika kanalı qurularkən sistemli yanaşma ilə yanaşı, optimallıq prinsipi də həyata keçirilməlidir. Bu halda dəmiryol nəqliyyatı daha böyük sistemin tərkib hissəsi, yəni logistika nəqliyyat zənciri kimi qəbul edilməlidir. Yalnız bu halda bütün sistem üçün daha yüksək təsir əldə etmək məqsədilə logistik nəqliyyat zəncirlərin (limanlar, dəmir yolu stansiyaları və s.) ayrı-ayrı həlqələrini effektiv şəkildə birləşdirmək imkanı yaranır.

Ədəbiyyat siyahısı

1. ru.wikipedia.org (2023). Список стран по добыче нефти
2. az.wikipedia.org (2023). Azərbaycanın təbii sərvətləri.
3. İsrail Şükür oğlu Elyazov, Elxan Həmid oğlu Həsənli, Leyla Məmməd qızı Həsrətova. Dəmir yolları: Ali texniki məktəblər üçün dərslik. Bakı., 2014, səh. 12-13.
4. Biləcəri yuyucu-buxarlayıcı stansiyasının texnoloji iş prosesi. "ADY" QSC, 2020.
5. Экономика железнодорожного транспорта: Учеб. для вузов ж.-д. транспорта / Н.П. Терёшина, В.Г. Галабурда, М.Ф. Трихунков и др.; Под ред. Н.П. Терёшиной, Б.М. Лапидуса, М.Ф. Трихункова. – М.: УМЦ ЖДТ, 2006, стр. 299-301.

LOGİSTİKA VƏ NƏQLİYYATIN TEXNİKİ İNNOVASİYALARLA MODERNLƏŞDİRİLMƏSİ

BAHAR HACIYEVA

Bakı Mühəndislər Universiteti
Mühəndislik/Nəqliyyat texnologiyaları və innovasiyalar
hacyevabahar00@gmail.com
Bakı, Azərbaycan

Xülasə

Məqalə texnoloji irəliləyişlərin logistika və nəqliyyat sənayesində necə inqilab etdiyinə yönəlib. Burada yeniliklərin sürətlə inkişaf edən qlobal mənzərədə səmərəliliyin, davamlılığın və rəqabət qabiliyyətinin artırılmasında oynadığı mühüm rolu vurğulanır. Bundan əlavə, məqalədə bulud əsaslı platformaların və blokçeyn texnologiyasının tədarük zəncirinin görünməsi, şəffaflığı və əməkdaşlığın artırılmasında əhəmiyyəti müzakirə olunur. Qeyd olunur ki, bu yeniliklər maraqlı tərəflərə malları izləmək, kommunikasiyanı təkmilləşdirmək və qlobal təchizat zəncirləri ilə bağlı riskləri azaltmaq

imkanı verir. Sonda məqalədə texniki yeniliklərin logistika və nəqliyyat əməliyyatlarının modernləşdirilməsinə transformativ təsiri göstərilmiş və müasir logistika və nəqliyyatın ekosistemində rəqabətədavamlı qalmaq və inkişaf etmək üçün müəssisələrin bu yenilikləri qəbul etmələrinin zəruriliyi qeyd olunmuşdur.

Açar sözlər: Logistika, Nəqliyyat, İnnovativ Texnologiya

Summary

The article focuses on how technological advancements are revolutionizing the logistics and transportation industry. It highlights the important role that innovation plays in increasing efficiency, sustainability and competitiveness in a rapidly evolving global landscape. In addition, the article discusses the importance of cloud-based platforms and blockchain technology in increasing supply chain visibility, transparency and collaboration. It is noted that these innovations enable stakeholders to track goods, improve communication and reduce risks associated with global supply chains. In the end, the article shows the transformative effect of technical innovations on the modernization of logistics and transport operations and the need for enterprises to adopt these innovations in order to remain competitive and develop in the modern logistics and transport ecosystem.

Keywords: Logistics, Transport, İnnovative Technology

Giriş

Bu günkü sürətlə inkişaf edən dünyada logistika və nəqliyyat sənayesi malların və insanların bütün dünya üzrə hərəkətini asanlaşdırmaqda mühüm rol oynayır. İstehlakçı tələbləri inkişaf etdikcə və tədarük zəncirləri daha mürəkkəbləşdikcə, səmərəliliyi və qənaətcilliyi optimallaşdırmaq üçün innovativ həllərə ehtiyac heç vaxt bu qədər böyük olmamışdır. Logistikada müasir texnologiyanın əsas üstünlüklərindən biri real vaxt rejimində izləmə və görünürlükdür. GPS texnologiyası və RFID teqləri kimi qabaqcıl izləmə sistemləri şirkətlərə bütün tədarük zəncirində daşınmalarının yerini və vəziyyətinə nəzarət etməyə imkan verir. Bu görünmə səviyyəsi nəinki əməliyyat səmərəliliyini artırır, həm də gecikmələr və ya zədələr kimi potensial pozuntulara daha tez cavab verməyə imkan verir və nəticədə müştəri məmnuniyyətinin artmasına səbəb olur [1].

Qloballaşan iqtisadiyyatda təchizat zəncirləri getdikcə bir-biri ilə əlaqəli və mürəkkəbləşir. Bulud əsaslı platformalar və blokçeyn texnologiyası kimi texnoloji həllər təkmil təchizat zəncirinin görünməsini təklif edərək, maraqlı tərəflərə bir çox əlaqə nöqtələrində malları izləmək və izləmək imkanı verir. Bu alətlər şəffaflığı təşviq edir, kommunikasiyanı təkmilləşdirir və tərəfdaşlar arasında əməkdaşlığı asanlaşdırır, nəticədə daha yüksək səmərəliliyə və əməliyyat xərclərinin azalmasına gətirib çıxarır [2].

Texnoloji yeniliklər vasitəsilə logistika və nəqliyyatın modernləşdirilməsi sənayeni yenidən formalaşdırır, səmərəliliyi, davamlılığı və iqtisadi səmərəliliyi artırır. Bu irəliləyişləri qəbul edən müəssisələr əməliyyat performansını təkmilləşdirmək, müştəri təcrübələrini artırmaq və bazar tələblərinə daha effektiv cavab verməklə rəqabət üstünlüyü əldə etməyə hazırlaşırlar. Texnologiya inkişaf etməyə davam etdikcə, şirkətlər üçün bu yenilikləri qəbul etmələri və logistika və nəqliyyat sektorunda böyümə və innovasiyalar üçün yeni imkanlar açmaq üçün onlardan istifadə etmələri vacibdir.

Tədqiqat metodu

Logistika və nəqliyyat sənayesindəki texnologiyadakı irəliləyişlər, həqiqətən, müəssisələrin fəaliyyət göstərmə və təchizat zəncirlərini idarə etmə tərzində inqilab etdi. Daha əvvəl qeyd olunan üstünlüklərdən əlavə, sənayenin gələcəyini formalaşdıran əlavə tendensiyalar və inkişaflar var [3]:

- Dayanıqlı Təcrübələr: Davamlılığa artan diqqətlə, karbon emissiyalarını azaltmaq və ətraf mühitə təsirləri minimuma endirmək üçün elektrikli nəqliyyat vasitələri, alternativ yanacaqlar və optimallaşdırılmış marşrut planlaşdırma proqramı kimi texnologiyalar qəbul edilir. Davamlı təcrübələr təkcə ətraf mühitə fayda vermir, həm də xərclərə qənaət və korporativ sosial məsuliyyətin təkmilləşdirilməsinə töhfə verir.

- Əşyaların İnterneti (IoT): Əşyaların İnterneti cihazlarından temperatur, rütubət və hərəkət də daxil olmaqla təchizat zəncirinin müxtəlif aspektləri üzrə real vaxt rejimində məlumat toplamaq üçün getdikcə daha çox istifadə olunur. Bu məlumatlar müəssisələrə mallarını daha effektiv izləməyə və idarə etməyə, qaydalara uyğunluğu təmin etməyə və məhsulun keyfiyyətini qorumağa imkan verir.

- Augmented Reality (AR) və Virtual Reality (VR): AR və VR texnologiyaları işçilərin təlimini artırmaq, əməliyyatları sadələşdirmək və ümumi səmərəliliyi artırmaq üçün təlim proqramlarına və anbar idarəetmə sistemlərinə inteqrasiya olunur. Bu texnologiyalar anbar planının planlaşdırılmasında və optimallaşdırılmasında da kömək edə bilər.

- Birgə Robotlar (Cobots): Kollaborativ robotlar insan işçiləri ilə birlikdə işləmək, insan incəliyi və robot gücünün birləşməsini tələb edən tapşırıqlarda məhsuldarlığı və səmərəliliyi artırmaq üçün nəzərdə tutulmuşdur. Cobotlar xüsusilə sifariş toplama, qablaşdırma və materialla işləmə kimi sahələrdə faydalıdır.

- Təchizat Zəncirinin Dayanıqlığı: Ssenari modelləşdirmə, risk qiymətləndirmə alətləri və fövqəladə halların planlaşdırılması proqramı kimi texnoloji həllərin inteqrasiyası müəssisələrə təbii fəlakətlər, geosiyasi hadisələr və iqtisadi qeyri-müəyyənliklər kimi gözlənilməz pozulmalara uyğunlaşa bilən davamlı təchizat zəncirləri yaratmağa kömək edir.

Müştəri Təcrübəsinin Təkmilləşdirilməsi: Çatbotlar, müştəri portalları və süni intellektə əsaslanan müştəri xidməti platformaları kimi texnologiyalar ünsiyyəti təkmilləşdirmək, müştərilərə real vaxt yeniləmələri təqdim etmək və xidmət təkliflərini fərdiləşdirmək üçün istifadə olunur. Müştəri təcrübəsinə artan diqqət bugünkü rəqabətli bazar mənzərəsində vacibdir. Yüksək rəqabətli nəqliyyat və logistika sənayesində ən yaxşı tendensiyalar isə bunlar hesab olunur [4]:

1. Nəqliyyat və Logistikada M2M Kommunikasiyaları: M2M rabitəsi üç ölçüdən ibarətdir: “Machine-to-Man”, “Machine-to-Machine” və “Machine-to-Mobility” proqramları.

2. “Machine-to-Machine” əməkdaşlığı. Bu gün biz “Texnologiyaların Konvergensiyası” dövrünə qədəm qoymuşuq. İT həlləri təminatçıları ənənəvi İT sistemlərindən veb əsaslı və ya bulud əsaslı həllərə keçmək və birgə İT platformaları yaratmaq üçün sənaye oyunçuları ilə sıx əməkdaşlıq etməlidirlər. Təhlil hesabatına görə, gələn il üçün ən yaxşı nəqliyyat sənayesi tendensiyaları arasında elektrik yük maşınlarına, avtonom idarəetməyə, elektrik/hibrid avtobuslara və ağıllı nəqliyyat həllərinə artan tələb daxildir [5].

3. Elektrikli yük maşınları: Yük maşınlarının istehsalı və yük daşımaları günü-gündən artır. Bu, mütləq yük sənayesindən CO2 emissiyalarını artıracaq. Emissiya həddinə nəzarət etmək üçün ya qabaqcıl mühərrik texnologiyalarına, ya da sonrakı emal cihazlarına ehtiyac var. Bu tətbiqlərdən hər hansı biri yük maşını qiymətlərinin artmasına səbəb olacaq.

4. Elektrikli/Hibrid Avtobuslar: Bütün dünyada kənd yerlərindən şəhər ərazilərinə artan immiqrasiya tendensiyası ilə ictimai nəqliyyata tələbat artır.

5. İntellektual İctimai Nəqliyyat: Üstün ictimai nəqliyyat sistemi yanacağın qiymətlərini və İXQ emissiyalarını azaldan tək dayanacaqlı həll yolu ola bilər. Texnologiya provayderləri indi inteqrasiya olunmuş mobillik həllərini hədəfləyirlər. Bu sistemlə sistem stansiya əsaslı mobillik həlli ilə idarə olunacaq.

Yeni texnologiyalar aviasiya, avtomobil, dəmir yolu, çay və dəniz nəqliyyatını vahid multimodal şəbəkədə birləşdirərək sənayenin simasını tamamilə dəyişdirir. Nəqliyyat vasitələri daha avtonom və ekoloji cəhətdən təmiz olur. Logistikada platforma həlləri əsasında tam xidmətlər silsiləsi həyata keçirən ekosistemlər qurulur (issek.hse.ru/news/584505379).

Rəqəmsal texnologiyalarında alimlərin maraqları daha çox hava nəqliyyatına yönəlib (cəd.1) iş aləmində isə - avtomobil (cəd.2). Məqalədə təqdim olunan reytinqlərin hər birinə həm artıq mövcud olan, həm də fəal surətdə təkrarlanan həllər (məsələn, intellektual nəqliyyat sistemləri) və yeni yaranan, o cümlədən əsaslı şəkildə yeni nəqliyyat növləri (məsələn, hava taksiləri) daxildir. Hər iki reytinqdə əməliyyatların şəffaflığını və təchizat zəncirində öhdəliklərin avtomatik yerinə yetirilməsini təmin edən smart müqavilələr ən populyarlar arasında idi.

Cədvəl 1. *Nəqliyyat növləri üzrə təklif olunan innovasiyalar və dərəcələri*

Səviyyəsi	Texnologiyalar	Nəqliyat növü	İndeks dərəcəsi
1	Pilotsuz uçuş aparatları	Hava	1,00
2	Smart-kontraktlar	Hamısı	0,95
3	İntellektual idarəetmə sistemləri	Avtomobil	0,48
4	Pilotsuz avtomoillər	Avtomobil	0,38
5	Trafik idarəetmə texnologiyaları	Hamısı	0,26
6	Ehtiyatların idarəetmə sistemləri	Hamısı	0,17
7	Elektromobillər	Avtomobil	0,13

8	Biometrik autentifikasiya	Hava (sərnişin)	0,12
9	Pilotsuz uçuş aparatlarının idarəetmə sistemləri	Hava	0,05
10	Avtonom gəmilər	Dəniz	0,03
11	V2X (Vehicle-to-Everything) texnologiyaları	Avtomobil	0,02
12	Naviqasiyanın peyk sistemləri	Hamısı	0,01
13	Davranış biometrikası	Hava (sərnişin)	0,01
14	Anbarın idarəetmə sistemləri	Hamısı	0,01
15	Maqnit yastıqda yüksəksürətli qatarlar	Dəmiryol	0,01

Mənbə: *İqtisadiyyat üzrə Ali Məktəbin tədqiqatları, 2022*

Cədvəl 2. *Nəqliyyat növləri üzrə tətbiq olunan innovasiyalar və dərəcələri*

Səviyyəsi	Texnologiyalar	Nəqliyat növü	İndeks dərəcəsi
1	Elektromobillər	Avtomobil	1,00
2	Pilotsuz avtomoillər	Avtomobil	0,47
3	Ehtiyatların idarəetmə sistemləri	Hamısı	0,29
4	İmersiv (virtual) texnologiyalar	Hamısı	0,20
5	Smart-kontraktlar	Hamısı	0,12
6	Pilotsuz uçuş aparatları	Hava	0,10
7	Üz tanıma	Hamısı	0,08
8	Trafik idarəetmə texnologiyaları	Avtomobil	0,06
9	Biometrik autentifikasiya	Hava (sərnişin)	0,05
10	Yüklərin çatdırılması üçün pilotsuz uçuş aparatları	Hava	0,04
11	Vertikal enmə-qalxan elektrik təyyarələrin yaranma texnologiyaları	Hava (sərnişin)	0,04
12	Proqnozlaşdırıcı analitika	Hamısı	0,04
13	Hidrogen yanacaqla işləyən qatarlar	Dəmiryol	0,02
14	"Ağıllı" liman	Dəniz	0,01
15	Anbar işləri	Hamısı	0,01

Mənbə: *İqtisadiyyat üzrə Ali Məktəbin tədqiqatları, 2022*

Nəticə

Yekun olaraq qeyd edək ki, texniki yeniliklər vasitəsilə logistika və daşımaların modernləşdirilməsi sənayenin mənzərəsində əsas dəyişikliyi təmsil edir və səmərəlilik, davamlılıq və rəqabətqabiliyyətlilik üçün misilsiz imkanlar təklif edir. Real vaxt rejimində izləmə və görünmə həllərindən tutmuş avtomatlaşdırmaya, proqnozlaşdırıcı analitikaya və blokçeyn texnologiyasına qədər bu yeniliklər təchizat zəncirinin idarə edilməsi və nəqliyyat əməliyyatlarının hər tərəfini yenidən formalaşdırır. Texniki innovasiyaların inteqrasiyası müəssisələrə öz əməliyyatları haqqında daha dərindən məlumat əldə etməyə, resursları optimallaşdırmağa və inkişaf edən bazar dinamikasına sürətlə reaksiya verməyə imkan verir. Gələcəyə baxdıqca, davamlı inkişaf və texniki yeniliklərin mənimsənilməsi getdikcə mürəkkəbləşən və bir-birinə bağlı olan qlobal bazarda rəqabət üstünlüyünü qoruyub saxlamaq istəyən bizneslər üçün mühüm əhəmiyyət kəsb edəcək. Bu texnologiyalardan istifadə etməklə, təşkilatlar inkişaf edən logistika və nəqliyyat mənzərəsində uğur qazanmaq üçün özlərini mövqe tutaraq, yeni səmərəlilik, davamlılıq və möhkəmlik səviyyələrini açа bilərlər.

Ədəbiyyat

1. Monczka, R. M., Handfield, R. B., Giunipero, L. C., & Patterson, J. L. (2015). Purchasing and Supply Chain Management (6th ed.). Cengage Learning
2. Chopra, S., & Meindl, P. (2015). Supply Chain Management: Strategy, Planning, and Operation (6th ed.). Pearson.
3. Ivanov, D. (2020). Viable Supply Chain Model: Integrating Agility, Resilience and Sustainability Perspectives—Lessons from and Thinking Beyond the COVID-19 Pandemic. Annals of Operations Research, 1–21.
4. https://www.odtap.com/5-top-technology-trends-in-transportation-and-logistics-industry/
5.https://www.ue.katowice.pl/fileadmin/_migrated/content_uploads/3_A.Bujak_N_GubskayaInnovations.pdf
6. https://issek.hse.ru/news/584505379.html

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Bakı Mühəndislik Universitetinin birgə təşkilatçılığı ilə

BAKI MÜHƏNDİSLİK UNİVERSİETİ-BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRANS

AZƏRBAYCAN BEYNƏLXALQ NƏQLİYYAT SİSTEMİNDƏ:

HƏDƏFLƏR VƏ PERSPEKTİVLƏR

BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRASNS

Bakı Mühəndislik Universiteti, 24-25 May 2024-cü il, Bakı, AZƏRBAYCAN

PROCEEDINGS

S E K S İ Y A – 4

NƏQLİYYAT DƏHLİZLƏRİ VƏ TƏCHİZAT ZƏNCİRİNİN İDARƏ EDİLMƏ PROBLEMLƏRİ

24-25 MAY
Baku, Azerbaijan

ZƏNGƏZUR DƏHLİZİNİN QLOBAL İNTEQRASİYASI VƏ AVROPAYA AÇILAN QAPI

Sahib Əsgərov, Zeynəb Vəliyeva

Azərbaycan Texniki Universiteti
Nəqliyyat və logistika/Azərbaycan
s.a.asgerov@aztu.edu.az, zeynebveliyev.13@gmail.com
Baku, Azerbaijan

SUMMARY

In this article, we talk about the advantages of the Zangezur corridor for Azerbaijan from an economic, political, and logistical point of view. At the same time, we have provided information about the positive aspects of other countries. As the bravery of the Azerbaijani army after the 2nd Karabakh war resounds around the world, at the same time, the construction of the Zangezur corridor and the increase in cargo carrying capacity of the Baku-Tbilisi-Kars railway line will serve as a gateway to Europe for Central Asian countries. This time, Azerbaijan as a transit state will have delivered its power to the world in freight transportation by both railway and road transport. In the reporting part of the article, we compared the advantages and disadvantages of China-Europe transport routes with the Zangezur corridor. As a result, we have recorded our estimates about the positive development that the Zangezur corridor will create for us.

XÜLASƏ

Bu məqalədə Zəngəzur dəhlizinin iqtisadi, siyasi və logistik baxımdan Azərbaycan üçün üstünlükləri və eyni zamanda digər ölkələr üçün də müsbət cəhətləri barədə məlumatlar verilib. 2-ci Qarabağ müharibəsindən sonra Azərbaycan ordusunun şücaəti dünyaya səs saldığı kimi, Zəngəzur dəhlizinin tikintisi və Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin yükdaşıma qabiliyyətinin artırılması Mərkəzi Asiya ölkələri üçün Avropaya açılan qapı rolunu oynayacaq. Azərbaycan bu dəfə də tranzit dövlət olaraq həm Dəmir yolu, həm də avtomobil nəqliyyatı ilə yük daşımalarda öz gücünü dünyaya çatdırmış olacaq. Məqalənin hesabat hissəsində də Çin Avropa nəqliyyat yollarının üstün və mənfi cəhətləri araşdırılmış, Zəngəzur dəhlizi ilə müqayisə edilmişdir. Nəticədə isə Zəngəzur dəhlizinin bizə yaradacağı müsbət inkişaf barəsində təxminlərimizi qeyd etmişik.

Açar Sözlər: Zəngəzur dəhlizi, Logistika, Tranzit, Dəmir yolu, Yükdaşıma

GİRİŞ

Azərbaycanın rəşadətli və müzəffər ordusu 44 günlük müharibədə işğal olunmuş torpaqlarımızı azad edərək yeni bir tarix yazdı. 2-ci Qarabağ müharibəsində təkcə torpaqlarımız geri qaytarılmadı, eyni zamanda yeni tranzit yolunun açılmasına zəmin yaratdı. Bu isə Mərkəzi Asiya ölkələrinin Avropaya çıxışının ən optimal üsullarından biridir.

2020-ci ilin noyabrın 10-da imzalanan 3 tərəfli bəyannamənin 9-cu maddəsi Zəngəzur dəhlizinin açılmasına imkan yaratmışdır. Daha sonra 2021-ci ilin noyabrın 26-da Soçi Bəyanatı Zəngəzur dəhlizinin aktuallığını daha da gücləndirdi. Bu bəyanat həm logistika və nəqliyyat, həm də iqtisadi əlaqələrin inkişafına yönəlmişdir. Eyni zamanda bu bəyanat həm dəmiryoluna, həm də avtomobil nəqliyyatına aiddir.

Bu dəhlizin tikintisi Çinin Avropaya çıxış yolunu qısaltmış olur ki, bu da logistik cəhətdən ən əlverişli yollardan biridir. Eyni zamanda 2019-cu ildə Türkiyə - Çin ticarət həcmi 21 milyard avro olmuşdur ki, dəhlizin açılması bu miqdarın daha da artmasına gətirib çıxaracaqdır. Beləliklə, Türkiyənin bu dəhliz vasitəsilə Orta Asiyaya çıxışı zamanı İrandan asılılığı azalır. Əlavə olaraq Çindən gələn məhsulların Süveyş kanalından keçən dəniz nəqliyyatı vasitəsi ilə daşınması, bu dəhlizi alternativ tranzit yoluna çevirəcəkdir. Çünki yaxın keçmişdə Süveyş kanalında olan Evergreen gəmisinin qəza etməsi nəticəsində 5.1 milyard Qərbə və 4.5 milyard Şərqə daşınan yüklər üzrə, ümumilikdə 9.6 milyard dollar dəyərində zərərə səbəb olmuşdur. Süveyş kanalı kifayət qədər böyük bir logistik əhəmiyyətə sahibdir ki, dünya ticarətinin 12% daşımaları bu kanal vasitəsi ilə həyata keçirilir.

Şəkil 1. Asiya-Avropa tranzit xəritəsi. **Mənbə:** (Türkiyə Respublikası Nəqliyyat və İnfrastruktur Nazirliyi).

Zəngəzur dəhlizi tranzit qabiliyyəti ilə yanaşı Orta Asiyada yerləşən türk dövlətlərini birləşdirən bir körpü rolunu da oynayır. Nəzərə alsaq ki, türkdilli dövlətlərin ümumi daxili məhsulu (ÜDM) 1,1 trilyon dollar təşkil edir, dəhliz geoiqtisadi cəhətdən mühüm bir bağlantı olaraq logistik axının artımına böyük töhfə verə bilər. Dəhliz açıldıqdan sonra Türkiyənin Avropa ilə Çini birləşdirən yeni logistik nəqliyyat xətti olacağını da qeyd etmək lazımdır.

"Bir Kəmər, Bir Yol" layihəsi, Çin Xalq Respublikası tərəfindən 2013-cü ildə təqdim olunmuşdur. Bu layihə Avrasiya regionundakı infrastrukturun inkişafını və əlaqələrin gücləndirilməsini qarşıya məqsəd olaraq qoymuşdur. "Bir Kəmər, Bir Yol" strateji planı iki əsas istiqaməti əhatə edir: "İpək Yolu İqtisadi Kəməri" və "Dəniz İpək Yolu". Bu layihə vasitəsilə malların Şərqdən Qərbə güzəştli şərtlərlə daşınması üçün ticarət dəhlizlərinin yaradılması təmin edilir. Bu dəhlizlər, əsasən Zəngəzur dəhlizi kimi, regionun əlaqələrini və ticarət imkanlarını genişləndirir və inkişafını dəstəkləyir. "Bir Kəmər, Bir Yol" layihəsi, Avrasiya regionunun iqtisadiyyatında böyük bir dönüşümə səbəb olmuşdur. Əməkdaşlıq və əlaqələrin daha da güclənməsinə imkan vermişdir. Bu strategiya təşkilatlar, ölkələr və regionlar arasında daha sıx əlaqələrin formalaşmasına və əməkdaşlığın genişlənməsinə kömək edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndinə əsasən, 2022-ci il martın 11-də Bakı şəhərində keçirilən iclasda "Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu" imzalanmışdır. Bu memorandumda İran ərazisindən keçərək Naxçıvan MR-nı və Şərqi Zəngəzur ərazisini birləşdirən dəmir yolu və avtomobil yollarının inşasından, rabitə və enerji təminatı xətlərinin yaradılmasından bəhs edilir.

Zəngəzur dəhlizinin layihəsində nəzərdə tutulanlar:

Başlanğıcını Füzulinin Əhmədbəyli kəndindən götürən avtomobil yolunun 6 kilometrlik zəruri hissəsində 3 avtomobil tuneli vardır. Bu tunellər T1, T2, T3 olaraq adlandırılır. Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu ümumilikdə 123.8 kilometr təşkil edir. Bu yol eyni zamanda Qarabağ və Şərqi Zəngəzurdakı iqtisadi rayonların da inkişafına gətirib çıxarır. Həmçinin gələcəkdə tikintisi planlaşdırılan smart şəhərlərin reallaşması və tranzit qabiliyyətinin artırılmasına geniş zəmin yaradacaqdır.

Bu yol Qarabağın inkişaf planının bir hissəsini təşkil edərək I texniki dərəcəyə uyğun inşa edilir. Yolun 6 zolaqdan ibarət olan ilk 80 km məsafəsi 3 gediş və 3 gəliş, ikinci 43.8 km məsafəsi isə 4 zolaqdan ibarət olub 2 gediş və 2 gəliş zolağından ibarətdir. Zolaqların eni müvafiq olaraq 29,5 və 21,5 metrdir.

Cədvəl 1: Zəngəzur dəhlizindəki infrastrukturlar

Zəngəzur dəhlizində infrastruktur	**Məsafə/Say**
Tunel T1	1020 m
Tunel T2	1822 m
Tunel T3	3170 m
Viaduk	2
Avtomobil körpüsü	27

Yol ötürücüsü	8
Yeraltı keçid	55
Yerüstü keçid	5
Dairəvi boru (suların ötürülməsinə görə)	265
Düzbucaqlı su keçidi (suların ötürülməsinə görə)	41
Kommunikasiya xətləri	60

Hal-hazırda inşası davam edən 3 avtomobil yolu başlanğıcını buradan götürəcək: Əhmədbəyli-Füzuli-Şuşa, Şükürbəyli-Cəbrayıl-Hadrut və Xudafərin-Qubadlı-Laçın avtomobil yollarının layihə üzrə işlərin ümumilikdə 73 % yerinə yetirilib.

Şəkil 2: Zəngəzur dəhlizi **Mənbə:** (Nəsimi Ağayev, 2022).

Zəngəzur dəhlizinin 123.8 km Azərbaycandan, 224 km Türkiyədən, 43 km isə Ermənistan ərazisindən keçir. Azərbaycandan keçən hissənin tikintisinin bitməsi 2025-ci ilə planlaşdırılsa da, ümumi xəttin tikintisinin başa çatması 2028-ci ilə planlaşdırılır.

Şəkil 3: Zəngəzur dəhlizi ilə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin birləşməsi **Mənbə:** (DHA, 2023).

Ermənistan ərazisindən keçən 43 km məsafədə vaxti ilə Mehri ərazisində dəmir yolu xətti olmasına baxmayaraq, bu xətt sökülmüş və talan edilmişdir. Ona görə də yenidən tikintisinə ehtiyac vardır. Dəmir yolunun inşası üçün isə təqribən 200 milyon dollarlıq vəsaitə ehtiyac vardır. Bu isə Ermənistan üçün kifayət qədər böyük məbləğdir.

Horadiz-Ağbənd dəmir yolu xətti 2021-ci il fevralın 14-də təməli qoyulmuşdur və ümumi uzunluğu 110,4 kilometrə çatır. Bu dəmir yolu 8 stansiyadan ibarət olacaq və layihə daxilində 300-dən çox infrastruktur qurğusunun tikintisi planlaşdırılır. Yeni inşa ediləcək olan stansiyalar arasında Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Mincivan, Bartaz və Ağbənd əraziləri yer alır. İnşa ediləcək olan Horadiz-Ağbənd dəmir yolu xətti üç mərhələdə tamamlanacaq. İlk mərhələdə, Horadiz, Mərcanlı və Mahmudlu stansiyaları daxil olmaqla 30 kilometrlik yol qurulacaq. İkinci mərhələdə isə Soltanlı, Qumlaq stansiyaları ilə birlikdə 55 kilometrlik bir yol tikiləcək. Üçüncü mərhələdə Mincivan, Bartaz və Ağbənd stansiyalarını əhatə edən 25,4 kilometrlik bir yol inşa ediləcəkdir.

TƏDQİQAT METODU

Tədqiqat işimdə məlumatların müxtəlif mənbələrdən toplanması və müqayisəli təhlili nəticəsində ən optimal yolun tapılmasına əsaslanmışıq. Belə ki, Çin məhsullarının Avropaya çatdırılması üçün dəniz nəqliyyatından istifadə etdikdə təqribən gediş müddəti 36 gün, Transsibir marşurut yolunda isə 20 gün, amma Zəngəzur dəhlizi ilə daşımalar zamanı isə bu müddət 12 gün olur. Bu da logistik daşımalar cəhətdən çox sərfəlidir. Eyni zamanda dəmir yolu nəqliyyatı ilə daşımalar, dəniz nəqliyyatı ilə daşımalardan 45-60%-ə qədər daha sərfəlidir. Bu da iqtisadi baxımdan logistik xərcləri azaldır. Beləliklə limanlarda doldurub-boşaltma əməliyyatlarına çəkilən xərcləri və boş dayanma müddətlərini aradan qaldırmış olurlar.

Təqribi olaraq 20 futluq bir konteynerlə məhsul daşınmasının müxtəlif daşıma yolları ilə xərclərini müqayisə edək.

Dəniz nəqliyyatı (Süveyş kanalı ilə):
Daşınma xərci: 2000-5000 dollar
Süveyş kanalı keçidi haqqı: 500-1000 dollar
Daşınma xidmətləri: 1500-3000 dollar
Cəmi məbləğ (minimum): 2000 + 500 + 1500 = 4000 dollar
Cəmi məbləğ (maksimum): 5000 + 1000 + 3000 = 9000 dollar
Gediş müddəti: 36 gün
Məsafə: 11.000 km

Transsibir nəqliyyatı:
Daşınma xərci: 3000-6000 dollar
Daşınma xidmətləri: 2000-4000 dollar
Cəmi məbləğ (minimum): 3000 + 2000 = 5000 dollar
Cəmi məbləğ (maksimum): 6000 + 4000 = 10000 dollar
Gediş müddəti: 20 gün
Məsafə: 10.000 km

Zəngəzur dəhlizi:
Daşınma xərci: 2000-5000 dollar
Daşınma xidmətləri: 1500-3000 dollar
Cəmi məbləğ (minimum): 2000 + 1500 = 3500 dollar
Cəmi məbləğ (maksimum): 5000 + 3000 = 8000 dollar
Gediş müddəti: 12 gün
Məsafə: 8.000 km

Hesablamalarda qeyd olunan nəticəyə əsasən ən uyğun daşıma qiymətlərinə və daşıma müddətinin qısa olmasına görə Zəngəzur dəhlizi optimal bir daşıma dəhlizidir. Dəmir yolu daşımalarında risklərin miqdarının digər daşınma növlərinə nisbətdə aşağı olması yüklərin daha təhlükəsiz daşınmasına da zəmin yaradır. Bu koridorun açılması ilə enerji və ticarət yolları əsaslı şəkildə dəyişəcəkdir.

NƏTİCƏ

1. Zəngəzur dəhlizi həm daşıma xərclərini, həm də daşıma müddətini minimuma endirməyə köməklik edir.
2. Eyni zamanda Transsibir xətti ilə daşımalar siyasi proseslərdən tez təsirləndiyindən daşıma müddəti uzana və ya daşımalar ləğv oluna bilər.
3. Süveyş kanalının dar olması isə orada qəza riskinin yüksəlməsinə səbəb ola bilər.

4. Zəngəzur dəhlizini digər daşıma xətləri ilə müqayisə etdikdə logistik cəhətdən ən əlverişli mövqedə yerləşən bir dəhliz olduğunu görürük.
5. Türkiyə Avropadan Çinə uzanan yeni logistik kanala sahib olacaq.
6. Azərbaycanın tranzit gəlirlərində ciddi artıma səbəb olacaq.
7. Yaxın gələcəkdə Avropaya elektrik enerjisi satışı gözlənilə bilər.
8. Azərbaycan bu kəmər vasitəsilə Türkiyə üzərindən Avropaya çıxış edə bilər.

ƏDƏBİYYAT SİYAHISI

1. https://m.modern.az/az/news/318961/zengezur-dehlizinden-kececek-demir-yolu-yeniden-qurulur-foto
2. https://veteninfo.az/1317-2
3. https://www.medeniyyet.az/page/news/65857/.html
4. https://zengezur.com/index.php/kh-b-rl-r/437-z-r-dehlizi-hazir
5. https://sputnik.az/20240219/zengezur-dehlizi-ile-bagli-iki-alternativ-var---turk-nazir-462724258.html
6. https://aztv.az/az/news/16845/zengezur-dehlizinin-tikintisi-davam-edir
7. https://serqqapisi.gov.az/xeberler/horadiz-cebrayil-zengilan-agbend-yolunun-zengezur-dehlizi-tikintisi-73-faiz-icra-olunub#prettyPhoto.
8. https://president.az/az/articles/view/55727https://www.eurasian-research.org/publication/zengezur-koridorunun-azerbaycan-ve-bolge-icin-onemi/?lang=tr
9. https://twitter.com/NasimiAghayev/status/1608804023725084672
10. https://www.sondakika.com/ekonomi/haber-zengezur-koridoru-orta-koridorun-yuk-tasima-kapasi-16042611/

AZƏRBAYCAN ÜÇÜN BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZLƏRİNİN ƏHƏMİYYƏTİ

ASƏF ƏLİYEV

Naxçıvan Dövlət Universiteti
"Nəqliyyat mühəndisliyi və texniki fənlər" kafedrası
aliyevasef@ndu.edu.az

ABSTRACT

The article analyzed the international transportation routes that pass through Azerbaijan. The development of the logistics system should be considered as a great contribution to the development of many economic sectors in the country, including transport, construction, and processing industries. The research conducted involved the interpretation of perspective development issues through a comparison of data that characterized the strategic importance of transport-transit transportation throughout the country.

Key words: Strategic Road Map, logistics, trade, transport corridor, transport service

XÜLASƏ

Məqalədə Azərbaycandan keçən beynəlxalq nəqliyyat dəhlizləri təhlil olunmuşdur. Logistika sisteminin inkişaf etdirilməsi ölkədə bir çox iqtisadiyyat sahələrinin, o cümlədən nəqliyyat, tikinti, emal sənayesi sahələrinin inkişafı üçün böyük töhfə kimi qiymətləndirilməlidir. Aparılan tədqiqatda ölkə üzrə nəqliyyat-tranzit daşımalarının strateji əhəmiyyəti və də bu sahəni xarakterizə edən məlumatların müqayisəsi əsasında perspektiv inkişaf məsələləri şərh edilmişdir.

Açar sözlər: Strateji Yol Xəritəsi, logistika, ticarət, nəqliyyat dəhlizi, nəqliyyat xidməti

Milli iqtisadiyyatımızın qloballaşdığı bir dövrdə təsərrüfatçılığın daha da inkişaf etdirilməsi ölkəmizdə iqtisadi-siyasi vəziyyətdən, investisiya qoyuluşundan, nəqliyyat sənayesinin, eləcə də qeyri-neft sektorunun inkişaf etdirilməsindən, yeni texnika və texnologiyaların istehsalata tətbiqindən və s. asılıdır. Bunların arasında nəqliyyat sektorunun inkişaf etdirilməsi və onunla əlaqədar infrastrukturun yaradılmasına indiki

gündə xüsusi önəm verilməlidir. Hazırda nəqliyyat sektorunda bu istiqamətdə bir sıra layihələr davamlı olaraq həyata keçirilməkdədir.

Məlum olduğu kimi Azərbaycan Respublikası (AR) dünya iqtisadiyyatına sürətlə inteqrasiya etməklə yanaşı, onun ərazisi həm coğrafi baxımdan, həm də strateji cəhətdən əlverişli bir məkanda yerləşir. Avropa və Asiya qitələrinin biqləşməsində yerləşməklə AR qarşısında yükdaşımaların səmərəli həyata keçirilməsi, tranzit daşımalarının çoxaldılması ilə əldə ediləcək gəlirlərin artırılması imkanları yaranır.

Azərbaycan Respublikası ərazisindən keçən dəhlizin digər variantlarla müqayisədə bir çox üstünlükləri mövcuddur. Buraya, ilk növbədə Mərkəzi Asiya və digər ölkələrin dəmiryol nəqliyyatından istifadəyə daha çox meyl etmələri, məsafənin qısa olmasına görə yüklərin mənzil başına nisbətən tez çatdırılması və bir neçə nəqliyyat növündən eyni zamanda istifadə etmək imkanı, o cümlədən avtomobil nəqliyyatı vasitəsilə yüklərin "qapıdan-qapıya" çatdırılması və s. aiddir.

Cənab İ.H.Əliyevin Sərəncamı əsasında təsdiqlənən "Strateji Yol Xəritəsi"ndə (6.12.16) 2025-ci ilə qədər və ondan sonrakı müddətlərdə nəqliyyat sənayesinin inkişaf təmayülləri öz əksini tapmışdır [1]. Burada əsasən nəqliyyat sənayesində yenilikləri daha da inkişaf etdirən bir çox konseptual məsələlər şərh edilmişdir. Yaxın gələcəkdə qeyri-neft sektorunun əsas sahələrindən biri olan nəqliyyat sənayesində yeniliklərin reallaşdırılması üzrə müvafiq nazirliklərin, təşkilatların və qurumların yaradılması ilə yanaşı onların fəaliyyətinin koordinasiya olunması gerçəkləşdiriləcəkdir.

Qeyd edildiyi kimi AR-nın geo-strateji mövqeyi və ölkə ərazisindən keçən nəqliyyat dəhlizləri yüklərin nəql edilməsinin daha səmərəli həyata keçirilməsi üçün geniş imkanlar yaradır. Ölkəmizdən keçməklə Avropa-Asiya marşrutu üzrə avtomobil yolu əsasən: Şərq-Qərb (TRASEKA), Şimal-Cənub və Naxçıvan Muxtar Respublikasına çıxışı təmin edən beynəlxalq nəqliyyat dəhlizlərinə istiqamətləndirilmişdir.

Ölkəmiz Qədim İpək Yolunun mərkəzində yerləşməsindən tarixən istifadə etmiş və hazırda Çin dövlətinin "Bir kəmər bir yol" strategiyasının gerçəkləşdirilməsində iştirak edir. Bu ölkə tərəfindən adı çəkilən strategiyanın həyata keçirilməsinə görə iştirakçı dövlətlərə artıq 90 mlrd.$ vəsait xərclənmişdir. Eyni zamanda Çinlə etibarlı tərəfdaş olan AR arasında ticarət dövriyyəsi son dövrlərdə 3 dəfəyə yaxın çoxalmışdır. Həmçinin "Bir kəmər bir yol" strategiyasının həyata keçirilməsində iştirakçı dövlətlərə 6 trilyon $-dan çox sərmayə qoyuluşu Çin dövlətinin bu nəqliyyat yoluna daha böyük əhəmiyyət verdiyini təsdiq edir. Cari ildə idxal-ixrac əməliyyatları üzrə göstəricilərin bu ölkə üzrə müqayisə edilməsində artımların müşahidə edilməsi əlaqələrimizin genişləndirilməsi zəminində büdcə gəlirlərimizin artırılmasına gətirib çıxaracaqdır.

Tranzit dəhlizlərinin rəqabət qabiliyyətinin artırılması Azərbaycanın xidmət ticarəti sisteminin səmərəli fəaliyyətində və qeyri-neft sektorunda iqtisadi artımın təmin edilməsində mühüm rol oynayır. Ona görə də Azərbaycan beynəlxalq tranzit dəhlizlərinin kəsişməsində yerləşir. Eyni zamanda, tranzit dəhlizləri digər sahələrin inkişafına ciddi təsir göstərə bilər. Hər il orta hesabla iqtisadi artımın 20%-dən çoxu nəqliyyatın payına düşür ki, bunun da təxminən 60%-i qeyri-neft sektorunda yükdaşımaların payına düşür. Nəqliyyat-tranzit sektorunun inkişafı üçün əlverişli infrastruktur yaradılmışdır. Nəqliyyat-tranzit sektorunun 90%-dən çoxu regionları əhatə etdiyindən bu sahənin canlandırılması regionların sosial-iqtisadi inkişafı proqramlarında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinə mühüm töhfə verə bilər [2].

Nəqliyyat xidmətləri bazarı məhdud ölçüyə malik olduğundan, milli şirkətlər yalnız yerli nəqliyyat xidmətləri bazarında iştirak edirlər. Nəqliyyat-tranzit sektorunun rəqabətə davamlılığının gücləndirilməsi, infrastrukturun yenidən qurulması, məşğulluğun və gəlirlərin səviyyəsinin yüksəldilməsi, regional inkişafın dəstəklənməsi və s. səbəblərdən ölkə iqtisadiyyatında problemlər öz həllini tapır.

Azərbaycan iqtisadiyyatının əsas prioritetlərindən biri ticarəti inkişaf etdirmək və Beynəlxalq Nəqliyyat Xidmətləri bazarında, xüsusilə qeyri-neft sektorunda iştirak etmək və buna görə də müasir nəqliyyat xidmətlərindən istifadə etməklə rəqabət qabiliyyətini artırmaqdır. Keçid dəhlizlərindən istifadə zamanı xidmət keyfiyyəti nəzərə alınmaqla qərarlar qəbul edilir. Nəqliyyat xidmətinin əsas istifadə olunan göstəricilərindən biri keyfiyyət səviyyəsidirsə, bu cür qərarlar qəbul edilərkən, digəri xidmət dəyərinin aşağı olmasıdır.

Rəqabət qabiliyyətinin artırılmasının müsbət əhəmiyyəti bu halda ölkə daxilində sahələrin inkişafının təmin edilməsindən və ölkənin aparıcı tranzit şəbəkəsinə çevrilməsinə imkan yaradılmasından ibarətdir. Rəqabətli nəqliyyat şəbəkəsinin mövcudluğu ölkənin nəqliyyat xidmətlərinin ixracına müsbət təsirlər yaradır ki, bu da xüsusilə ixracın şaxələndirilməsinə imkan verir. Eyni zamanda, iqtisadiyyatın davamlı inkişafı nəqliyyat-tranzit şəbəkəsinin inkişafını tələb edir. Bu zaman daşıma-tranzitin rəqabət qabiliyyətinin

artması hesabına sektorunda mövcud potensialın "istehsal-xidmət-ticarət" şəbəkəsində iştirakına və davamlılığına istehsal və sosial infrastrukturdan səmərəli istifadə etməklə nail olmaq olar.

İqtisadiyyatın ildən-ilə artan qloballaşma imkanları və qeyri-neft ticarət sektorunun davamlı inkişafı həm ölkələr daxilində, həm də ölkələr arasında rəqabət amilinin güclənməsinə səbəb olmuşdur.

Logistika və ticarət sahəsi bütün sektorların inkişafında bünövrə rolunu oynamaqla, əlavə dəyərin və yeni iş yerlərinin yaradılmasında və gəlirliliyin artırılmasında mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda keyfiyyət və kəmiyyət göstəricilərinin yüksəldilməsi perspektivi üzərində qurulan logistika və ticarət sahəsində regional və qlobal dəyər zəncirlərinə inteqrasiya, dünyanın ən qabaqcıl təcrübələrinə dair nümunələrə əsaslanan tranzit ticarətindən yüksək qazanc əldə etmək məqsədilə əlavə dəyər yaradan xidmətlər təmin olunmaqdadır [3].

Daşınmaların çox hissəsi AR ərazisindən Avropa-Qafqaz-Asiya istiqaməti üzrə həyata keçirilir. Bu yöndə yüklərin daşınması dinamikasına son 5 ildə nəzər yetirsək onun artdığını müşahidə etmiş olarıq. Göstərilən istiqamətdə yüklərin daşınması əsasən dəmir, dəniz və avtomobil yollarının vasitəsi ilə həyata keçirdilir [4]. Dəmir yolu ilə daşınmış yüklərin göstəricilərinin müqayisəsi deməyə əsas verir ki, bu nəqliyyat növü üzrə yüklərin daşınmasında 2022-ci ildə 2018-ci il ilə müqayisədə artma müşahidə olunmuşdur. Dəniz yolu ilə daşımalarda isə 2018-ci il ilə müqayisədə azalma olduğunu görmüş olarıq. Avtomobillərlə daşımada daşınan yüklərin həcmində azalma olmuşdur. Demək olar ki, avtomobil daşımalarında 2022-ci ildə 2018-ci ildəki rəqəmlərlə müqayisədə hesabat ilində daşınan yüklərin həcmi 5268 min t. azalma müşahidə olunur (cədvəl 1) [5].

Cədvəl 1. AR-dan Avropa-Qafqaz-Asiya istiqamətində yüklərin daşınması dinamikası (min t)

№	Göstəricilər	2018	2019	2020	2021	2022
1	*2*	*3*	*4*	*5*	*6*	*7*
1	Dəmiryol	12654	13327	12820	13463	16841
2	Dəniz yolu	6875	4824	5015	4558	6613
3	Avtomobil yolu	33235	34611	20656	21606	27967
	Cəmi:	**52674**	**52762**	**38491**	**39627**	**51421**

Mənbə: *AR Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Yuxarıdakı cədvəl göstəricilərin təhlil onu göstərir ki, hər 3 nəqliyyat növü üzrə daşınmaların həcmi 2018-ci ilin rəqəmlərilə müqayisədə 2022-ci ildə 1253 min t. azalmışdır. Buna baxmayaraq gələcəkdə ölkəmizdə nəqliyyat daşınmaları və yolların modernləşdirilməsi ilə əlaqədar həyata keçirdilən layihələr yüklərin ölkə ərazisindən daşınmasının artırılmasına zəmin yaradacaqdır.

Ölkəmizin həm Rusiya Federasiyası (RF), həm də İran İslam Respublikası ilə quru torpaq yolu sərhədlərinə malik olması AR-nın regionda 3 tərəfli əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanlar yaradır. Bu səbəbdən də Şimal-Cənub istiqamətində nəqliyyat dəhlizinin aktivləşdirilməsi son fazaya gətirilmişdir. Başqa sözlə desək, AR-nın RF və İran sərhədlərindən uzanan dəmir yolu artıq istismar edilmək üçün tam hazır vəziyyətə gətirilmişdir. Adı çəkilən tranzit dəhlizinin əsas üstün cəhəti tranzit məsafəsinin və vaxtının 2-3 dəfə azalmasıdır. Gələcəkdə beynəlxalq dəhliz hesab olunan Şimal-Cənub nəqliyyat dəhlizi üzrə dəmir yollarının tikintisi hələ də davam etməkdədir. Astara-Rəşt istiqamətində dəmiryolun tikintisinin başa çatdırılması və müvafiq yöndə görülən tədbirlər AR ilə İran dəmiryollarının birləşdirilməsi ilə nəticələnəcəkdir. İran İslam Respublikası, AR, RF və Skandinaviya ölkələrinin dəmir yollarının vahid şəbəkədə birləşdirilməsi nəqliyyat dəhlizlərilə əldə edilən səmərənin daha da yüksəldilməsinə geniş imkanlar yaradacaqdır.

Ölkə başçısının təsdiqlədiyi "Ələt Azad İqtisadi Zonası haqqında" qanununa əsasən yaxın gələcəkdə fəaliyyət göstərəcək xüsusi zona tranzit daşımalarının əhəmiyyətli dərəcədə çoxaldılmasına səbəb olacaqdır. Bu zona çoxsaylı ölkələrdən yüklərin Asiyaya daşınmasının həcmini daha da artıracaqdır. Gələcəkdə azad zonanın fəaliyyət göstərməsi nəticəsində 500 minə qədər yeni iş yerlərinin yaradılması, büdcə gəlirlərimizin və tranzit yükdaşımalarının artması proqnoz edilir. Tranzit əlaqələrinin genişlənməsi nəqliyyat daşımalarında zəruri olan servis xidmətlərinin göstərilməsi, müvafiq yüklərin etibatlı saxlanılması məqsədilə anbarların yaradılması, lazımi informasiyaların emalı və ötürülməsi mərkəzlərinin yaradılması və daşınma ilə əlaqədar digər xidmətlərin göstərilməsi məsələlərinin də həllini gündəmə gətirir. Göstərilən nəqliyyat xidmətlərinin də günün tələbləri səviyyəsində təmin olunması yeni iş yerlərinin yaradılmasına

səbəb olacaqdır ki, bu da ölkəmizdə məşğulluq probleminin həll edilməsinə yardımçı ola bilər. Bir sözlə, göstərilən təsərrüfat əlaqələrinin yaradılması ölkəmizi logistik və tranzit mərkəzə çevirəcəkdir [6].

Qeyd etmək lüzumludur ki, Şimal-Cənub istiqamətində yüklərin daşınmasının 82 %-i RF ilə İran arasında aparılır. İran İslam Respublikası ilə Qara dəniz bölgəsi ölkələri ilə daşımaların 85 %-i quru yüklər təşkil edir və burada da AR əsas tərəfdaşlardan biridir [7]. Bakı-Tbilisi-Qars və Şimal-Cənub dəhlizlərinin gələcəkdə birləşdirilməsi nəzərdə tutulur ki, burada da əsas tərəfdaş kimi AR ilə birgə Çin, RF, Türkiyə Cümhuriyyəti, Avropa və Orta Asiya dövlətləri bəhrələnə biləcəklər.

Daşınan yüklərin bir qismi hava yolları ilə həyata keçirilməkdədir. Ötən hesabat ilinin avqust ayında AR ilə Türkiyə Cümhuriyyəti arasında "Dostluq dəhlizi" adlandırılan yeni hava dəhlizi açılmışdır ki, onun vasitəsilə 2 ölkə arasında qonşu arealdan yan keçməklə birbaşa əlaqə yaradılmışdır. Beynəlxalq uçuşların reallaşdırılmasının layihə iştirakçıları "Azəraeronaviqasiya" (AZANS), Türkiyə Cümhuriyyətinin Dövlət Hava Limanları Təşkilatı (DHMİ) və Beynəlxalq Milli Aviasiya Təşkilatları olmuşlar. Məhz adı çəkilən təşkilatların fəaliyyətlərinin koordinasiya edilməsi nəticəsində Naxçıvanın hava əlaqələri daha da genişləndiriləcəkdir [8].

Azərbaycan Respublikasının İkinci Qarabağ müharibəsi zamanı əldə etdiyi qələbə ilə Avrasiyanın geoiqtisadi xəritəsində yeni imkanlar və reallıqlar ortaya qoydu. Vətən müharibəsində əldə olunmuş qələbə Azərbaycanın Qərb hissəsi ilə Ermənistan ərazisindən keçərək Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat əlaqələrinin yaradılması tarixi "Zəngəzur dəhlizi"nin aktuallığını və önəmini ortaya qoydu. Zəngəzur dəhlizi Cənubi Qafqaz və Mərkəzi Asiya, eləcə də Avropa və Asiya arasında olan iqtisadi əlaqələrin yaranmasında və inkişaf etdirilməsində həlledici və mühüm rola malikdir. Bunun əsas səbəblərindən biri Zəngəzur dəhlizinin İpək Yolu adlanan tarixi ticarət yolu coğrafiyası üzərində qurulmasıdır. Süveyş kanalından keçən dəniz yoluna alternativ nəqliyyat dəhlizinin formalaşdırılması eləcə də Mərkəzi Asiya marşrutu ilə daşınması potensialı Azərbaycanın, həmçinin Zəngəzur dəhlizinin vacib nəqliyyat arteriyasına çevrilməsinə imkan yaradır. Zəngəzur dəhlizinin tərkib hissəsi olacaq həm dəmir, həm də avtomobil yollarının inşası hazırda sürətlə davam etdirilir.

Bu yolun tikintisi ilə yanaşı Azərbaycan həm də İran İslam Republikası ilə Araz çayı üzərində körpü tikintisinə başlayıb. Azərbaycanla İran arasındakı razılaşmaya əsasən, bu yol Azərbaycandan Naxçıvana alternativ yol olacaq. Zəngəzur dəhlizi və bu yolun fəaliyyətə başlaması ilə işğaldan azad olunuş ərazilərdə iqtisadi fəaliyyətin canlanması nəqliyyat daşımalarının artmasına və bununla da həmin bölgələrlə əlaqələrin inkişaf etməsinə səbəb olacaqdır.

Yuxarıda göstərilənlərdən belə bir qənaətə gəlmək olar ki, ölkəmizin geosiyasi mövqeyi ilə yanaşı həyata keçirdiyi iqtisadi siyasəti milli maraqlarımıza tam uyğun gələrək nəqliyyat sənayesinin sürətli inkişafı əlaqələrimizin genişləndirilməsinə xidmət edəcəkdir. Bu da dövlətimizə yeni dividentlər gətirməklə onun iqtisadi potensialının gücləndirilməsinə, büdcə gəlirlərinin məqsəli artırılmasına və əhalinin artan rifah halının yaxşılaşdırılmasına gətirib çıxardacaqdır.

Ədəbiyyat

1. "AR-da logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi", AR Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.
2. United Nations development program of Azerbaijan, Institute for Scientific Research on Economic Reforms.
3. Əliyev A.A., Vəliyev S.M. və b. Logistik əməliyyatların yerinə yetirilməsində nəqliyyat və ekspeditor sistemlərinin rolu, ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 2.717. 2024 / Cild: 18 Sayı: 3 / 254-260.
4. Əliyev A.A. Yükdaşımalarının təşkilinin qabaqcıl metodları, ELMİ İŞ Beynəlxalq elmi jurnal. İmpakt Faktor: 2.255. 2024 / Cild: 18 Sayı: 1 / 27-34.
5. AR Dövlət Statistika Komitəsi "Azərbaycanda nəqliyyat" Statistik məcmuə, rəsmi nəşr, Bakı 2023, s.83.
6. Əliyev A.A. Azərbaycandan keçən beynəlxalq nəqliyyat dəhlizləri, SDU, Respublika elmi konfrans. Sumqayıt, 2020, s.121-124.
7. Əliyev A.A., Orucov T.Z. Azərbaycanın logistika və ticarət qovşağı kimi regional əhəmiyyəti, BMU, Beynəlxalq elmi-praktik konfrans. Bakı, 2018, s.50-52.
8. İqtisadiyyat Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzeti № 49 (1096) 5-11 dekabr 2019-cu il 8 səhifə "Yeni hava dəhlizi "Dostluq dəhlizi" adlandırılıb".

CONSTRUCTİON OF TRUCK PARKS (TRUCK PARKS) İN THE REPUBLİC OF AZERBAİJAN OF THE EAST-WEST TRANSPORT CORRİDOR

Mirhamid Baghirov

Azerbaijan Land Transport Agency, Director of the Department of Road Transport İnfrastructure and Expertise
Baku Engineering University
Department of Logistics/Transport Technology
mibagirov@beu.edu.az
Baku, Azerbaijan

Abstract

In the case of traffic accidents involving trucks, since the severity indicators of the incidents and the cost of damage are higher. It is very important to increase the control over the vehicles in question, as well as to eliminate the stopping situations of these vehicles on the essential roads of the Republic, to establish Vehicle Park (truck parking) in the territory of the Republic. For this purpose, international experiences were investigated and the creation of Truck Park (truck parkings) in Azerbaijan Republic territory of the east-west transport corridor was considered in the article

Key Words: truck park, trucks, infrastructure of the truck parking.

Xülasə

Yük avtomobillərinin iştirakı ilə baş verən yol-nəqliyyat hadisələri olduqda hadisələrin ağırlıq göstəriciləri və zərərin qiyməti daha artıq olduğundan sözügedən nəqliyyat vasitələrinə nəzarətin yüksəldilməsi, eləcə də respublika əhəmiyyətli yollarda həmin nəqliyyat vasitələrinin durma hallarının aradan qaldırılması məqsədilə Respublika ərazisində avtonəqliyyat parklarının (TIR parklarının) yaradılması olduqca vacibdir. Bu məqsədələ beynəlxalq təcrübələr araşdırılmış və məqalədə şərq-qərb nəqliyyat dəhlizinin Azərbaycan Respublikası ərazisində yük avtonəqliyyat parklarının (TIR parklarının) yaradılmasına baxılmışdır.

Açar Sözlər: TIR parkları, yük maşınları, TIR parklarının infrastrukturu

Introduction

In estamating the severity indicators of traffic accidents, as well as in assessing the socio-economic and environmental damage caused by these incidents, the weight of traffic accidents that occurred especially with the participation of trucks is greater. In accordance with this, the social-economic damages caused by traffic accidents given in Appendix No. 1 of the Regulations "Assessment and calculation of socio-economic and ecological damage caused by traffic accidents" approved by Resolution No. 192 of the Cabinet of Ministers of the Republic of Azerbaijan dated June 30, 2021 In the methodology of economic and ecological damage assessment and calculation, socio-economic damages caused by natural disasters are divided into 4 groups:

1. damage resulting in human death or various degrees of bodily injury;
2. damage to vehicles;
3. damage to transported cargo;
4. damage to the road and road infrastructure.

Furthermore, the stopping operation of trucks with a maximum authorized weight of more than 3.5 tons on national highways leads to a decrease in the capacity of the road to release traffic at intersections and intersections, and especially at intersections, causing traffic jams and congestion, as well as not ensuring the safe delivery of transported goods. Happens (Ajarwati, 2023).

In the case of accidents with the participation of trucks during the assessment of damages, since the indicators of the severity of the events and the cost of the damage are higher, increasing the control over the mentioned vehicles, as well as in order to eliminate the situations of stopping of the mentioned vehicles on the important roads of the Republic, the vehicle parks (truck parks in the territory of the Republic) creation is extremely important (Wang, Nicholas, Garber, 2003).

Problem Statement

Connected with creation truck parks measures and infrastructure projects implemented in Turkey, United States, European countries, as well in Germany Federal Republic and Ukraine were investigated and analyzed. İn order to increase the safety of drivers and cargo in international cargo transportation in the same countries, truck parks created and a number of digital applications were widely used in order to make the use of mentioned parks more accessible (Bayraktar, Zhu, Farukh, 2015).

In the Republic of Türkiye, the legislative framework for the use of truck parks has been improved, made new additions, truck parks created according to standards and needs, as well as the created truck parks provide services through the Internet-based "TRANSPark" software developed jointly by IRU and BNF. Through this software, information about truck parks according to the different levels of comfort and safety that vehicles operating on highways can benefit from has become more accessible. It has been learned that the presence of truck parks operating in the Republic of Türkiye in this software is very important both for the promotion of mentioned parks and for the safety and comfort of transport companies. In order for truck parks in the country to be connected to the mentioned software and to be able to search in the TRANSPark system, the owners of truck parks can enter either themselves or by applying to the International Association of Transporters (UND)[1] [2] [3] [4].

In this regard, for the purpose of the movement of domestic and foreign vehicles carrying international goods on the roads of the Republic of Türkiye within the borders of Türkiye, temporary residence (rest), implementation of inspection and security, as well as customs clearance, the Cabinet of Ministers of the Republic of Türkiye dated March 5, 1993. No. 93/4207 dated "Regulation on movement, temporary residence (rest), inspection, security and customs clearance of vehicles carrying international cargo by road" was adopted. In Article 5 of the aforementioned regulation, the distance between TIR inspection and accommodation points and the confirmation of the relevant residential areas state that a TIR driver cannot drive a vehicle for more than 9 hours in a 24-hour period, and that after driving a vehicle for 5 hours without stopping, he must rest for at least 30 minutes, as well as when determining the distance between those points, the condition of the roads due to adverse weather conditions should also be taken into account [5].

In addition, according to the provisions of the Ministry of Customs and Trade of the Republic of Türkiye, General Directorate of Customs No. 3 series and No. 29251 Customs General Notice (Truck Operations) dated January 29, 2015, the implementation of safe transportation by increasing customs control in international transport (by road) In order to organize the event, it was announced that vehicles carrying transit cargo by road in the Turkish Customs Region can rest only at the roadside service facilities defined in accordance with the Law [6] [7].

The following services are provided in Track Park areas operating in the Republic of Türkiye [8] [9]:

- Scales (60 tons);
- Sanitary junction;
- Canteen;
- İnternet access;
- Mosque;
- 24 hours;
- Provision of authorized cameras;
- Entry-exit with automatic number reading system;
- Wire mesh along the perimeter of the territory;
- Tire repair.

Furthermore, in September 2012, the Ağrı Private Administration in the Republic of Türkiye prepared an economic efficiency report of the truck parking project at the "Doghubeyazid-Gurbulag" border crossing

[1] www.und.org.tr/medya-detay/duyurular/turkiye-deki-tir-park-alanlarinin-transpark-uygulamasina-dahil-edilmesi
[2] www.und.org.tr/medya-detay/duyurular/avrupa-guvenli-tir-parklari-listesi
[3] www.iru.org/apps/transpark-app
[4] www.und.org.tr/medya-detay/duyurular/bilgi-talebi-tir-parki-bilgilerini-iru-internet-sayfasinda-gorebilir-veya-ekleme-yapabilirsiniz
[5] www.mevzuat.gov.tr/MevzuatMetin/3.5.934207.pdf
[6] www.atso.org.tr/detay/2/2/3/4058/iru-transpark-uygulamasi-ve-tir-park-alanlari-(tpa)-uyelik-islemleri.html
[7] https://kms.kaysis.gov.tr/Home/Goster/40054
[8] www.und.org.tr/hizmetlerimiz/und-tir-parki
[9] www.truckfly.com/tr/poi-details/yesil-tir-parking/78068/

point, and the information about the importance and infrastructure of the truck parking area was reflected in that report [10]:

In the following pictures an example of the Truck Park area operating in the Republic of Türkiye is shown [11]:

Picture 1. Truck Park in Türkiye

When conducting research on truck parks in Ukraine, it was determined that the parks in mentioned were built in 2013, that the first stage of the park was designed for parking 50 heavy-tonnage vehicles, that the parking covered an area of more than 10,000 square meters, and that the total area of the entire complex was 4 hectares. In that area, there is a transformer substation that supplies energy to refrigerators during parking, 2 driver service buildings with rest and laundry rooms, as well as a canteen for drivers to eat and use the Internet in the parking area. Car parks should be installed in accordance with modern service and safety standards, providing modern security systems, automatic registration, video surveillance and lighting of parking lots, as well as interaction with law enforcement agencies for prompt response to possible dangerous situations (Tompkins et.al., 2017).

Also, in Ukraine the construction of the 2nd and 3rd levels of track stops and the creation of a complex with wide service areas at its base, including the expansion of the parking area, increasing the number of parking spaces, a hotel, a car and tanker washing station, a scale for measuring the weight of vehicles , installation of tires, diagnosis and repair of cars, provision of warehouse services is planned in the future. Moreover, since the presence of specially equipped stops for heavy vehicles is very important for both summer and winter seasons, as well as the fact that 180 million tons of internal cargo and 5 million tons of transit cargo are transported by trucks from the territory of Ukraine every year, heavy vehicles are transported on Ukrainian roads. Since up to 80% of vehicles move significantly more than the permissible axle load and one of the directions with the largest traffic flow is the Kyiv region, measures have been taken by the Ukrainian government to eliminate the systemic problem of the lack of parking spaces for vehicles in the vicinity of Kyiv and in the regional centers, including, 15 places have already been determined for the creation of parking lots in the capital. Since the construction of truck parks contributes to the maintenance of the road surface and increases traffic safety, currently there are 869 parks for vehicles on 99 transit highways of Ukraine, which also have a capacity of approximately 25 thousand parking spaces, and less than half of these parking spaces (10.5 thousand) are intended for cargo transportation. Also, in the future, it is planned to increase the number of places for storing heavy vehicles in the territory of Ukraine by at least two times, and in this regard, one of the truck parks is located at the intersection of the main transport corridors East-West, North-South, and was built near the main transport hub of the country - the city of Kyiv [12].

[10] www.serka.gov.tr/assets/upload/dosyalar/agri-dagi-tir-parki-fizibilite-raporu.pdf
[11] https://cosb.org.tr/cosb-2-kisim-tir-parki-faaliyete-gecti/
[12] http://bamap.org/information/news/2013/07/19/21304/

The below picture shows the truck park built in the Mykolayiv region of the Republic of Ukraine:

Picture 2. Truck Park in Mykolayiv region (Ukraine)

During the investigations conducted in the United States of America, the legislative framework was improved, concidering the impact of trucking on the economy, especially during the COVID-19 pandemic, to improve the safety of trucking, as well as to eliminate existing parking shortages related to trucking in the state, and "On improving the safety of truck parking" The act was adopted[13] [14].

Also, according to information studied by the Federal Highway Administration of the US Department of Transportation, the shortage of truck parking spaces creates safety problems, according to which drivers of these vehicles need access to safe and accessible truck parking. For this purpose, the document "National Coalition on Truck Parking" was prepared by the mentioned institution. This document was created by the US Department of Transportation and several stakeholder organizations representing the trucking industry, commercial vehicle safety officials, State Departments of Transportation, and the truck parking industry to address truck parking issues across the country, the Coalition for Parking Opportunities, Technology and Data, involved holding regional meetings to share ideas on funding, finance and regulations, regional and local government coordination, and reporting on the main outcomes of the meetings.

Jason's Law was enacted by the US Congress on October 1, 2012 as Section 1401 of the 21st Century Progress Act (MAP-21) to "implement a truck parking pilot program". Jason's Act established a national priority to address the long-term parking shortage for commercial motor vehicles on the US National Highway System to improve the safety of motorized and non-motorized users and operators of commercial motor vehicles, as well as the safety of relevant State motor carriers from the US Department of Transportation (USDOT). in consultation with its employees, it was requested to conduct an interstate survey and comparative assessment (Smith et.al., 2005)

The mentioned Act is named "Jason's Law" in memory of Mr. Jason Rivenburg, a truck driver. Thus, on March 4, 2009, Mr. Jason Rivenburg was attacked and killed while spending the night at an abandoned gas station for the purpose of recreation because he could not find a private truck parking space while performing transportation activities with a truck. After Mr. Jason's death, his wife, Mrs. Hope Rivenburg, became a nationally recognized advocate for solutions to the truck parking problem, and the efforts of her, family members, friends and trucking industry representatives contributed to the development of Jason's Law, documenting the truck parking problem and statewide played an important role in support solutions [15] [16] [17].

In January 2017, the final report "A Comprehensive System for Estimating Truck Parking Availability" was prepared by the American Transportation Research Institute.

Heavy truck drivers are required to rest, slow down and take breaks when tired, but due to the lack of accurate parking information in time, drivers continue to drive while tired, sometimes illegally parking on the shoulders of highways or in designated parking areas. they have to do. In order to eliminate the

[13] www.ttnews.com/articles/truck-parking-legislation-introduced-us-house
[14] www.congress.gov/bill/117th-congress/house-bill/2187/text?r=89&s=1
[15] https://ops.fhwa.dot.gov/freight/infrastructure/truck_parking/index.htm
[16] https://ops.fhwa.dot.gov/publications/fhwahop17026/index.htm
[17] https://www.congress.gov/bill/111th-congress/house-bill/2156/text

mentioned dangerous situations, in the mentioned report, a multi-view camera system was developed and evaluated to detect the parking location of trucks in real time through wide field operational tests. A system architecture was then developed to transmit up-to-date information about truck parks through three separate data sharing systems:

1. Variable informative signs showing the occupancy level of roadside parking lots;
2. Internet/Website information portal;
3. Geolocation software on board.

The latter program informs the driver about the availability of parking spaces in one or more parking facilities downstream of the current direction of travel [18].

In March 2015, the Pennsylvania Department of Transportation produced an 818-page Highway Design Guide, Chapter 9 of which provides information on "Safe Rest Areas and Welcome Centers." Those data, as in other methodological instructions, reflect the allocation of areas for TIR parks, determination of the rating for the level of comfort, marking lines in the area according to the standard, proper organization of entrance and exit areas and other issues [19].

20	Truck Etape Valenciennes - Certification level: Gold	Adress:60 rue François Durieux – BP15 La Sentinelle 59174 France	Fransa
21	Truck Park Brescia EST - Certification level: Gold	Adress: Via Sandro Pertini, 16 Castenedolo (BS) 25014 Italy	İtaliya
22	mowiz TRUCK Astigarraga - Certification level: Gold	Adress: AP-8/AP-1 pk: 17+000-16+500 northbound Astigarraga 20115 Spain	İspaniya
23	VANJSKO TERETNO PARKIRALIŠTE – ROBNI TERMINALI ZAGREB - Certification level: Silver	Adress: Jankomir 25 Zagreb 10 090 Croatia	Xorvatiya
24	mowiz Truck Park Montseny - Certification level: Gold	Adress: AP-7 Km 117 South direction - Entrance of Barcelona coming from the north (Between exits 11 and 12) Llinars del Valles 08450 Spain	İspaniya
25	RDV TRANSPORTS / LA LONDONIENNE - Certification level: Gold	Adress:50 / 200 Rue Auguste Bartholdi Marck 62730 France	Fransa
26	Dyneff La Jonquera - Certification level: Bronze	Adress: Mas Morató Avenida de Euskadi s/n La Jonquera 17700 Spain	İspaniya
27	mowiz TRUCK Porta de Barcelona - Certification level: Gold	Adress: E-90 PK117+100 AP-7 decreasing direction Castellbisbal 08755 Spain	İspaniya
28	LKW-Sicherheitsparkplatz Düren (tankpool24) - Certification level: Gold	Adress: Am langen Graben 26a Düren Düren 52353 Germany	Almaniya
29	Dyneff Arasur - Certification level: Bronze	Adress: Plataforma Logística ARASUR Avenida de Álava s/n - A 2km de Miranda de Ebro Rivabellosa (Álava) 01213 Spain	İspaniya
30	Truck Parking Lithuania - Certification level: Gold	Adress: Jurbarko g. 35 Raseiniai 60177 Lithuania	Litva

Mənbə: https://eu-parkings.eu/sstpas/sstpas-list/

Avropa Komissiyası Təşkilatlarla (IRU, DEKRA və ESPORG daxil olmaqla) əməkdaşlıq edərək yük maşınları üçün təhlükəsiz parkinq standartlarını – təhlükəsiz və mühafizə olunan yük avtomobillərin dayanacaq sahələri (SSTPA) işləyib hazırlayıblar. Qəbul edilmiş qaydalara görə, əsas TEN-T şəbəkəsindəki bütün yollarda Aİ təhlükəsizlik səviyyələrinə cavab verən və bir-birindən 50 km-dən çox olmayan məsafədə yerləşən parkinq obyektləri olmalıdır [4].

Dörd təhlükəsizlik səviyyəsi mövcuddur: bürünc, gümüş, qızıl və platin. Bürünc və platin səviyyələri arasındakı fərqə misal olaraq, məsələn, parklanma zonasının təyin edilməsidir. Bürünc kateqoriyalı obyektlərdə parklanma zonası vizual olaraq müəyyən edilirsə, platin statuslu obyektlərdə kənardan icazəsiz girişin qarşısını almaq üçün mühafizə sistemi olan fiziki maneə quraşdırılır [1].

Məcburi xidmət elementləri:

- Kişi və qadın istifadəçilər üçün ayrıca sanitar qovşaqları mövcud və işlək olmalıdır;
- İsti su ilə təmin edilməlidir;
- Təmizlik vasitələri ilə təmin olunmalıdır;
- Tullantı qutular ərazidə mövcud olmalı və müntəzəm olaraq boşaldılmalıdır;
- Sanitar qovşaqları müntəzəm olaraq gündəlik təmizlənməlidir və yoxlanılmalıdır. Təmizləmə cədvəli göstərilməlidir;
- Qəlyanaltılar və içkilər həftənin 7 günü, günün 24 saatı satın alına bilinməlidir;
- Sürücülər üçün qidalanma sahəsi olmalıdır;
- İnternet bağlantısı pulsuz olmalıdır;
- Elektrik birləşdiriciləri şəxsi istifadə üçün mövcud olmalıdır;
- Dayanacaqda nəqliyyatın təhlükəsiz hərəkətini təmin etmək üçün aydın nişanlar qoyulmalıdır;
- Fövqəladə hallar üçün əlaqə vasitələri dayanacaqda ən azı milli dövlət dilində və ingilis dilində göstərilməlidir. Onlar asanlıqla başa düşülən piktoqramlarla təsvir edilməldir.

Könüllü xidmət elementləri:

- Yaxınlığında restoran 24/7 olmalıdır;
- Yük avtomobillərini qar və buz təmizləmək üçün avadanlıq olmalıdır;
- İnsanlar üçün yağış və günəşə qarşı sığınacaq nəzərdə tutulmalıdır;
- Yaxınlıqda avtomobil yumaq üçün sahə olmalıdır;
- Piknik masaları olmalıdır;

- Yaxınlıqda mağazalar fəaliyyət göstərməlidir;
- Yaxınlıqda sadə yeməklər olan qəlyanaltı barı olmaldır;
- Yaxınlıqda yanacaqdoldurma məntəqəsi olmalıdır;
- Yaxınlıqda tibbi yardım olmalıdır;
- Yaxınlıqda polis bölməsi olmalıdır;
- ATM olmalıdır;
- Yaxınlıqda otel yerləşməlidir;
- Yaxınlığında aptek olmalıdır;
- Sürücülərin istirahəti üçün şərait olmalıdır;
- Yaxınlığında texniki təmir müəsisəsi olmalıdır;
- Təhlükəli yüklərin ayrı dayanacağı olmalıdır;
- Yaxınlıqda camaşırxana olmalıdır;
- Yaxınlıqda ehtiyat hissələri mağazası olmalıdır;
- Xüsusi pəhriz qidası mövcud olmalıdır;
- Yük maşınının soyudulması üçün elektrik quraşdırma mövcud olmalıdır.

Şəkil 1. Avropada Təhlükəsiz TIR Parklar

Avropa ölkələri üçün yük avtomobillərinin sürücülərini və onların yüklərini təhlükəsiz istirahət yeri ilə təmin etmək məqsədilə bir sıra rəqəmsal tətbiqlərdən istifadə edilmişdir. Almaniyada hazırlanmış platformada Almaniya, Avstriya, Belçika, Xorvatiya, Çexiya, Fransa, Macarıstan, İtaliya, Latviya, Litva, Lüksemburq, Niderland, Polşa, Portuqaliya, Rumıniya, Serbiya, Slovakiya, İspaniya, İsveç və Böyük Britaniyada olan yük avtomobillərinin dayanacaq məntəqələri barədə ümumiləşdirilmiş xəritə üzərində veb səhifə və mobil tətbiqlərdə göstərilməklə parklanma yerlərini tapmaq və sifariş vermək üçün istifadəsi asan platforma hazırlanmışdır [5].

Bu rəqəmsal tətbiqlər yük oğurluğunun məhdudlaşdırılmasına, axtarışlara sərf edilən vaxtın azalmasına və sürücülər üçün daha təhlükəsiz iş mühitinə töhvə vermişdir. Bu tip tətbiqlərin bir sıra ölkələrin müvafiq tətbiqlərinə uyğunlaşdırılması sürücülərin vaxt itkisinin azalmasına olduqca böyük təsiri müşahidə edilməkdədir.

NƏTİCƏ

TIR parklarının yaradılması ilə əlaqədar olaraq Avropada həyata keçirilən tədbirlər və infrastruktur layihələri araşdırılmış və təhlil edilmişdir. Həmin ölkələrdə beynəlxalq yük daşımalarında sürücülərin və yüklərin təhlükəsizliyinin artırılması məqsədilə TIR parklar yaradılmış və sözügedən parklardan istifadəsinin daha əlçatan olması məqsədilə bir sıra rəqəmsal tətbiqlərdən də geniş surətdə istifadə edilmişdir.

İstifadə olunan ədəbiyyat

1. Giuliano G., Showalter C., Yuan Q., Zhang R., "Managing the Impacts of Freight in California: A Research Report from the National Center for Sustainable Transportation (Rep.)". Metrans Transportation Center, University of Southern California. 2018
2. Tir Handbook. Customs Convention On The International Transport Of Goods Under Cover Of Tir Carnets (Tir Convention, 1975) 384 p.
3. N.Kopiks, D.Viesturs. Power Supply Of Tractors On Agricultural Farms. Proceedings of the 5th International Scientific Conference Engineering Rural Development, Jelgava: 2006, pp. 53.-57.
4. Gu, Y., & Ni, Z. (2013). A comprehensive review on truck parking studies. Journal of Advanced Transportation, 47(6), 588-607.
5. International Road Transport Union (IRU). (2020). Parking for trucks: A common challenge for all. Retrieved from https://www.iru.org/
6. Ministry of Transport, Infrastructure, Housing, Urban Development & Public Works (Kenya). (2018). Parking Standards for Trucks and Trailers in Kenya. Retrieved from http://www.transport.go.ke/

AZƏRBAYCANDA ŞİMAL-CƏNUB YOLU VƏ ONUN PERSPEKTİVİ

Heydərov Şamil

Azərbaycan Texniki Universiteti, Nəqliyyat logistikası və hərəkətin təhlükəsizliyi kafedrası,
Shamil.heydarov@aztu.edu.az

Xülasə. Məqalədə "Şimal-Cənub" layihəsinin Azərbaycan kontekstində tarixi təşəkkülündən və hazırkı vəziyyətinə baxışlarından tutmuş, gələcək inkişaf perspektivlərinə qədər hərtərəfli icmal verilir. Azərbaycanın rolu və əhəmiyyəti, marşrutun texniki parametrlərindəki fərqlər və iqtisadi faydalar da daxil olmaqla əsas aspektləri təhlil edən məqalədə yeni iqtisadi potensialın yaradılması kontekstində yeni infrastruktur layihələri də təfərrüatlı şəkildə təqdim olunur. Çabahar limanının əhəmiyyətinə diqqət yerirlir. Məqalə nəqliyyat infrastrukturu və təhsil sahəsində peşəkarlar, eləcə də regionda nəqliyyat əlaqələrinin inkişafı və iqtisadi əməkdaşlığın müasir strategiyaları ilə maraqlanan menecerlər və qərar qəbul edən şəxslər üçün nəzərdə tutulub.

Açar sözlər. Şimal-Cənub, dəhliz, dəmir yolu, yükötürmə, infrastuktur, koleya, strategiya, marşrut.

Summary. The article provides a comprehensive overview of the "North-South" project in the context of Azerbaijan, from its historical formation and views on its current situation to future development prospects. The article analyzes key aspects, including the role and importance of Azerbaijan, differences in technical parameters of the route, and economic benefits, and details new infrastructure projects in the context of creating new economic potential. Attention is paid to the importance of Chabahar port. The article is intended for professionals in the field of transport infrastructure and education, as well as managers and decision-makers interested in the development of transport links and modern strategies of economic cooperation in the region.

GİRİŞ.

Dəmir yolu nəqliyyatı bütün dünyada regionların iqtisadi inkişafında və sosial rifahında əsas rol oynayan infrastrukturun tərkib hissəsidir. Xüsusilə Azərbaycan kimi bir çox regional və geosiyasi xüsusiyyətlərə malik ölkələr üçün dəmir yolu kommunikasiyalarının inkişafı strateji əhəmiyyət kəsb edir.

Dəmir yolları təkcə yüklərin və sərnişinlərin səmərəli daşınmasına imkan vermir, həm də sosial və iqtisadi dəyişikliklərin katalizatorlarına çevrilir. Dünya getdikcə bir-birindən asılı vəziyyətə düşdükcə, dəmir yolu infrastrukturunun inkişafı və modernləşdirilməsi dayanıqlı iqtisadi artıma can atan və öz vətəndaşlarının təhlükəsizliyini və rifahını təmin edən ölkələr üçün prioritet məsələyə çevrilib.

Avropa və Asiya arasında əsas coğrafi mövqeyə malik olan Azərbaycan beynəlxalq nəqliyyat marşrutlarında mühüm rol oynayır. Strateji yerləşməsi onu ticarət axınları və iqtisadi fəaliyyət üçün kəsişmə nöqtəsinə çevirir. Bu kontekstdə Bakı-Tbilisi-Qars layihəsi Şimal-Cənub inkişaf strategiyasının tərkib hissəsinə çevrilir. Bakını Tbilisi və Qarsla birləşdirən bu dəmir yolu marşrutu region üçün yeni perspektivlər açır, Şərqlə Qərb arasında daha sürətli və səmərəli nəqliyyat əlaqələrini təmin edir.

Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu Azərbaycan, Gürcüstan və Türkiyənin dəmir yolu şəbəkələrini birləşdirən nəqliyyat dəhlizidir. Göstərilən istiqamətdə malların çatdırılması 15 gün ərzində baş verir. 2017-ci ildə istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi də Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırmaq üçün nəzərdə tutulub.

Dəhlizin ümumi uzunluğu 826 kilometrdir. BTQ layihəsinin istismarının üçüncü ilində daşınan yüklərin həcmi 3-5 milyon ton, beşinci ildə 6-8 milyon ton, sonrakı illərdə isə 3 milyon sərnişin və 17 milyon ton yük təşkil edir.

Bu baxımdan Şimal-Cənub istiqamətində dəmir yolunun tikintisi layihəsi xüsusi əhəmiyyət kəsb edir. O, öz növbəsində, təkcə infrastruktur layihəsini deyil, həm də ölkələr və xalqlar arasında yaxınlaşma və əməkdaşlığın simvoludur.

Şimal-Cənub dəmir yolunun tikintisi Azərbaycan üçün mühüm strateji addımdır. Bu infrastrukturun inkişafı layihəsi ölkənin şimal və cənub bölgələri arasında daha səmərəli rabitəni təmin etmək məqsədi daşıyır. Bu, nəqliyyat əlçatanlığının yaxşılaşdırılmasına, regionların iqtisadi inkişafının stimullaşdırılmasına, eləcə də Azərbaycanın tranzit potensialının genişləndirilməsinə yönəlib. Bu tədqiqatın mövzusu dəmir yolu layihəsinin ölkə həyatının müxtəlif sahələri üçün əhəmiyyətinə, eləcə də Azərbaycanın sosial-iqtisadi inkişafına və geosiyasi mövqeyinə təsirinə toxunur.

Tarixi baxış. Layihənin ortaya çıxması.

Sovet hakimiyyəti dövründə Zaqafqaziyada dəmir yolu sistemi inkişaf etdirilsə də, onun əsas məqsədi Sovet İttifaqının ehtiyaclarını ödəmək idi. Dəmir yolları ilk növbədə malların və hərbi ləvazimatların daşınması üçün tikilirdi. Lakin 1991-ci ildə Sovet İttifaqının dağılmasından sonra region yeni dövlətlərin yaradılması problemi ilə üzləşdi ki, bu da onları həm öz aralarında, həm də dünya bazarları ilə birləşdirən yeni nəqliyyat marşrutlarının işlənməsini tələb edirdi.

1990-cı illərdə digər postsovet dövlətləri kimi Azərbaycan da iqtisadi islahatların aparılması və iqtisadiyyatının modernləşdirilməsi zərurəti ilə üzləşmişdi. Bu baxımdan nəqliyyat infrastrukturunun, o cümlədən dəmir yolu nəqliyyatının inkişafı əsas prioritetlərdən birinə çevrildi. Bu səylər iqtisadi artımı və qlobal bazarlarla inteqrasiyanı dəstəkləyə bilən daha səmərəli və əlaqəli nəqliyyat sistemini təmin etmək məqsədi daşıyır.

Azərbaycan beynəlxalq təşkilatların və tərəfdaş dövlətlərin məsləhət və maliyyə yardımı da daxil olmaqla, nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi səylərinə beynəlxalq diqqət və dəstək alıb. TRASEKA (Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi) və Avrasiya İnteqrasiya Proqramı kimi müxtəlif beynəlxalq təşəbbüslər Azərbaycan ərazisindən keçən nəqliyyat marşrutlarının inkişafı ilə bağlı ideyalar irəli sürmüşdür ki, bu da şimal-cənub dəmir yolu marşrutunun yaradılmasına marağa öz töhfəsini vermişdir.

Şimal-Cənub dəhlizi ilə bağlı danışıqlar 1993-cü ildə başlayıb, lakin sonradan konkret nəticələrə gətirib çıxarmayıb. Müqavilənin imzalanması üçün əsas səylər 1999-cu ildə başlayıb. Sonra Rusiya, İran, Hindistan və digər ölkələrin kommersiya firmaları arasında Şri-Lanka-Hindistan-İran-Xəzər dənizi-Rusiya beynəlxalq nəqliyyat dəhlizi ilə konteynerlərin daşınmasına dair saziş bağlanıb. Bu

müqavilə daşımanın təşkilini, tərəflərin öhdəliklərini, müxtəlif ölçülü konteynerlərdə yüklərin təxmini tariflərini və çatdırılma müddətlərini müəyyən etdi.

Nəqliyyat dəhlizinin yaradılması haqqında saziş 2000-ci il sentyabrın 12-də Sankt-Peterburqda Rusiya, Hindistan və İran arasında imzalanıb. Hazırda bu beynəlxalq dəhliz dünyanın 12 ölkəsini (Rusiya, Finlandiya, İran, Azərbaycan, Gürcüstan, Ukrayna, Türkmənistan, Qazaxıstan, Türkiyə, Belarus, Oman, Hindistan) əhatə edir. Buraya Rumıniya və Bolqarıstan da daxildir. Dəhlizin əsas məqsədi Rusiyanın Avropa hissəsi ilə Hind okeanına çıxışı olan Yaxın Şərq və Asiya ölkələri arasında əlaqə yaratmaqdır.

1996-cı ildə Türkmənistanda Meshhet-Serakh birxətli dəmir yolu açıldı və bu dəmir yolu ilə uğurlu daşımalar həyata keçirildi.

Şimal-Cənub nəqliyyat dəhlizinin digər marşrutlardan, məsələn, Süveyş kanalından keçən dəniz marşrutundan əsas üstünlüyü dəniz nəqliyyatı ilə müqayisədə daşıma məsafəsinin iki və ya daha çox dəfə qısalması və konteynerlərin daşınması xərclərinin aşağı salınmasıdır.

Layihənin yolları və həyata keçirilməsi.

2000-2002-ci illər arasında dəhliz vasitəsilə yüzlərlə Hindistan konteyneri göndərilib. Təcrübə göstərir ki, konteynerlərin İran vasitəsilə Fars körfəzi sahilindəki Bəndər-Abbas limanından Xəzər dənizindəki Ənzəli limanına daşınma müddəti gömrük rəsmiləşdirilməsi nəzərə alınmaqla 4 gün, Bəndər Abbasdan isə Ənzəliyə ümumi daşınma vaxtı 13 gündür. Daha sonra Şimal-Cənub dəhlizi ilə konteyner daşımaları Rusiya-İran marşrutu ilə məhdudlaşdırılıb, Hindistandan Həştərxan vasitəsilə konteyner daşımaları dayandırılıb. Buna baxmayaraq, layihə cəlbedici olaraq qaldı və sonradan ona Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Oman və Suriya qoşuldu, Türkiyə və Ukrayna da qoşulmaqda maraqlı olduqlarını bildiriblər.

Dəhlizin Qərb marşrutu üzərində yerləşən Azərbaycan bu layihəyə 2005-ci ildə qoşulub və o vaxtdan bəri öz infrastrukturunu fəal şəkildə modernləşdirir.

Şimal-Cənub nəqliyyat dəhlizinin uzunluğu 7,2 min km-dir və 3 əsas marşrutu əhatə edir:

1. Transxəzər (Mərkəzi) marşrutu Hind okeanında Mumbay bölgəsindəki Hindistanın Cavaharlal Nehru limanından başlayır. O, daha sonra İranın Hörmüz boğazındakı Bəndər Abbas limanını, eləcə də İranın şimalına qədər olan avtomobil və dəmiryol marşrutlarını əhatə edir. Bura həmçinin İranın Xəzər dənizindəki Ənzəli limanı, Rusiyanın Həştərxan və Laqan limanları, həmçinin Azərbaycan, Qazaxıstan və Türkmənistan limanları daxildir.

2. Şərq marşrutu Qazaxıstan, Özbəkistan və Türkmənistan kimi Mərkəzi Asiya ölkələri vasitəsilə Rusiya və Hindistanı birləşdirir.

3. Qərb marşrutu Həştərxan, Mahaçqala və Samur limanlarından keçir, daha sonra Azərbaycan ərazisindən Astara stansiyasına qədər uzanır. Bundan sonra marşrut İran ərazisindən Astara, Rəşt və Qəzvin şəhərlərindən keçir.

Əvvəllər Tehran və Moskva arasında dəmir yolu əlaqəsi Naxçıvan Muxtar Respublikası (Azərbaycan), Ermənistan və Gürcüstan ərazisindən keçirdi. Lakin Ermənistan-Azərbaycan münaqişəsi və daha sonra Naxçıvanın Ermənistan tərəfindən blokadaya alınması, eləcə də Ermənistanın Azərbaycan tərəfindən blokadaya alınması postsovet dövründə bu marşrutdan istifadənin qarşısını almışdır.

2005-ci ildə üç ölkə Ermənistandan yan keçərək Naxçıvanı mühasirəyə alaraq yeni yolun tikintisinə dair saziş imzalayıb. Bu saziş Astara ilə Azərbaycan-İran sərhədi arasında İran ərazisində uzunluğu təqribən 350 kilometr, Azərbaycan ərazisində isə təqribən 8,5 kilometr uzunluğunda dəmir yolu hissələrinin tikintisini, habelə mövcud dəmir yolunun yenidən qurulmasını nəzərdə tuturdu. Azərbaycan ərazisində. Layihənin dəyəri 2 milyard ABŞ dolları qiymətləndirilir və tikinti 2006-cı ildə başlanıb.

«Astara (Azərbaycan) – Astara (İran) – Rəşt».

Layihə çərçivəsində görülən nəhəng işlərə baxmayaraq, İran tərəfindən həyata keçirilən Rəşt-Astara dəmir yolu hissəsinin tikintisinin tamamlanmaması Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin gələcək inkişafına mane olub. Lakin 2023-cü ilin yazında İran və Rusiya arasında uzunluğu 162 kilometr olan çatışmayan hissənin tikintisi ilə bağlı müqavilə imzalanıb. Rusiyanın 1,3 milyard avro sərmayəsi ilə bu hissənin tikintisinin 2027-ci ilə qədər başa çatdırılması planlaşdırılır. Bu

müqavilə 2023-cü il mayın 17-də imzalanıb. Həmçinin qeyd olunub ki, Rusiya Dəmir Yolları bu prosesdə iştirak edə bilər.

Rəşt Qəzvin.

İranlı mütəxəssislər 2009-cu ildə Rəşt və Qəzvin arasında dəmir yolu hissəsinin tikintisinə başlayıblar. Birinci mərhələdə ildə 6 milyon ton yükün daşınması nəzərdə tutulur və gələcəkdə bu həcm 15-20 milyon tona çata bilər. Bu hissə İranda uzunluğu 164 kilometr olan ən mürəkkəb dəmir yolu layihələrindən biri hesab olunurdu.

Qəzvin-Rəşt istiqamətində ilk sınaq qatarı 2018-ci il noyabrın 22-də yola salınıb və bu hissənin açılış mərasimi 2019-cu il martın 6-da İran Prezidenti Həsən Ruhani, Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev, Pakistan və İraq rəsmilərinin iştirakı ilə keçirilib..



Şəkil 1. Şimal-Cənub İTC-nin ümumi diaqramı

Astara-Rəşt.

Dəmir yolunun Astara-Rəşt hissəsində Rusiyadan ilk sınaq yük qatarı 2018-ci il fevralın 8-də yola salınıb. 2018-ci ilin mart ayının sonunda bu hissə istifadəyə verildikdən sonra yolun İran seqmenti Astaradakı stansiya və yük terminalı ilə birlikdə 25 il müddətinə Azərbaycana icarəyə verilib. 11 aylıq müddətdə bu yol ilə 270 min tondan çox yük daşınıb.

Rəştdən Ənzəliyə qədər olan hissənin tikintisinin 2022-ci ilin martına qədər başa çatdırılması planlaşdırılırdı. Azərbaycan Astaradan Rəştə qədər olan hissənin tikintisi üçün İrana 500 milyon ABŞ dolları məbləğində kredit ayırıb.

Hazırda bu hissədə yükdaşıma avtomobil nəqliyyatı ilə həyata keçirilir və hissənin uzunluğu 162 kilometrdir.

Qeyd edək ki, dəmir yolunun Qəzvindən Rəştə qədər olan hissəsi artıq istifadədədir, Rəştdən Astaraya qədər olan hissədə isə tikinti işləri davam edir.

Həmçinin, hazırda Azərbaycanda "Osmanlı"ya gedən dəmir yolu xətti qoşa, Astaraya isə tək yolludur. Bir yollu yol üçün yük həcmi ildə 25 milyon tona qədər, iki yollu yol üçün isə 80-100 milyon tona qədər yük ola bilər.

Astara-Rəşt marşrutunun işə salınması nəticəsində Şimal-Cənub İTC-nin qərb dəhlizi boyunca tranzit həcmi 30 milyon tona çatdırıla bilər və 2030-cu ilə qədər İTC-nin ümumi yük daşımaları 2030-cu ilə qədər artmalı olacaq, bugünkü 15 milyon tondan 41-45 milyon tona, daha uzun müddətdə isə 100 milyon tona çatacaq.

Astara (Azərbaycan) hissəsində yükötürmənin rahatlığı və avtomobil nəqliyyatınan sonar istifadə üçün terminal tikilməsi planlaşdırılır. Terminalın sahəsi 15-20ha olacaq, sürətli və keyfiyyətli yük ötürülməsi üçün bütün lazımi avadanlıqlarla təmin olunacaqdır. Bu terminalda təqribən 1000 nəfər işləyəcəkdir.

İrandan bu sahəyə yüklər daxil olduqda xarici passport lazım gəlməyəcəkdir. Nəqliyyat vasitələri, sürücü və yük ancaq terminal ərazisində yerləşə biləcəklər. Onlardan möhürlənmiş CMR tələb olunacaqdır. İran tərəfi üçün gömrük və digər əməliyyatlar başa çatır və Azərbaycan tərəfinin məsuliyyətinə keçir. Azərbaycan gömrük əməliyyatlarını həyata keçirir və konteynerləri öz nəqliyyat vasitələrinə yükləyir. Bu anda konteyner İrana qaytarılmır. Geri qaytarılma gələcək yükötürmə əməliyyatında baş tutacaqdır.

«Rutlardakı (koleya) fərqlər».

Qeyd etmək vacibdir ki, İran 1435 mm olan Avropa dəmir yolu standartından istifadə edir, Rusiyada isə bu rəqəm 1520 mm-dir. Tərəflərin razılığı ilə Astara (Azərbaycan) və Astara rayonu (İran) yük terminalları arasında müvafiq olaraq geniş və ensiz (İranda 6 km və Azərbaycanda 3 km) dəmir yolu xətləri nəzərdə tutulub. Hər iki ölkə üçün terminal tikiləcək və təkər dəyişdirmə avadanlığı quraşdırılacaq. Mütəxəssislər vurğulayırlar ki, marşrut üzrə istənilən yenidən yükləmə ehtiyacı əlavə vaxta gətirib çıxarır ki, bu da öz növbəsində yükün zədələnməsi riskini və əlavə xərcləri artırır.

Şəkil 2. "Astara-Rəşt" yolu

Başa düşmək lazımdır ki, İran və digər ölkələr arasında ölçülər fərqi müəyyən texniki çətinliklərə səbəb ola bilər. Bizim əsas problemimiz koleya ölçülərindəki bu müxtəlifliyi nəzərə alaraq səmərəli birləşmə texnologiyasını inkişaf etdirməkdir. Problemsiz texnologiyalar yaratmaq və müxtəlif ölçü standartları ilə kəsişmələrdə dayanma müddətini minimuma endirmək çox vacibdir.

Onu da qeyd etmək lazımdır ki, İranda üç müxtəlif koleya ölçüləri mövcuddur: Pakistanla sərhəddə 1676 mm və Azərbaycanla sərhəd bölgələrdə 1520 mm.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin Azərbaycan ərazisində uzunluğu 505 km-dir.

Azərbaycanın töhfəsinə həmişə lazımi qiymət verilməsə də, rəqəmlər layihənin inkişafında Azərbaycandan keçən qərb marşrutunun mühüm rolunu göstərir. 2023-cü ilin yanvar-may aylarında Şimal-Cənub İTC üzrə daşımalar 41,8% artaraq 4 milyon tona çatıb. Daşımanın əsas hissəsi Azərbaycandan keçən qərb marşrutunun payına düşüb - 3,6 milyon ton (artım 37,9%). Qalan dəhlizlər boyu dinamika aşağıdakı kimidir:

• Türkmənistan və Qazaxıstandan keçən şərq marşrutu üzrə 353,5 min ton (artım 80,3%) daşınmışdır;

• Transxəzər marşrutu üzrə - 117,7 min ton (artım 80,5%).

2023-cü ilin oktyabrında Prezident İlham Əliyev Bakıdan Qubaya 129 kilometr uzunluğunda və dörd hərəkət zolaqlı ödənişli yolun istifadəyə verildiyini elan etdi. Bu yol "Şimal-Cənub" layihəsinin həyata keçirilməsi üçün strateji əhəmiyyət kəsb edir.

Azərbaycan ölkədə optik rabitə kanalları ilə təchiz edilmiş ikixətli elektrikləşdirilmiş dəmir yolunun mövcudluğuna görə sərfəli tərəfdaşdır. Asiya İnkişaf Bankının ayırdığı 400 milyon dollar kredit hesabına yolun Bakı-Yalama hissəsi bərpa edilib. Həmçinin gələcəkdə Ələt-Astara hissəsinin bərpası nəzərdə tutulur.

Hazırda Yalama-Sumqayıt hissəsində təmir işləri aparılır. Daha sonra Astara-Ələt hissəsinə keçmək planlaşdırılır.

Rusiya ilə Azərbaycan arasında nəqliyyat əlaqələrinin inkişafı yük daşımaların həcminin 500 min tondan çox olmadığı Azərbaycan və İran arasında olduğundan daha fəal irəliləyir. Bu onunla bağlıdır ki, Rusiya üçün bu regionda iş Azərbaycanla Ermənistan arasında münaqişə səbəbindən mürəkkəbdir. Astara-Rəşt marşrutu açıldıqdan sonra Azərbaycan ərazisindən yük axınının təxminən 2 milyon tona yüksələcəyi gözlənilir.

İran və Azərbaycan arasında "Sərhəd Dəmir Yolu Sazişi" hazırlanır və bu sazişdə Azərbaycanın İrana 200-ə qədər vaqon icarəyə verəcəyi bildirilir.

Azərbaycanda Şimal-Cənub marşrutu üzrə avtomobil nəqliyyatının inkişafı.

Astara hissəsində (Azərbaycan) yenidən yüklənmə və avtomobil nəqliyyatından sonra istifadənin asanlığı üçün azad iqtisadi zona olacaq terminalın tikintisi planlaşdırılır.

Dəmir yolu nəqliyyatından istifadə zamanı çətinliklər yarandığından terminalın avtomobil nəqliyyatı ilə yenidən yüklənməsi üçün tikilməsi planlaşdırılır. Məsələn, platformaların çatışmazlığı var və onların tikintisi çox bahadır. İkincisi, əlbəttə ki, hərəkətlilikdir. Avtomobil nəqliyyatı ilə yüklərin daşınması gediş məsafəsinin 50 km-dən 800 km-ə qədər həyata keçiriləcək. Bu sıra yüklərin Rusiya və Gürcüstana daşınmasına imkan verə bilər.

Hazırda bu yolla ildə 5 milyon yükün daşınması planlaşdırılır. 22 tonluq avtomobillərdən istifadə olunacaq və onlardan təxminən 1260-a (hər istiqamət üzrə 630) ehtiyac olacaq. Ehtiyat hissələri, təmir və digər məsələlər üçün ehtiyat lazımdır. Üstəlik, ümumi park 1500 avtomobildən ibarət olmalıdır.

Layihənin həyata keçirilməsi üçün avtomobil qarajlarına ehtiyac vardır. Daha az tıxac və daha böyük miqyas üçün onlar Azərbaycanın müxtəlif bölgələrində paylanacaqlar. Onların sayı təxminən 7-8 olacaq. Bunlar: Zəngəlan, Biləsuvar, Astara, Ələt, Abşeron logistika və s. Hər qarajda daha 50-dən çox insan işləyəcək. Artıq Zəngilandan 130-a yaxın reysin yerinə yetirilməsi planlaşdırılıb və ümumilikdə 630 reysin planlaşdırılması nəzərdə tutulur.

Bütün nəqliyyat Bakıdan yan keçərək, Müşfiqabad və Sumqayıtdan keçəcəkdir.

Gələcəkdə 10 milyon tondan çox daşınması planlaşdırılanda yüklər Rusiya və Gürcüstana gedəcək. Rusiyada cari təklif olunan marşrut: Dərbənd - Mahaçqala - Pyatiqorsk - Krasnodar.

Orta nəqliyyat yürüşü 450-500 km-dir. Eyni zamanda, 700 nəqliyyat vasitəsi daşımalarda daim iştirak edir. 1 km-in qiyməti 1 ABŞ dollarıdır. Belə çıxır ki, təxminən 332.500 dollar mənfəətdir. Manata çevirsək, bu, təxminən 565 minə bərabərdir. Və ondan ümumi mənfəətin 25%-i qalacaq:

565.000 x 25% = 141.750 manat. İllik xalis mənfəət 51 milyon manatdan çoxdur. Hansı ki, dollarla 30 milyondan çoxdur. Bu hesablama 5 milyon yükün daşınması üçün aktualdır.

Belə bir layihənin həyata keçirilməsi zamanı, bilavasitə, yalnız logistika işçiləri nəzərə alınmaqla, 2000-ə yaxın iş yeri var. Onlara orta hesabla 800 manat maaş verilsə, ayda 1 milyon 600 min manat ödəniləcək.

Şimal-Cənub layihəsinin həyata keçirilməsindən əldə edilən iqtisadi və strateji faydalar.

Süveyş kanalı ilə Mumbaydan Sankt-Peterburqa ənənəvi dəniz çatdırılması adətən 30 ilə 45 günə qədər davam edir. İran, Türkmənistan və İrandan keçən dəmir yolu ilə alternativ marşrut 15-18 gün çəkir. Bu marşrut nəqliyyat xərclərinə 15-20% qənaət edir. Astara-Rəşt-Qəzvin dəmir yolunun tikintisi bu müddəti daha da azaldacaq.



Şəkil 3. Rusiyada yük daşınması

2021-ci ilin iyun ayında "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin marşrutu üzrə ilk dəfə olaraq tam hüquqlu konteyner qatarı keçib. 2022-ci ilin iyulunda 39 konteynerdən ibarət ilk yük qatarı Çexovdan Bəndər Abbasa yola düşdü və daha sonra Hindistana çatdı. Ən azı altı maşinist səfər həyata keçirdikdən sonra Rusiya Dəmir Yolları 2022-ci ilin oktyabr ayından hər ay bu marşrut üzrə müntəzəm konteyner qatarlarını işə saldı. Lakin texniki problemlər, xidmət səviyyəsinin qeyri-kafi olması və tam işləməməsi səbəbindən müəyyən gecikmələr oldu.

Dəhlizin qərb marşrutu layihədə əsas diqqət mərkəzindədir. 2023-cü ilin birinci yarısında layihə üzrə ticarət dövriyyəsi 41,8% artaraq 4 milyon ton təşkil edib. Yük daşımalarının əsas hissəsi, yəni 3,6 milyon tonu Qərb marşrutunun payına düşüb.

Rusiyanın baş naziri Mixail Mişustin 2023-cü ilin ilk 9 ayında Şimal-Cənub layihəsi çərçivəsində ticarət dövriyyəsinin əvvəlki illə müqayisədə 30% artdığını bildirib. İran prezidenti İbrahim Rəisinin Rusiyaya səfəri çərçivəsində layihə çərçivəsində yükdaşımaların həcminin artırılması məqsədilə Rusiyanın nəqliyyat şirkətlərinin nümayəndələri ilə danışıqlar aparılıb. Müzakirələr zamanı tərəflər qeyd ediblər ki, yükdaşımaların həcminin artırılması ilə yanaşı, tranzit müddəti 49 gündən 20 günə endirilib.

BTC üzrə yük daşımalarına Azərbaycandan, Ermənistandan, Gürcüstandan və İrandan yüklər daxildir. Rusiyadan əsas yüklər taxıl (54%) və taxta, Rusiyaya isə bitki mənşəli məhsullar (56%), sement və tikinti materialları tədarük edilir. İranın hesablamalarına görə, Şimal-Cənub İTC-nin bütün

marşrutları üzrə infrastruktur məhdudiyyətlərinin aradan qaldırılması şərti ilə illik daşıma potensialı 10 milyon ton təşkil edir. 2023-cü ildə dəhlizlə əsasən neft yükləri, taxıl və qara metallar daşınıb.

«Çabahar Limanı: Şimal-Cənub marşrutunda yeni iqtisadi dəhliz».

İranın Fars körfəzindəki limanları geniş ərazilərə və potensialın genişləndirilməsi imkanlarına malikdir. Limanların dərinliyi ən böyük gəmilərin asanlıqla yerləşdirilməsinə imkan verir, avadanlıqlar, anbarlar və infrastruktur, o cümlədən dəmir yolları və avtomobil yolları səmərəli əməliyyatlara şərait yaradır. Hazırda limanların imkanları tam istifadə olunmur və faktiki dövriyyə 40-50 milyon ton səviyyəsində olsa da, potensialı ildə 100 milyon tona qədərdir.

Oman dənizinin şimalında yerləşən İranın yeganə okean limanı olan Çabahar Limanı Çabahar-Zahedan boyunca İranın dəmir yolu şəbəkəsinə qoşularaq Hindistandan Əfqanıstana, Orta Asiya ölkələrinə və hətta Avropaya yüklərin daşınmasında mühüm rol oynayacaq.

Şəkil 4. Çabahar limanı

İranda Hind okeanına birbaşa çıxışı olan yeganə liman olan bu limanın illik yük dövriyyəsi 2 milyon tondan artıqdır və ölkənin azad ticarət zonalarından biridir. Hindistan üçün Çabahardan keçən bu tranzit dəhlizi Pakistandan yan keçməklə Əfqanıstan və Mərkəzi Asiya ölkələrinə çıxış açaraq strateji əhəmiyyət kəsb edir.

Liman Hindistana nəqliyyat xərclərini 60%, yüklərin Mərkəzi Asiyaya daşınma müddətini isə 50% azaltmağa imkan verəcək. Hindistandan Çabahar vasitəsilə Əfqanıstana ilk ixracat 2017-ci ildə 130 min ton buğdadan ibarət olub.

Yol tikintisinə 2020-ci ilin iyulunda başlanılıb; həmin il noyabrın 10-dək Xaş-Zahidan dəmir yolunun 157 kilometrlik hissəsi artıq açılmışdır. Bu dəmir yolu MDB ölkələrindən yüklərin daşınması üçün fəal şəkildə istifadə olunacaq və Hindistanla Rusiya arasında marşrutun bir hissəsi olacaq. Yolun ümumi uzunluğu 628 kilometr olacaqdır.

Çabahar limanının daxil olması Bəndər Abbas limanında tıxacları aradan qaldıracaq və yüklərin daha tez və sərfəli şəkildə daşınmasına imkan verəcək.

Çabahar limanı ilə bağlı təkliflərimiz dəmir yolu ilədir. Mallar Əfqanıstan və Pakistandan İrana gələcək.

«Yeni yollar».

Hazırda Şimal-Cənub quru yolu Bəndər Abbasda bitir. Yük daşıma bu limanda həyata keçirilir və gəmilər su yolu ilə Hindistanın Mumbay şəhərinə göndərilir.

Şəkil 5. Dəmir yollarına baxış

İranın qərb tərəfinə isə Suriya və İraqdan mal idxal etmək planlaşdırılır. Suriya-İraq-İran yolu Əbu Kamal (Suriya) - Əl Hədisə (İraq) - Xanagin (İraq) - Xosrəvi (İran) kimi görünəcək.

Türkiyədən İrana yük axını hazırda Van yaxınlığındakı Kapıköy (Türkiyə) və Razi (İran) stansiyaları vasitəsilə həyata keçirilir. Amma indi Qarsdan (Türkiyə) Naxçıvana (Azərbaycan) yolun çəkilməsi planlaşdırılır. Bu, malların Azərbaycana çatması üçün qısa və rahat yoldur. Bir şərtlə ki, Ermənistanla Azərbaycan arasında sülh bağlansın, bu dövlətlər vasitəsilə yol ən əlverişli və sərfəli yoldur.

Əfqanıstan və Pakistandan da marşrutlar açıla və Şimal-Cənuba daxil edilə bilər. İrandan keçən marşrut Madan-e'Sangan (İran) və Ghurian və ya Herat (Əfqanıstan) məntəqələrindən istifadə etməklə açıla bilər. Pakistan tərəfdən bunlar Mircave (İran) – Taftan (Pakistan)dır.

Nəticə.

Yekun olaraq deyə bilərik ki, bu layihənin tam həyata keçirilməsi üçün hələ çox iş görülməlidir. Bu iş hər bir ölkəyə daha çox gəlir, rahatlıq, mobillik və kommunikasiya təmin edəcək.

Azərbaycan üçün hazırda avtomobil logistikasını hərtərəfli təkmilləşdirmək prioritet məsələdir. Təsvir edilən layihə, hesablamalarımıza görə, ölkəyə 30 milyon dollar gəlir gətirəcək. İllik dövriyyəsi 15 milyon ton olan dəmir yolu nəqliyyatının inkişafı ilə mənfəət 80 milyon dollara çata bilər.

Biz də yeni yollar təklif edirik. Yeni nəqliyyat marşrutlarının açılması yeni bazarlara çıxmaq və ticarət tərəfdaşlıqlarını genişləndirmək üçün imkanlar yaradacaq ki, bu da ticarət həcminin artmasına və iqtisadi artıma töhfə verəcək.

Şimal-Cənub layihəsi Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əsas amilə çevrilir, regionda iqtisadi artım və əməkdaşlıq üçün yeni perspektivlər açır. Bu layihənin daha da gücləndirilməsi onun uğurla həyata keçirilməsini və ölkəmizin və onun tərəfdaşlarının inkişafına uzunmüddətli təsirini təmin etmək üçün birgə səylər və investisiyalar tələb edir.

Ədəbiyyat siyahısı

1. Sidorova E. K. “Azərbaycan kontekstində Şimal-Cənub layihəsinin həyata keçirilməsindən əldə edilən iqtisadi faydalar”. Nəqliyyat İqtisadiyyatı Konfransı, Moskva, 2018.
2. Əliyev V. G. (2019). “Şimal-Cənub layihəsinin Azərbaycan üçün iqtisadi faydaları və çətinlikləri”. İqtisadi siyasət jurnalı, cild 8, sayı 4, səh. 45-59.
3. Xasanov E. A. (2020). “Şimal-Cənub” layihəsinin inkişafında Azərbaycanın rolu və onun ölkə iqtisadiyyatına təsiri”. “İqtisadi İnteqrasiya” jurnalı, cild 15, say 3, səh. 112-125.
4. Abramov, I. V. (2018). “Şimal-Cənub layihəsinin Rusiya və İran arasında iqtisadi əməkdaşlıq potensialı”. İqtisadi coğrafiya jurnalı, 10-cu cild, 2-ci say, səh. 78-91.
5. Sadriev, M. R. (2017). “İranın Şimal-Cənub layihəsində iştirakının siyasi və iqtisadi aspektləri”. “İranşünaslıq” Araşdırma Mərkəzi, 12 saylı hesabat.
6. Azərbaycan Dəmir Yolunun rəsmi saytı https://freight.ady.az
7. https://www.trend.az/business/transport/3868048.html
8.https://az.sputniknews.ru/20230518/koridor-sever-yug-rossiya-vkladyvaetsya-v-razvitie-infrastruktury-v-azii-455024394.html
9. https://zdmira.com/?view=article&id=12713&catid=2
10. https://newcaucasus.com/politics/17400-koridor-sever-yug-problemyi-i-perspektivyi.html
11. https://www.dp.ru/a/2022/12/07/Zabitoe_staroe
12. https://aircenter.az/ru/single/mtk-sever--yug-i-ego-vliyanie-na-razvitie-otnoseniy-azerbaydjana-i-rossii-1339
13. https://e-cis.info/news/566/114169/

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi və Bakı Mühəndislik Universitetinin birgə təşkilatçılığı ilə

BAKI MÜHƏNDİSLİK UNİVERSİETİ-BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRANS

AZƏRBAYCAN BEYNƏLXALQ NƏQLİYYAT SİSTEMİNDƏ:

HƏDƏFLƏR VƏ PERSPEKTİVLƏR

BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRASNS

Bakı Mühəndislik Universiteti, 24-25 May 2024-cü il, Bakı, AZƏRBAYCAN

PROCEEDINGS

S E K S İ Y A – 5

NƏQLİYYATIN EKOLOJİ PROBLEMLƏRİ VƏ DAYANIQLI NƏQLİYYAT

24-25 MAY
Baku, Azerbaijan

NƏQLİYYAT VƏ EKOLOJİ PROBLEMLƏR

Yədulla Həziyev

Naxçıvan Dövlət Universiteti
Memarlıq və Mühəndislik fakültəsi/"Nəqliyyat mühəndisliyi və texniki fənlər" kafedrası
yadohazi@gmail.com
Naxçıvan, Azərbaycan

Xülasə

Məqalədə ətraf mühitin mühafizəsinə xüsusi diqqət yetirilir və qeyd olunur ki, müasir dünyada ekologiya və enerjiyə qənaət məsələləri yeni həll yolları tapır, buna iri korporasiyalar və onların layihələri maliyyələşdirməsi kömək edir. Köhnə sistemlərin texnoloji modernləşdirilməsi nəqliyyat müəssisələrini daha uüksək səviyyəyə qaldırır və beynəlxalq bazarda rəqabətə davamlı olmağa imkan verir. Nəqliyyat-yol kompleksi ətraf mühitin güclü çirklənməsi mənbəyidir. Hərəkət intensivliyi daim artan nəqliyyat şəhərin əsas səs-küy mənbələrindən biridir. Məqalədə həmçinin qeyd olunur ki, nəqliyyat bir çox başqa neqativ hallara da səbəb olur. Belə ki, hər il yüz milyonlarla ton zərərli maddələr işlənmiş qazlarla atmosferə daxil olur. Yol şəbəkəsi, xüsusən də şəhər aqlomerasiyalarının yaxınlığında qiymətli kənd təsərrüfatı torpaqlarını "yeyir". Nəqliyyatın zərərli təsirlərinin təsiri altında insanların sağlamlığı pisləşir, torpaq və su hövzələri zəhərlənir, flora və faunaya güclü ziyan dəyir.

Açar sözlər: ekoloji problemlər, yol nəqliyyatı, enerji səmərəliliyi, ətraf mühit, ekoloji və iqtisadi problemlər, zəhərli maddələr.

Abstract

The article pays special attention to environmental protection and notes that in the modern world, issues of ecology and energy saving are finding new solutions, this is facilitated by large corporations and their financing of projects. Technological modernization of old systems takes transport enterprises to another level and allows them to be competitive in the international market. The transport and road complex is a powerful source of environmental pollution. Transport is one of the main sources of noise in the city, the traffic intensity of which is constantly growing. The article also notes that transport has caused many other negative phenomena: every year hundreds of millions of tons of harmful substances enter the atmosphere with exhaust gases; The road network, especially near urban agglomerations, "eats up" valuable agricultural land. Under the influence of the harmful effects of transport, people's health deteriorates, soils and water bodies are poisoned, and flora and fauna suffer.

Keywords: environmental problems, road transport, energy efficiency, environment, environmental and economic problems, toxic substances.

Giriş.

Təbii yanacaqlarla işləyən nəqliyyat həm ətraf mühitə, həm də insanların sağlamlığına böyük ziyan vurur. Nəqliyyatın yaratdığı zərərli emissiyalar qlobal istiləşmə problemini daha da artırır, insanlarda müxtəlif xəstəliklərə, o cümlədən tənəffüs və sinir sistemlərinin zədələnməsinə səbəb olur. Nəqliyyatın ətraf mühitə təsiri istixana effektinin artmasına, havanın və suyun çirklənməsinə, səs-küy çirklənməsinə, torpaq eroziyasına və s. kimi amillərə münbit şərait yaradır.

Nəqliyyat planetdə istixana qazı emissiyalarının ən böyük mənbələrindən biridir - təxminən 16%. Bu sahədə avtomobillər 11,9%, təyyarələr 1,9%, gəmilər 1,7%, qatarlar isə 0,4% pay sahibidirlər. Onu qeyd etmək lazımdır ki, nəqliyyat emissiyalarının azaldılması iqlim dəyişikliyi ilə mübarizə üçün çox vacib faktordur.

Tədqiqat metodu

Günümüzdə Yer kürəsində 1 milyarda yaxın avtomobil istifadə olunduğundan havanın çirklənməsinin böyük bir hissəsi avtomobillərdən atılan zərərli maddələrin payına düşür. Xüsusilə iri şəhərlərdə havanın çirklənməsinin əsas mənbəyi olan ətraf mühitə atılan bütün zərərli emissiyaların yarıdan çoxu avtomobil nəqliyyatının payına düşür. Orta hesabla ildə 15 min km yürüşlə hər avtomobil 2 ton yanacaq və təxminən 26-30 ton hava, o cümlədən 4,5 ton oksigen yandırır ki, bu da bir insanın ehtiyacından 50 dəfə çoxdur. Eyni zamanda hər bir avtomobil atmosferə 700 kq/l dəm qazı,

40 kq/l azot dioksid, 230 kq/l yanmamış karbohidrogenlər və 2 - 5 kq/l bərk cisimlər buraxır. Bundan əlavə, qurğuşunlu benzindən istifadə nəticəsində çoxlu qurğuşun birləşmələri ayrılır.

Müşahidələr göstərmişdir ki, əsas yolun kənarında yerləşən (10 m-ə qədər) evlərdə sakinlər yoldan 50 m aralıda yerləşən evlərə nisbətən xərçəng xəstəliyindən 3-4 dəfə çox əziyyət çəkirlər. Nəqliyyat həm də su hövzələrini, torpağı və bitkiləri zəhərləyir.

Daxili yanma mühərriklərindən zəhərli emissiyalar - işlənmiş qazlar, karbüratördən və yanacaq çənindən yanacaq buxarları ətraf mühitə yayılır. Zəhərli maddələrin böyük hissəsi daxili yanma mühərriklərinin işlənmiş qazları ilə atmosferə daxil olur. Ümumi karbohidrogen emissiyalarının təxminən 45%-i qazlar və yanacaq buxarları ilə atmosferə atılır.

İşlənmiş qazların bir hissəsi kimi atmosferə daxil olan zərərli maddələrin miqdarı nəqliyyat vasitələrinin ümumi texniki vəziyyətindən və xüsusən də, mühərrikdən - ən böyük çirklənmə mənbəyindən asılıdır. Beləliklə, karbüratörün tənzimlənməsi pozulursa, karbonmonoksit emissiyaları 4...5 dəfə artır. Tərkibində qurğuşun birləşmələri olan qurğuşunlu benzinin istifadəsi atmosfer havasının yüksək zəhərli qurğuşun birləşmələri ilə çirklənməsinə səbəb olur. Etil maye ilə benzinə əlavə edilən qurğuşunun təxminən 70%-i işlənmiş qazlarla birləşmələr şəklində atmosferə daxil olur ki, bunun da 30%-i avtomobilin egzoz borusu kəsildikdən dərhal sonra yerə çökür, 40%-i atmosferdə qalır. Bir orta yük maşını ildə 2,5...3 kq qurğuşun buraxır. Havada qurğuşun konsentrasiyası benzinin tərkibindəki qurğuşun tərkibindən asılıdır.

Dəmir yolu qatarları da kömür və ya mazutdan istifadə edildiyi təqdirdə istixana qazı emissiyalarının və zəhərli maddələrin istehsal mənbəyinə çevrilirlər. Bu zaman lokomotivlər atmosferi karbon qazı, metan, karbonmonoksit, azot oksidi, kükürd qazı və digər zərərli hissəciklərlə zəhərləyirlər. Yük və sərnişin qatarları, şəhərətrafı elektrik qatarları insan sağlamlığına mənfi təsir göstərən əsas səs-küy və vibrasiya mənbələridir. Qatarların hərəkəti narahatlıq və stress səviyyəsini artırır, dəmir yollarının yaxınlığında yaşayan həşərat və quşların sayını azaldır. Uzun illər dəmir yollarında zəhərli kreozot yağı ilə hopdurulmuş ağac şpallardan istifadə edilirdi və bu gün də bir çox sahələrdə hələ də ağac şpallardan istifadə olunur.

Dünyada ticarət edilən bütün malların təxminən 90%-i su nəqliyyatı ilə daşınır. Dünya okeanlarının çirklənməsində gəmilərin rolu böyükdür. Yüklərin daşınması zamanı neft və digər kimyəvi maddələr suya qarışır. Təhlükəli maddələr və ya xam neft daşıyan gəmidə baş verən qəzalar zamanı karbon qazı, azot oksidi və kükürd dioksid emissiyaları suya dağıla bilər. Bu maddələr suda asanlıqla həll olduqlarından okeanın turşulaşmasına səbəb olur ki, bu da mərcan riflərini öldürür. Gəmilər hərəkət zamanı yad flora və fauna növlərini daşıyaraq yerli biomüxtəlifliyə təhlükə yaradırlar.

Dəniz nəqliyyatı müasir logistikada mühüm rol oynayır, lakin ətraf mühitin qorunması bu nəqliyyat növü üçün hələ də problem olaraq qalır. Konteyner gəmiləri və ya sərnişin bərələri hələ də sualtı və yerüstü mühitə və limanların yaxınlığında yaşayan insanların həyat fəaliyyətlərinə mənfi təsir göstərir. Su nəqliyyat vasitələri ekosistemə aşağıdakı yollarla mənfi təsir göstərir:

- səs-küy səviyyəsi arması ilə (sualtı və suyun üstündə);
- neft və çirkab suların ətrafa dağılması ilə;
- egzoz emissiyalarının yaranması ilə (CO_2, karbon monoksit, kükürd oksidləri, azot oksidləri, hissəciklər).

Dəniz nəqliyyat vasitələrinin ətraf mühitə təsiri və bunula bağlı məsələlərin həlli yollarının araşdırılması aktual olaraq qalır.

Dünyanın aviasiya karbon emissiyalarının yarısı sərnişinlərin yalnız 1%-nin payına düşür. Amerikalılar bu sahədə liderlik edirlər. Onlar Böyük Britaniya, Yaponiya, Almaniya və Avstraliyanın birlikdə götürülmüş göstəricilərini belə qabaqlayırlar. Təyyarələrin mənfi təsirlərindən biri səs-küydür. Bu, təkcə sərnişinlərə deyil, hava limanlarına yaxın ərazilərdə yaşayan insanlara da təsir edir. Təyyarə mühərriklərinin uğultusu eşitmə qabiliyyətini, konsentrasiyanı pozur və stressi artırır. Bundan əlavə, aviasiya yanacağı və digər maddələr su hövzələrini kimyəvi maddələrlə çirkləndirir.

Atmosferin çirklənməsi nəticəsində aşağıdakı xoşagəlməz halların baş verməsi qaçınılmazdır:

- buzlaqların əriməsi, dənizlərdə və okeanlarda suyun səviyyəsinin sürətlə artması (bu, daşqınların, su basmalarının və hətta bütöv şəhərlərin və ya okean adalarının yoxa çıxmasının birbaşa səbəbidir!);
- iqlim dəyişikliyi və tez-tez hava anomaliyalarının baş verməsi: yanğınlar, uçqunlar, dolu;
- şirin su hövzələlərinin azalması (bu, təbii içməli su anbarı olan buzlaqların əriməsi ilə bağlıdır).

Yol infrastrukturunun genişlənməsi heyvanlara və bitkilərə də mənfi təsir göstərir. Müxtəlif növ məməlilərin, quşların, suda-quruda yaşayanların və s. təbii yaşayış yerləri daralır. Heyvanlar təkərlərin altında ölür və ya sağ qalma şansının adətən aşağı olduğu başqa yerlərə köçür. Aparılan müxtəlif yol işləri ilə əlaqədar ağac və yaşıllıqların azaldılması davamlı olaraq aparılır. Bitkilər oksigen istehsal edir və quşlar, həşəratlar və s. üçün sığınacaq rolunu oynayır. Yol kənarındakı yaşıllıqların ləğv edilməsi və torpaqların şoranlaşması fauna və flora növlərinin məhv olma riskini böyük ölçüdə artırır. Meşələrin qırılması və kimyəvi maddələr torpağın eroziyasına və yeraltı suların çirklənməsinə səbəb olur.

Dünyanın elm adamları nəqliyyatı daha az invaziv etmək və planeti istixana effektinin təsirindən qorumaq üçün güclərini birləşdirir. Logistika sənayesində ən perspektivli sahələrdən biri nəqliyyatın ekologiyasıdır. Burada daim atmosferin çirklənmənin miqdarını və nəqliyyatın digər mənfi nəticələrini azaltmaq üçün yollar axtarılır. Nəqliyyat ekologiyası üçün əsas məsələlər bunlardır:

- enerjiyə qənaət etmənin yolları,
- alternativ yanacaqlardan istifadə etmək imkanları;
- nəqliyyat vasitələri, gəmilər, dəmir yolları və s. tərəfindən yaranan səs-küy səviyyəsinin azaldılması;
- daşınma zamanı yaranan tullantıların emalı üsulları.

Belə tədbirlərə nümunə olaraq malların bütün mərhələlərdə eyni konteynerdə daşındığı intermodal nəqliyyatı göstərə bilərik. Bu daşımalarda karbon emissiyalarını artıran əlavə yük daşınmalarına ehtiyac duyulmur

80 dB-dən yuxarı səs-küy insan orqanizmi üçün zərərlidir və 90 dB-dən yuxarı səviyyələrdə qismən eşitmə itkisi mümkündür. Ağrı həddi 120-130 dB aralığındadır. Şəhərlərdə akustik mühitə səs-küyün təsiri demək olar ki, həmişə yerli xarakter daşıyır və əsasən avtomobillər tərəfindən (80%-ə qədər səs-küyün) yaranır və avtomobillər güclü və uzun müddətli səs-küyün əsas mənbələri olduğu üçün ən çox mənfi təsir avtomobil nəqliyyatında olur. Nəqliyyat səs-küyü əhali üçün sənaye və ya məişət səs-küyündən daha böyük mənfi nəticələrə malikdir, çünki onun əhatə dairəsi daha genişdir və səs-küyün insan orqanizminə təsirini xarakterizə edən fiziki parametrlər müqayisə edilməz dərəcədə yüksəkdir.

Şəhərdə əsas səs-küyün əsas mənbələrindən biri nəqliyyatın intensivliyi durmadan artan avtomobil nəqliyyatıdır. 90...95 dB-lik ən yüksək səs-küy səviyyələri orta hərəkət intensivliyi saatda 2-3 min və daha çox nəqliyyat vahidi olan şəhərlərin əsas küçələrində müşahidə olunur. Küçə səs-küyünün səviyyəsi nəqliyyat axınının intensivliyi, sürəti və xarakteri ilə müəyyən edilir. Bundan əlavə, bu, planlaşdırma qərarlarından (küçələrin uzununa və eninə profili, binaların hündürlüyü və sıxlığı) və yol örtüyü və yaşıl sahələrin olması kimi abadlıq elementlərindən asılıdır. Bu amillərin hər biri nəqliyyat səs-küyünün səviyyəsini 10 dB-ə qədər dəyişə bilər.

Sənaye şəhərlərində magistral yollarda yük daşımaları çoxluq təşkil edir. Yük maşınlarının, xüsusən dizel mühərrikləri olan ağır yük maşınlarının ümumi trafik axınının artması səs-küy səviyyəsinin artmasına səbəb olur. Ümumiyyətlə, yük maşınları və minik avtomobilləri şəhərlərdə ağır səs-küy mühiti yaradır.

Magistral yolun hərəkət hissəsində yaranan səs-küy təkcə magistral yola bitişik ərazilərə deyil, həm də yaşayış məntəqələrinin dərinliklərinə yayılır. Beləliklə, ən böyük səs-küy təsir zonasında ümumşəhər magistralları boyunca yerləşən məhəllə və mikrorayonların hissələri var (ekvivalent səs-küy səviyyələri 67,4-dən 76,8 dB-ə qədər olur). Belə magistral yollara baxan açıq pəncərələri olan yaşayış otaqlarında səs-küy səviyyəsi yalnız 10..15 dB aşağı olur.

Nəqliyyat axınının akustik xüsusiyyətləri avtomobilin səs-küy göstəriciləri ilə müəyyən edilir. Ayrı-ayrı nəqliyyat vasitələrinin yaratdığı səs-küy bir çox amillərdən asılıdır. Bunlara mühərrik gücü və iş rejimini, ekipajın texniki vəziyyətini, yol səthinin keyfiyyətini və hərəkət sürətni aid etmək olar. Bundan əlavə, səs-küyün səviyyəsi və avtomobilin işinin səmərəliliyi sürücünün peşəkarlıq səviyyəsindən də asılıdır. Mühərrikdən gələn səs-küy mühərrik işə salınanda və qızdırılanda kəskin şəkildə artır. Avtomobilin birinci sürətlə hərəkət etməsi (40 km/saata qədər) həddindən artıq yanacaq sərfiyyatına səbəb olur, mühərrikin səsi isə ikinci sürətdə yaratdığı səsdən 2 dəfə yüksək olur. Böyük sürətlə hərəkət edən avtomobilin qəfil əyləclənməsi nəticəsində narahatedici səs-küy yaranır. Əyləcləmə prosesinə başlamazdan əvvəl mühərrik vasitəsi ilə hərəkət sürəti azaldılarsa, səs-küy nəzərəçarpacaq dərəcədə azalar.

Nəticə

Avtomobillərin ətraf mühitə mənfi təsirini azaltmaq və zərərli tullantılar ilə mübarizə aparmaq üçün əsas tədbirlərə aşağıdakılar aiddir:

- işlənmiş qazların toksikliyinə görə avtomobillərin qiymətləndirilməsi. Nəqliyyat vasitələrinə gündəlik nəzarət böyük əhəmiyyət kəsb edir. Bütün avtoparklar xətt üzrə istehsal olunan avtomobillərin istismara yararlılığına nəzarət etməlidirlər. Mühərrik normal işlədikdə işlənmiş qazların miqdarı icazə verilən həddən çox olmamalıdır;
- Dövlət Avtomobil Müfəttişliyi haqqında Əsasnaməyə əsasən bu qurumun əməkdaşları ətraf mühitin avtonəqliyyat vasitələrinin zərərli təsirindən mühafizəsi tədbirlərinin həyata keçirilməsinə nəzarət etməlidirlər;
Rəqabətin artdığı bu dövrlərdə yaşıl logistika təcrübələrini mənimsəyən təşkilatlar daha üstün mövqedədirlər. Yaşıl logistika təcrübələrini mənimsəyən bir iş kimi tanınmaq üçün bir işin davamlılığa töhfə verməsi vacibdir. Logistika sektorunun ətraf mühitə vurduğu zərərin azaldılması yuxarıda qeyd olunan fəaliyyət sahələri çərçivəsində effektiv davamlılıq strategiyasının həyata keçirilməsi ilə mümkün olacaq. Gələcək tədqiqatlarda yaşıl logistika anlayışını kəmiyyət və keyfiyyət məlumatlarından istifadə etməklə daha əhatəli şəkildə araşdırmaq və davamlı logistika ilə bağlı təşviq siyasətlərini araşdıran ətraflı araşdırmalar aparmaq tövsiyə oluna bilər.

Ədəbiyyat siyahısı

1. Akandere, G. (2021). Rəqəmsallaşma Səviyyəsi və Yaşıl Logistika Tətbiqlərinin Logistika Performansına Təsiri. Nevşehir Hacı Bektaş Vəli Universiteti SBE Jurnalı, 11(4): 1979-2000
2. Arcan Yılmaz, G., Yıldırır Keser, H.Y. (2018). Beynəlxalq Nəqliyyat Sektorunun Səmərəliliyində Yaşıl Logistika. IV. Beynəlxalq Qafqaz-Orta Asiya Xarici Ticarət və Logistika Konqresi, 7-8 Sentyabr, Didim/Aydın, s.638-646.
3. Lammgård, C. (2012). Intermodal Qatar Xidmətləri: Logistika Xidməti Təchizatçıları üçün Biznes Çağırışı və Karbonsuzlaşdırma Tədbiri. Nəqliyyat Biznesi və İdarəetməsində Araşdırma, 5: 48-56.
4. Özdemir, S.S. (2019). Logistika Sənayesinin Gələcəyi: Yaşıl Logistika və C-Footprint. IRDITECH 2019 Beynəlxalq Ar-Ge, İnnovasiya və Texnologiya İdarəetmə Konqresi. 3 may 2019: İstanbul 127- 144.

ŞƏHƏR MOBİLLİYİNDƏ GENDER MƏSƏLƏSİ

Razim Bayramov[1], Mahir Mustafayev[2], Məmməd Məmmədov[3]

Azərbaycan Texniki Universiteti
"Nəqliyyat logistikası və hərəkətin təhlükəsizliyi" kafedrası
razim.bayramov@aztu.edu.az
mahir.mustafayev@aztu.edu.az
memmed.memmedov@aztu.edu.az
Bakı, Azərbaycan

Xülasə

Avtomobilləşmənin son inkişaf səviyyəsinə uyğun olaraq, nəinki böyük, hətta orta və kiçik şəhərlərdə belə küçə-yol şəbəkəsinin inkişafının geridə qalması, çevik nizamlamanın və müasir intellektual idarə etmə sistemlərinin tətbiq olunmaması səbəbindən şəhər mobilliyində ciddi problemlər yaranmışdır. Belə şəhərlərdən biri də Azərbaycan Respublikasının Lənkəran şəhəridir. Məqalədə əhali arasında aparılmış sorğular və real ölçmələr nəticəsində şəhər mobilliyinin problemlərinə gender baxışı müəyyən edilmiş və yeni həll modellərinin tətbiqi üçün müxtəlif suallara gender baxışı öz əksini tapmışdır.

Summary

In accordance with the latest level of development of automobiles, not only in large, but also in medium and small cities, serious problems have arisen in urban mobility due to the lagging behind the development of the street-road network, the lack of application of flexible regulation and modern intelligent management systems. One of such cities is the city of Lankaran of the Republic of Azerbaijan. In the article, as a result of surveys conducted among the population and real measurements, the gender view of urban mobility problems was determined, and the gender view of various questions for the application of new solution models was reflected.

Açar sözlər: mobillik, planlaşdırma, gender, kişi, qadın, məkan, gender yanaşması gediş məqsədləri, gediş vaxtı, avtobus, taksi, şəxsi avtomobillər, ictimai nəqliyyat.

Giriş

Gender anlayışına sosial məsuliyyətlər, təcrübələr və gözləntilər baxımından kişilərə və qadınlara təyin edilmiş diskret rolları göstərən mədəni bir termin kimi baxılır (Greed, 2005). Gender yanaşması qadınların məsuliyyət və təcrübələrinin kişilərdən fərqli olduğunu; kişilər və qadınlar məkandan həm evdə, həm də memarlıq mühitində fərqli şəkildə istifadə edir. Gender perspektivi tələbələrə geri addım atmaq və adətən kişi və qadınların yaşadıqları təcrübələri əhatə edən yaşayış və iş yerlərində sosial şəkildə qurulmuş gender rollarını sorğulamaq imkanı verir [1, s-11, 2014]

Avropa şəhərlərinin təcrübəsinin öyrənilməsi Azərbaycan şəhərlərinə bir çox layihələri qabaqcadan görməyə imkan verəcək, səhvləri aradan qaldırmaq, dövlət xərclərini azaltmaq, həmçinin mövcud problemlərin daha effektiv həll yollarını tapmaq imkanı yaradacaqdır [2, s-20, 2019].

Şəhər nəqliyyat sisteminin əsas sosial funksiyası sakinlərin yüksək mobillik səviyyəsini təmin etmək və onların şəhərin bir nöqtəsindən digərinə təhlükəsiz, tez, rahat ucuz yerdəyişmələrini zəmanətli olaraq təmin etməkdir [3, s-239, 2016]

Genderə həssas siyasətin tətbiqi üçün effektiv vasitələrdən biri cəmiyyətin bütün sahələrində qadın və kişilərin müxtəlif qruplarının maraqlarını, imkanlarını və ehtiyaclarını nəzərə almağa, habelə büdcə vəsaitlərindən səmərəli istifadə etməyə imkan verən gender təhlilidir [4, s-5, 2019].

Şəhər sakinlərinin gündəlik həyatı dörd sahəni əhatə edir: məhsuldar (haqqı ödənilən iş); reproduktiv (qayğı və ev işləri); şəxsi (istirahət, idman və s.) və ictimai.

Kiçik və orta şəhərlərin nümunəsi rayonlarda təhlükəsizlik vəziyyətini, yeni avtobus şəbəkəsini və şəhər problemlərinin həll edilməsi üzrə yeni proqramlarda (məsələn, yaşıllıqların çatışmaması, hava hövzəsinin yüksək dərəcədə çirkliliyi və s.) gender məsələlərini özündə birləşdirir [5, s-29, 2020]

Şəhər dayanıqlı mobilliyə üstünlük verir, qadınların mobilliyə ehtiyaclarını, onların davranışlarını və modellərini anlamaq üçün müəyyən məlumatların cinslər üzrə öyrənilməsinə ehtiyac vardır [6, https://www.c40.org/ru/women4climate/resources/a-better-city-for-everyone-a-case-study-on-barcelonas-gender-justice-plan/, 2019]

Metod və materiallar

Sorğu tədqiqatları belə metodiki ardıcıllıqla həyata keçirilmişdir: sorğu və monitorinq anketlərinin hazırlanması; anketçilərin seçilməsi və təlim; sahə tədqiqatları; analiz; layihyənin hazırlanması.

Hazırlanmış anketlərdə əhalinin demoqrafik göstəriciləri, mövcud ictimai nəqliyyat şəbəkəsinin əhalinin tələbatına nə dərəcədə uyğun olduğunu, hərəkətin təhlükəsizlik səviyyəsinin əhalini nə dərəcədə qane etdiyini, parklama və taksi duracaqları haqqında problemləri müəyyən etmək üçün suallar öz əksini tapmışdır. Eyni zamanda anketin sualları baxılan ərazidə yaşayan əhalinin ictimai nəqliyyat vasitələrinə əlçatanlığı, nəqliyyatdan istifadə rahatlığı, şəxsi nəqliyyat vasitələri haqqında məlumatların öyrənilməsinə yönəlmişdir. Monitorinq anketləri yol ayrıclarında avtomobillərin intensivliyinin, avtobus marşrutlarında dayanacaqlar üzrə avtobuslara minən və düşən sərnişinlərin sayının, əsas küçə və yollarda hərəkət sürətinin ölçülməsi üçün hazırlanmışdır.

Şəhərin müxtəlif zonalarında sorğularda iştirak edənlərin gender tərkibi və yaş qrupları 1-ci cədvəldə göstərilmişdir.

Cədvəl 1

Faktiki sorğu sayı											
Şəhərin zonaları	Ümu-mi Say	18-25 yaş		26-35 yaş		36-45 yaş		46-55 yaş		55-65 yaş	
		Kişi	Qadın	Kişi	Qadın	Kişi	Qadın	Kişi	Qadın	Kişi	Qadın
Zona 1	96	15	4	16	4	17	5	9	5	13	8
Zona 2	84	17	3	16	4	10	7	10	7	15	7
Zona 3	101	33	2	14	3	16	8	9	7	12	7
Zona 4	83	11	2	13	6	14	8	7	3	15	4
Zona 5	82	22	2	10	3	8	5	7	5	14	6
Cəmi	446	98	13	69	20	64	33	42	27	69	32

Mülahizələr

Şəhərdə mobillik planlaşdırılması məqsədilə müxtəlif zonalarda aparılmış sorğularda 282 kişi və 164 qadın iştirak etmişdir. Sorğuda iştirak edən ümumi respondentlərin 12,33%-i dövlət, 19,06%-i özəl müəsisələrində işlədiyini, 3,36%-i şəxsi təsərrüfatla məşğul olduğunu, 65,25%-i isə işləmədiyini bildirib. Özəl müəssələrdə işləyən respondentlərin sayı digər iş yerlərinə nisbətdə əhəmiyyətli

dərəcədə üstünlük təşkil edir. Kişi respondentlərin (63.2%) 21.28%-i "iş yeriniz" haradır sualına özəl müəssisələrdə cavabını verib. Kişi respondentlərin yalnız 13.83%-i dövlət müəssisələrində işlədiyini qeyd etmişdir. Rəyi öyrənilən digər respondentlərin uyğun olaraq 4.61%-i və 60.28%-i isə şəxsi təsərrüfatla məşğul olduğunu və işləmədiyini bildirib. Rəyi soruşulan qadın (36.8%) respondentlərin 15.24-i özəl müəssisələrdə işlədiyini, 73.78%-i isə işsiz olduğunu bildiriblər. Digər qadın respondentlərin 9.76%-i dövlət müəssələrində işlədiyini, 1.22%-i isə şəxsi təsərrüfatla məşğul olduğunu qeyd etmişdir.

Lənkəran şəhərində rəyi soruşulanların 15,03%-nin şəxsi nəqliyyat vasitəsi var. Şəxsi nəqliyyat vasitəsi olanların 14,13%-ni kişilər, 0,90%-ni isə qadınlar təşkil edir. 84,97% respondent isə şəxsi nəqliyyat vasitəniz varmı sualına xeyr cavabını verib. Xeyr cavabını verən respondentlərin 35,87%-ni qadınlar təşkil edir.



Şəkil 1. Respondentlərin özlərinə aid fərdi nəqliyyat vasitələrindən istifadəsi haqqında məlumatlar

Kişi respondentlərin yaş qrupları üzrə ən çox şəxsi nəqliyyat vasitəsinə 18-25 (4,62%), ən az isə 56-65 (2,17) yaş aralığına daxil olanlar sahibdir. 46-55 yaş aralığına daxil olan respondentlərin 50%-i nəqliyyat vasitəsi olduğunu, 50%-i isə olmadığını bildirib. Sorğuda iştirak edənlər içərisində 18-25, 26-35 yaş aralığına daxil olan qadınlar istisna olmaqla digər yaş qrupuna daxil olan qadın respondetlər şəxsi nəqliyyat vasitələrinin olmadığını qeyd ediblər.

Respondentlərin 50.67%-i hər gün, 5.61%-i isə həftədə 1 dəfə avtobus marşrutundan istifadə edirlər. Rəyi soruşulan qadın respondentlərin 21.3%-i, kişi respondentlərin isə 29.37%-i avtobuslardan hər gün istifadə edirəm cavabını qeyd ediblər. Rəyi öyrənilən respondentlərin 10.31%-i avtobus marşrutlarından istifadə etmədiklərini bildiriblər. Qrafikdən görünür ki, avtobus marşrutlarından istifadə etməyən respondentlərin 7.62%-ni kişi, 2.69%-ini isə qadınlar təşkil edir. Avtobus marşrutlarından kişi respondetlərin 12.11%-i ayda bir neçə dəfə, 4.71%-i ayda bir dəfə istifadə edir.

Yerdəyişmə üçün taksi avtomobillərdən istifadə etməyənlər ümumi sayın 14.57%-ni təşkil edir. Taksi avtomobilindən istifadə etməyənlərin 15.25%-i kişi, 13.41%-i isə qadın respondentlərdir. Taksidən istifadə payına görə bütün tezliklər üzrə kişi respondentlər üstünlük təşkil edir. Sorğuda iştirak edən respondentlərin 32.51%-i ayda bir neçə dəfə, 0.67%-i isə gündə bir neçə dəfə taksi avtomobillərindən istifadə etdiklərini bildiriblər. Qadın respondentlərin uyğun olaraq 6.10% və 26.22%-i ayda bir dəfə və ayda bir neçə dəfə taksi avtomobillərində istifadə etdiklərini qeyd ediblər. Yalnız 1.22% qadın respondent gündə bir neçə dəfə taksi avtomobillərindən istifadə edirlər.

Yerdəyişmə üçün 56-65 yaş qrupuna daxil olan kişi respondentlərdən 41.38%-i taksi avtomobillərindən ayda bir neçə dəfə istifadə etdiklərini bildiriblər. 46-55 yaş qrupuna daxil olanların 12.50%-i həftədə bir dəfə istifadə etmədiklərini bildiriblər. Kişi respondetlərin 26-35 yaş aralığına daxil olanlarının 21.74%-i hər gün taksi avtomobillərinin xidmətlərindən istifadə edir. 46-55 yaş qrupuna daxil olan kişi respondentlərin 12.50%-i istifadə etmədikərini bildiriblər.

Qadın respondentlərin 46-55 yaş aralığına daxil olanların 45.83%-i ayda bir neçə dəfə, 26-35 yaş qrupu aralığına daxil olanların isə 18.84% həftədə bir neçə dəfə, 21.74%-i taksi avtomobillərindən istifadə edirlər. 56-65 yaş qrupu istisna olmaqla digər yaş qrupları üzrə ayda bir neçə dəfə taksi avtomobillərindən istifadə edənlər üstünlük təşkil edir.

Rəyi soruşulan respondentlərin 37%-i hər gün, 28%-i isə gündə bir neçə dəfə piyada yürüş edir. Hər gün kişilərin 36%-i, qadınların isə 45%-i piyada yürüş edir. Yalnız 2% respondent piyada yürüş etmədiyini bildirib.

Şəkil 6-dan göründüyü kimi, 18-25 yaş qrupu istisna olmaqla digər yaş qrupları üzrə Lənkəran şəhərinin əhalisi hər gün daha çox piyada yürüş edir.18 yaşdan aşağı olan respondientlərin 95%-i hər gün piyada yürüş etdiklərini bildiriblər. 36-45 yaş arasına daxil olan kişi respondentlərin 83% hər gün piyada yürüş etdiyini bildiriblər. Kişi respondentlərdən 26-35, 46-55, 56-65 yaş arasında olanların uyğun olaraq 4.35%, 3.23%, 15%-i piyada yürüş etmir. 18-25 və 36-45 yaş aralığında olan kişi respondentlərin uyğun olaraq 82%-i və 84%-i gündə bir neçə dəfə piyada yürüş etdiklərini qeyd ediblər.



Şəkil 6. Sorğuda iştirak edən respondentlərin ay ərzində piyada yürüş tezliyi

Sorğuda iştirak edən 18-25 yaş qrupuna daxil olan qadın respondentlərin 86% hər gün yürüş etdiklərini bildiriblər. 36-45 və 56-65 yaş aralığına daxil olan qadın respondentlərin uyğun olaraq 70%-i və 89%-i gündə bir neçə dəfə piyada yürüş etdiklərini qeyd ediblər.

Lənkəran şəhərində əhalinin 73.77%-i yerdəyişmə üçün şirkətə məxsus avtomobillərdən istifadə etmir. Şirkətə məxsus avtomobillərdən həm kişi , həm də ki, qadın respondentlər istifadə edir. Kişi respondentlərin 1.77%-i hər gün, 21.28%-i isə ayda bir neçə dəfə şirkətə məxsus avtomobillərdən istifadə etdiklərini qeyd ediblər. Qadınlar isə 0.61%-i hər gün, 9.15%-i isə ayda bir neçə dəfə şirkətə məxsus avtomobillərdən istifadə edir. Sorğuda iştirak edən respondentlərin gender və yaş tərkibi üzrə ay ərzində şirkətə məxsus avtomobillərindən istifadə tezliyi aşağıdakı şəkillərdə göstərilmişdir.

Lənkəran şəhərində aparılmış sorğular nəticəsində əhalinin gender və yaş tərkibi üzrə yerdəyişmə üçün ən çox istifadə etdiyi nəqliyyat vasitələrindən istifadə payı öyrənilmişdir. Keçirilən sorğu zamanı, kişi respondentlərin 18-25 yaş arası qrupunun 56.03%-i avtobusdan istifadə etdiyini, 46-55

yaş aralığında olan respondentlərin isə 50%-nin şəxsi nəqliyyat vasitələrindən istafadə etdiyini, 36-45 yaş aralığında olan 29.03%-i şəxsi nəqliyyat vasitələrindən istifadə etdiyini qeyd ediblər.

36-45 yaş aralıqlı qadın respondentlərdən 92.31%-i yerdəyişmə üçün avtobusdan, 65 yaş və yuxarı yaş aralıqlı qadın respondentlərdən 60%-i isə taksidən istifadə edir. 18-25 yaş arasına daxil olan qadın respondentlərin 71%-i avtobusdan, 23.26%-i taksidən istifadə edir. Şəxsi nəqliyyat vasitəsindən yalnız 26-35 (20%) və 18-25 (4,65%) yaş arasında olan insanlar istifadə edir.



Şəkil 8. Sorğuda iştirak edən qadın respondentlərin və yaş tərkibi üzrə ay ərzində şirkətə məxsus avtomobillərindən istifadə tezliyi

32,29, 10,20% respondentin nəqliyyatda yürüş müddəti uyğun olaraq 5-10, 26-30 dəqiqə təşkil edir. 11,90% respondent nəqliyyatda yürüş müddətinin 6-10 dəqiqə, 17,56%-i isə 11-15 dəqiqə olduğunu qeyd edib. Nəqliyyatda yürüş müddətinə 9,35% 5 dəqiqədən az, 12.75% 16-20, 5.95% respondent 21-25 dəqiqə vaxt sərf etdiklərini bildiriblər. Qadın respondetlərin 33,59%-i nəqliyyatda yürüşə 31 dəqiqədən çox, 22,14%-i isə 11-15 dəqiqə vaxt sərf etdiyini bildirib. Kişi respondetlərin isə 31,53%-i isə 31-dəqiqədən çox, 14,86%-i isə 11-15 dəqiqə müdətdə nəqliyyatda yürüş edir.

Respondentlərin 50.67%-i hər gün, 5.61%-i isə həftədə 1 dəfə avtobus marşrutundan istifadə edirlər. Rəyi soruşulan qadın respondentlərin 21.3%-i, kişi respondentlərin isə 29.37%-i avtobuslardan hər gün istifadə edirəm cavabını qeyd ediblər. Rəyi öyrənilən respondentlərin 10.31%-i avtobus marşrutlarından istifadə etmədiklərini bildiriblər. Avtobus marşrutlarından istifadə etməyən respondentlərin 7.62%-ni kişi, 2.69%-ini isə qadınlar təşkil edir. Avtobus marşrutlarından kişi respondetlərin 12.11%-i ayda bir neçə dəfə, 4.71%-i ayda bir dəfə istifadə edir.

Nəticə

1. Dövlət müəssisələrində çalışan qadınların sayı kişilərin sayından 1,4 dəfə azdır.
2. 18-25 yaşda rəyi soruşulanlardan işsiz olan qadınların sayı kişilərə nisbətən 1,39 dəfə çoxdur.
3. Rəyi soruşulan respondentlərdən işsiz olan qadınların sayı kişilərdən 1,63 dəfə, işləyən qadınların sayı isə kişilərə nisbətən 1,58 dəfə azdır.
4. Qadın respondentlərin 4%-i kənd təsərrüfatında, 4%-i isə digər iş sahələrində çalışırlar.

5. Rəyi soruşulan respondentlərin Ali təhsilli (bakalavr) kişilərin sayı qadın respondentlərinə nəzərən nisbətən 1,18 dəfə, orta təhsillilərin qadınların sayı isə kişilərə nisbətən 1,23 dəfə çoxdur.

6. Şəxsi nəqliyyat vasitəsi olan kişilərin sayı qadınlara nisbətən təqribən 16 dəfə çoxdur.

7. Hər gün avtomobillərdən istifadə edən qadınların sayı kişilərə nisbətən 1,38 dəfə azdır.

8. Avtobus marşrutlarından istifadə etməyən qadınların sayı kişilərə nisbətən 2,83 dəfə azdır.

9. Avtobus marşrutlarından ayda bir neçə dəfə istifadə edən kişilərin sayı qadınlara nisbətən 2,57 dəfə çoxdur.

10. Taksi avtomobillərindən istifadə etməyən kişilərin sayı qadınlara nisbətən 1,14 dəfə çoxdur.

11. Piyada hərəkətə üstünlük verən kişilərin sayı qadınlara nisbətən 1,25 dəfə azdır.

12. Şirkət avtomobillərindən hər gün istifadə edən kişilərin sayı qadınlara nisbətən 2,9 dəfə çoxdur.

13. Şirkət avtomobillərindən ayda bir neçə dəfə istifadə edən kişilərin sayı qadınlara nisbətən 2,33 dəfə çoxdur.

14. 36-45 yaş aralıqlı qadın respondentlərdən 92.31%-i yerdəyişmə üçün avtobusdan, 65 yaş və yuxarı yaş aralıqlı qadın respondentlərdən 60%-i isə taksidən istifadə edir.

15. 18-25 yaş arasına daxil olan qadın respondentlərin 71%-i avtobusdan, 23.26%-i taksidən istifadə edir.

16. Qadın respondetlərin 33,59%-i nəqliyyatda yürüşə 31 dəqiqədən çox, 22,14%-i isə 11-15 dəqiqə vaxt sərf edirlər.

17. Respondentlərin 37%-i avtobusun təhlükəsizliyini 3 balla qiymətləndirib. Qadın respondentlərin 20%-i avtobusların təhlükəsizliyini yaxşı, 5 %-i isə çox yaxşı (5 bal) qiymətləndiriblər. Avtobusların rahatlıq göstəricisini kişi respondentlərin 22.87%-i orta (3 bal) olaraq qiymətləndirib.

18. Kişi respondetlərin isə 31,53%-i isə 31-dəqiqədən çox, 14,86%-i isə 11-15 dəqiqə müdətdə nəqliyyatda yürüş edir.

19. Lənkəran şəhərində qadınlar velosipeddən istifadə etmir. Ümumilikdə rəyi öyrənilən respondentlərin 7%-i velosipeddən istifadə edir. Bütün yaş qrupları üzrə respondentlərin əksəriyyəti velosipedim yoxdur cavabını deyiblər.

20. İnsanların 8%-i velosipedim var amma şəhərdə velosiped zolağı yoxdur cavabını bildiriblər. Velosipedim var, amma istifadə etmirəm cavabını seçənlər ümumi respondentlərin 1%-ini təşkil edir, 1% respondent velosipedlə getsəm gecikərəm cavabını qeyd edib.

Şəhər mobillik planlarının layihələndirilməsində alınan bu gender məlumatları nəzərə alınmalıdır.

Ədəbiyyat siyahısı

1. Аслы Тепеджик Диш, Кристиан Димен, Митчелл Ридон и Тимоти Андерсон СОЦИАЛЬНЫЕ ВОПРОСЫ И ГЕНДЕРНЫЕ ПОДХОДЫ В УРБАНИСТИКЕ ПЕРЕВОД С АНГЛИЙСКОГО ЯЗЫКА. Raoul Wallenberq Institute, SWEDEN, 2014

2. Валентина Леончик, Ольга Долинина УСТОЙЧИВАЯ МОБИЛЬНОСТЬ В ГОРОДАХ, УДОБНЫХ ДЛЯ ЖИЗНИ. ГЛОБАЛЬНЫЕ ВЫЗОВЫ И НОВЫЕ ПОДХОДЫ, Фонд имени Фридриха Эберта, 2019

3. Евсеева Анастасия Игоревна Новая городская мобильность: тенденция развития транспортных систем. Москва, МГУ имени Ломоносова, 2016.

4. Оксана Ерофеева, Мирослав Кобаса Гендерный анализ в системе местноГо управления и самоуправления. Минск «Медисонт» 2019

5. Руководство по устойчивой городской мобильности и территориальному планированию Содействие активной мобильности. ОРГАНИЗАЦИЯ ОБЪЕДИНЕННЫХ НАЦИЙ, Женева, 2020

6. Лучший город для всех: тематическое исследование плана гендерной справедливости в Барселоне.

https://www.c40.org/ru/women4climate/resources/a-better-city-for-everyone-a-case-study-on-barcelonas-gender-justice-plan/, 2019

ВОЗМОЖНОСТИ СНИЖЕНИЯ ВОЗДЕЙСТВИЯ ПРЕДПРИЯТИЙ НА ОКРУЖАЮЩУЮ СРЕДУ ЗА СЧЕТ СОВЕРШЕНСТВОВАНИЯ ПЫЛЕГАЗООЧИСТНОГО ОБОРУДОВАНИЯ И ИХ АНАЛИЗА

[1]Бобоев С. М. доктор тех. наук. Профессор,

[1]Самаркандский государственный архитектурно – строительный университет. Узбекистан, г. Самарканд
[2]Таджикский технический университет имени академика М.С Осими. Таджикистан, г. Душанбе.

Аннотация

Первый этап оценки воздействия на окружающую среду предприятий по производству строительных материалов проводился на стадии разработки проекта отчета о воздействии на окружающую среду. Анализ работы проводился путем определения допустимых норм вредных веществ для организма человека и окружающей среды в соответствии с санитарными нормами проектирования промышленных предприятий.

Ключевые слова: ультрамикроскопическая частица, пылегазовые смеси, скрубберы, циклоны.

Abstrack

The first stage of the environmental impact assessment of construction materials production enterprises was carried out at the stage of development of a draft report on the impact on the environment. The work analysis was carried out by determining the permissible limits of harmful substances for the human body and the environment in accordance with the sanitary standards of design of industrial enterprises.

Key words: ultramicroscopic particle, dust-gas mixtures, scrubbers, cyclones.

Ведения

Пылегазоочистное оборудование, трубы, транспортирующие пылегазовые смеси, представляют собой сложные технологические процессы, в которых важное значение имеет использование и модернизация новых современных типов для снижения выбросов загрязняющих веществ в окружающую среду. В ходе реализации проекта по повышению эффективности пылегазоочистного оборудования путем его модернизации проведена оценка воздействия предприятий по производству строительных материалов на окружающую среду, прогноз изменения экологической среды в будущем, изучение и проводятся научные исследования.

Основная часть. По происхождению пыли различают органическую, минеральную и смешанную пыль. Классификация вредного действия пыли в основном зависит от ее химического состава. Пыль делится на три группы по размеру, то есть по дисперсному составу:

Пыль крупнее 10 мкм называется крупной пылью. Обычно такая пыль падает на землю под действием собственного веса;

пыли размером от 0,25 мкм до 10 мкм. Эту пыль также называют тонкой или микроскопической пылью. Они могут упасть на землю при определенных благоприятных условиях, например, при попадании на них осадков, таких как дождь, снег и роса;

Пыль размером менее 0,25 мкм называется ультрамикроскопической пылью, и эта пыль никогда не падает на землю и движется по законам броуновского движения. В результате их столкновения друг с другом они могут укрупняться (коагуляция) и падать на землю.

60-70% ультрамикроскопических частиц во вдыхаемом воздухе задерживаются в легких. Размер частиц пыли является его основным параметром, а дисперсный состав улавливаемых частиц пыли в газе имеет первостепенное значение при выборе пылесоса. Частицы промышленной пыли могут иметь разную форму. Чем ближе форма частицы к сфере, тем

быстрее она тонет. Способ очистки и задержания частиц пыли зависит от ее дисперсного состава Таблица 1.

Аппарат следует выбирать в зависимости от размера пылевой частицы

Таблица 1.

Размеры частиц пыли, мкм.	Аппараты
40-1000	Пылесборные камеры
20-1000	Циклоны, диаметр 1-2м
5-1000	Циклоны, диаметр 1м
20-100	Скрубберы
0,9-100	Тканевые фильтры
0.05-100	Волокнистые фильтры
0.01-10	Элт. фильтры

Компания по производству асфальтобетона. Пылегазоочистное оборудование с использованием наполнительных материалов. Данное оборудование относится к сфере пылегазоочистки и используется в производстве строительных материалов и других промышленных предприятиях. Керамзит обеспечивает очистку местного сырья от вредных веществ абсорбционным методом, а оборудование имеет длительную эксплуатацию. Установленный в оборудовании водоперекачивающий насос позволяет непрерывно использовать воду, а очистные сооружения собирают лишнюю воду и обеспечивают естественное охлаждение.

Задачей изобретения является создание пылегазоочистного оборудования с длительным сроком эксплуатации, которое является недорогим и имеет процесс регенерации, очищающий от вредных веществ с высокой эффективностью. Предлагаемое оборудование обеспечивает выполнение этих задач. Размеры оборудования: длина L=1200мм; высота H=1000мм; ширина V= 600мм.

Габариты оборудования: высота N=1000мм, ширина V=600, имеются кассеты заполненные керамзитом Ø=10-20мм толщиной d=200мм (0,12м3). Кроме того, в состав оборудования входят десять водоразбрызгивателей (форсунок) для промывки пломбировочных материалов, а также насос для перекачки воды grand far модели QDIX 1.5-32-075 и емкость для сбора осадка, насадка. Также имеется сооружение очистки сточных вод от задержанных веществ и шлама, его размеры: высота N=300мм, ширина W=1200, ширина B=600мм.

Принцип работы пылегазоочистного оборудования. Керамзитовый материал диаметром 10-20 мм укладывают в две кассеты объемом 0,15 м^3. Расстояние между кассетами 0,20 м, вверху каждой по пять разбрызгивателей (форсунок). Оборудование изготовлено из прочной и нержавеющей туники (0,5 мм).

Расход воды в оросителях. Данное оборудование имеет 10 водораспылителей (форсунок), размещенных поверх кассет, которые обеспечивают процесс регенерации слоя керамзита и направление вниз уловленных вредных веществ. Расход воды оросителей (форсунок) В 1 минуту на 1 форсунку расходуется 1 л воды, за 1 час расходуется 60 л воды. 10 форсунок расходуют 600 литров воды за 1 час. Суточный расход воды оборудованием составляет 4800 л/сутки. Это 4,8 м^3/сутки. Размеры очистных сооружений: высота N=300мм, ширина V=1200, ширина B=600мм. V=0,30·0,60·1,2=0,21м^3

Расход керамзита на оборудование. Объемная масса керамзита 400 кг/м^3

$$Q = \rho \cdot W = 400 \cdot 0{,}12 = 48 кг/м^3$$

48 кг/м^3 на кассету. На две кассеты уходит 48*2=96 кг керамзита.

Устройство для очистки пылевых газов с помощью наполнителей поясняется с помощью чертежей. На рис. 3.7 показано оборудование в разрезе, на рис. 3.8 — общий вид этого оборудования, на рис. 3.9 — расположение фильтрующих кассет в оборудовании. Оборудование используется в качестве пылегазоочистки второй ступени после пылегазоочистки на производственном предприятии.



Фигура 1. 1-десяток водяных оросителей (форсунок), 2-крепкая сетка, удерживающая кассеты, 3-клапаны, установленные на форсунках, 4-труба подвода очищенного воздуха, 5-две кассеты с керамзитом, 6-водопропускной тракт, 7- полка, 8-форсунка, 9-сливной бак-сборник, 10-насос, 11-шпильки, 12-слив собранного конденсата.

Также возможно увеличить толщину слоя керамзита, размещаемого в оборудовании, и увеличить количество кассет. Пылегазообразный воздух поступает из очистительного оборудования первой ступени и по воздуховоду поступает в очистное оборудование второй ступени. Пылегазообразный воздух проходит через прочную сетку 2 с изменением скорости и направляется к кассетам 5, заполненным керамзитом. Во время этого процесса вода распыляется из водяных разбрызгивателей (форсунок) и опускает частицы пыли и газа. Этот процесс также непрерывно регенерирует кассеты.

Частично очищенный воздух, проходящий через первую кассету, направляется во вторую кассету 5 и очищается. Очищенный воздух с изменением коэффициента очистки проходит по воздухопередающему коридору 4 и выбрасывается в атмосферу. Осадочные соединения, образующиеся в процессе очистки, проходят по нижнему водоотводному каналу 6 и попадают в отстойник 9, расположенный на полке 7. Оттуда через определенное время с помощью штуцера 8 жидкость отводится в сливное устройство, а из него в максус-бак. Водоперекачивающий насос Grand far модели QDIX 1.5-32-075 подает воду на оборудование, основанное на замкнутой системе водоснабжения. Данное оборудование прошло испытания на заводе по производству асфальтобетона в Самаркандской области. Данное оборудование повышает эффективность работы пылегазоочистного оборудования предприятий и обеспечивает высокую эффективность очистки от вредных веществ.

Экспериментальные результаты пылегазоочистного оборудования с использованием присадочных материалов

	При использовании одной кассеты		При использовании две кассеты	
	Тольшина кассеты, (см)		Тольшина кассеты, (см)	
Энергоэффективность	15	20	35	40
	92,9	93,4	95,2	97,8

Приняв толщину кассеты в оборудовании равной 15 см:

$$\eta = \frac{0,09 - 0,0066}{0,09} \cdot 100 = 92,9 \quad (93\ \%)$$

Приняв толщину кассеты в оборудовании равной 20 см:

$$\eta = \frac{0,09 - 0,0059}{0,09} \cdot 100 = 93,4 \quad (93,5\ \%)$$

Приняв толщину кассеты в оборудовании равной 35 см:

$$\eta = \frac{0,09 - 0,0044}{0,09} \cdot 100 = 95,2 \quad (95\ \%)$$

Приняв толщину кассеты в оборудовании равной 40 см:

$$\eta = \frac{0{,}09 - 0{,}002}{0{,}09} \cdot 100 = 97{,}3$$



Вывод

Беспыльное очистное оборудование, трубопроводы, транспортирующие пылегазовые смеси, представляют собой сложные технологические процессы, в которых важное значение имеют использование и модернизация новых современных типов для снижения выбросов загрязняющих веществ в природную среду. В ходе реализации проекта по повышению эффективности пылегазоочистного оборудования путем его модернизации будут изучены влияние предприятий по производству строительных материалов на окружающую среду, прогноз изменений экологической среды в будущем, исследования на основе анализа, научно-исследовательская работа. осуществляться. Испытания пылегазоочистного оборудования с использованием присадочных материалов. Отработка данного оборудования была установлена и испытана в качестве пылегазоочистки второй ступени после циклона ЦН-11 в асфальтобетонном цехе УП регулярного использования автомобильных дорог г. Самарканда.

Список используемых ссылок

1. Бобоев, С. М., & Келдиерова, Г. Ф. (2017). Выбросы загрязняющих веществ в атмосферу от шиферного производства на ооо" ургут яшил олтини". in энергоэффективность, ресурсосбережение и природопользование в городском хозяйстве и строительстве: экономика и управление (pp. 71-74).
2. Бобоев, С. М., & Келдиярова, Г. Ф. (2018). Количественная и экологическая оценка степени воздействия на окружающую среду выбросов от кирпичного производства. In Сборник трудов международной научно-практической конференции" Интеллектуальный город: устойчивость, управление, архитектура, реновация, технологии" (pp. 36-40).
3. Бобоев, С. М., & Келдиярова, Г. Ф. (2018). ВЫДЕЛЕНИЕ ВРЕДНЫХ ВЕЩЕСТВ ОТ КИРПИЧНОГО ЗАВОДА, РАСПОЛОЖЕННОГО В САМАРКАНДСКОЙ ОБЛАСТИ. In Социально-экономическое развитие городов и регионов: градостроительство, развитие бизнеса, жизнеобеспечение города (pp. 564-571).
4. Murjdullayevich, B. S., & Farhadovna, K. G. (2018). Analysis detection of harmful substances from brick factories. European science review, (1-2), 3-6.
5. FARHADOVNA, K. G., SADIKOVNA, B. G., & RAKHIMOVNA, M. T. (2022). Assessment of the impact of industrial enterprises on the environment and the introduction of new types of equipment for dust and gas cleaning. Journal of Positive School Psychology, 6(1s), 1-7.
6. Keldiyarova, G. (2019). Assessment of the efficiency of gas and dust cleaning systems in asphalt-concrete plants. International Journal of Applied Research, 23.
7. Бобоев, С. М., & Олимова, Н. Г. (2022). ИССЛЕДОВАНИЕ ВЕНТИЛЯЦИОННОЙ СЕТИ И ПУТИ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ ПЫЛЕУЛАВЛИВАЮЩЕГО ОБОРУДОВАНИЯ НА

ХЛОПКОПЕРЕРАБАТЫВАЮЩИХ ПРЕДПРИЯТИЯХ. Vestnik Volgogradskogo Gosudarstvennogo Arhitekturno-Stroitelnogo Universiteta. Seriya: Stroitelstvo i Arhitektura, (88).
8. Boboyev, S. M., & Keldiyorova, G. F. (2018). Emission of harmful substances from brick factories located in the Samarkand region. Journal of Samarkand state university p, 56-58.
9. Бобоев, М. М., Олимов, А. А., & Мадумарова, М. М. (2019). Влияние глицина на активность каталазы и супероксиддисмутазы в динамике экспериментального инфаркта миокарда.
10. Бобоев, С. М., & Олимова, Н. Г. (2021). Пылеулавливающие аппараты и анализ технологических процессов Зарбдорского хлопкоочистительного завода. Me'morchilik va qurilish muammolari (ilmiy-texnik jurnal), (2).
11. Ковальчук В.А. Очистка сточных вод. – Рівне: ВАТ «Рівненська друкарня», - 2002-С-622
12. Қудратов О. "Саноат экологияси" ўқув қўлланма. Тошкент 2005–С–117
13. Куликов Н.Н., Найманов А.Я. и др.Теоретические основы очистки вод – Москва: ДГАСА, 1999 –С–277
14. Куличенков Н.Н. Экология мегаполиса. Экологические аспекты промышленного развития Днепропетровска. Под.общ.ред.– Днепропетровск.: НМА – пресс, 2002-С- 368
15. Кучерявий В.П. Урбоекология. – Львив: Свит, 1999. –С-360 Мавлянов Г.А., Пулатов К.П. Методы изучения просадочных лёссовых пород. Ташкент, «Фан», 1975-79 б.
16. Мавлянов Г.А., Пулатов К.Р. Методы изучения просадочных лёссовых порог. Ташкент, «Фан», 1975- С-79 .

BAKI ŞƏHƏRİNDƏ YOLLARIN TIXAC PROBLEMİ VƏ MONORELS NƏQLİYYAT VASİTƏSİNİN TƏKLİFİ

Səbinə Bürcəliyeva, Qoşqar Rəsulov

Azərbaycan Texniki Universiteti
Nəqliyyat və logistika/Maşın dizaynı və sənaye texnologiyaları
sabina.burjaliyeva@aztu.edu.az, qoshqarrasul@aztu.edu.az
Bakı, Azərbaycan

Xülasə

Məlumdur ki, dünyanın bir çox ölkəsində olduğu kimi ölkəmizdə də nəqliyyat və onun bərabərində gətirdiyi tıxacla bağlı problemlər gündən-günə artır və həll edilməz məsələ kimi qarşımızda durur. Əhalinin iri şəhərlərdə, xüsusilə Bakı şəhərində məskunlaşması və buna uyğun olaraq əhalinin daşınmaya olan tələbatının nəqliyyat vasitələri hesabına ödənilməsi, təbii ki, nəqliyyat vasitələrinin sayının artmasının əsas səbəblərindəndir. Nəqliyyat vasitələrinin çoxluğu böyük tıxacların yaranmasına, nəticədə sərnişin və yüklərin nəqlolunma müddətinin artmasına, yol hərəkətində fasilələrin yaranmasına, yol qəzalarının sayının artmasına səbəb olur. Məqalədə, şəhərimizdə tıxacı yaradan səbəblərin əksəriyyəti göstərilmiş və problemin həlli üçün verilən təkliflər sadalanmışdır. Önəmli həll yollarından biri kimi, alternativ nəqliyyat vasitəsi olan və yolu avtomobil yolları ilə kəsişməyən monorels nəqliyyat sisteminin şəhərimizə tətbiqi təklif olunmuş və əsaslandırılmışdır.

Açar sözlər: tıxac, problem, alternativ nəqliyyat, monorels, nəqliyyat sistemi.

Summary

It is known that in our country, as in many countries of the world, problems related to traffic and traffic jams are increasing every day and face us as an insoluble problem. The settlement of the population in large cities, especially in the city of Baku, and, accordingly, the satisfaction of the transport needs of the population through vehicles is one of the main reasons for the increase in the number of vehicles. A large number of vehicles leads to the creation of large traffic jams, as a result of which the time for transporting passengers and goods increases, interruptions in traffic occur, and the number of road accidents increases. The article shows most of the causes of traffic jams in our city and lists proposals for solving the problem. As one of the important solutions, the use of a monorail

transport system in our city, which is an alternative mode of transport and does not intersect with roads, has been proposed and justified.

Keywords: traffic jam, problem, alternative transport, monorail, transport system.

Giriş

Bakı son illərdə siyasi, iqtisadi, sosial baxımdan sürətlə inkişaf edən və böyüyən şəhərlərdən biri olduğundan, toplumda bir sıra problemlər ortaya çıxmaqdadır. Bu problemlərdən biri də şəhər nəqliyyatında baş verən tıxac və sıxlıqdır. O cümlədən, əhalinin sürətli artımı və çox hissəsinin Bakı şəhərində məskunlaşması, onların gündəlik nəqliyyat ehtiyacını qarşılamaq üçün nəqliyyat vasitələrinin (NV) sayının artması bu məsələdə mühüm rol oynayır. NV-ləri rahatlığımızı təmin etsə də, avtomobillərin və əhalinin sayının artması, pik saatlarında (və zamanla digər saatlarda da) böyük tıxacların yaranmasına, nəticədə sərnişin və yüklərin nəqlolunma müddətinin artmasına, yol hərəkətində fasilələrin yaranmasına, yol qəzalarının sayının artmasına, yolların iflic hala düşməsinə səbəb olur (Sia news, 2022).

2023-cü ildə son 6 aya nəzər salsaq yol-nəqliyyat qəzaların sayının 2022-ci ilə nisbətdə 4,5 dəfə azaldığını görə bilərik. Hadisələr nəticəsində isə zərərçəkənlərin sayı 4,8 dəfə azalaraq 1056 nəfət olmuşdur. Onlardan 387-si həlak olmuş, 669-u isə yaralanmışdır. Hadisələrin 44,3 faizi gündüz, 39,4 faizi gecə, 16,3 faizi isə toran vaxtı baş vermiş, 29,2 faizi həftənin şənbə və bazar günlərinə təsadüf etmişdir (News24, 2023). Görülən tədbirlər nəticəsində son illərin faiz nisbəti aşağı salınsa da, bu rəqəmlər kifayət qədər böyük göstəricilər hesab olunur. Dünyanın bir çox ölkəsində qəza göstəriciləri aşağı olsa da, ölkəmiz üçün bunun tam tərsini deyə bilərik. Qəzaların baş verməsi ölkəmizə maddi-mənəvi ziyan vurur, ölkənin imicini zədələyir, turist axınının qarşısını alır və s. kimi mənfi göstəricilərin sayını artırmaqdadır. Qəzalar sürücülərin ehtiyatsızlığından, sürücülərin, o cümlədən yol-nəqliyyat hadisələrinin digər iştirakçılarının yol hərəkəti qaydalarını bilməməsi kimi səbəblərdən yaransa da, yollarda yaranan sıxlıq və tıxac da qəzaların baş vermə riskini artıran səbəblərdəndir.

Beləliklə, problemin həll olunması aktual məsələlərdəndir, çatışmazlıqların qarşısını almaq üçün tıxacların baş vermə səbəbləri, onların aradan qaldırılması üçün həll yolları araşdırmalı, şəhərdə təhlükəsiz, etibarlı və optimal nəqliyyat daşımalarının təşkili variantı təklif olunmalıdır.

Tədqiqat metodu

Mövzu haqqında geniş araşdırma aparılmış, müşahidə nəticələrinin, toplanan məlumatların və statistik rəqəmlərin analizi aparılmış, müqaisələr edilmiş, xarici ölkələrin təcrübələrindən yararlanaraq nəzəri təkliflər irəli sürülmüşdür.

Şəhərdə tıxaclar hansı səbəblərdən baş verir? Tıxaclara səbəb olan əsas səbəblərdən aşağıdakıları göstərmək olar (Amak, 2019):

- Ölkə əhalisinin böyük hissəsinin paytaxt şəhərinə köç etməsi;
- Avtomobil sayının çoxluğu;
- Yol infrastrukturunun standartlara uyğun olmaması;
- Hərəkətin düzgün təşkil olunmaması;
- Qayda pozuntuları;
- Yolları eyni səviyyədə kəsişən NV-lərinin istismarı.

Ölkə əhalisinin böyük hissəsinin paytaxt şəhərinə köç etməsi

Son illərdə Bakı şəhərində əhali sayının artmasını gündəlik həyatımızda vizual olaraq görməmək mümkün deyil. Böyük şirkətlərin, firmaların, sənaye müəssisələrinin Bakı və Bakıətrafı ərazilərdə qurulması bölgələrdən mərkəzə işçi axınının artmasına səbəb olur. Həmçinin, bölgələrdə əkin torpaqlarının böyük şirkətlər tərəfindən alınması və icarəyə götürülməsi, sahələrdə işin avtomatlaşdırılması, əkin və otlaq sahələrinin getdikcə kəndlilərin ixtiyarından çıxmasına, işsizlik probleminin yaranmasına səbəb olur ki, nəticədə bölgə əhalisi iş üçün mərkəzə üz tutmalı olur. Səbəblərdən biri də ali təhsil almaq üçün ölkənin ən prestijli universitetində təhsil almağa gələn gənclərdir ki, onların da əksəriyyəti, məzun olduqdan sonra şəhərdə yaşamağa qərar verirlər. Dövlər Statistika Komitəsinin verdiyi məlumatlarda şəhərin əhali artımı sayı görünməsə də (yaşayış ünvanı qeydiyyatı səbəbindən), komitənin digər rəqəmlərindən, sırf əhali istehlakı götürüldükdə, təbii qaz istehlakının 43%-i və elektrik istehlakındakı 35%-nin Bakının payına düşməsi, paytaxtda qeydiyyatda

olan əhali (2,3 mln./10,1 mln. nəfər) ilə müqayisədə daha çox insanın məskunlaşdığını təxmin etmək çətin deyil (Baku Research İnstitute, 2022). Əhali artımının təsir etdiyi və dolayısı ilə tıxac problemi ilə əlaqəli olan digər məsələ də, son illər şəhərdə tikilən hündürmərtəbəli binalar və onlara mütənasib iri marketlər şəbəkəsi, iaşə obyektləri və s.-dir.

Avtomobil sayının çoxluğu

2023-cü ildə Bakı şəhərində min nəfərə təxminən 141 minik avtomobili, hər yüz ailəyə isə 58 şəxsi minik avtomobili mövcuddur (Sfera, 2023). Bu iri Avropa şəhərlərinin orta göstəricisinə yaxındır, ancaq şəhərin küçə-yol infrastrukturu bu sayda maşınlara uyğun deyil. Uyğunlaşmaq isə qeyri-mümkün görünür, bunun üçün şəhərin infrastrukturu tamamı ilə dəyişilməlidir.

Bir çox meqapolislərdə olduğu kimi, Bakı şəhərində də işgüzar və mədəni fəallıq şəhərin mərkəzi hissələrində cəmləşir. Bu da insanların şəhər ətraflarında yerləşən qəsəbə və şəhərlərdən Bakının mərkəzinə hər gün gəlib-getmələrinə səbəb olur. Bu yolu, sakinlərin əksəriyyətinin şəxsi avtomobilləri ilə getməsi, şəhərin küçə-yol şəbəkəsində sıxlıq yaratmaqla bərabər şəhərə gələn maşınların parklanması tələbatı da yaranır. Nəticə etibarı ilə, tələbatın mövcud parkinq yerlərindən çox olması və şəhərinin mərkəzi hissələrinə çoxlu sayda maşın daxil olması ilə şəhərdə tıxac və maşınların park edildiyi küçələrdə xaotiklik müşahidə olunur (Amak, 2019).

Həmçinin, ictimai NV-lərinin dayanacaqlara gəlmə intervalının çox olması və ya pik saatlarında daha çox NV-lərinə ehtiyac olması sərnişinlərin dayanacaqlarda uzun müddət gözləməsinə gətirib çıxarır və buna görə də insanların əksəriyyəti qeyri-müntəzəm avtobuslardan istifadə edir və bu avtobuslar şəhərin giriş və çıxışlarında nəqliyyat axınına mane olur, tıxac yaradır. Bunlara, taksilərin yol kənarlarında saxlanılması, avtobus zolaqlarına məhəl qoyulmaması, müxtəlif taksi şirkətlərinin ölkə ərazisinə yüzlərlə avtomobil gətirmələrini də əlavə etmək, əsas səbəblər kimi yerində olardı.

Yol infrastrukturunun standartlara uyğun olmaması

Bakı şəhərinin iqlimini (hava şəraitinin qeyri-müntəzəmliyi) nəzərə alsaq deyə bilərik ki, atmosfer yağıntıları da NV-nin hərəkətinə kifayət qədər təsir edir. Belə ki, istər qar, istərsə də yağış yağdığı zaman insanlar şəxsi NV-dən istifadəni daha üstün tuturlar, belə hava şəraitində avtomobilin təkərinin yaş asfaltla ilişməsi pisləşir, standart olmayan yollarda gölməçələr yaranır, yaranmış gölməçələrin dərinliyini müəyyən etmək olmur və nəticədə tormozlama zamanı problemlər yaranır, hətta yüksək sürət zamanı idarətmə itirilə bilir. Bu səbəblərdən sürücülər avtomobillərini asta sürətlə idarə etmək məcburiyyətində qalırlar, bu da öz növbəsində şəhərdə nəqliyyatın hərəkət intensivliyini aşağı salır, tıxacların yaranması ilə nəticələnir (Sia news, 2022).

Sübut edilmişdir ki, şəhər daxilində yeni yolların tikintisi, genişləndirilməsi tıxacları daha da artırır. Yeni yollar avtomobillərdən istifadəni stimullaşdırdığı üçün, tezliklə nəqliyyat axını yeni yollara yönəlir. Ümumiyyətlə şəhər şəraitində ən səmərəli hesab edilən küçə, hər tərəfə iki hərəkət zolağı olan yoldur, çünki daha çox hərəkət zolağı olduğu zaman sürücülərin də yer dəyişmə əməliyyatları artır (Amak, 2019). Eyni ilə bura Bakı şəhərində bir tərəfə dörd zolağı olan, çox zolaqlı yoldan iki zolaqlı yola keçid, yolların ani daralması və s. aid etmək olar. Aydındır ki, bu amillər yol-nəqliyyat hadisələrinin sayını artırır və uzun müddətli tıxaclara səbəb olur.

Hərəkətin təşkili

Bura işıqforların düzgün tənzimlənməməsi, nişanların və cizgilərin yalnış olması daxildir. Bir çox halda ləğv olunmuş işıqfor tıxaclara səbəb olur, çünki işıqforun əsas funksiyalarından biri hərəkətin növbəliliyini təmin edərək nəqliyyat axınınını tədricən küçələrə buraxmaqdır. Bundan əlavə yeni yollar çəkilsə də işlər sona kimi çatdırılmır, yollar lazımı ölçülərinə malik olmur, nişanlardan düzgün istifadə olunmur və s. Diqqət etsək görərik ki, yollarda məlumatlandırıcı nişanlar azdır, hətta yox səviyyəsindədir (Sia news, 2022 ; Amak, 2019).

Bakı şəhərində günün pik saatlarında bir istiqamət üzrə daha çox axın, tıxac yaranır, digər istiqamətdə isə əksinə, seyrəklik müşahidə olur. Günün pik saatlarında yollardan səmərəli istifadə məqsədi ilə reversiv (qarşılıqlı) işıqforların quraşdırılmaması və ya yolların hələ ki, bu standartlara uyğun olmaması da tıxacın yaranmasına şərait yaradan amillərdəndir.

Kütləvi qayda pozuntuları və NV-lərinin nizamsız idarə edilməsi

Bu olduqca vacib amildir, sürücülər və piyadalar tərəfindən yol verilən kütləvi qayda pozuntuları və nizamsiz NV idarəetməsi hərəkəti iflic edir. Qayda pozuntusu fiziki olaraq əngəllənməlidir. Küçələr elə layihələndirilməlidir ki, yol hərəkəti qaydalarının pozuntusunu mümkün dərəcədə əngəlləsin.

Polis sistemi qayda pozuntusunun qarşısını almağa çalışmalıdır, pozuntunun baş verməsini gözləməməlidir (Amak, 2019).

Yolları eyni səviyyədə kəsişən NV istismarı

Şəhər nəqliyyatına alternativ NV-lərinin tətbiqi tıxac problemini aradan qaldırmağın ən yaxşı üsullarından hesab olunur. Mütəxəssilər hesab edirlər ki, tramvay, trolleybus kimi alternativ şəhər nəqliyyatı vasitələrinin Bakı şəhərində yenidən fəaliyyətə başlaması şəhərdə NV-nin sayının, küçələrdə sıxlığın azalmasına gətirib çıxaracaq. Lakin bir nüansı gözdən qaçırmaq olmaz ki, küçə və yol infrastrukturu uzun illər öncə formalaşan, yəni çox da geniş olmayan Bakı küçələrində bu NV-nin avtomobil yolları ilə bir müstəvidə kəsişməsi qaçılmazdır. Avtomobil yolları ilə eyni səviyyədə kəsişməyən, kütləvi daşıma vasitəsi olan metronun məhsuldar sərnişindaşıma qabiliyyəti hər birimizə məlumdur.

Avtomobil yolları ilə kəsişmədiyi üçün, tıxacların olmaması səbəbindən boş dayanmaların demək olar ki olmaması, qəza riskinin minimum olması və s. bu kimi amillərə görə metro ilə sərnişin daşıması şəhər nəqliyyatı üçün əlverişlidir. Bu səbəbdən şəhər nəqliyyatında avtomobil yolları ilə kəsişməyən NV-lərinə üstünlük verilməsi məqsədə uyğundur.

Yuxarıda sadalananlara əsasən problemin aradan qaldırılması üçün aşağıdakı təklifləri sadalaya bilərik: əhalinin ölkə regionlarına cəlb edilməsi, rayonlarda iqlimə və coğrafi mövqeyə uyğun sənaye müəssisələrinin, iş sahələrinin açılması, bir sıra ali təhsil müəssisələrinin əhalinin ən az məskunlaşdığı rayonlara köçürülməsi, Bakı ərazisində binaların tikintisinə qadağa qoyulması, istismar müddətini başa vurmuş binaların sökülərək ərazisində park və çoxmərtəbəli parkinq meydançaları salınmaqla qeyri-qanuni parkinq hallarının yığışdırılması, şəhər mərkəzində yerləşən əksər dövlət qurumlarının şəhərkənarı ərazilərə köçürülməsi, yol hərəkəti qaydalarının və siqnalların doğru nizamlanması, taksi nəqliyyatının qanunauyğun fəaliyyətinin təşkili, ictimai nəqliyyatın optimal iş rejiminin təşkili, Xəzər dənizi vasitəsilə Bakıdan Sumqayıta, Əhmədli və Günəşliyə, həmçinin digər nöqtələrə dəniz NV-ləri ilə gediş-gəlişi təmin etmək (Xural, 2022), mövcud hallara görə daha effektiv və alternativ ictimai nəqliyyat növlərinin tətbiqi.

Tıxac probleminin həlli ilə bağlı sadalanan bir çox təkliflər edilmiş, bir neçə dəfə Milli Məclisdə bu məsələ qaldırılmışdır (RİA, 2022). Bakı şəhərinin tıxac probleminin həll olunması üçün Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, alternativ nəqliyyat növü kimi tramvay xəttinin yaradılması variantları üzərində çalışmış, 2030-cu ilədək həyata keçiriləcək layihə- "Böyük Bakının regional inkişaf planı"nda artıq bu məsələnin öz əksini tapdığı barədə açıqlama vermişlər (Baku.ws, 2016). Lakin, yuxarıda bəhs olunduğu kimi, tramvayla sərnişin daşımaları şəhərdə avtobus sayının azalmasına səbəb olsa da, tramvay xətləri ilə şəhərdə sıxlıq təşkil edən avtomobil yollarının kəsişməsi qaçılmaz olacaq və bu hallar nəqliyyat axını üçün xeyli zaman itkisi, fasilələr və ehtimal olunan qəzalar zamanı daha böyük problemlərin yaranmasına səbəb ola bilər. Bu məsələ, nəqliyyatçı kimi bizi narahat etmiş, bu kimi problemlərin yaranmaması üçün digər alternativ nəqliyyat üzərində düşünməyimizi vadar etmişdir.

Son illərdə dünyanın bir çox sənaye şəhərlərində və meqapolislərdə tətbiqinə başlanılmış, sınaqdan keçirilmiş monorels nəqliyyat sisteminin (MNS) imkanlarını Bakı şəhəri üçün də dəyərləndirmək tərəfimizdən daha məqbul hesab olunur (Kimijima, 2010).

Monorels-lazımi yüksəklikdə quraşdırılmış estakadaya (şəkil, a), yaxud ayrı-ayrı dayaqlara bərkidilmiş relsin (monorelsin) üzəri ilə hərəkət edən arabacıqlara bərkidilən sərnişin vaqonları və ya yük vaqonetlərindən ibarət nəqliyyat sistemidir. Növündən asılı olaraq vaqonlar ya arabacıqlara üst hissədən quraşdırılır (talvar tipli monorels yolu) (şəki, b), yaxud arabacaıqların alt hissəsindən sallanır (asma monorels yolu) (şəkil, c) (PSNİUPTSİP-FR, 2015).

Şəkil. a) Rusiya, Moskva monorelsi, b) ABŞ, Volt disney monorelsi, c) Çin, Vuhan monortelsi

Nə üçün məhz MNS? MNS-nin digər nəqliyyat sistemlərindən üstünlükləri nədir?

Tətbiq olunan ölkələrdə MNS uğurla sınaqdan keçmiş, öz təsdiqini tapmışdır

Hər gün MNS-ləri ilə yüz minlərlə sərnişin daşınır. Dünyanın bir çox tranzit MNS-ləri Yaponiyada mövcuddur, onlardan səkkizi tam miqyaslı şəhər tranzit sistemləridir. Digərləri Malayziya, Avropa, Rusiya, Koreya, Çin, Braziliya, BƏƏ, Səudiyyə Ərəbistanı, Sinqapur və bəziləri ABŞ-da mövcuddur. Daha bir neçəsi ya tikilməkdədir, ya da planlaşdırma mərhələsindədir (Kimijima, 2010; The Monorail society, 2010).

MNS təhlükəsizdir

6. TARIK A. (2021).Sustainable supply chain management implementations, Gebze Teknik Üniversitesi Sosyal Bilimler Enstitüsü.

7. Thomas Wolfgang Thurner, Vitalyi Roud. “Greening strategies in Russia's manufacturing e from compliance to opportunity”,Journal of Cleaner Production 112 (2016) 2851-2860

NƏQLİYYATIN EKOLOJİ PROBLEMLƏRİ

Əliağa Sadıqlı

Azərbaycan Texniki Universiteti
Nəqliyyat xidmətləri üçün böhran və risklərin idarə edilməsi
eliagha.sadiqli@gmail.com
Bakı, Azərbaycan

Xülasə

Məqalədə avtomobil nəqliyyatının ekosistemə mənfi təsirinin qiymətləndirilməsi aparılmışdır. Ətraf mühitin çirklənməsinin əsas amilləri nəzərdən keçirilir. Avtomobil nəqliyyatının ekoloji problemləri, aktual məsələlərin həlli yolları, cəmiyyətin təkcə ekoloji cəhətdən təhlükəsiz mövcudluğunun deyil, həm də mütərəqqi, ekoloji cəhətdən təmiz inkişafının təmin edilməsi istiqamətləri nəzərdən keçirilir. Bundan əlavə, avtonəqliyyat vasitələrinin zərərli təsirlərinin azaldılması üçün perspektivli istiqamətlər araşdırılır. Avtomobil nəqliyyatı hadisələr nəqliyyatın çətin vəziyyətini daha da ağırlaşdırır, sıxlığa, tıxaclara səbəb olur və nəticədə mənfi təsirləri artırır. Havanın çirklənməsinin, səs-küyün və vibrasiyanın azaldılması elektrik nəqliyyat vasitələrini daha cəlbedici və rəqabətə davamlı edir, lakin yadda saxlamalıyıq ki, elektrik nəqliyyat vasitələri və elektrik avtobuslarının səssiz işləməsi piyadalar üçün təhlükəsizlik riski yarada bilər. Emissiyaların və səs-küyün azaldılmasına yönəlmiş tədbirlər təklif edilir. Sonda ətraf mühitimizi pisləşmədən qorumağa kömək edən bütün amillər qeyd olunmuşdur.

Açar sözlər: Atmosferin çirklənməsi, Ekoloji problemləri, Ətraf mühit

Abstract

In the article, the assessment of the negative impact of car transport on the ecosystem was made. The main factors of environmental pollution are considered. Environmental problems of road transport, solutions to current issues, directions for ensuring not only ecologically safe existence of society, but also progressive, ecologically clean development are considered. In addition, promising directions for reducing the harmful effects of motor vehicles are investigated. Road traffic incidents aggravate the difficult situation of traffic, cause congestion, traffic jams and ultimately increase negative impacts. Reducing air pollution, noise and vibration makes electric vehicles more attractive and competitive, but we must remember that the silent operation of electric vehicles and electric buses can pose a safety risk for pedestrians. Measures aimed at reducing emissions and noise are proposed. In the end, we summarized all the factors that help protect our environment from degradation.

Key words: Atmospheric pollution, Environmental problems, Environment

Giriş

Müasir dövrdə ekoloji təhlükəsizlik qlobal problemlərdən biri kimi aktual olaraq qalır. İnsanların ətraf mühitə mənfi təsirinin əsas istiqamətlərindən biri ətraf mühitin çirklənməsidir. Təbii proseslərlə yanaşı, bu çirklənmə antropogen xarakter daşıyır. Ətraf mühitin çirklənməsi insan sağlamlığı üçün vacib olan suyun, havanın və torpağın fiziki-kimyəvi tərkibinin dəyişməsi deməkdir.

Atmosferin çirklənməsi, xüsusən də antronogen yolla çirkləndirilməsi şübhəsiz ki, nəqliyyat vasitələrinin sayının artması ilə funksional şəkildə əlaqədardır. Bu problemin aktuallığı ondan ibarətdir ki, nəqliyyatın həcminin artması ekoloji problemlərin pisləşməsinə səbəb olur. Nəqliyyatın ekoloji problemləri nəqliyyatın ətraf mühitə təsiri ilə bağlı problemlərdir. Daxili yanma mühərrikləri ilə işləyən avtonəqliyyat vasitələri insan sağlamlığına və ətraf mühitə zərər vuran əsas hava çirkləndirici mənbəyidir. Hava hövzəsinin çirklənməsində avtonəqliyyat vasitələrinin payı 80%-dir. Nəqliyyat vasitələri azot oksidləri də daxil olmaqla bir sıra çirkləndiricilər buraxır. İnsanlar həddən artıq azot dioksid və hissəciklərin səviyyələrinə məruz qalır. Hər il təxminən 7 milyon insan incə hissəciklərə həddindən artıq məruz qalma səbəbindən ölür. Havanın çirklənməsi ilə yanaşı, ümumilikdə yük daşımaları çox problemli səs-küy çirklənməsi yarada bilər [1].

Hal-hazırda Azərbaycan Respublikasında 2022-ci ilin statistikasına əsasən 142 min minik, 31 min avtobus və 169min yük avtomobili vardır (Cədvəl 1.) [8].

Cədvəl 1. Azərbaycan Respublikasında nəqliyyat vasitələrinin sayı, ilin sonuna ədədlə

	2020	2021	2022
Cəmi	**1.473.563**	**1.566.743**	**1.645.253**
minik avtomobilləri	1.264.542	1.349.307	1.419.870
avtobuslar	30.757	30.815	31.212
yük avtomobilləri	154.659	161.279	168.705
xüsusi təyinatlı avtomobillər	11.613	12.233	13.097
digərləri	11.992	13.109	12.369

Azərbaycanda hər 20 avtomobildən biri həddindən artıq köhnəldiyindən istismara yararsız hesab olunur. Belə avtomobillərin istismarı nəticəsində yanacaq sərfi və atmosferə atılan zərərli maddələrin miqdarı artır. Bundan başqa, respublikada avtomobil parkının böyük əksəriyyətinin özəlləşməsi də, onun maddi-texniki bazasının zəifləməsi nəticəsində ətraf mühitə öz mənfi təsirini göstərmişdir.

Şəhər aqlomerasiyalarının intensiv böyüməsi ilə avtomobil nəqliyyatı əhalinin sağlamlığının və təbii mühitin qorunmasında ən əlverişsiz ekoloji amildir. Buna görə də, hazırda o, yaşayış sahəsi üçün insan rəqibinə çevrilir. Avtomobil nəqliyyatının sayının artması oksigen istehsal edən və atmosferi qaz və tozdan təmizləyən bitki örtüyünün yerləşdiyi ərazini azaldır;

Nəqliyyat sənayesinin ətraf mühitə mənfi təsirinin əsas səbəbləri bunlardır:

- avtomobil nəqliyyatının fəaliyyətinin təmin edilməsi və onun inkişafı sahəsində tapşırıqlar qoyularkən konkret ekoloji məqsədlərin olmaması;
- istehsal olunan nəqliyyat avadanlığının qəbuledilməz ekoloji xüsusiyyətləri;
- avtonəqliyyat vasitələri parkına texniki xidmətin qeyri-qənaətbəxş səviyyədə olması;
- yolların keyfiyyətsizliyi və onların zəif inkişafı, habelə nəqliyyat və nəqliyyat vasitələrinin hərəkətinin əlaqələndirilməsində çatışmazlıqlar [3].

Avtomobil nəqliyyatından çıxan zəhərli tullantılarla yanaşı, yollarda avtomobillərin daşıdığı toz və kir problemi də var. Müəyyən edilib ki, avtomobillərin yol kənarındakı toz və tüstünün tərkibində 200-dən çox növ kimyəvi maddə var ki, onların da çoxu radioaktiv ola bilər. Belə toz ağciyərlərdə yerləşərək insan qanında əriyərək orqanizmdə toplanaraq müxtəlif orqan xəstəliklərinə, xərçəngə, allergiyaya səbəb olur.

Səs-küyün insanlara təsiri nəqliyyat sisteminin inkişafının eyni dərəcədə təhlükəli nəticəsidir. Üstəlik, şəhərlərdə səs-küyün 60-80%-i nəqliyyat vasitələrinin hərəkəti nəticəsində yaranır [6].

Ölkəmizdə ümumi səs-küyün təsiri Qərb ölkələrindən xeyli yüksəkdir. Bunun səbəbi: yollarda səs-küy səviyyəsinə nəzarətin olmaması; ümumi trafik axınında hərəkət edən çoxlu sayda yük maşını; istehsal olunan nəqliyyat vasitələri üçün aşağı normativ tələblər. Yaranan səs-küyün səviyyəsinə nəqliyyat vasitələrinin və yolların texniki vəziyyəti və keyfiyyəti təsir göstərir.

Dəfələrlə aparılan təcrübələr, araşdırmalar və təcrübələr göstərir ki, səs-küyə məruz qalma insana mənfi təsir göstərir, eşitmə orqanlarına dağıdıcı təsir göstərir, insan daha çox enerji itirir, aqressivlik artır, hipertoniya inkişaf edir, ömrünün qısalmasına səbəb olur.

Əsas çirklənmə mənbəyi kimi avtomobil parkının xüsusiyyətlərini nəzərə alaraq, nəqliyyatın ekoloji problemlərinin əsas səbəbləri kimi nəqliyyatın qalıq yanacaqlardan asılılığı, nəqliyyat həcmlərində artım, nəqliyyat vasitələrinin istehsalı və istismarı texnologiyalarının mükəmməl olmaması və s. kimi səbəbləri göstərmək olar. Neft, təbii qaz və kömür kimi qalıq yanacaqlar nəqliyyat üçün əsas enerji mənbəyidir. Bu yanacaqlar yanan zaman ətraf mühiti çirkləndirən zərərli maddələr buraxırlar. Əhali və iqtisadi artım hesabına nəqliyyatın həcmi də artır. Bu atmosferə, suya və torpağa zərərli maddələrin tullantılarının artmasına səbəb olur. Nəqliyyat vasitələrinin istehsalı və istismarı texnologiyaları həmişə ekoloji cəhətdən təmiz deyil. Onların istehsalı və istismarı zamanı ətraf mühiti çirkləndirən zərərli maddələr buraxılır [2].

Hazırda müasir avtomobil nəqliyyatı üçün ekoloji tələblər prioritet məsələdir. Ekoloji təhlükəsizlik avtomobil nəqliyyatının nəqliyyat vasitələrinin istismarının insanlara və ətraf mühitə mənfi təsirini azaltmaq qabiliyyəti kimi təzahür edir.

Uzun illərdir ki, ekoloji təmiz nəqliyyatın inkişafı, avtomobil nəqliyyatının texniki səviyyəsinin və yanacağın keyfiyyətinin yüksəldilməsi, avtonəqliyyat vasitələrinin tullantılarından istifadənin

rasional sisteminin əsaslandırılması, nəqliyyat infrastrukturu sisteminin müasirləşdirilməsi, tikinti işlərinin təkmilləşdirilməsi istiqamətində sistemli işlər aparılır.

Atmosfer havasının çirklənməsinin azaldılması məqsədilə mövcud daxiliyanma mühərrikləri təkmilləşdirilir, belə mühərriklərin yeni növləri hazırlanır, avtomobillərdə olan daxiliyanma mühərriklərinin digər növ elektrik stansiyaları ilə əvəz edilməsi imkanları araşdırılır.

Ekoloji baxımdan hidrogen avtomobillər üçün ən perspektivli yanacaqdır. Texniki cəhətdən, ideya sadə görünür - iki qazın molekulları (hidrogen və oksigen) arasında elektronların mübadilə edildiyi konteyner, nəticədə yan məhsul kimi enerji və su buraxılır. 1 kq hidrogen benzindən üç dəfə çox enerji ehtiva edir. Bir litr benzinə ekvivalent enerji miqdarı ilə hidrogen istehsalı 5 dollara başa gəlir, hidrogen çox uçucudur, partlayıcıdır, çox böyük yanacaq çəni tələb edir - yanacaqdoldurma məntəqələri arasında qısa məsafə və s. [4].

Elektrikli avtomobillər ətraf mühiti əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq. Elektrikli avtomobil karbon tərkibli yanacaq istehlak etmir və havanı işlənmiş qazlarla çirkləndirmir, demək olar ki, səssiz işləyir, alışmaz və idarə etmək asandır. Avtomobilin yüksək qiyməti, infrastrukturun olmaması, doldurmalar arasında qısa məsafə və daxili yanma mühərriki olan avtomobillə müqayisədə avtomobilin daha böyük çəkisi ilə bağlı çatışmazlıqlar elektromobillərin geniş yayılmasına mane olur.

Aralıq və kommersiya baxımından daha əlverişli bir seçim olaraq, hibrid mühərrikləri indi hər yerdə istifadə etmək olar.

Mayeləşdirilmiş qaz daxili yanma mühərrikləri üçün tam hüquqlu yanacaq kimi bütün keyfiyyətlərə malikdir. Bütün dünyada ucuz, ekoloji cəhətdən təmiz yanacaq kimi tanınır, bir çox xüsusiyyətlərinə görə benzindən üstündür. Qaza çevrilmənin avtomobilin konstruksiyasının dəyişdirilməsini tələb etməməsi, həm benzin, həm də təbii qaz mühərrik yanacağından istifadə imkanını tərk etməsi vacibdir [7].

Havanın çirklənməsini azaltmaq üçün aşağıdakılar da tövsiyə olunur: yollar boyunca yaşıllıq zolağının yaradılması, kol və kol bitkiləri olan yarpaqlı ağaclardan ibarət sıx yaşıl divar nəqliyyat dəhlizini təcrid edir və xüsusilə şəhər və sənaye ərazilərində faydalı olan əlavə abadlıq sahəsini təmin edir.

Təbii ki, bu metodun da çatışmazlıqları var. Hərəkət təhlükəsizliyi mütəxəssisləri hesab edir ki, yol boyu yaşıllıq sürücünü yorur və ətrafı qaraldır. Yaşıl sahələr daimi qulluq tələb edir.

Ekoloji nəqliyyat problemləri təcili həllini tələb edən ciddi problemdir. Bunun üçün alternativ enerji mənbələrinə keçid, nəqliyyat daşımalarının həcminin azaldılması və avtonəqliyyat vasitələrinin istehsalı və istismarı texnologiyalarının təkmilləşdirilməsi daxil olmaqla, kompleks tədbirlər həyata keçirmək lazımdır.

Ədəbiyyat siyahısı

1. Кострюкова Е.А., Саразов А.В. Экологические проблемы автомобильного транспорта // Современные наукоемкие технологии. – 2013. – № 8-1. – С. 10-10;

2. Зотов Л.Л. Экологическая безопасность автомобилей: учеб. пособие. СПб., 2005. 115 с.

3. Бондаренко Е.В., Дворников Г.П. Дорожно-транспортная экология: учеб. пособие / под. ред. А.А. Цыцуры. Оренбург, 2004. 113 с.

4. Кокрон, П., Кремс, Дж. (2013) Восприятие водителями последствий бесшумных электромобилей для безопасности. Анализ и предотвращение несчастных случаев, 58, С. 122–131.

5. Rahimov, E. A. (2020) Study of Hydrogen Cars in Transport. Instruments and Systems. Monitoring, Control, and Diagnostics, № 9. P. 18-23. DOI: https://dx.doi.org/10.25791/pribor.09.2020 .1205.

6. Mendonc, C., Freitas, E., Ferreirac, J., Raimundoc, I., Santos, J. (2013) Noise abatement and traffic safety: The trade-off of quieter engines and pavements on vehicle detection. Accident Analysis and Prevention, 51, P. 1–7.

7. https://dx.doi.org/10.36535/0236-1914- 2020-05-11.

8. https://www.stat.gov.az/menu/4/e-reports/az/09/009.php

ENVIRONMENTAL ISSUES AND SUSTAINABLE TRANSPORTATION: ROADS OF THE FUTURE

Mahammad Ismayilzadeh

Baku Engineering University
Service in transport
mehemmedismayılzade17@gmail.com
Baku, Azerbaijan

Abstract

In an era marked by rapid urbanization, burgeoning populations, and escalating concerns about climate change, the intersection of environmental issues and transportation has become a focal point for policymakers, urban planners, and environmental advocates alike. As cities grapple with the environmental repercussions of conventional transportation systems, the imperative to chart a sustainable path forward has never been more pressing. This article explores the multifaceted landscape of environmental challenges posed by transportation and delves into the innovative solutions that are shaping the roads of the future.

Key words: Transport, Sustainability, Sustainable Transportation, Habitat Fragmentation, Smart Transportation Solutions, Modal Change

The Environmental Impact of Transportation

Transportation is a cornerstone of modern society, facilitating economic growth, social connectivity, and cultural exchange. However, the environmental toll exacted by conventional modes of transportation is staggering. From vehicular emissions that contribute to air pollution and exacerbate respiratory ailments to the sprawling infrastructure that fragments ecosystems and engenders habitat loss, the environmental footprint of transportation is profound and far-reaching.

Greenhouse Gas Emissions. At the heart of transportation's environmental impact lies the prodigious output of greenhouse gas emissions. The combustion of fossil fuels in vehicles – be they gasoline, diesel, or jet fuel - emits carbon dioxide (CO2), methane (CH4), and nitrous oxide (N2O) into the atmosphere, thereby amplifying the greenhouse effect and hastening climate change. According to the International Energy Agency (IEA), the transportation sector accounts for approximately one-quarter of global energy-related CO2 emissions, making it a significant contributor to.

Air Pollution

In addition to greenhouse gas emissions, transportation activities engender a panoply of air pollutants that imperil public health and degrade environmental quality. Particulate matter (PM), nitrogen oxides (NOx), sulfur dioxide (SO2), and volatile organic compounds (VOCs) emitted from vehicles can precipitate respiratory ailments, cardiovascular diseases, and premature mortality. Moreover, these pollutants contribute to the formation of ground-level ozone (O3) and smog, further compromising air quality and exacerbating environmental degradation.

Habitat Fragmentation

The proliferation of transportation infrastructure–comprising highways, railways, airports, and ports–has engendered a phenomenon known as habitat fragmentation, whereby natural landscapes are bisected, isolated, and degraded by manmade barriers. Fragmentation disrupts ecological processes, diminishes biodiversity, and imperils the viability of wildlife populations. Moreover, transportation projects often entail the clearance of forests, wetlands, and other ecosystems, exacerbating habitat loss and imperiling endangered species.

The Imperative for Sustainable Transportation

Against the backdrop of mounting environmental challenges, the imperative for sustainable transportation has assumed paramount importance. Sustainable transportation encompasses an array of strategies, technologies, and policies designed to mitigate the environmental impact of transportation while fostering equitable access, economic prosperity, and social well-being. By prioritizing sustainability in transportation planning, cities and nations can curtail emissions, ameliorate air

quality, and mitigate habitat fragmentation, thereby fostering a more resilient and equitable urban landscape.

Promoting Modal Shifts

Central to sustainable transportation is the promotion of modal shifts–that is, the transition from private motor vehicles to alternative modes of transportation, such as public transit, cycling, walking, and carpooling. Public transit systems, comprising buses, trams, metro railways, and commuter trains, offer an efficient and eco-friendly alternative to private automobiles, thereby reducing congestion, emissions, and energy consumption. Similarly, investments in cycling infrastructure–comprising bike lanes, bike-sharing programs, and cyclist-friendly amenities–encourage active transportation, promote physical activity, and diminish reliance on motor vehicles.

Electrification and Alternative Fuels

Another cornerstone of sustainable transportation is the electrification of vehicles and the adoption of alternative fuels. Electric vehicles (EVs), powered by batteries or fuel cells, offer a cleaner and more efficient alternative to internal combustion engine vehicles, thereby reducing emissions of greenhouse gases and criteria air pollutants. Moreover, the utilization of renewable energy sources–such as solar, wind, and hydroelectric power–to charge EVs further diminishes their environmental footprint, rendering them a pivotal component of the transition to a low-carbon transportation system. Additionally, the deployment of alternative fuels–such as biofuels, hydrogen, and compressed natural gas (CNG)–offers a viable pathway to decarbonizing the transportation sector and diversifying energy sources.

Smart Mobility Solutions

In an era characterized by ubiquitous connectivity and digitalization, smart mobility solutions are poised to revolutionize transportation systems and enhance their sustainability. By leveraging data analytics, artificial intelligence, and Internet-of-Things (IoT) technologies, smart mobility solutions optimize transportation efficiency, enhance traffic management, and minimize energy consumption. For instance, real-time traffic monitoring systems enable dynamic routing and congestion management, thereby reducing travel times, fuel consumption, and emissions. Likewise, ride-sharing platforms, mobility-as-a-service (MaaS) initiatives, and autonomous vehicles promise to revolutionize urban mobility, reducing the need for private car ownership and fostering shared and sustainable modes of transportation.

3.Research methodology: Baku, Azerbaijan

Case study: Baku, the capital city of Azerbaijan, has embarked on several initiatives to promote sustainable transportation and address urban mobility challenges. Here are some key examples:

Expansion of Public Transit: Baku has invested in expanding its public transit network, including buses and metro lines, to improve accessibility and reduce reliance on private vehicles. The expansion of public transit infrastructure aims to provide affordable, efficient, and environmentally friendly transportation options for residents.

Introduction of Bike-Sharing Programs: Baku has introduced bike-sharing programs to promote cycling as a sustainable mode of transportation. These programs offer residents and visitors an alternative means of getting around the city, reducing traffic congestion and carbon emissions while promoting physical activity and healthy lifestyles. Within the framework of the master plan, it is envisaged to create lanes for the movement of bicycles in some streets and avenues of the capital, newly designed highways and new urban development areas, and create a bicycle transport infrastructure. According to "Report", this was reflected in the Master plan for the development of Baku until 2040. It was noted that the following is envisaged in the Master Plan until 2040: Creation of safe bicycle transport opportunities: • as a first step, starting the process of mastering bicycle transport in terms of the urban context; • getting road users (and the general public) to accept the bicycle as a means of transport; • gradually but steadily increasing the share of bicycle transport as the city's modal type of transport. Initially, it is planned to organize a bicycle lane with a length of approximately 10 km in the central part of the city (approximately 6 km when taken along the center line of the road).

Picture 1. The plan for creating bicycle transport infrastructure in Baku

Creation of tourism and recreational bicycle routes in parks and sports areas without roads: • creation of opportunities for safe recreational cycling in special areas; • taking the first effective steps in a safe and regulated environment for the general public to accept cycling as a means of transport. Development of bicycle infrastructure in selected residential areas: • creation of urban development prototype related to bicycle transportation. Initial connection of areas suitable for bicycle transport through bicycle routes along highways: • creation of the first basic bicycle network; • creation of attractive routes (connecting significant places) in terms of tourism; • creation of conditions for the use of bicycle transport as a means of daily transport and for purposes other than recreational (and tourism) purposes. Completing missing sections of cycle lanes along motorways between parks, sports venues and similar central areas: • creation of a cycling network consisting of three main ring networks; • creating a functional and accessible cycling network (attractive to different user groups); • increasing the length/number of bicycle lanes along highways (informing cyclists). Expanding bicycle lanes along highways where possible: • expanding opportunities for tourism and recreational bicycle transportation; • increasing network length (more accessible and more attractive to users). Application of bicycle path planning in new urban development: • ensuring maximum adaptation of bicycle infrastructure; • significant expansion of the bicycle infrastructure network; • creation of a fourth ring network through new development areas with favorable opportunities in terms of cycling infrastructure. It is planned that the total length of the network of bicycle lanes/roads in Baku city will be approximately 285 km by 2040.

Implementation of Sustainable Urban Planning: Baku has integrated sustainable urban planning principles into its development projects, prioritizing mixed land use, pedestrian-friendly design, and green spaces. By creating walkable neighborhoods and reducing urban sprawl, Baku aims to minimize the need for car travel and encourage active transportation.

Promotion of Electric Vehicles (EVs): Baku has begun promoting the adoption of electric vehicles (EVs) to reduce air pollution and dependence on fossil fuels. The city has installed EV charging stations and offered incentives, such as tax breaks and subsidies, to encourage residents to switch to electric cars. By transitioning to EVs, Baku aims to improve air quality and combat climate change.

Table 1. Number of vehicles, by the end of the year, no

	2020	2021	2022
Total	**1,473,563**	**1,566,743**	**1,645,253**
passenger cars	1,264,542	1,349,307	1,419,870
private passenger cars	1,204,682	1,283,931	1 348 207
buses	30,757	30,815	31,212
trucks	154,659	161,279	168,705
special purpose vehicles	11,613	12,233	13,097
Others	11,992	13,109	12,369
Motorcycles	4,594	5,284	6,024
Trailers and semi-trailers	18,110	19,762	23,010
Cars per 1000 people	148	156	162
Cars falling on highways every 1 km	77	81	87
Passenger cars per 1000 people	127	135	141
Private passenger cars per 100 households	56	59	58

Integration of Smart Mobility Solutions: Baku is exploring the integration of smart mobility solutions, such as real-time traffic management systems and mobility-as-a-service (MaaS) platforms, to optimize transportation efficiency and enhance the user experience. These technologies leverage data and digital infrastructure to improve traffic flow, reduce travel times, and provide seamless connectivity across different modes of transportation.

By implementing these initiatives and embracing sustainable transportation practices, Baku is working towards building a more inclusive, resilient, and environmentally friendly urban transportation system. Through continued investment and collaboration between government, private sector, and civil society stakeholders, Baku can further advance its efforts to promote sustainable mobility and create a vibrant and livable city for all residents.

Table 2. Distribution of vehicles by fuel type and load capacity, no

	2020	2021	2022
Number of vehicles by type of fuel used			
passenger cars	1,264,542	1,349,307	1,419,870
gasoline	1,147,673	1,228,860	1,277,352
diesel	107,185	110,080	101,075
gas	9,684	10,367	10,710
electric motor	...	...	570
hybrid	...	...	30,163
buses	30,757	30,815	31,212
gasoline	12,590	12,505	11,851
diesel	17,989	18,109	19,138
gas	178	201	216
electric motor	...	...	7
hybrid	...	...	-
trucks	154,659	161,279	168,705
gasoline	69,064	69,238	60,960
diesel	82,421	88,950	104,652
gas	3,174	3,091	3,091
electric motor	...	...	2
hybrid	...	...	-

Conclusion

The confluence of environmental issues and transportation presents a formidable challenge for cities and nations worldwide. As urban populations burgeon and transportation demand escalates, the imperative to chart a sustainable path forward has assumed paramount importance. By embracing innovative solutions–ranging from modal shifts and electrification to smart mobility initiatives–cities can mitigate the environmental impact of transportation, enhance mobility, and foster a more equitable and resilient urban landscape. Through collaborative efforts among policymakers, urban planners, businesses, and communities, we can pave the way towards a future where roads are not only conduits of mobility but also pathways to sustainability and environmental stewardship. In conclusion, examining the case study of Baku, Azerbaijan, underscores the importance of sustainable transportation initiatives in addressing urban mobility challenges and fostering a more livable and resilient city. Baku has demonstrated a commitment to promoting sustainable transportation through various measures, including the expansion of public transit, introduction of bike-sharing programs, implementation of sustainable urban planning, promotion of electric vehicles, and integration of smart mobility solutions. These initiatives reflect Baku's recognition of the environmental, social, and economic benefits of sustainable transportation. By investing in public transit infrastructure, encouraging active modes of transportation like cycling and walking, and embracing innovative technologies, Baku aims to reduce traffic congestion, improve air quality, enhance mobility, and create a more inclusive urban environment for its residents.

References

1. Eyvazov E., Balabəyova N. Beynəlxalq nəqliyyat əməliyyatları. "Elm və təhsil" nəşriyyatı (**Kitab**). Bakı/Azərbaycan. 2019:1-336
2. Litman, T. and Burwell, D. (2006) 'Issues in sustainable transportation', Int. J. Global Environmental Issues (Journal article), Vol. 6, No. 4, pp.331–347.
3. "Sustainable Transportation: Problems and Solutions" by William R. Black
4. "Walkable City: How Downtown Can Save America, One Step at a Time" by Jeff Speck
5. https://www.osce.org/files/f/documents/b/1/105334.pdf
6. Azərbaycanın nəqliyyatı | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
7. https://report.az/infrastruktur/bakida-velosiped-neqliyyati-infrastrukturunun-yaradilmasi-nezerde-tutulur/

DAYANIQLI ŞƏHƏR MOBİLLİYİ PLANLAŞDIRILMASININ TƏTBİQİ

QÜDRƏT OSMANLI

Azərbaycan Texniki Universiteti
Nəqliyyat və Logistika
gudretosmanli@gmail.com
Bakı, Azərbaycan

Xülasə

Məqalənin aktuallığı, məqsədi və diqqət çəkən tərəflər ondan ibarətdir ki, Dayanıqlı Şəhər Mobillik Planı (DŞMP) daha yaxşı həyat keyfiyyəti üçün, şəhərlərdə və onların ətrafında insanların, müəssisələrin mobillik ehtiyyaclarını ödəmək üçün, nəzərdə tutulmuş bir strateji plandır. Deyə bilərik ki, bütün nəqliyyat növlərinin balanslaşdırılmış inkişafını və inteqrasiyasını təşviq etmək, eyni zamanda piyada, velosiped sürmə, ictimai nəqliyyat da daxil olmaqla daha dayanıqlı nəqliyyat növlərinə keçidi təşviq etmək üçün istifadə edilən yerli hakimiyyət orqanları üçün strateji planlaşdırma metodu nəzərdə tutulur. DŞMP tətbiq etmiş ölkələr, onların inkişaf perspektivləri və bundan əldə etdikləri nəticələrin müqayisəli təhlili, bu məqalədə öz əksini tapmışdır.

Açar sözlər: Dayanıqlı şəhər mobillik planı, nəqliyyat, milli düşüncə, hökümət strukturları, vətəndaşlar.

Summary

The relevance, purpose and highlights of the article are that the Sustainable Urban Mobility Plan (SUMP) is a strategic plan designed to meet the mobility needs of people and businesses in and around cities for a better quality of life. It can be said to be a strategic planning method for local authorities used to promote the balanced development and integration of all modes of transport, as well as to promote the transition to more sustainable modes of transport, including walking, cycling and public transport. Comparative analysis of the countries that have implemented the SUMP, their development prospects and the results obtained from it are reflected in this article.

Key words: Sustainable urban mobility plan, transport, national thinking, government structures, citizens.

Giriş

Dayanıqlı Şəhər Mobillik Planı, daha yaxşı həyat keyfiyyəti üçün şəhərlərdə və onların ətraflarında insanların və müəssisələrin mobillik ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmuş strateji plandır.

Mövcud planlaşdırma təcrübələrinə əsaslanır və inteqrasiya, iştirak və qiymətləndirmə prinsiplərini lazımi qaydada nəzərə alır. Dayanıqlı Şəhər Mobillik Planlaması bütün funksional şəhər ərazisini nəzərdən keçirir , ictimai və özəl, sərnişin və yük nəqliyyatı da daxil olmaqla bütün nəqliyyat növləri, onların formalarını əhatə etmək üçün müxtəlif siyasət sahələri, müxtəlif səviyyəli hökumətlər, habelə yerli sakinlər və maraqlı tərəflər arasında əməkdaşlıq qurmağı nəzərdə tutur. Gəlin əvvəlcə Ənənəvi Nəqliyyat Planlaması və Dayanıqlı Nəqliyyat Planlaması arasında fərqlərin qoyuluşunu nəzərdən keçirək. Belə ki, Ənənəvi Nəqliyyat Planlanması ilə Dayanıqlı Nəqliyyat Planlamasının əsas konseptual fərqləri aşağıdakılardır.

Ənənəvi Nəqliyyat Planlaması	Planlama	Dayanıqlı Nəqliyyat Planlaması
Çox vaxt strateji baxış olmadan qısamüddətli perspektivə hesablanır	Strateji mərhələ/baxış	20-30 illik uzunmüddətli / strateji baxış daxil olmaqla hesablanır
Adətən xüsusi bir şəhərə fokuslanı	Coğrafi əhatə dairəsi	Funksional şəhər: şəhərin digər qonşu nöqtələrini də əhatə edi
Məhdud istifadə etmə resursları	İctimaiyyətin iştirak səviyyəsi	İctimaiyyətin iştirak səviyyəsi Yüksək, vətəndaş və maraqlı tərəflərin iştirakı vacib xüsusiyyətdir
Məcburi formada nəzərə alınmır	Davamlılıq	Sosial bərabərliyin, ətraf mühitin keyfiyyətinin və iqtisadi inkişafın tarazlaşdırılmasına yönəlik işlər görür
Daha çox aşağı səviyyəli nəqliyyat və infrastruktura fokuslanır	Digər sektorlara inteqrasiyası	Digər sektorlar arasında təcrübə və layihələrin inteqrasiyası
Səlahiyyətli bölmələrlə əməkdaşlıq etmək adətən məcburi deyi	İnstitusional əməkdaşlıq	Səlahiyyətli bölmələrlə inteqrasiya (rayon, bələdiyyə, aqlomerasiya)
Çox vaxt çatışmayan və ya geniş məqsədlərə diqqət yetirmək	Monitorinq və qiymətləndirmə	Ölçülə bilən hədəflərə və nəticələrə (-təsirlərə) nail olmağa fokuslanı

Şəkil 1. Ənənəvi Nəqliyyatı Planlaması və Dayanıqlı Nəqliyyat Planlamasının əsas konseptual fərqləri.

DŞMP-nın inkişafında prinsipal maneələr

Avropa Komissiyası DŞMP-a dair təlimatlar hazırlasa və şəhərləri onları həyata keçirməyə təşviq etsə də, hökumətin DŞMP-nın tətbiq olunmasına və konteksi müəyyən etməsinə nəzarət etməsi və dəstək göstərməsi daha önəmlidir. Bununla belə, 28 üzv dövlətin milli hökumət idarələri şəhərlərin yerli siyasətlərinə, şəhərsalma, iqlim dəyişikliyi və digər səbəblər baxımından bu məsuliyyətli işdən boyun qaçırırlar, hətta bəzi hallarda heç bir tədbir görmürdülər.

Milli Düşüncə - Milli səviyyədə qlobal çərçivənin olmaması DŞMP-nın qurulmasını riskə ata bilər.

Hökumət Strukturları - Departamentlər arasında heç bir əməkdaşlıq olmayanda disfunksional idarəetmə strukturu DŞMP-nın həyata keçirilməsi üçün administrasiya daxilində uyğunsuzluq yarada bilər.

Maaliyyələşdirmə mənbələri - Şəhərlər DŞMP hazırlamaq üçün maliyyə resursları tapmalıdırlar. Qeyri-kafi büdcənin layihə üçün təhlükə yarada biləcəyini nəzərə alaraq, səlahiyyətlilərin istifadə edə biləcəyi həm dövlət, həm də özəl qurumlarla əməkdaşlıq etməlidir.

Monitorinq və Qiymətləndirmə - Monitorinq və qiymətləndirmə (M&Q) prosesi icradan əvvəl, icra zamanı və sonra həyata keçirilməlidir. Əgər yerinə yetirilməsə, mütəxəssislər potensial problemləri müəyyən edə bilməyəcək və buna görə də həll yollarını təqdim edə bilməyəcəklər.

DŞMP-nı tətbiq etmək və inkişaf etdirmək

DŞMP-nın həyata keçirilməsi və inkişaf etdirilməsi yerli, regional və hakimiyyət orqanlarının, vətəndaşların, maraqlı tərəflərin, qurumların, şəhərsalma üzrə mütəxəssislərin, provayderlərin və digər tərəfdaşların əməkdaşlığını tələb edən mürəkkəb prosesdir. DŞMP konsepsiyasını tətbiq etmək və şəhər hərəkətliliyi strategiyasını hazırlamaq barədə plan 12 mərhələyə bölünür:

1. İşçi strukturları qurma;
2. Planlaşdırma çərçivəsini müəyyənləşdirmə;
3. Mobillik vəziyyətini təhlil etmək;
4. Ssenariləri qurma və performansı qiymətləndirmə;
5. Maraqlı tərəflərlə birgə vizyon və strategiya hazırlama;
6. Hədəflər və göstəricilərtəyin etmə;
7. Maraqlı tərəflərlə ölçü paketləriniseçmə;
8. İş bölgüləri öhdəlikləri razılaşdırma;
9. Maliyyə resurslarını müəyyənləşdirilmə;
10. DŞMP tətbiq edilməsini hazırlama;
11. Nəzarət, adaptasiya və kommunikasiyanı qurma;
12. Nəzarət və yekun qiymətləndirmə.

DŞMP tətbiq etmiş ölkələr

Brüssel, Budapeşt və Ljutomerdən (Sloveniya) Vitoriya-Qasteizə (İspaniya), Klaipeda (Litva) və Mançesterə (Böyük Britaniya) kimi bir çox şəhərlər siyasətlərini dəyişməsi və DŞMP konsepsiyasını tətbiq etməkdədir.

Turin, İtalya. Təxminən 900.000 nəfər əhalisi olan İtaliyanın üçüncü ən böyük şəhəridir. Onun DŞMP layihəsi 2008-ci ildə başlamış və sonrakı 10 il ərzində həyata keçirilmişdir. Hal-hazırda davam etdirilir. Turin DŞMP-nın məqsədi fərdi nəqliyyatın qarşısını almaqla tıxacları azaltmaqdır. Şəxsi və ictimai nəqliyyat arasında intermodallıq vasitəsilə daha rəqabət qabiliyyətli və hamı üçün əlçatan olan inteqrasiya olunmuş şəhər nəqliyyatı sisteminin təşviqi bu problemin əsas məqsədi olmuşdur. Burada tətbiq olunan bu layihə uğurla alınıb və bir sıra inkişaf perspektivlərinə nail olub. Belə ki, velosiped zolağı şəbəkəsi genişləndirilib, sərnişinlərə və turistlərə ictimai nəqliyyat marşrutları, eləcə də parkinq haqqında məlumatların təqdim edilməsi məqsədilə səyahət məlumat xidmətləri tətbiq edilib və.s.

Çex Respublikası, Brno. Təxminən 400.000 əhalisi ilə Çexiyanın ikinci ən məskunlaşdığı şəhərdir. Şəhər 2014-cü ildə planlaşdırma üçün heç bir milli təlimat olmadığı zaman DŞMP layihəsini qurmağa başladı. Layihəni inkişaf etdirmək üçün əməkdaşlıq institutları şəbəkəsini artırmaq üçün bir sıra pilot tədbirlər həyata keçirmişdir. Yerli hakimiyyət orqanları, bələdiyyə və regional şöbələr (nəqliyyat, ətraf mühit, şəhərsalma), ictimai nəqliyyat şirkətləri, elmi-tədqiqat institutları və universitetlər də daxil olmaqla, DŞMP prosesində iştirak etmək üçün bir qrup maraqlı tərəf və tərəfdaş müəyyənləşdirdi. Onlar məlumat, sənədlər təqdim etdilər və digər şəhər siyasətləri ilə əlaqəni təmin etdilər. İctimaiyyətin və maraqlı tərəflərin fəal iştirakı 2018-ci ilin sonuna qədər şəhər şurası tərəfindən uğurla qəbul edilən layihənin əsas xüsusiyyətlərindən biridir. Kommunikasiya strategiyası və onlayn DŞMP platforması yaradıldı ki, bu da sakinlərə, maraqlı tərəflərə və digər tərəfdaşlara qoşulmağa kömək etdi.

Tədqiqat metodu

Əhalinin və maraqlı tərəflərin layihələrə cəlb olunması, Dayanıqlı şəhər mobilliyi planlaması üçün, əsas şərtlərdən biri hesab olunur. Şəhəri formalaşdıran məsələlərdə ictimaiyyətin iştirakı yeni bir konsepsiya deyil və ictimaiyyətin əsaslı planlama layihələrinə necə cəlb edilməsinə dair siyasətlər bir çox inkişaf etmiş ölkələrdə mövcuddur. Nəqliyyatın planlaşdırılması mübahisəli bir sahədir və adətən razılığa nail olmaq və ictimai rəğbət əldə etmək üçün forumlarda və görüşlərdə ideyaları müzakirə etmək üçün əhalinin və maraqlı tərəflərin cəlb edilməsini əsas nüanslardan biridir. Lakin, vətəndaşların və maraqlı tərəflərin layihələrə cəlb olunması zamanı, müəyyən maneələr ortaya çıxır.

Biz bu maneələrin icmalına bunları aid edə bilərik ki, burada əsas olan, dərin iştirak prosesini həyata keçirmək üçün, siyasi iradənin olmaması və vətəndaşlar və maraqlı tərəflər qrupları arasında nəqliyyatın planlaşdırılmasına marağın və məlumatların aşağı olmasını əks etdirən, məsləhət yorğunluğudur. Lakin, maraqlı tərəflər əsasən nəqliyyat problemlərinin müəyyənləşdirilməsinin ilkin mərhələsində iştirak edilər. Bununla belə, onların iştirakı daha effektiv və qənaətcil planların hazırlanmasına kömək edir. İlkin planlaşdırma mərhələlərində DŞMP-ın hazırlanmasında vətəndaşların iştirakı aşağı olsa da, müzakirələr açıq olduqda daha konkretləşən təkliflərdən təsirləndiklərini hiss etdikcə onların marağı və iştirakı artır. Bunun üçün, maraqlı tərəflər və vətəndaşların iştirakı üçün, düzgün şəkildə strategiya işlənilib lazırlanmalıdır.

Nəqliyyat-sağlamlıq-DŞMP. Nəqliyyatla sıx bağlı olan və DŞMP-nın ictimai sağlamlıq səviyyəsini yüksəltməyə kömək edə biləcəyi bir çox sağlamlıq faydaları və əks effektləri var. Avropada bütün avtomobil səfərlərinin yarısı 5 km-dən, 30%-dən çoxu isə 3 km-dən qısadır. Bu o deməkdir ki, vətəndaşlar qısa və orta məsafəli avtomobil səfərlərini ictimai nəqliyyatdan, velosipeddən və hətta piyada getməklə əvəz edə bilər. Belə məsafələri velosipedlə qət etmək 15-20 dəqiqə, sürətli gəzinti ilə isə 30-50 dəqiqə çəkəcək. Bunun üçün, inteqrasiya olunmuş, əlçatan və inklüziv içtimai nəqliyyat şəbəkəsini maksimum səviyyədə təmin etməkm lazımdır.

Velosiped nəqliyyatı-DŞMP. Düzgün velosiped strategiyası təkcə velosiped sürməyi təşviq etmək deyil, həm də avtomobildən istifadəni azaltmağa təşviq edir. Velosiped infrastrukturunun təkmilləşdirilməsi, o cümlədən yollar şəbəkəsinin və velosiped magistrallarının genişləndirilməsi əsasdır. Maarifləndirmə, təlim və maarifləndirmə kampaniyalarının həyata keçirilməsi də mühüm əhəmiyyət kəsb edir. Velosiped yollarında avtomobillərin park edilməsi, sürət həddinin aşılması və velosipedçiləri ötərkən aşağı məsafədə olması təhlükəli velosiped sürmə qavrayışına kömək edir.

Nəticə

Son olaraq bunu vurğulaya bilərəm ki, DŞMP-nın həyata keçirilməsi və inkişaf etdirilməsi yerli, regional, hakimiyyət orqanlarının, vətəndaşların, maraqlı tərəflərin, qurumların, şəhərsalma üzrə mütəxəssislərin, provayderlərin və digər tərəfdaşların əməkdaşlığını tələb edən mürəkkəb prosesdir. Dayanıqlı Şəhər Nəqliyyat Planlaşdırılması ölkəmiz üçün, daha perspektivli şəkildə layihələrin hazırlanması üçün, tətbiq edilib, inkişaf etdirilib və daimada inkişaf istiqamətində layihələr hazırlanmalıdır. Beləki, vətəndaşlar və maraqlı tərəflər layihələrə cəlb olunmalıdırlar. Bunun üçün, düzgün strategiya işlənilib hazırlanmalıdır. Digər ölkələrdə tətbiq edilmiş, DŞMP haqqında nəticələr təhlil edilib, müqayisəli təhlil aparılmağı əsas tələblərdən biridir. Yol sahəsini şəxsi avtomobillərdən uzaqda gəzinti, velosiped sürmək və ictimai nəqliyyata, habelə ictimai, yaşıl sahəyə ayırmaqla piyadaların həmçinin velosipedçilərin qarşılaşdıqları və ya üzləşdikləri təhlükələri azaltmaq lazımdır. Həmçinin, elektrikli velosiped, ictimai velosiped paylaşımı mobillik strategiyasının bir hissəsi olmalıdır, çünki onların populyarlığı sürətlə artır və onlar velosiped mənzərəsini yenidən formalaşdırır, bu da avtomobillərdən istifadənin azaldılmasını nəzərdə tutur.

Ədəbiyyat siyahısı

1. https://e-qanun.az/
2. https://transport.ec.europa.eu/
3. https://urbanmobilitycourses.eu/
4. Developing sustainable urban urban mobility plans. (Rue Archimède 61, 1000 Bruxelles, Belgium)

İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏRDƏ NƏQLİYYAT SİSTEMİNİN ƏTRAF MÜHİTƏ TƏSİRİ PROBLEMLƏRİNİN ARAŞDIRILMASI MEXANİZMLƏRİ

Vəliyeva Nətavan İbrahim qızı[1] , Paşayeva Məleykə Mobil qızı[2]

Mingəçevir Dövlət Universiteti[1]
Elm və Təhsil Nazirliyi İnformasiya Texnologiyaları İnstitutu[2]
natavan_veliyeva@bk.ru[1]
ibishova96@mail.ru[2]
Bakı, Azərbaycan
Mingəçevir, Azərbaycan

Xülasə

Nəqliyyatlar regionun və ya ölkənin sosial-iqtisadi inkişafı üçün mühüm funksiyanı yerinə yetirir. Nəqliyyat təkcə sakinlərə iş və ya istirahət, mənzil, mal və xidmətlərə çıxışı təmin etmir, eyni zamanda ölkələr arasında münasibətləri də asanlaşdırır. Avtomobil nəqliyyatının ətraf mühitə təsiri bütün ekoloji amillər səviyyəsində vurğulanır. Bunlar öz növbəsində nəqliyyat sıxlığı və qəzalar; havanın çirklənməsi; səs-küy və vibrasiya – yollar boyu əsas kəsişmələrdə, nəqliyyat qovşaqlarının yaxınlığında; torpağın və suyun çirklənməsi; şəhər yerlərində parkinq yerləri üçün torpaqların tutulması; eko-şəhər landşaftının dəyişdirilməsi; bərk tullantıların istehsalı və digər amilləri göstərmək mümkündür. Nəqliyyatın ətraf mühitə təsiri əhəmiyyətlidir, çünki nəqliyyat enerjinin əsas istifadəçisidir və dünya neftinin böyük hissəsini istifadə edir. Bunun nəticəsində azot oksidləri və digər ziyanlı hissəciklər də daxil olmaqla havaya daxil olur və hava çirklənməsini yaradır. Nəqliyyat sektorunda qlobal istiləşməyə ən çox töhfə verən yol nəqliyyatıdır. Karbon dioksid emissiyasının havaya atılması vasitəsilə qlobal istiləşmə problemi əhəmiyyətli dərəcədə sürətlənir.

Açar sözlər : Yol nəqliyyat vasitələri, ətraf mühit və sağlamlıq, eko-səmərəlilik, davamlı iqtisadiyyat.

Giriş

İnkişaf etmiş ölkələrdə ətraf mühitin mühafizəsi proqramları fərdi avtomobillərdən istifadə zamanı ətraf mühitə atılan emissiyaların miqdarını müəyyən qədər azaldıb. Bununla belə, bu, avtomobillərin sayının gündən-günə artması və hər bir avtomobildən şəxsən istifadənin çoxalması (*Cevons paradoksu* kimi tanınan təsir) ilə kompensasiya edilmişdir. Yol nəqliyyat vasitələrinin karbon emissiyalarını azaltmaq üçün bəzi yollar əhəmiyyətli dərəcədə tədqiq edilmişdir [1]. Enerjidən istifadə və emissiyalar əsasən rejimlər arasında dəyişir, bu da ekoloqların hava və avtomobil nəqliyyatından dəmir yolu və insan tərəfindən idarə olunan nəqliyyata keçidə, nəqliyyatın elektrikləşdirilməsini və enerji səmərəliliyini artırmağa çağırmasına səbəb olur.

Nəqliyyatla əlaqədar ətraf mühitin çirklənməsinin bir çox aspektləri mövcuddur ki, onlardan ikisi xüsusilə əhəmiyyətlidir. İlkin olaraq işlənmiş qazların zərərli birləşmələrinin emissiyası və səs-küyün xüsusi əhəmiyyəti olan vibroakustik təsirlər. Bu çətinliklərə qarşı effektiv mübarizə dayanıqlı nəqliyyat sistemlərinin layihələndirilməsində, xüsusən də nəqliyyat axınlarının proqnozlaşdırılması və idarə olunması sahəsində qərarların qəbulunu dəstəkləyən alətlər tələb edir [2].

Nəqliyyat sisteminin ekoloji səmərəliliyinin çirklənmə və səs-küy baxımından qiymətləndirilməsi nəqliyyat fəaliyyətinin zərərli təsirlərinin qarşısının alınması və aradan qaldırılması üçün xarici xərcləri nəzərə almalıdır. Ümumiyyətlə, nəqliyyat sisteminin səmərəliliyi iki elementin qarışığıdır:

- Onun əsas məqsədlərinin səmərəli həyata keçirilməsi,
- Onun fəaliyyətinin mənfi təsirlərinə qarşı mübarizə xərcləri.

Məqsədlərin icra səviyyəsini sistemin təsirləri kimi təsvir etmək olar, girişlər isə məqsədlərə nail olmaq üçün cəlb edilən resurslara, o cümlədən nəqliyyatın ətraf mühitə mənfi təsirinin azaldılmasına uyğundur.

Nəqliyyatın ətraf mühitə və sağlamlığa zərərli təsiri. Nəqliyyat fəaliyyətinin arzuolunmaz təsirləri ətraf mühit və sağlamlığın pozulmasıdır. Məsələn, ictimai səsküy, o cümlədən nəqliyyatın səs-küyü artıq Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən ciddi ictimai sağlamlıq problemi kimi tanınır. Bu

kontekstdə ən mühümü avtomobil nəqliyyatı sektorudur, ona görə ki, ümumilikdə nəqliyyatın xarici xərclərinin əksəriyyətinə cavabdehdir. Səs-küyün sağlamlığa təsirlərinə aşağıdakılar daxildir: *yuxu, fəaliyyət, performans və konsentrasiyanın pozulması, qıcıqlanma və stress, bioloji risk faktorları, ürək-damar xəstəlikləri və psixiatrik* pozğunluqlar. O, həmçinin heyvanları və quşları qorxutmaq və yönünü dəyişmək və təbii bioloji prosesləri dayandırmaqla təbii mühitə təsir göstərir. Səs-küyün azaldılması, eləcə də işlənmiş tullantıların emissiyasının azaldılması Avropada daha təmiz, daha təhlükəsiz və daha istifadəçi dostu nəqliyyata doğru əsas tendensiyalardan biridir[4].

Nəqliyyatın ətraf mühitə və sağlamlığa zərərli təsiri əhəmiyyətli dolayı xərclərə səbəb olur (nəqliyyat vasitələrinin layihələndirilməsi, istehsalı, istehlakı və istifadəsi zamanı vəinfrastruktur) və birbaşa xərclər (qəzalar, səs-küy, vibrasiya). Bu təsirin təsirini təxmin etmək çətin olsa da, yol hərəkətinin idarə edilməsində düzgün qərarların qəbulu üçün və qanunun tələblərinə uyğun olaraq edilməlidir [5]. Nəqliyyatın mənfi təsiri (daxililəşdirmə), xüsusən də yol rejimində xərclərin daxil edilməsi nəqliyyat sistemlərinin ekoloji və sağlamlıq aspektlərinə uyğun inkişafında amil kimi qəbul edilir.

Şəkil.1 *Nəqliyyat vasitələri*

Şübhəsiz ki, ağır nəqliyyat sıxlığı, xüsusən də şəhər aqlomerasiyalarında böyük maneə və mənfi cəhətdir. Trafik sıxlığı boş vaxtla bağlı xarici xərcləri əhəmiyyətli dərəcədə artırır. Sağlamlığa mənfi təsir göstərir. Səyahət vaxtı artdıqca stress də artır, arterial təzyiq də artır. Sürücünün düzgün cavab vermək qabiliyyəti azalır və nəticədə təhlükəsizlik. Tıxacın təsirləri həddindən artıq trafikdən qaynaqlansa da, yol rəhbərliyinin pis olmasıvə sürücülərin səhvlərini ölçmək çətindir, xüsusilə şəhər yerlərində nəqliyyat axınının yaxşılaşdırılması üçün səylər göstərilir. Tıxac nəqliyyatın düzgün idarə edilməməsi və obyektiv həddən artıq tutumun nəticəsidir [2]. O, həmçinin çirklənmə dispersiyasının və havanın çirklənmə səviyyəsinin güclü müəyyənedici amilidir.

Tədqiqatın məqsədi

Экологическая утилизация отработанных моторных масел - это сложный, технологически дорогостоящий процесс, требующий поиска более эффективных подходов, рентабельных методов переработки. На текущий момент такие отходы в основном сжигаются и часть регенерируются - очищаются от примесей для повторного использования.

Наиболее эффективным решением проблемы является термическое воздействие, которое основано на прямом сжигании, пиролизе и газификации. Во всех этих процессах температура не превышает 1200 ^{0}C, что приводит к образованию множества вредных газообразных веществ, включая полиароматические углеводороды, диоксины, фураны, токсичной летучей золы, шлак, моно и диоксид углерода (CO_2), NO_x, SO_x, HCl и прочее, загрязняющие окружающую среду. Избежать их образование возможно, если температура будет превышать вышеуказанное значение [4]. Одним из перспективных технологий, является возможность использования ультраперегретого водяного пара с температурой свыше 2 тыс. ^{0}C, получаемое за счет сжигания водородно-кислородной смеси или синтетического газа с кислородом разбавленной, водяным паром [5, 6].

Инновационность нового детонационного способа утилизации отходов заключается в том, что воздействие на них проводится ультраперегретым паром и CO_2 с температурой свыше 2000 ^{0}C. И, как известно, что с увеличением температуры при атмосферном давлении глубина конверсии углерода в органических отходах и выход газа возрастают, а выход вредных веществ снижается [4,7]. Для получения таких температур было использовано ударное сжатие и нагрев водяного пара с помощью импульсно-детонационной пушки [8], который представляет из себя металлическую трубу длиной 2,7 м и внутренним диаметром 50 мм и присоединенной к ней камеры сгорания, в которой через специальные системы впрыска горючего, кислорода и водяного пара происходит зажигание автомобильной свечей. С помощью известных устройств пламя от горения тройной смеси турбулизируется и осуществляется ускоренный его переход в детонацию с образованием ударной волны, распространяющейся по трубе со скоростью свыше 2 тыс. км/сек. В качестве горючего был выбран метан и в стехиометрическом соотношении тройной смеси температура расширения их продуктов детонации превышала значение 2200 ^{0}C [7]. В такой постановке опыта содержание ультраперегретого пара в расширенных продуктах детонации достигало 75% (об.), а остальная часть приходилось в основном на CO_2.



Рис. 1. Трёхмерная модель и фотография детонационной пушки [7].

Таким образом, при таких температурах происходит полная газификация с получением высококачественного горючего синтез-газа, который можно использовать для получения водорода, метанола, аммиака и других целей. При этом сера, хлор и азот, содержащийся в отходах будут преобразованы в полезные продукты – сульфиды, хлориды и нитриды водорода, тогда как твердые неорганические материалы будут преобразованы в расплавленный шлак, состоящий из простых оксидов и солей, являющиеся отличным и безопасным строительным материалом. Фактически, такие технологии позволяют полностью восстановить энергетические и материальные ресурсы, содержащиеся в отходах, без какого-либо вредного влияния на окружающую среду. Кроме того, использование CO_2 в качестве газифицирующего агента позволит сократить выбросы парниковых газов, например, дымовые газы тепловых электростанций можно использовать для переработки отходов, тем самым снизить углеродный след.

За счет его мобильности (установка помещается в 20-ти футовый морской контейнер) его можно перемещать в разные регионы по мере утилизации накопившихся органических отходов, включая любой пластик, отработанные моторные масла, отходы переработки нефти, сельскохозяйственной и пищевой промышленности, древесные опилки, макулатура, медицинский мусор и прочее. Полученный синтез-газ можно использовать в улучшении энергообеспечения местного населения, а также подавать напрямую в котельные установки ферм, различных сооружений вместо природного газа.

Стоит отметить, что существуют высокотемпературные аллотермические технологии, как плазменная газификация с помощью паровых плазменных пушек, где процесс происходит за счет разогрева водяного пара и сырья плазмой электродугового заряда с температурой выше 10000 ^{0}C. Но такая технология требует огромных затрат на электроэнергию, а также специальных конструкционных материалов и огнеупорных футеровок для стенок реакторов-газификаторов, включая дорогое обслуживание и сервис с запасными частями [7]. Всё вышеуказанное показывает эколого-экономические преимущества детонационной переработки органических отходов.

Перспективы реализации и доведения прототипа установки до коммерческой версии с возможностью его расширения и использования в виде франшиз для делового Азербайджана откроет возможности развития бизнеса и сервиса в данной сфере, сокращению безработицы, и самое главное - позволит улучшить состояние окружающей среды, уменьшив вред, причиненный от загрязнений отработанными смазочными материалами, сократив выбросы

парниковых газов в атмосферу. Всё вышеперечисленное является весьма актуальной не только для Азербайджана, но и для всех стран планеты, и в особенности в преддверии проведения в Баку 29-й международной конференции сторон Рамочной Конвенций ООН об изменении климата (COP29).

Работа выполнена при поддержке агентства по развитию малого и среднего бизнеса Азербайджанской Республики (KOBIA).

Список литературы

1. Поташников Ю.М. Утилизация отходов производства и потребления. Учебное пособие. – Тверь: Изд-во ТГТУ, 2004. 107 с.
2. Соболев Б.А. Производство смазочных масел предприятиями России // Мир нефтепродуктов. 2000. № 2. С. 1-2.
3. Фукс И.Г., Евдокимов А.Ю., Лашхи В.Л., Самойхмедов Ш.М. Экологические проблемы рационального использования смазочных материалов. М.: Нефть и газ, 1993. 352 с.
4. Ciferno J.P., Marano J.J. Benchmarking biomass gasification technologies for fuels, chemicals and hydrogen production. A Report Prepared U.S. Department of Energy, National Energy Technology Laboratory. 2002. 65 p.
5. Бебелин И.Н., Волков А. Г., Грязнов А.Н., Малышенко С.П. Разработка и исследование экспериментального водородо-кислородного парогенератора мощностью 10 МВт(т) // Теплоэнергетика, 1997. №8. С. 48–52.
6. Сариев В.Н., Веретенников В.А., Трояченко В.В. тема комплексной безотходной переработки твердых бытовых и промышленных отходов. Патент РФ 2 648 737 от 28.03.2018. Приоритет от 12.08.2016.
7. Фролов С.М. Газификация органических отходов ультраперегретым водяным паром и диоксидом углерода // Горение и взрыв, 2021. Том 14. №3. С. 74-97.
8. Frolov S.M., Frolov F.S., and Smetanyuk V.A. 16.10.2014. Detonation forming method and device for the implementation thereof. Patent WO/2016/060582 A1, B21D 26/08 (2006.01), published on 21.04.2016.
9. Фролов С.М., Сметанюк В.А., Садыков И.А., Силантьев А.С, Аксёнов В.С., Шамшин И.О., Авдеев К.А., Фролов Ф.С. Автотермическая конверсия природного газа и аллотермическая газификация жидких и твердых органических отходов ультраперегретым водяным паром // Горение и взрыв, 2022. Том 15. №2. С. 75-87.
10. Фролов С.М., Сметанюк В.А., Садыков И.А., Силантьев А.С, Аксёнов В.С., Шамшин И.О., Авдеев К.А., Фролов Ф.С. Влияние объема реактора на автотермическую конверсию природного газа и аллотермическую газификацию органических отходов ультраперегретым паром // Горение и взрыв, 2022. Том 15. №3. С. 71-87.

DETONATION METHOD OF ECOLOGICAL RECYCLING OF USED LUBRICANTS OF VEHICLES

KHUDAVERDIEV VUGAR GUSEYNOVICH, MUSTAFAYEV ISLAM ISRAFIL OGLU, MIKAILOVA AMINA JUMSHUD KYZY

Institute of Radiation Problems of the Ministry of Science and Education of the Republic of Azerbaijan
Department of Physical, Mathematical and Technical Sciences
vx5357484@gmail.com
BAKU, AZERBAIJAN

Annotation

Used motor lubricants are among the dangerous chemical compounds that pollute the environment. Their volumes are increasing annually all over the world due to the increasing role of the transport industry in human daily life. In recent decades, many countries around the world have been striving to reduce emissions into the atmosphere of waste from enterprises involved in the production of petroleum products and lubricants of various types. The article provides an overview of the problem of recycling used lubricants of vehicles, their role in environmental pollution. The main existing technologies for recycling and recycling of used engine oils are described. A new method of

converting organic waste from the transport industry using detonation technologies is presented in detail, including creating conditions for the transition of combustion of a gas composition into an explosion in a metal pipe with a combustion chamber; creating a powerful shock wave propagating in the system at a speed of 2 km/sec or more Gorenje; obtaining ultra-superheated water vapor with a temperature above 2000 degrees 0C, which can then instantly (less than 1 second) gasify used lubricants and turn most of them into synthetic combustible gas (CO +H2). This paper also highlights the features of this innovation and the prospects for the implementation of the installation in Azerbaijan, with an emphasis on generating income from the sale of processed products of liquid or thickened oil mass. The possibilities for investors to create a mobile mini-plant for processing not only lubricants, but also any organic waste, regardless of their phase state (solid, liquid, gas) by detonation method in the projection of the 29th International Conference of the Parties to the United Nations Framework Conventions on Climate Change (COP29) in November 2024 in Baku are analyzed.

Keywords: used lubricants, detonation waste converter, shock wave, vehicles, gorenje, environmental pollution, synthesis gas, COP29.

NƏQLIYYAT VASITƏLƏRININ SAXLANILMASI ÜÇÜN PARKLANMA YERLƏRI, YAŞAYIŞ VƏ QEYRI-YAŞAYIŞ OBYEKTLƏRI (KOMPLEKSLƏRI, ZONALARI) ÜÇÜN PARKLANMA YERLƏRININ MINIMAL SAYININ MƏCBURI KVOTASI

RAZİM BAYRAMOV
Nəqliyyat və logistika fakültəsi
Azerbaijan Technical University
Baku, Azerbaijan
bprazim@gmail.com

ÇİNGİZ RƏHİMOV
Nəqliyyat və logistika fakültəsi
Azerbaijan Technical University
Baku, Azerbaijan
turan.cingiz@mail.ru (https://orcid.org/0000-0002-2664-7924)

ALLAHVERDİ ŞƏRİFOV
Nəqliyyat və logistika fakültəsi
Azerbaijan Technical University
Baku, Azerbaijan
s.allahverdi@mail.ru

RAUF SƏFƏROV
Nəqliyyat fakültəsi
Azerbaijan University of Architecture and Construction
Baku, Azerbaijan
rauf.seferov1988@mail.ru

Xülasə

Bu gün şəhərlərdə əhalinin sürətlə artımı, şəhərlərin genişlənməsi, sürətli urbanizasiya, həyat şəraitinin yaxşılaşması, iqtisadi inkişaf, ictimai nəqliyyat sistemlərinin adekvat inkişaf etdirilməməsi kimi məsələlər nəqliyyat vasitələrinin kəmiyyət baxımından sayının artmasına səbəb olmaqla yanaşı, nəqliyyat vasitələrinin istifadə səviyyəsinin də artmasına səbəb olur və buna uyğun olaraq şəxsi nəqliyyat vasitələrinin istifadəsinin artması ilə xüsusilə böyük şəhərlərdə nəqliyyat sıxlığı yaşanır [1-3].

Qeyd edilən vəziyyət şəhərlərdə hava, səs-küy çirkliliyi və karbon emissiyaları kimi ekoloji problemlərə səbəb olur. Bu kimi çətinliklər şəhərlərdə inkişaf etmiş ictimai mühitin və dayanıqlı, inteqrasiya olunmuş nəqliyyat sisteminin yaradılmasını, insanyönümlü şəhər inkişafı modelinin transformasiyasını, sürətli, fasiləsiz ictimai nəqliyyatın prioritetləşdirilməsini, avtomobildən istifadəni azaltmaq üçün urbanistik planlaşdırma həllərini təmin edilməsini və nəqliyyat vasitələrinin dayanma və durma, parklanma təminatı imkanlarının və sistemlərinin tətbiqini olduqca zəruri edir.

Nəqliyyat vasitələrinin dayanma və durma, parklanma təminatı imkanlarının yaxşılaşdırılması şəhərdaxili səyahətlərdə şəxsi nəqliyyat vasitələrinin istifadə zamanı oların digər şəhər ərazilərini,

piyada yollarını və səkilərini, velosiped və avtobus zolaqlarını zəbt etmə hallarının qarşısını almaq və məhdud buraxma qabiliyyətinə malik şəhərdaxili küçə-yol şəbəkəsində avtomobillərin dayanma və durmalarından yaranan süni tıxac hallarının azaldılmasına, insanların şəhər mühitində maneəsiz hərəkətliliyə, şəhər küçələrinin və müxtəlif funksional ərazilərin estetik görünüşünün qorunmasına, ictimai nəqliyyatın və mikromobillik vasitələri ilə səyahət imkanlarının artırılmasına və maneəsiz hərəkətlərinin təmin edilməsinə imkan verir.

Məqalənin məqsədi dayanıqlı və inteqrasiya olunmuş nəqliyyat kontekstində şəhərlərdə müxtəlif tikinti obyektləri və funksional zonalar üçün nəqliyyat vasitələrinin dayanma və durma, parklanma təminatı imkanlarının yaradılmasına yönəlik araşdırmaların aparılması, şəhərlərdə dayanıqlı urbanistik mühitin yaradılması üçün bu istiqamətdə təklif xarakterli həllərin verilməsidir.

Açar sözlər: urbanistik mühit, dayanma və durma, parklanma, insanyönümlü şəhər, küçə-yol şəbəkəsi, kvota, inteqrasiya olunmuş nəqliyyat sistemi.

1. Ümumi baxış

Ümumi nəqliyyat sisteminin bir hissəsi kimi şəhərlərdə nəqliyyat vasitələrinin dayanma və durma, parklanma təminatı dövrümüzdə şəhərsalmanın vacib məsələlərindən biridir. Dünyada avtomobillərin sayı eksponent olaraq artdıqca, onların təyinat yerlərinə yaxın yerləşdirilməsi ehtiyacı çətin layihələndirmə və planlaşdırma problemi yaradır. Dayanacaq obyekti və ya parklanma yeri ilk növbədə avtomobilin və sürücünün təhlükəsiz və səmərəli keçidini təmin etmək üçün müxtəlif funksioanal təyinatlı ərazilərlə və obyektlərlə funksional əlaqəliliyə malik olmalıdır.

Qeyd edilən məsələ çox mürəkkəb bir problemdir, çünki şəhər əraziləri və şəhərlərin küçə-yol şəbəkələri məhduddur, qiymətli şəhər əraziləri onlardan optimal və səmərəli istifadəni tələb edir. Müvafiq həll yolunun tapılması üçün şəhər arazilərinin optimal istifadəsi, küçə-yol şəbəkəsinin həddən artıq yüklənməsinin qarşısının alınması, tıxacların azaldılması, nəqliyyat vasitələrinin dayanma və durma, parklanma yerləri ilə bağlı məsələlər, avtomobil hərəkətliliyi, şəhərsalma, memarlıq, mühəndislik və nəqliyyat məsələləri birləşdirilməlidir.

Şəhərlərdə müstəqil şəkildə yerləşdirilmiş nəqliyyat vasitələrinin dayanma və durma, parklanma yerləri, xüsusilə çoxtutumlu və yüksəkmərtəbəliliyə malik duracaq yerləri şəhər quruluşunun pozulmasına, suni cazibə mərkəzləri yaratmaqla şəhərin sıx mərkəzi ərazilərinin, ictimai əhəmiyyət kəsb edən ərazilərin əlavə nəqliyyatla yüklənməsinə, yaşayış, ictimai-işgüzar, rekreasiya və istehsalat (sənaye, elmi-istehsalat, kommunal-anbar) zonaları arasında insanların səyahət imkanlarının pozulmasına səbəb olur.

Bununla yanaşı, müstəqil şəkildə yerləşdirilmiş dayanma və durma, parklanma yerləri şəhərsalma məqsədləri baxımından torpaqlardan istifadənin səmərəsizliyinə, izafi yürüşlərin artmasına, təsbit edilmiş ərazilərin zonalaşdırılması üçün funksionallığın azalmasına gətirib çıxara bilər.

Şəhərsalma və tikintiyə dair normativ sənədlərə uyğun olaraq, yaşayış zonalarında sosial və kommunal-məişət, mədəniyyət, məktəbəqədər və təhsil, səhiyyə xidməti, mühəndis-infrastruktur obyektləri yerləşdirilir.

Yaşayış zonalarında mehmanxanaların, yeraltı və yerüstü qarajların, açıq avtomobil dayanacaqlarının, həmçinin ətraf mühitə mənfi təsir etməyən və sanitar-mühafizə zolağı qoyulması tələb olunmayan istehsalat obyektlərinin də yerləşdirilməsinə yol verilir.

Yaşayış zonaları - tikilmiş və tikilməsi nəzərdə tutulan müxtəlif tip çoxmənzilli yaşayış binalarının və yaşayış evlərinin üstünlük təşkil etdiyi ərazilərdir. Bu zonalar çoxmənzilli və həyətyanı sahələri olan fərdi yaşayış və bağ evlərinin tikintisi üçün nəzərdə tutulur [3-5].

Ərazi ümumi istifadə sahəsi olan çox, orta və azmərtəbəli çoxmənzilli yaşayış binaları, mənzilyanı sahələri olan bloklaşdırılmış yaşayış evləri, həyətyanı torpaq sahələri olan kottec tipli bir-iki mənzilli fərdi yaşayış və bağ evlərinin tikintisi üçün zonalaşdırılır. İstifadəsinin xarakterindən və tikintilərin səviyyəsindən asılı olaraq, yaşayış zonası aşağıdakı tikinti zonalarına bölünür [5]:

1. çoxmərtəbəli (9 və daha çox) və çoxmənzilli yaşayış binaları;
2. orta mərtəbəli (5÷8 mərtəbəli) və çoxmənzilli yaşayış binaları;
3. azmərtəbəli (5 mərtəbəyə qədər) və çoxmənzilli yaşayış binaları;
4. bloklaşdırılmış yaşayış binaları;
5. həyətyanı torpaq sahələri olan fərdi yaşayış evləri.

2. Yaşayış zonalarında nəqliyyat vasitələrinin dayanma və durma, parklanma yerlərinin planlaşdırması

Planlaşdırma

Şəhərlərdə nəqliyyat vasitələrinin dayanma və durma, parklanma yerlərinin və dayanacaq obyektlərinin planlaşdırılması mürəkkəb bir fəaliyyətdir. Müxtəlif funsional təyinata malik tikinti obyektləri üçün dayanma və durma, parklanma yerlərinin təminatı şəhərin bütün funksional əraziləri ilə inteqrasiya olunmuş şəkildə təşkil edilməli, küçə-yol şəbəkəsinin nəqliyyat vasitələrinin dayanma və durmalarından azad olunmasına, qiymətli şəhər ərazilərinin insanların rahat, sərbəst və komfortlu səyahətləri, manəsiz gəzintiləri üçün saxlanılması təmin edilməli, avtomobillərdən istifadənin azaldılmasına və ictimai nəqliyyatın inkişafına töhvə verməlidir.

Müxtəlif funsional təyinata malik tikinti obyektlərinin nəqliyyat vasitələrinin dayanma və durma, parklanma yerləri ilə təmin olunmaması nəqliyyat vasitələrinin küçə-yol şəbəkəsində qanunsuz parklanması hallarının artmasına, şəhərdaxili səyahətlərdə şəxsi nəqliyyat vasitələrinin istifadə zamanı oların digər şəhər ərazilərini, piyada yollarını və səkilərini, velosiped və avtobus zolaqlarını zəbt etmə hallarının və məhdud buraxma qabiliyyətinə malik şəhərdaxili küçə-yol şəbəkəsində avtomobillərin dayanma və durmalarından yaranan süni tıxac hallarının artmasına, insanların şəhər mühitində hərəkətlili üçün maneələrin yaranmasına, şəhər küçələrinin və müxtəlif funksional ərazilərin estetik görünüşünün pozulmasına, ictimai nəqliyyatın və mikromobillik vasitələri ilə səyahət imkanlarının azalmasına və onların hərəkətləri üçün maneələrin yaranmasına səbəb olur.

Şəkil 1. Xaotik parklanma nümunəsi

Qeyd edilən çətinliklərin həlli, habelə şəhər ərazisinin və nəqliyyat şəbəkələrinin tarazlı inkişafının təmin edilməsi, sıx şəhər mühitində nəqliyyat vasitələrinin dayanma, durma və parklanma imkanlarının təkmilləşdirilməsi məqsədilə tikinti obyektlərinin layihələndirilməsi və tikintisi zamanı həmin tikinti obyektlərinin nəqliyyat vasitələrinin saxlanılması üçün dayanacaq və ya duracaq yerləri ilə tam təmin olunmasına dair tələblər müəyyən olunmalıdır.

Bu tələblər şəhərsalma və tikinti normativ sənədləri ilə müəyyən edilmiş və tikinti obyektinin tikintisi (inşası, yenidən qurulması və ya bərpası) ilə bağlı hazırlanmış tikinti layihəsində nəzərə alınmalıdır. Tikinti obyektinin yenidən qurulması (rekonstruksiyası) və bərpası zamanı həmin tikinti obyekti üzrə bu tələblərə uyğun olaraq dayanacaq və ya duracaqların təşkili ilə bağlı tədbirlər görülməlidir.

Bu Tələblərə uyğun dayanacaq və ya duracaq yerlərinin minimal sayının məcburi kvotası təmin edilməyən tikinti obyektlərinin tikinti layihələrinin şəhərsalma əsaslandırmasının təsdiq edilməsinə, habelə nəzərdə tutulmuş dayanacaq və ya duracaq yerlərinin tikilib yekunlaşdırılmadığı hallarda həmin tikinti obyektlərinin istismarına icazə verilməsinə yol verilməməlidir.

Bu Tələblərə uyğun olaraq nəqliyyat vasitələrinin saxlanılması üçün nəzərdə tutulmuş dayanacaq və ya duracaq yerlərinin digər məqsədlər üçün istifadəsinə yol verilməməlidir.

3. **Funksional Tələblər**

Nəqliyyat vasitələrinin dayanma və durma, parklanma yerləri və dayanacaq obyektləri müstəqil və ya qarışıq istifadə strukturunun bir hissəsi, avtopark və ya açıq sahə kimi bir çox formada olsa da və şəhər şəraitində avtomatlaşdırıla bilsə də, bütün dayanma və durma, parklanma obyektləri aşağıdakı əsas meyarlara cavab verməlidir:

- Nəqliyyat vasitələrinin dayanma və durma, parklanma yerlərinin və dayanacaq obyektləri sürücünün, avtomobilin və şəhərin kompleks məkan ehtiyaclarını nəzərə almalıdır.
- Yaşayış məntəqələrinin layihələndirilməsi zamanı nəqliyyat vasitələri dayanma və durma, parklanma yerlərinin yollara bitişik ərazilərdə yerləşdirilməsi normalara uyğun planlaşdırmalıdır. Dayanma və durma, parklanma yerlərinin tikintisi üçün torpaq sahələri xidmət etdikləri ərazinin və ya bu ərazinin hüdudlarında yerləşən binaların yaxınlığında ayrılmalıdır.
- Küçə-yol şəbəkəsinin hərəkət hissəsində və ya ona bitişik hissədə (yolların hərəkət hissələrinə bitişik) nəqliyyat vasitələrinin duracaqlarının, habelə qarajlarının yerləşdirilməsinə yol verilməməlidir.

Yaşayış məntəqələrinin hüdudlarında dayanma və durma, parklanma yerlərinin yerləşdirilməsi üçün aşağıdakılar nəzərdə tutulmalıdır:

- şəhərin daimi əhalisinin minik avtomobillərinin, habelə digər nəqliyyat vasitələrinin yaşayış ərazilərinə yaxın yerlərdə saxlanılması üçün obyektlər;
- müxtəlif məqsədli gedişlər zamanı şəhər əhalisinin (daimi və müvəqqəti) minik avtomobillərinin, habelə digər nəqliyyat vasitələrinin saxlanılması üçün obyektlər.

Yaşayış məntəqələrinin ərazisində nəqliyyat vasitələrinin saxlanılması üçün müəyyən edilən müddəalar və tələblər qanunvericiliklə müəyyən olunmuş qaydada yaşayış məntəqələrinin hüdudlarında avtomobil yolunun hərəkət hissəsində və ya ona bitişik hissədə nəqliyyat vasitələrinin durması üçün ayrılmış, müəyyən edilmiş qaydada işarələnmiş və təchiz edilmiş yerlərə (parklanma yerlərinə) aid edilmir.

Azərbaycan Respublikasında yaşayış məntəqələrinin hüdudlarında nəqliyyat vasitələrinin duracaqları və qarajlarına, nəqliyyat vasitələrini duracaqlarda və qarajlarda, habelə yol hərəkəti təhlükəsizliyi, ətraf mühitin mühafizəsi və ictimai təhlükəsizliyin tələblərinə dair məsələlər "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunun və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 6 aprel tarixli 60 nömrəli qərarı ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinin duracaqları və qarajları haqqında nümunəvi Əsasnamə"nin tələblərinə əsasən tənzimlənir [4-5].

Avtomobillərin dayanacağı (saxlanması) üçün nəzərdə tutulan binalara, qurğulara və yerləşgələrə, həmçinin belə binaların həcm-planlaşdırma və konstruktiv həllərinə, mühəndis gurğularına və onların məskunlaşma ərazisində yerləşdirilməsinə qoyulan əsas müddəalar və tələblər Azərbaycan Respublikasında AzDTN 2.7-1-in tələblərinə uyğun olaraq təmin edilməlidir [4-5].

Minik avtomobillərin saxlanılması və durması üçün duracaqlarının, habelə qarajlarının duracaq yerlərinin tələb olunan sayı cədvəl 2-yə görə qəbul edilməsi məqsədəuyğun hesab edilir. Şəhər planlaşdırılması ilə bağlı müxtəlif şəhərlər üzrə ayrıca tələblər (norma və standartlar) olduqda həmin normativ göstəricilər əsas götürülməlidir [5-6].

Avtomobillərin saxlanılması və durması üçün yerlərin sayının müxtəlif şəhərlər üzrə ayrıca tələblərdə (norma və standartlar) göstərilməsinə (azaldılmasına və ya artırılmasına) yol verilir.

Müxtəlif təyinatlı obyektlərə (yaşayış, ticarət, mədəni-məişət və istirahət, istehsalat-sənaye məqsədləri üçün) xidmət edən ümumi duracaqlar, habelə qarajlar təşkil edilərkən, duracaqlar və qarajlarla xidmət göstərilən obyektlərin istismarı zamanı zirvə (pik) saatların dəyişməsi səbəbindən tələb olunan duracaq və saxlama yerlərinin sayını azaltmadan ümumi duracaq və saxlama yerlərinin sayının aşağıda göstərilən nisbətdə azaldılmasına yol verilir [4-5]:

- yaşayış məntəqələrinin mərkəzi rayonlarının ərazilərində 15%-20%;
- ətraf zonalarda 10%-15%.

Məskunlaşma ərazilərində piyada gedişi məsafəsi 800 m-dən, yenidənqurma şəraitində isə 1000 m-dən çox olmayan məsafədə əhalinin fərdi minik avtomobillərinin daimi saxlanması üçün duracaqlar, habelə qarajlar nəzərdə tutulmalıdır.

Qeyd [7]***:***

1. Fərdi minik avtomobilləri parkının 10 %-nin yaşayış məntəqəsinin məskunlaşma ərazisindən kənarda yerləşmiş duracaqlarda, habelə qarajlarda mövsümi saxlanmasının nəzərdə tutulmasına yol verilir.

2. Saxlanma və durma yerlərinə olan ümumi tələbat müəyyən edilərkən digər fərdi nəqliyyat vasitələri (motosikl, trisikl, kvadrisikllər, mopedlər və velosipedlər) nəzərə alınmalı və aşağıdakı əmsallar tətbiq edilməklə onlar bir hesabi nəqliyyat növünə (minik avtomobilinə) gətirilməlidir:

arabalı motosikl və kvadrisikllər 0,5;

arabasız motosikl və yüngül kvadrisikllər.....0,28;

moped və velosipedlər.....0,1.

İri və çox iri şəhərlərdə yaşayış rayonlarının və mikrorayonların ərazilərində avtomobillərin yeraltı saxlanma və durma yerlərində (duracaq və qarajlarda) saxlanılması bir mənzilə 0,5 avtomobil-yerdən, böyük şəhərlərdə isə 0,2 avtomobil-yerdən az olmamaq hesabı ilə nəzərdə tutulmalıdır.

Yenidənqurma şəraitində mövcud binaların yerləşdiyi məhəllə ərazisinə yeni yaşayış binası yerləşdirilərkən avtomobillərin saxlanılması və durması üçün yerlər yaşayış binasının əraziləri hüdudlarında hər mənzil üçün ən azı 1 avtomobil-yer təşkil etməlidir.

İri və çox iri şəhərlərdə yaşayış rayonlarının və mikrorayonların ərazilərində avtomobillərin saxlanılması və durması üçün yerlər yaşayış binasının əraziləri hüdudlarında hər mənzil üçün 0,7 avtomobil-yerdən (qeyri-yaşayış sahəsi üçün onların ümumi sahəsinin hər 30-40 m^2 -i üçün 1 avtomobil-yerdən), böyük şəhərlərdə isə 0,5 avtomobil-yerdən (qeyri-yaşayış sahəsi üçün onların ümumi sahəsinin hər 50-60 m^2-i üçün 1 avtomobil-yerdən) az olmamaq hesabı ilə nəzərdə tutulmalıdır.

İri və çox iri şəhərlərdə yaşayış rayonlarının və mikrorayonların ərazilərində avtomobillərin saxlanılması və durması üçün yerlər yaşayış binasının əraziləri hüdudlarında ümumi sahəsi 120-180 m^2 -dən böyük hər mənzil üçün ən az 1 avtomobil-yeri, ümumi sahəsi 180 m^2 -dən çox hər mənzil üçün ən az 2 avtomobil-yeri nəzərdə tutulmalıdır.

Qeyd. *Saxlanma və durma yerlərinin sayı (hesabi vahidə düşən avtomobil-yerin sayı, duracaq və qarajlarda)) baxılan yaşayış məntəqəsi üzrə hesabi dövr üçün avtomobilləşmə səviyyəsi nəzərə alınmaqla hesablama əsasında qəbul edilməlidir. Belə hesablamaların aparılması mümkün olmadıqda qeyd olunan göstəricilərdən istifadə olunmalıdır.*

Əlillərə məxsus avtomobil və digər nəqliyyat vasitələrinin saxlanması və durması üçün yerlər yaşayış binalarının girişlərindən 50 m-dən çox olmayan piyada gedişi məsafəsi radiusunda nəzərdə tutulmalıdır. Yerlərin sayı müxtəlif şəhərlər üzrə ayrıca tələblərə (norma və standartlara) uyğun müəyyən olunur və layihə tapşırığı ilə qəbul edilir.

Qeyd. *Əlverişsiz hidrogeoloji şəraiti olan rayonlarda yeraltı qarajların tikilməsi məhdudlaşarsa və ya qeyri-mümkün olarsa, bu bəndin birinci abzasının tələbi yerüstü və ya yerüstü-yeraltı qarajların tikilməsi vasitəsilə (onların üst və yanlarının torpaqlanması və torpaq örtüyünün park, idman və təsərrüfat meydançaları üçün istifadə etməklə) təmin edilməlidir.*

Yeraltı, yerüstü duracaqlardan, qarajlarından, avtomobillərin daimi saxlanması və durması üçün nəzərdə tutulmuş açıq duracaqlardan, digər məntəqələrdən (avtomobil yuma məntəqələrindən, texniki-təmir stansiyalarından (sahələrindən)), məktəbəqədər təhsil binalarına və ümumi təhsil təşkilatlarının, səhiyyə təşkilatlarının binaları da daxil olmaqla yaşayış və ictimai binalara qədər olan məsafələr sanitariya norma və qaydalarının, MCH 2.04-03-ün, habelə ətraf mühitin qorunması və sanitariya-

mühafizə sahəsində qanunvericiliyə uyğun səs-küy və sanitariya tələblərinin təmin edilməsi nəzərə alınmaqla qəbul olunur [5-7].

Onların yerləşdirilməsi şəhərsalma vəziyyəti, tikinti sahəsinin memarlıq və planlaşdırma həlləri nəzərə alınmaqla seçilməli və atmosfer havasının çirklənməsi və səs-küy səviyyələrinin dispersiya hesablamalarına əsaslanaraq, ətraf mühitin qorunması və sanitariya-mühafizə və yanğın təhlükəsizliyi sahəsində qanunvericilin tələblərinin yerinə yetirilməsini təmin etməlidir.

Yeraltı qarajların (duracaqların) ventilyasiya şaxtaları BCH 01-in tələblərinə və sanitar qaydalarına və normalarına uyğun olaraq nəzərdə tutulmalıdır.

Müxtəlif funksional təyinatlı obyektlərin işçilərinin və ziyarətçilərinin nəqliyyat vasitələrinin (minik avtomobillərinin və s.) saxlanması və durması üçün obyektyanı duracaq və qarajlar (meydançaları) nəzərdə tutulmalıdır.

Minik avtomobillərinin obyektyanı duracaq və qarajlarının hesabi normaları cədvəl 2-yə uyğun qəbul edilməlidir.

Sürətli relsli nəqliyyatı olan şəhərlərdə obyektlərin tələb olunan avtomobil-yer sayının (saxlanması və durması üçün yerlərinin) müəyyənləşdirilməsində, stansiyalara piyada gedişi məsafəsində yerləşən obyektlər üçün hesablanma ilə alınan avtomobil-yer sayının 25 % azaldılmasına yol verilir.

Minik avtomobillərinin saxlandığı və durması üçün nəzərdə tutulan yerlərə (meydançalara) piyadaların yaxınlaşma məsafəsi aşağıdakılardan çox qəbul edilməməlidir [4-5]:

- vağzalların sərnişin zallarına, iri ticarət və
ictimai iaşə müəssisələrinin girişlərinədək.....150 m;
- əhaliyə xidmət göstərən digər müəssisə,
idarə və inzibati binalaradək.....250 m;
- parkların, sərgilərin və stadionların girişlərinədək.....400 m.

Qeyd. *əlilliyi olan şəxslərə məxsus nəqliyyat vasitələrinin saxlanılması və durması üçün nəzərdə tutulan yerlər BCH 62 və AzDTN 2.7-1-in tələblərinə uyğun olaraq nəzərdə tutulmalıdır.*

Minik avtomobillərinin saxlanması və durması üçün yerlərinin (duracaq və qarajların) torpaq sahələrinin ölçüləri onların mərtəbəliyindən asılı olaraq 1 avtomobil-yerə m^2 hesabı ilə aşağıdakı kimi qəbul edilməlidir [5]:

- qarajlar (qaraj və duracaqlar) üçün:
bir mərtəbəli.....30;
iki mərtəbəli.....20;
üç mərtəbəli.....14;
dörd mərtəbəli.....12;
beş mərtəbəli.....10;
- yerüstü duracaqlar üçün.....25.

Nəqliyyat vasitələrinin saxlanması və durması üçün yerlərinin (duracaq və qarajların) giriş və çıxışlarından olan ən kiçik məsafələr hesablama əsasında təyin olunmalı, lakin aşağıdakı göstərilənlərdən az olmayaraq qəbul edilməlidir [4-5]:

- magistral yolların, ümumşəhər və rayon əhəmiyyətli prospektlərin kəsişmələrinədək ..... 50 m
(açıq duracaqlardan 30 m);
- ümumşəhər və rayon əhəmiyyətli küçələrin, qəsəbələrin, kəndlərin küçə və yollarına,
habelə məhəllədaxili yollaradək ..... 20 m,
- ümumi istifadədə olan sərnişin nəqliyyatının dayanacaq məntəqələrinədək ..... 30 m.

Minik avtomobillərinin yeraltı qarajlarına giriş və çıxışlar yaşayış evlərinin pəncərələrindən, ictimai binaların iş otaqlarından, ümumtəhsil məktəb, məktəbəqədər uşaq və müalicə müəssisələrinin sahələrindən 15 m-dən az olmayan məsafədə yerləşdirilməlidir.

Minik avtomobillərinin daimi və müvəqqəti saxlanması üçün olan yerüstü və yerüstü-yeraltı qaraj, açıq duracaq və texniki-təmir stansiyalarından (sahələrindən) yaşayış evləri, ictimai binalar, həmçinin məskunlaşma ərazilərində yerləşdirilən ümumtəhsil və məktəbəqədər təhsil müəssisələri və stasionar tipli müalicə müəssisələrinin sahələrinə qədər olan məsafələr cədvəl 1-də göstərilənlərdən az qəbul edilməməlidir [5-7].

Cədvəl 1

Məsafəsi müəyyən edilən binalar	Məsafə, m					
	minik avtomobillərinin sayından asılı olaraq qaraj və açıq duracaqlara qədər				postların sayından asılı olaraq texniki-təmir stansiyalarınadək (sahələrinədək)	
	10 və az olduqda	11-50	51-100	101-300	10 və az olduqda	11-30
Yaşayış evləri, o cümlədən, yaşayış binalarının pəncərəsiz yan divarları	10** 10**	15 10**	25 15	35 25	100	150
İctimai binalar	10**	10**	15	25	150	250
Ümumtəhsil və məktəbəqədər təhsil müəssisələri	15	25	25	50	250	500
Stasionarı olan müalicə-profilaktika müəssisələri	25	50	*	*	250	500

Qeyd:

** Dövlət sanitariya epidemioloji xidməti ilə razılaşdırmaqla müəyyənləşdirilir.*

***Odadavamlıq dərəcələri III-V olan qarajlar üçün məsafələr 12 m-dən az qəbul edilməməlidir.*

1. Məsafələr yaşayış və ictimai binaların pəncərələrindən, ümumtəhsil və məktəbəqədər təhsil müəssisələri və stasionarları olan müalicə-profilaktika müəssisələrinin torpaq sahələrinin sərhədlərindən qarajın divarlarına və ya açıq duracağın sərhədlərinə qədər müəyyənləşdirilməlidir.

2. Seksiyalı yaşayış evlərindən onların uzununa fasadları boyunca yerləşmiş 101-300 avtomobil tutumu olan açıq meydançalara qədər məsafələr 50 m-dən az olmayaraq qəbul edilməlidir.

3. I-II odadavamlıq dərəcələri olan qarajların yaşayış və ictimai binalara tərəf istiqamətləndirilmiş girişləri və pəncərələri olmadıqda, cədvəldə göstərilən məsafələr 25% azaldılmasına yol verilir.

4. Tutumu 300 avtomobildən çox olan minik avtomobillərin qaraj və açıq duracaqları yaşayış rayonlarından kənarda, yaşayış binalarından 100 m-dən az olmayan məsafədə yerləşdirilməlidir. Məsafələr dövlət sanitariya epidemioloji xidməti ilə razılaşdırılmalıdır.

5. Tutumu 10 avtomobildən çox olan qarajlar üçün cədvəldə göstərilən məsafələrin interpolyasiya ilə qəbul edilməsinə yol verilir.

4. Yaşayış və qeyri-yaşayış obyektləri (kompleksləri, zonaları) üçün parklanma yerlərinin minimal sayının məcburi kvotasına dair tələblər

Avtomobil saxlanılması və durması üçün yerlərinin hesablama normaları cədvəl 2-də göstərilənlə uyğun qəbul edilməlidir [5-6].

Cədvəl 2.

[1] Bina və qurğular, rekreasiya əraziləri, istirahət obyektləri	[2] Ölçü vahidi	[3] Növbəti ölçü vahidi üçün nəzərdə tutulan 1 avtomobil-yeri (ümumi sahənin hər vahidi üçün)
[4] Bina və qurğular		
[5] Dövlət və yerli özünüidarəetmə orqanları, qurumları	[6] ümumi sahəsi, m^2	[7] 200-220
[8] İnzibati və idarəetmə qurumları, xarici nümayəndəliklər, yerli nümayəndəliklər, ictimai təşkilatların binaları və mərkəzləri	[9] ümumi sahəsi, m^2	[10] 100-120
[11] Ticarət, biznes və iş mərkəzləri, ofis binaları və mərkəzləri, sığorta təşkilatları	[12] ümumi sahəsi, m^2	[13] 50-60
[14] Banklar və bank qurumları, maliyyə-kredit təşkilatlar:		
[15] - xidmət sahələri (otaqları) ilə	[16] ümumi sahəsi, m^2	[17] 30-35
[18] - xidmət sahələri (otaqları) olmadan	[19] ümumi sahəsi, m^2	[20] 55-60
[21] Çoxfunksiyalı bina və komplekslər	[22] SNiP 2.08.01 və SNiP 2.08.02-nin tələblərinə uyğun olaraq	
[23] Məhkəmə və hüquq təşkilatları		
[24] Hüquq-mühafizə orqanlarının bina və qurğuları		

[25] Ali təhsil müəssisələri və təşkilatları	[26] Bir növbədə işləyən müəllimlər, işçi heyəti, tələbələr	[27] 2-4 müəllimlər və işçi heyəti+10 tələbə üçün 1 avtomobil-yeri
[28] Peşə təhsili müəssisələri (peşə məktəbləri, peşə liseyləri, peşə təhsil mərkəzləri), şəhər incəsənət təhsili təşkilatları, ü*mumtəhsil və* orta ixtisas təhsil müəssisələri	[29] Bir növbədə işləyən müəllimlər	[30] 2-3
[31] Təlim, yaradıcılıq, məşğuliyyət mərkəzləri	[32] ümumi sahəsi, m^2	[33] 20-25
[34] Elmi, elmi-tədqiqat və layihə institutları və təşkilatları	[35] ümumi sahəsi, m^2	[36] 140-170
[37] İstehsalat zonalarda yerləşən [38] sənaye, elmi-istehsalat, kommunal-anbar obyektləri	[39] İki yanaşı növbədə işləyən, adam	[40] 6-8
[41] İstehsalat və sənaye-istehsalat obyektlərinin ərazilərində yerləşdirilən istehsalat və kommunal təyinatlı obyektlər	[42] İki yanaşı növbədə işləyən, 100 nəfər	[43] 7-10
[44] Mağazalar- anbarlar (kiçik topdansatış və pərakəndə ticarət, hipermarketlər)	[45] ümumi sahəsi, m^2	[46] 30-35
[47] Gündəlik tələbat mallarının və (və ya) qeyri-ərzaq məhsullarının (ticarət mərkəzləri, ticarət kompleksləri, supermarketlər, universam, univermaq və s.) geniş çeşidli ticarət obyektləri.	[48] ümumi sahəsi, m^2	[49] 40-50
[50] Qeyri-ərzaq məhsullarının, gündəlik tələbat olmayan mallarının satışı üçün xüsusi mağazalar (idman, avtomobil satışı, mebel, məişət texnikası, musiqi alətləri, zərgərlik əşyaları, kitablar və s.)	[51] ümumi sahəsi, m^2	[52] 60-70
[53] Daimi bazarlar:	[54] ümumi sahəsi, m^2	[55]
[56] - universal və qeyri-ərzaq məhsulları	[57] ümumi sahəsi, m^2	[58] 30-40
[59] - ərzaq və kənd təsərrüfatı məhsulları	[60] ümumi sahəsi, m^2	[61] 40-50
[62] İctimai-iaşə müəssisələri (restoranlar, kafelər)	[63] Oturacaq yeri	[64] 4-5
[65] İctimai-iaşə xidməti obyektləri: [66] - hamamlar	[67] Tək səfərlik ziyarətçilər	[68] 5-6
[69] - atelyelər, foto salonları, bərbər salonları, gözəllik salonları, moda evləri (salonları), *nikah evləri*	[70] ümumi sahəsi, m^2	[71] 10-15
[72] - mərasim zalları	[73] ümumi sahəsi, m^2	[74] 20-30
[75] - kafeteri və çay evləri	[76] ümumi sahəsi, m^2	[77] 50
[78] - restoranlar, şadlıq sarayları	[79] ümumi sahəsi, m^2	[80] 20-25
[81] - quru təmizləyicilər, çamaşırxanalar, təmir sexləri, kompleks məişət texnikası üçün ixtisaslaşdırılmış xidmət mərkəzləri və s.	[82] İş yeri	[83] 1-2
[84] Mehmanxanalar:	[85] SNiP 2.08.01 və SNiP 2.08.02-nin tələblərinə uyğun olaraq, habelə [86] hər 10 çarpayı üçün 1 [87] [88] hər 20 çarpayı üçün 1 [89]	
[90] - 4-5 ulduzlu mehmanxanalar		
[91] - digər mehmanxanalar və qonaqlama obyektləri		
[92] Sərgi və muzey kompleksləri, muzey-qoruqlar, muzeylər, qalereyalar, sərgi salonları	[93] Tək səfərlik ziyarətçilər	[94] 6-8
[95] Kinoteatr, teatr, sirk, konsert və konfrans zalları	[96] SNiP 2.08.01 və SNiP 2.08.02-nin tələblərinə uyğun olaraq	
[97] Mərkəzi, xüsusi və ixtisaslaşmış kitabxanalar, internet kafelər	[98] Daimi yerlər	[99] 6-8
[100] Məscidlər	[101] Tək səfərlik ziyarətçilər	[102] 8-10, lakin bir obyekt üçün [103] 10 avtomobil-yeri hesabından az olmayaraq
[104] Kilsələr, sinaqoqlar və digər dini obyektlər	[105] Tək səfərlik ziyarətçilər	[106] Bir obyekt üçün [107] 4-5 avtomobil-yeri hesabından az olmayaraq
[108] İstirahət və əyləncə obyektləri: əyləncə mərkəzləri, oyun salonları və s.	[109] Tək səfərlik ziyarətçilər	[110] 4-7
[111] Tibb müəssisələri, binaları və məntəqələri:	[112] SNiP 2.08.01 və SNiP 2.08.02-nin tələblərinə	

[116] - poliklinikalar və digər ambulator tipli müəssisələr	uyğun olaraq, habelə [113] 100	
[117] - xəstəxanalar və digər stasionar tipli müəssisələr	[114] [115] hər 10 çarpayı üçün 1	
[118] İdman kompleksləri və tribunalı stadionlar	[119] Tribunalarda oturacaqlar	[120] 25-30
[121] Sağlamlıq kompleksləri (fitnes klubları, idman və məşq zalları, idman və sağlamlıq komleksləri):		
[122] - ümumi sahəsi 1000 m^2-dən az olan	[123] ümumi sahəsi, m^2	[124] 25-55 25-40
[125] - ümumi sahəsi 1000 m^2 və daha çox olan	[126] ümumi sahəsi, m^2	[127] 40-55
[128] Yerli ərazinin və rayonun bələdiyyə uşaq idman və sağlamlıq müəssisələri:		
[129] - sahəsi 150-500 m^2 olan idman zalları	[130] Tək səfərlik ziyarətçilər	[131] 8-10
[132] - sahəsi 1000-2000 m^2, ziyarətçi yerləri olan idman və sağlamlıq komleksləri	[133] Tək səfərlik ziyarətçilər	[134] 10
[135] - ümumi sahəsi 2000-3000 m^2, ziyarətçi yerləri və üzgüçülük hovuzu olan idman və sağlamlıq komleksləri	[136] Tək səfərlik ziyarətçilər	[137] 5-7
[138] İxtisaslaşdırılmış idman klubları və kompleksləri (tennis, atçılıq idmanı, xizək mərkəzləri və s.)	[139] Tək səfərlik ziyarətçilər	[140] 3-4
[141] Su parkları, üzgüçülük hovuzları	[142] Tək səfərlik ziyarətçilər	[143] 5-7
[144] Ümumi sahəsi 3000 m^2-dən çox olan süni örtüklü idman və sağlamlıq komleksləri	[145] Tək səfərlik ziyarətçilər	[146] 6-7
[147] Nəqliyyat və sənaye obyektləri:	[148]	[149]
[150] - dəmir yolu vağzalları	[151] Zirvə (pik) saatlarda uzaq məsafələrə gedən sərnişinlər	[152] 8-10
[153] - avtovağzal	[154] Zirvə saatlarında sərnişinlər	[155] 10-15
[156] - aerovağzal	[157] Zirvə saatlarında sərnişinlər	[158] 10-15
[159] - çay limanları	[160] Zirvə saatlarında sərnişinlər	[161] 7-9
[162] - logistika və anbar obyektləri	[163] ümumi sahəsi, m^2	[164] 250
[165] - sənaye obyektləri	[166] ümumi sahəsi, m^2	[167] 50
[168] Penitensiar xidmətin buraxılış məntəqələri	[169] normalara uyğun olaraq növbəti ölçü vahidi üçün bir avtomobil-yeri	[170] 7-9
[171] Rekreasiya əraziləri və istirahət obyektləri:		
[172] İstirahət zonalarındakı çimərliklər və parklar	[173] hər 100 eyni zamanda gələn ziyarətçiyə 15	[174] 15-20
[175] Meşə-parklar və qoruqlar	[176] hər 100 eyni zamanda gələn ziyarətçiyə 15	[177] 7-10
[178] Qısamüddətli istirahət mərkəzləri (idman, xizək, balıqçılıq, ovçuluq və s.)	[179] hər 100 eyni zamanda gələn ziyarətçiyə 15	[180] 10-15
[181] Kiçik ölçülü dəniz sərnişin limanlarının sahil bazaları	[182] hər 100 eyni zamanda gələn ziyarətçiyə 15	[183] 10-15
[184] İstirahət evləri və bazalar, sanatoriyalar, sanatoriya-profilaktoriyalar, turist bazaları	[185] hər 100 istirahət edənə 5	[186] 3-5
[187] İaşə və ticarət müəssisələri	[188] Müştəri yerlərində 100 oturacaq və ya eyni zamanda gələn ziyarətçilərə və işçilərə	[189] 7-10

Qeyd:

1. Saxlanma və durma yerlərinin sayı (hesabi vahidə düşən avtomobil-yerin sayı, duracaq və qarajlarda)) hesabi dövr üçün avtomobilləşmə səviyyəsi nəzərə alınmaqla qəbul edilməlidir.

2. Kurort və turizm mərkəzi olan şəhərlərdə turist avtobusları üçün duracaqlar və turistlərin (turistlərin sayı hesablama ilə müəyyənləşdirilir) minik avtomobilləri üçün saxlanılma və durma

yerləri (duracaq və qarajlar) nəzərdə tutulmalıdır. Həmin duracaq və qarajlar, tarixi mühitin bütövlüyünü pozmamaqla turist obyektlərinə rahat yanaşmaları təmin etməklə, 500 m-dən uzaq olmayan məsafədə yerləşdirilməlidir. Avtomobillərin saxlanılması və durması üçün yerlərin sayı müxtəlif şəhərlər üzrə ayrıca tələblərə (norma və standartlar) uyğun olaraq qəbul edilməlidir.

3. Hava limanlarında, çay və dəniz sərnişin limanlarında, dəmir yolu stansiyalarında turist avtobusları üçün saxlanma və durma üçün yerlərin (duracaq və qarajların) tutumu zirvə (pik) saatlarında gələn hər 100 turistə (sərnişinə) 3-4 avtomobil-yeri norması ilə qəbul edilməlidir.

Saxlanma və durma yerlərinin (duracaq və qarajların) parametrləri avtobusların tutumu nəzərə alınmaqla hesablanmalıdır, lakin eni üzrə 3,0 m-dən, uzunluğu üzrə 8,5 m-dən və piyadaların təhlükəsiz keçidi üçün saxlanma və durma yerlərinin sərhədləri arasında eni 0,75 m-dən az olmamalıdır.

4. Minik avtomobillərinin müvəqqəti saxlanılma və durma yerlərindən kütləvi istirahət zonalarında yerləşən obyektlərədək piyada gediş məsafəsi 500 m-dən çox olmamalıdır.

5. Göstərilən normalara əməl olunarkən avtomobillərin saxlanılması və durması üçün yerlərinin ən azı 5 %-i (bir duracaq yerindən az olmayaraq) əlilliyi olan şəxslər üçün, ən azı 5 %-i isə elektrikli nəqliyyat vasitələri üçün (onların enerjidoldurma infrastrukturunu yaratmaqla) nəzərdə tutulmalıdır.

Nəticə

Məqalədə nəqliyyat vasitələrinin saxlanılması üçün dayanacaq və ya duracaq yerləri tələb olunan tikinti obyektlərinin növləri, habelə həmin tikinti obyektlərinin dayanacaq və ya duracaqlarla təmin olunması normativləri müəyyən edilmişdir.

Yaşayış və qeyri-yaşayış obyektləri (kompleksləri, zonaları) üçün parklanma yerlərinin minimal sayının məcburi kvotası ilə bağlı məqalədə təklif edilən tələblərin həyata keçirilməsi nəticəsində tikinti obyektlərinin layihələndirilməsi və tikintisi zamanı ərazinin və nəqliyyat şəbəkələrinin tarazlı inkişafının təmin ediləcək, habelə nəqliyyat vasitələrinin dayanma, durma və parklanma imkanları təkmilləşdiriləcək, həmin tikinti obyektlərinin nəqliyyat vasitələrinin saxlanılması üçün dayanacaq və ya duracaq yerləri ilə təchiz olunması təmin olunacaqdır.

Bu tələblər şəhərsalma və tikinti normativ sənədləri ilə müəyyən edilmiş və tikinti obyektinin tikintisi (inşası, yenidən qurulması və ya bərpası) ilə bağlı hazırlanmış tikinti layihəsində nəzərə alınmalıdır. Tikinti obyektinin yenidən qurulması (rekonstruksiyası) və bərpası zamanı həmin tikinti obyekti üzrə bu tələblərə uyğun olaraq dayanacaq və ya duracaqların təşkili ilə bağlı tədbirlər görülməlidir.

Ədəbiyyat siyahısı

1. Çingiz Rəhimov. Böyük şəhərlərdə avtomobil sərnişin daşımalarının təşkili keyfiyyətinin sistemli idarə edilməsinin elmi əsaslarla işlənməsi, AzTU, 2019. beu.edu.az/downloads/publications/Conferance_Book_Economy.(3).pdf.
2. Çingiz Rəhimov. (Chingiz Rehimov) МЕТОДЫ ОПРЕДЕЛЕНИЯ ТРЕБУЕМОГО КОЛИЧЕСТВА ЛЕГКОВЫХ АВТОМОБИЛЕЙ ТАКСИ И ПРАКТИКА МИРОВЫХ СТРАН В ЭТОЙ ОБЛАСТИ https://referat.ilkaddimlar.com/r/referatlar/neqliyyat/info-1883.html.
3. Rəhimov Ç.H. Trafik sorunlarına innovativ yanaşma, innovasyon sürecında oyunla trafik eğitiminin önemi ve Azerbaycanda uygulanma potensiyeli. 2017, Çingiz Rəhimov.
4. Çingiz Rəhimov. NƏQLİYYAT TƏLƏBATI – MÖVCUD VƏ PROQNOZLAŞDIRILAN GÖSTƏRİCİLƏR, 2022, AzMİU.
5. Dövlət şəhərsalma norma və qaydaları. Yaşayış məntəqələrinin planlaşdırılması və tikilib abadlaşdırılması. AzDTN 2.6-1.
6. http://www.stat.gov.az.
7. https://google.az.

AZƏRBAYCAN RESPUBLİKASINDA ELEKTROMOBİLLƏRİN İSTİSMARININ TƏŞKİL EDİLMƏ XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİ

Heybətulla Əhmədov, Qasım Manafov

Azərbaycan Texniki Universiteti
Nəqliyyat və logistika/Nəqliyyat texnikası və idarəetmə texnologiyaları
heybetahmed@aztu.edu.az, qmanafov@aztu.edu.az
BAKI, AZƏRBAYCAN

Xülasə

Atmosferə "istixana qazlar"ının atılması ilə ekoloji tarazlığın pozulması nəqliyyat istehsalıçıları qarşısında yeni texnologiyalara əsaslanan, zəhərli tullantıların miqdarını kəskin azaldan nəqliyyat vasitələrinin istehsalını diqtə edir. Hazırda bütün dünya ənənəvi daxiliyanma mühərriklərinin ətrafa vurduğu ziyanların qarşısını almaq məqsədilə, karbonsuz tullantı texnologiyası və alternativ enerji ilə işləyən nəqliyyat vasitələrinin istismarı istiqamətində elmi-tədqiqat və praktiki tədbirlərin işlənilməsi istiqamətində fəaliyyətlərini genişləndirirlər. Elektromobillər yaxın gələcəyin perspektiv nəqliyyat vasitəsi hesab olunur. Zəhərli tullantıların, xüsusən də "istixana qazları"nın miqdarının praktiki olaraq minimum səviyyəsi, elektrik enerjisindən istifadənin mümkünlüyü elektromobillərin istifadəsi üçün əlverişli şərait yaradır. Elektromobillərin istismarı və doldurma stansiyalarının işinin günün tələbləri səviyyəsində qurulması nəqliyyat vasitələrinin etibarlı işini təmin edə bilər. Azərbaycan Respublikasında da bu istiqamətdə müvafiq tədbirlərin görülməsi vacibdir. Ölkəyə gətirilən elektromobillərin sayının artması, elektromobillərin iştirakı ilə baş verə biləcək yol-nəqliyyat hadisələri ehtimalı, eyni zamanda nəqliyyat vasitələrinin etibarlı istismarı göstərilən texniki servisin keyfiyyətindən və işin düzgün qurulmasından asılıdır. Nəqliyyat vasitələrinin istismarı uyğun xidmət infrastrukturunun mövcudluğu ilə də sıx bağlıdır. Elektromobillərin konstruksiyasının nisbətən sadə, xidmət olunacaq hissə, qovşaq və aqreqatların miqdarının nisbətən az olmasına baxmayaraq bütün lazımi xidmət prosedurlarının yerinə yetirilməsi məcburidir. Müntəzəm və keyfiyyətli xidmətlərin yerinə yetirilməsi ilə bu nəqliyyat vasitələrinin yüksək işgörmə qabiliyyətinin saxlanılması, istismar prosesində ciddi imtina və nasazlıqların aradan qaldırılmasına imkan yaradır. Hissə, qovşaq və aqreqatların dövri olaraq diaqnostikası, nasazlığın və imtinaların ilkin mərhələlərində aşkar edilə bilər, yüksək tutumlu və baha başa gələn təmir işlərinə ehtiyacı aradan qaldırmış olar.

Açar sözlər: elektromobil, akkumulyator, xidmət, istismar

Summary

The disruption of the ecological balance with the release of "greenhouse gases" into the atmosphere dictates the production of vehicles based on new technologies that sharply reduce the amount of toxic waste. Currently, the world is expanding its efforts to develop research and practical measures to prevent the harm caused by traditional internal combustion engines to the environment, carbon-free waste technologies and the operation of alternative energy vehicles. Electric cars are considered a promising vehicle for the near future. An almost minimal level of toxic waste, especially greenhouse gases, and the possibility of using electrical energy create favorable conditions for the use of electric vehicles. The operation of electric vehicles and the establishment of charging stations at the level of modern requirements make it possible to ensure reliable operation of vehicles. It is inevitable that relevant work in this direction will be carried out in the Republic of Azerbaijan. An increase in the number of electric vehicles imported into the country, the possibility of road accidents involving electric vehicles, at the same time, the reliable operation of vehicles depends on the quality of the technical service provided and the correct construction of the work. The operation of vehicles is closely related to the availability of service infrastructure. Despite the fact that the design of electric vehicles is relatively simple, the number of serviced parts, assemblies and assemblies is small, the maintenance procedure is mandatory. Regular and high-quality maintenance ensures the maintenance of high productivity and the elimination of serious failures and malfunctions during operation. Periodic inspection of parts, components and assemblies allows you to detect malfunctions and problems at an early stage, eliminating the need for time-consuming and expensive repairs.

Giriş

Elektromobillərin istehsal və istismar tempinin artması, ətraf mühitin çirklənməsi, bərpa olunmayan yanacaq energetikası, səmərəlilik və səsin yüksək səviyyəsi kimi arzu olunmayan halların aradan qaldırılmasına əlverişli şərait yarada bilər. İnsanların elektromobillərə marağı, onun ilkin dəyərinin və istismar xərclərinin azalması ilə daha da artmış olar. Bu tip nəqliyyat vasitələrinin gələcək inkişafı qlobal məkanda siyasi, iqtisadi və texniki baxımdam asılılığı azalda bilər. Elektromobillərin istismarı prosesində onların enerji yığımının asan və sürətlə təminatı, sonrakı mərhələdə isə nəqliyyat vasitələrinin təhlükəsiz və etibarlı istismarı ilə bağlı texniki servisi lazımi səviyyədə təşkili kimi meydana çıxa biləcək şoxsaylı məsələlərin kompleks həlli tələb olunur. Ona görə də elektromobillərin etibarlı işinin təşkili öncədən layihə-konstruktor və yığım mərhələsində nəzərə alınmalı, sonra isə istismar prosesində qorunaraq təmin olunmalıdır.Hazırda beynəlxalq aləmdə elektromobillərin istehsalı, qeyd olunan məsələlərin həllini nəzərə almaqla müxtəlif konstruksiyalı elektromobillərin istehsalı ilə həyata keçirilir. Məsələn, Norveç, İslandiya, İsveç, Çin, ABŞ və digər olkələrin statistikasına görə 2018-ci ildə Çində 45%, 24% Avropada, ABŞ-da isə 22% belə elektromobillər istehsal olunmuşdur. [Global EV, 2019]. Sonrakı dövrdə də elektromobil istehsalı da, yüksələn templə artmışdır. 2050-ci ilə qədər elektromobillərin istehsal perspektivi aşağıdakı qrafikdə göstərilmişdir [K. Habib və b.,2020]. Qrafikdən göründüqyü kimi, müxtəlif ssenarilər üzrü elektromobillərə keçid, fəqrli nəticələrin alınmasına gətirib çıxaracaqdır. Göründüyü kimi dünya təcrübəsində elektromobillərə üç ssenari ilə həyata keçirilir:



Şəkil 1. lektromobillərin müxtəlif illər üzrə inkişaf dinamikası

-Sürətli keçid (Rapid, MS) – karbohidrogen mənbəli yanacaqlardan istifadəyə görə vergilərin artırılmasına yönələn siyasi kontekstli tədbirlərin görülməsi;

-Tam imtina (Net Zero, SS) –sürətli keçidi tətbiq etməklə, əhalinin bu məsələyə üstünlük verməsini təbliq etməklə, ənənəvi nəqliyyat vasitələrindən imtina və bununla da zərərli tullantılarının miqdarını 90...95% azaltdaraq, "qara qızılın" nəqliyyat vasitələrində istifadəsini minimuma endirmək.

-"adi biznes" (Business As Usual, BS) – dövlət siyasəti, texnologiya və sosial üstünlük əvvəlki axarı ilə davam etməklə, neftə olan tələbat dəyişmədən qalır və tələbat qanunu tədricən azalır [V.Valiyev,2022].

Elektromobillərin istismarına təsir göstərən faktorlara enerji təminatı məntəqələrinin sayı və məqsədəuyğun yerləşmə məkanı, xidmət strukturunun universallığı və mövcud vəziyyəti, istismar şəraiti, yol hərəkətinin təşkili, nəqliyyat vasitələrinin sayı və tərkibi və s. aid etmək olar. Nəqliyyat vasitələrinin sayının artması ilə xidmət infrastrukturunun düzgün təşkili vacib məsələlərdən sayılır.

Hazırda respublikamızda mövcud elektromobillərə göstərilən xidmətlər yeni formalaşan, lakin texniki cəhətdən əvvəlki sələflərinin ənənəsini davam etdirən servis müəssisələrində həyata keçirilir. Elektromobillərə göstərilən xidmətin daxiliyanma mühərrikli nəqliyyat vasitələrindən fərqli texniki baxışlara məruz qaldığını nəzərə alsaq, onların texnoloji avadanlıqlarla təmin edilmiş, təchizat işi müasir proqram təminatının köməyilə ilə həyata keçirilən müəssisələrdə yerinə yetirilməsi zəruriyyəti meydana çıxır. Hazırda hər bir əməliyyatın əmək tutumu və iş həcmi haqqında yalnız gətirilmiş və ya tutuşdurulmuş parametrlər mövcuddur. Əslində elektromobillər üçün bu parametrlər istehsalçı müəssisələrin tövsiyəsi və müvafiq ciddi tədqiqatlar əsasında müəyyənləşdirilməli və razılaşdırılmalıdır. İş həcmlərinin qeyr-müəyyənliyi nəticə etibarı ilə planlı işin təşkilinə mane olur, işlərin keyfiyyətinə mənfi təsir göstərir. Bir qayda olaraq, texniki vasitələrə xidmət işləri istehsalçı-müəssisənin təlimatları və tövsiyələri əsasında yerinə yetirilir. Bu istiqamətdə müvafiq işlərin həyata keçirilməsi üçün elektromobillərin konstruktiv xüsusiyyətləri tədqiq edilməli, mövcud təcrübələrə əsaslanaraq xidmət işi yerinə yetirilməlidir. Eyni zamanda nəqliyyat vasitələrinin sahibləri üçün də praktiki tövsiyələr işlənib hazırlanmalıdır.

Tədiqat metodu

Elektromobillərin istismarı adi nəqliyyat vasitələrinin istismarından xeyli asandır. Dövri olaraq yağın dəyişdirilməsi, çoxsaylı süzgəclər, alışdırma şamları və digər elementlər olmadığından, görüləcək işlərin həcmi əhəmiyyətli dərəcədə azalır, eyni zamanda bu avtomobillərin istismarı da xeyli sadələşir. Lakin elektromobillərin istismarının da, "zəif cəhətləri" mövcuddur. Ona görə də, bütün istismar şəraitlərində və ilin istənilən fəsillərində bu faktor xüsusən nəzərə alınmalıdır. Ətraf mühitin temperaturu elektromobillərin istismarına əhəmiyyətli dərəcədə təsir göstərir. Bu səbəbdən də soyuq havalarda elektromobillərin istismarı zamanı aşağıdakıların nəzərə alınması vacibdir:

-sürətl boşalma səbəbindən batareyaların tutumunun azalması;
-sürətli enerji sərfi səbəbindən gediş məsafəsinin azalması;
-enerji rekuperasiyasının səmərəliliyinin azalması;
-batareyaların qızması:
-gücün azalması;
-akkumulyatorların donma ehtimalı;
-salonun temperaturunun aşağı düşməsi və s.

İsti havalarda batareyaların tutumu və gediş məsafəsi ilə bağlı problem qeydə alınmamışdır. Ancaq nəzərə almaq lazımdır ki, havanın yüksək temperaturlarında da sürətli doldurma və yüksək sürətlərlə hərəkət təhlükə mənbəyinə çevrilə bilər. Bu halların baş verməməsi üçün müvafiq həll yolları tapılmalı və ciddi xidmət tələbləri nəzərdə tutulmalıdır. Elektromobillərin istismarında imtina və nasazlıqları baş verməməsi üçün xidmət zamanı aşağıdakılara riayət olunması, yoxlanılması və nizamlanması zəruridir:

- batareyaların mühafizə örtüklərinin vəziyyətinin yoxlanması;
- elektromobillərin komfortlu şəraitdə saxlanması;
- akkumulyator və blokların "zəif bənd", açar və keçirici elementlərlə təchiz olunması və yoxlanması;
- elektromobillərin xarici görünüşünün yoxlanılması;
- şinlərin düzgün seçilməsi;
- idarəetmə və tormoz sisteminin yoxlanması;
- işıq və səs siqnallarının yoxlanması;
- akkumulyatorların boşalma tempinə nəzarət edilməsi;
- kontaktların oksidləşməsinə nəzarət edilməsi və zərurət yarandıqda qabaqlayıcı tədbirlərin görülməsi;
- proqram təminatının müasir tələblərə cavab verməsinə nəzarət edilməsi. Ehtiyac olduqda isə sazlama və yeniləmənin aparması.

Nəticə

Elektromobillər, istismarı xüsusi diqqət tələb edən nəqliyyat vasitələrindən hesab olunur. Baş vermiş yol-nəqliyyat hadisələri bir daha təsdiq edir ki, istismar qaydalarına riayət olunmaması, texniki istismarın tələb olunan səviyyədə yerinə yetirilməməsi qəza ehtimalını və dəyən ziyanı kəskin artırır və bununla da ölüm riski çoxalır. Elektromobillərə göstərilən xidmətlər, istismar şəraiti ilə birbaşa

bağlıdır. Bu səbəbdən də xidmət dövrülüyü istismar şəraitindən və bununla yanaşı digər amillərdən asılı olur. Ona görə də yerinə yetirilən ilkin diaqnostik sınaqlardan alınan nəticələr elektromobillərin texniki qulluğa gəlmə dövülüyündən, onların konstruktiv xüsusiyyətlərindən asılı olaraq dəyişir. Bir sıra mənbələrdə onların xidmət dövriliyinin daxiliyanma mühərrikli nəqliyyat vasitələrinə nisbətən çox olduğu göstərilir. Bu səbəbdən də elektromobillərin istismar, xüsusiyyətlərinin dərindən araşdırılması nəticəsində onların etibarlı və təhlükəsiz işinə təsir edən faktorların diqqətlə təhlilini aparmaqla, yerinə yetirilməsi tələb olunacaq qulluq işlərinin düzgün qiymətləndirilmə zərurəti yaranmışdır.

Ədəbiyyat siyahısı

1. Global EV, "Global EV Outlook," 2019, https://www.iea.org/reports/global-ev-outlook-2019.
2. K. Habib, S. T. Hansdottir, and H. Habib, "Critical metals for ´ electromobility: global demand scenarios for passenger vehicles, 2015–2050," *Resources, Conservation and Recycling*, vol. 154, Article ID 104603, 2020
3. Vilayat Valiyev, Fuad Dashdamirov, Aynura Ismayilova Comparative Study Of Cooperation Of Universities With Industry In Design And Production Of An Electric Vehicles. 3rd Eurasian Energy and Sustainability Conference, Baku, AzTU. 2022

FÜZULİ BEYNƏLXALQ HAVA LİMANININ ŞUŞA TURİZM DESTİNASIYASININ İNKİŞAFINA TƏSİRİ

Gülnaz Abbasova

Azərbaycan Turizm və Menecment Universiteti
Turizm və qonaqpərvərlik fakütləsi
Abbasova.gulnaz.2201@atmu.edu.az
BAKI, AZƏRBAYCAN

Xülasə

Bu tədqiqat Füzuli Beynəlxalq hava limanının Şuşa turizm destinasiyasına, eləcə də, işğaldan azad olunmuş ərazilərdə turizmin inkişafına təsirindən bəhs edir. Şuşa turizm destinasiyası rekreasiya, sağlamlıq, tarixi-mədəni, ekoloji turizm və bir çox turizm növlərinin inkişafı üçün böyük potensiala malikdir. Regionun ərazisi uzun müddət işğal altında olduğu üçün zərər görmüş, tarixi-memarlıq abidələri və infrastruktur dağıdılmışdır, lakin buna baxmayaraq turizm potensialını qoruyub saxlamışdır.

Bu problemlərlə yanaşı, turizm sənayesi üçün mühüm fürsət olan bu bölgələrin tanıtım və marketinq fəaliyyəti də düzgün aparılmalı və turistləri cəlb etməklə yanaşı məmnun qalmalarını təmin etmək lazımdır. İnfrastrukturun və nəqliyyat yollarının bərpası və xüsusu ilə Füzuli Beynəlxalq hava limanının istifadəsi buna şərait yaradacaqdır.

Bu məqalədə Füzuli Beynəlxaq hava limanının Şuşa turizm destinasiyasının inkişafına təsiri və buna mane olan problemlər araşdırılmış və əhatə olunmuşdur. Bundan əlavə, bu tədqiqat digər bölgələrdə oxşar problemləri olan turizm istiqamətləri üçün faydalı mənbə ola bilər.

Açar sözlər: turizm, destinasiya, infrastruktur, təhlükəsizlik, xidmət, keyfiyyət.

Abstract

This study discusses the impact of Fuzuli International Airport on the tourism destination of Shusha, as well as on the development of tourism in the liberated territories. Shusha tourism destination has great potential for development of recreation, health, historical-cultural, ecological tourism and many types of tourism. The territory of the region has been damaged due to long

occupation, historical-architectural monuments and infrastructure have been destroyed, but despite this, it has preserved its tourism potential.

In addition to these problems, the promotion and marketing activities of these regions, which are an important opportunity for the tourism industry, should be done properly and ensure that they are satisfied while attracting tourists. The restoration of infrastructure and transport routes, and especially the use of Fuzuli International Airport, will provide conditions for this.

In this article, the impact of Fuzuli International Airport on the development of Shusha tourism destination and the problems that hinder it are investigated and covered. In addition, this study can be a useful resource for tourism destinations with similar problems in other regions.

Keywords: tourism, destination, infrastructure, security, service, quality.

Giriş

Azərbaycanın incisi, Qarabağın gözü hesab olunan, mədəniyyət paytaxtı Şuşa şəhəri eyni zamanda respublikanın əsas sağlamlıq və istirahət mərkəzlərindən biri hesab oluna bilər. Şuşa ilin 4 fəsli turistləri qəbul edə biləcək gözəl təbiətə, tarixi abidələrə və ərazi imkanlarına sahibdir. Bu baxımdan həmin ərazilərdə turizmin inkişafı ölkə iqtisadiyyatına qatqısı əhəmiyyətlidir.

Yuxarı Qarabağ və işğal edilmiş ətraf rayonlarımız tarixi-mədəni dəyəri, füsünkar təbiəti ilə yanaşı, yeraltı və yerüstü sərvətlərə, zəngin iqtisadi potensiala, geniş turizm imkanlarına malikdir. Bu rayonlarımız aqrar üstünlüyü, xammal bazası və emaledici sənaye istehsalı baxımından əlverişlidir.

Turizmin istənilən növünün inkişafı üçün ilk növbədə infrastruktur və komfortlu nəqliyyatın olması vacibdir. Qarabağda turizmin təşkili üçün əsas potensiallı nəqliyyat vasitələri hava və quru nəqliyyatıdır. Bu baxımdan Füzulidəki Beynəlxalq hava limanının Qarabağda və əsasən də Şuşada turizmin inkişafına təsiri əhəmiyyətlidir.

Füzulidəki hava limanı öz imkanları ilə Bakıdakı hava limanından geri qalmasa da, bir çox turist əsasən buranı istifadə etmir. Bunun əsas səbəblərindən biri turistlərin əksəriyyətinin ilk olaraq paytaxtı ziyarət etməsidir.

Bu tədqiqat işində Füzuli Beynəlxalq hava limanına tələbin nə üçün daha az olduğundan bəhs olunmuşdur və hava limanına daha çox turist cəlb etmək üçün hansı tədbirlər görülə biləcəyi araşdırılmışdır.

Hava limanının istifadəsinin az olmasına digər bir səbəb isə Şuşa və ətraf ərazilərə səyahət edən turistlərin əsasən avtomobil nəqliyyatından istifadə etməsidir. Lakin bu ərazidə maşın icarəsi və taksi xidmətləri yetərincə mövcud deyildir. Buna görə turistlər əsasən birbaşa öz avtomobilləri ilə-quru yolu ilə səyahətə üstünlük verir.

Tədqiqat metodu

2020-ci il oktyabrın 17-də Füzuli şəhəri 28 illik işğaldan sonra Azərbaycan tərəfindən geri alınıb. 26 noyabr 2020-ci il tarixində Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən bildirilib ki, Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) Füzuli hava limanı da daxil olmaqla altı hava limanının Beynəlxalq Hava Limanı ilə bağlı Dövlət Mülki Aviasiya Administrasiyasının müraciətini qəbul edib. Prezident İlham Əliyev 2021-ci ilin yanvarında Füzulidə beynəlxalq hava limanının tikintisi ilə bağlı qərar verib. Uçuş zolağının 2021-ci ilin sonunadək tamamlanması planlaşdırılıb. Uçuş zolağı tamamlandı və ilk dəfə 5 sentyabr 2021-ci ildə istifadə edildi. "Azərbaycan Hava Yolları" QSC-nin sərnişin təyyarəsi "Airbus A340-500" və "Silk Way" aviaşirkətinə məxsus "Boeing 747-400" yük təyyarəsi uğurlu sınaq uçuşları həyata keçirərək hava limanına enib.

Hava limanı 2021-ci il oktyabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən açılıb.

Sözügedən hava limanı işğaldan azad edilmiş ərazilərimizə xarici turistlərin gəlməsi baxımından olduqca faydalıdır və yeni imkanlar yaradacaq. Nəzərə alsaq ki, Qarabağın incisi hesab olunan və Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə gəlmək istəyən xarici turistlərin sayı kifayət qədər çoxdur, Füzulidə hava limanının tikilməsi imkan verəcək ki, həmin turistlər daha sərfəli və qısa yolla, praktik olaraq birbaşa işğaldan azad olunan ərazilərimizə səfər edə bilsinlər.

Bu amil işğaldan azad edilmiş ərazilərimizə, eləcə də Füzuli rayonuna gələcək turistlərin sayına müsbət təsir göstərəcək və daha çox turistin ölkəmizə gəlməsinə imkan yaradacaq. Eyni zamanda, hava limanı yükdaşımalar, xüsusən də beynəlxalq yükdaşımalar üçün vacib əhəmiyyət kəsb edir.

İşğaldan azad edilmiş ərazilərimizin sənaye potensialını nəzərə alsaq, Füzulidə açılacaq hava limanı həm də həmin ərazilərdə istehsal olunacaq sənaye məhsullarının dünya bazarına çıxarılması və bütövlükdə regionun ixrac imkanlarının genişləndirilməsi baxımından vacibdir.

Füzulidə Beynəlxalq hava limanının inşası, təkcə Şuşa üçün deyil, ümumiyyətlə, həmin bölgənin nəqliyyat infrastrukturunun şaxələndirilməsi deməkdir. Bu bölgədə istər yenidənqurma və bərpa işləri dövründə, istərsə də, sonrakı dövrdə beynəlxalq hava limanının zərurliyini xüsusi əsaslandırmağa ehtiyac da yoxdur. Məlum məsələdir ki, bölgədə yenidənqurma və bərpa işləri hava nəqliyyatına da tələbat yaradır. [2]

Bölgənin iqtisadi potensialının bir hissəsinin turizmlə bağlı olmasını nəzərə alanda bu, sonrakı dövrdə turizm üçün əlverişli nəqliyyat növüdür. Söhbət ondan gedir ki, işğaldan azad edilmiş ərazilərdə müalicəvi suların olması buranın müalicəvi turizm baxımından böyük imkanlara malik olmasından xəbər verir. Təsadüfi deyil ki, vaxtilə həmin ərazilərdəki sanatoriyalar buraya müxtəlif xəstəliklərdən əziyyət çəkən insanların üz tutduqları müalicəvi məkanlardan olub. Digər tərəflərdən dünyanın ən qədim insan məskənlərindən birinin - Azıx mağarası və digər tarixi abidələr işğaldan azad edilmiş ərazilərin turizm baxımından cəlbediciliyini artırır.

Füzuli Beynəlxalq Hava Limanı nəqliyyat infrastrukturunun şaxələndirilməsinə imkan verməklə təkcə həmin bölgənin deyil, ümumilikdə ölkənin iqtisadi inkişafına öz töhfəsini vermək iqtidarındadır. Ümumiyyətlə, Füzuli hava limanının inşası işğaldan azad edilmiş ərazilərimizdə müasir kommunikasiyaların qurulması sahəsində həyata keçirilən, iqtisadi, strateji baxımdan dəyərli olan yeganə layihə deyil. Zəngilan və Laçında da tikilən hava limanları Azərbaycanın tarixi torpaqlarına Böyük Qayıdış üçün vacib sayılan çox mühüm strateji layihələrdir.

Azərbaycana gələn turistlərin bir çoxu ilk olaraq Bakıya gəlir və daha sonra bölgələrə səyahət edirlər. Bakı-Füzuli marşrutu üzrə sərnişin təyyarəsi ilə uçuş müddəti cəmi 35 dəqiqədir. Bu da öz növbəsində Bakdan Qarabağa gedən turistlərin yolunu asanlaşdırır və vaxtlarına qənaət etmələrinə imkan verir. Lakin Bakıdan gedən qonaqlar daha çox avtomobil nəqliyyatı ilə, orada istifadə edə bilmələri üçün öz avtomobilləri ilə getməyə üstünlük verirlər. Bunun qarşısını almaq üçün Bakı-Füzuli uçuş reyslərinin ucuz qiymətə satışını edərək qısamüddətli Qarabağ turu səfərlərində- qastronomiya turlarında, idman yarışlarına və festivallara tamaşa etmək üçün təşkil olunan turlarda bu reyslərə üstünlük verilməsini təmin etmək olar.

Nəticə və təkliflər

Nəticə olaraq, Füzuli Beynəlxalq hava limanının potensialından səmərəli istifadə olunması Şuşa destinasiyası və ətraf ərazilərdə turizmin inkişafına və ölkə iqtisadiyyatının yaxşılaşmasına böyük təsir edəcəkdir. Lakin turistlərin təhlükəsizliyi, şəxsi və kirayə nəqliyyatdan istifadənin üstünlük təşkil etməsi, qiymət amili, turistlərin Azərbaycana gələrkən daha çox ilk olaraq Bakını ziyarət etməsi və s. Kimi bir sıra problemlər bu məsələnin qarşısında durur.

Bizim isə bu məsələdə təkliflərimiz aşağıdakılardır:

- Ərazinin turizm potensialının reklamı və düzgün marketinq planının qurulması
- Turistləri Şuşa və işğaldan azad edilmiş digər bölgələrin təhlükəsziliyinə inandırmaq üçün tədbirlərin görülməsi
- Təyyarələrdə komfort standartlarına nəzarət
- Xidmət keyfiyyətinin yaxşılaşdırılması
- İxtisaslı kadrların işə götürülməsi və işçi heyətə müntəzəm təlimlərin keçirilməsi
- Aviabiletlər üçün münasib qiymət təklifləri
- Bölgədə avtomobil kirayəsi və taksi xidmətlərinin təşkili.

Ədəbiyyat siyahısı

1. Asiman Musayev "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarinda turizmin perspektivli investisiya imkanları"
2. Ceyhun Piriyev "İşğaldan azad edilmiş ərazilərdə ilk hava limanı: Niyə məhz Füzulidə?" məqaləsi,
3. Elçin Zaman "Möhtəşəm Füzuli Hava Limanı" məqaləsi,
4. Həbibə Soltanova (2015). "Azərbaycan Respublikasında turizm və onun inkişafı", , AzTUmətbəəsi, Bakı.238 səh
5. Leyla Rəşid (2020). İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı və inkişaf perspektivləri. Xalq qəzeti, Bakı, 7 səh
6. https://yeniazerbaycan.com/SonXeber_e80507_az.html

MÜASİR DÖVRDƏ NƏQLİYYAT SEKTORUNDAKI YENİLİKLƏRİN SÜRÜCÜ PSİXOLOGİYASINA TƏSİRİ

Dos. E.B. Quliyev, H.B. Xıdırov

Azərbaycan Memarlıq və İnşaat Universiteti
Nəqliyyat Fakültəsi
hesen.xidirov420@gmail.com

Xülasə

Dünyada hər il təxminən 1,3 milyon insan yollarda həyatını itirir, 20-50 milyon insan isə xəsarət alır. Yol qəzaları hər yaş qrupundan olan insanlar arasında əsas ölüm səbəblərindən, 5-29 yaş arası uşaqlar və gənclər arasında isə birinci ölüm səbəbidir. Yol qəzalarında ölmək riski yüksək gəlirli ölkələrə nisbətən aşağı gəlirli ölkələrdə 3 dəfədən də çoxdur. Yol qəzalarında ölənlərin yarıdan çoxu həssas yol istifadəçiləridir: piyadalar, velosipedçilər və motosikletçilər. Piyadalar, velosipedçilər, həmçinin 2 və 3 təkərli motorlu nəqliyyat vasitəsi idarə edənlər, onların sərnişinləri, ümumilikdə "həssas yol istifadəçiləri" kimi təyin olunur və dünyada yol qəzalarında həlak olanların yarısını təşkil edir. Həyatını itirən yol istifadəçilərinin böyük qismi aşağı gəlirli ölkələrin payına düşür.

Açar sözlər: müasir dövr, nəqliyyat, yeniliklər, sürücü, psixologiya.

Summary

Around 1.3 million people die on the roads every year, and 20-50 million people are injured. Road accidents are the leading cause of death among people of all age groups, and the number one cause of death among children and youth aged 5-29. The risk of dying in road accidents is three times higher in low-income countries than in high-income countries. More than half of those killed in road accidents are vulnerable road users: pedestrians, cyclists and motorcyclists. Pedestrians, cyclists, as well as drivers of 2- and 3-wheeled motor vehicles and their passengers are generally defined as "vulnerable road users" and account for half of the world's road accident fatalities. Low-income countries account for the majority of road users who lose their lives.

Key words: modern era, transport, innovations, driver, psychology.

Sürətə nəzarət yol qəzaları zamanı xəsarətləri azaldır

Orta sürət artıqca yol qəzasının baş vermə riski və onun nəticələrinin ağırlıq dərəcəsi də artır. Sürətin 1% artması ölümcül qəza riskinin 4% artması deməkdir. 65 km/saatla hərəkət edən avtomobil tərəfindən vurulan piyadanın ölüm riski 50 km/saatla hərəkət edən avtomobillə vurulan piyadadan 4 dəfə daha çoxdur.

İçkili halda avtomobil idarə etmə qəza riskini artırır

Sürücünün qanında alkoqolun miqdarı (QAM) 0.05 q/dl-dən çox olduqda, sərxoş halda avtomobili idarə etmək qəza riskini kəskin şəkildə artırır. Dünya Səhiyyə Təşkilatı ümumi sürücülər üçün QAM-ı $\leq$0.05 q/dl, gənc və təcrübəsiz sürücülər üçün isə $\leq$ 0.02 q/dl müəyyənləşdirmişdir. Yalnız 45 ölkədə içkili halda avtomobil idarə etməyə qarşı ən yaxşı təcrübəyə cavab verən milli qanunlar mövcuddur.

Yüksək keyfiyyətli dəbilqə taxmaq yol qəzalarında ölmə riskini azalda bilər

Yüksək keyfiyyətli dəbilqə taxmaq ölüm riskini 42%, ağır xəsarətləri isə təxminən 70% azalda bilər. Dünya əhalisinin 17%-ni təmsil edən 44 ölkədə ən yaxşı standartlara cavab verən motosiklet dəbilqəsi haqqında qanun var: bu o deməkdir ki, qanun sürücü və sərnişinlər, bütün yol və mühərrik növlərinə tətbiq edilməli, dəbilqənin bağlanması tələb olunmalı və dəbilqə xüsusi standartlara cavab verməlidir.

Mobil telefonlar riskli diqqət yayınmasıdır

Sükan arxasında telefondan istifadə (həm əldə tutulma, həm də əldən istifadə etmədən) qəza riskini 4 dəfə artırır, eyni zamanda avtomobil idarə edərkən mesajlaşmaq bu riski təxminən 23 dəfə artırır. Telefondan istifadə edərkən sürücünün reaksiya vermə qabiliyyəti 50% yavaşdır.

Uşaq avto oturacaqları ciddi xəsarət və ölüm hallarını əhəmiyyətli dərəcədə azaldır

Uşaqları, xüsusilə də 4 yaşından kiçikləri uşaq oturacağında oturtmaq ölüm riskini 60%-ə qədər azaldır. 8-12 yaşlı uşaqlar üçün buster oturacaqlar yalnız təhlükəsizlik kəmərindən istifadə ilə müqayisədə xəsarət riskini 19% azaldır. Ən yaxşı qanunlar uşaqların ön oturacaqda oturmasını məhdudlaşdırır və yaş/boy/çəki üçün xüsusi oturacaqlar tələb edir.

Cəld reaksiya həyat xilas edir və xəsarət alanlar arasında əlilliyi azaldır

İnsan həyatı, yerində yardım, təcili tibbi yardım və əməliyyat üçün xəstəxanaya dərhal çatdırma və reabilitasiya xidmətlərindən erkən istifadə imkanı vasitəsilə xilas edilə bilər. Şahidlər təcili tibbi yardım xidmətini çağırmaqla və peşəkar kömək gələnə qədər ilk yardımı göstərməklə insan həyatını xilas edə bilərlər.

Yolların təhlükəsiz qurulmaması bütün yol istifadəçiləri üçün riski artır

Yollar bütün yol istifadəçiləri üçün təhlükəsiz şəkildə hazırlanmalıdır. Bu, piyadalar, velosipedçilər və motosikletçilər üçün müvafiq infrastrukturun yaradılması deməkdir. Səkilər, velosiped zolaqları, təhlükəsiz keçid nöqtələri və nəqliyyatı sakitləşdirmə kimi tədbirlər bütün yol istifadəçiləri arasında xəsarət riskini əhəmiyyətli dərəcədə azaldır.

Sürət qəzalara necə təsir edir?

Nəqliyyat vasitəsinin sürəti nə qədər çox olarsa, sürücüyə avtomobili dayandırmaq üçün o qədər də çox zaman tələb ediləcək. 50 km/saat hərəkət edən avtomobili tam saxlamaq üçün 13 metr məsafə lazım olacaq, eyni zamanda 40 km/saat sürətlə hərəkət edən maşını dayandırmaq üçün 8.5 metr tələb edilir. Nəqliyyat vasitəsinin sürətinin 1 km/saat artması qəza riskini 3% artırır. Yüksək sürət həmçinin avtomobilin içində oturan sərnişinlərə də təsir edir. Hadisə baş verərsə, 80 km/saat sürətlə gedən avtomibilin sərnişininin ölüm riski, 30 km/saat sürətlə hərəkət edən avtomobilin sərnişini ilə müqaisədə 20 dəfə çoxdur. Yüksək sürətlə hərəkət edən nəqliyyat vasitəsininin piyada və velosipedçilərə də təsiri böyükdür. Məsələn, avtomobil 30 km/saat sürətlə hərəkət edirsə və piyadanı vurursa, piyadanın 90% sağ qalma ehtimalı var, lakin sürət 45 km/saat sürət olanda sağ qalmaq ehtimalı 50%-ə enir. Sürət 80 km/saat və daha çox olanda piyadanın artıq heç bir şansı yoxdur.

Sürətə hansı faktorlar təsir edir?

Sürücünün sürət rejiminin seçimində bir neçə faktor rol oynayır:

Sürücünün özü ilə bağlı faktorlar (yaşı, aqressivlik dərəcəsi, sərxoşluğu, nəqliyyat vasitəsində olan sərnişinlərin sayı və s.) Yolla və nəqliyyat vasitəsi ilə əlaqəli məsələlər (yolun vəziyyəti, yolun xüsusiyyətləri, nəqliyyat vasitəsinin gücü, maksimal sürət məhdudiyyəti və s.)

Nəqliyyat axını və mühit (axının sıxlığı, sürəti, tərkibi və hava şəraiti)

Yüksək sürətlərin mənfi təsirlərini azaltmaq üçün nə etmək lazımdır.

Nəqliyyat vasitələrinin sürətini optimal səviyyədə saxlamaq üçün tələb olunan tədbirlər:

• Küçə-yol şəbəkəsində icazə verilən sürətləri optimallaşdırmaq və səmərəli şəkildə nəzarət etmək (radar, kamera və s.) Sürətlər küçə-yol şəbəkəsinin funksiyasına uyğun seçilməlidir. Bütün hallarda şəhərin daxilində olan küçə və prospektlərində maksimal sürət 50 km/saat-dan yüksək olmamalıdır.

Dünya təcrübəsi göstərir ki, küçə-yol şəbəkəsində sadəcə sürət limitlərinin azaldılması uzunmüddətli effekt vermir, bu səbəbdən nəzarət mexanizmlərinin də optimallaşdırılması və təkminləşdirilməsi vacibdir.

Sürəti ölçən kameralar ən səmərəli vasitələrdən biridir.

Şəhərətrafı yollarda sürət məhdudiyyəti hava şəraitindən asılı olaraq dəyişə bilər. Məsələn yağışlı və ya qarlı havada maksimum icazə verilən sürətlər azaldılmalıdır.

Həmçinin, sürətli və geniş yollarda yüksək sürətlə və nisbətən asta gedən axınları bölmək də yaxşı ideya ola bilər. Bu zaman konflikt nöqtələr azalmış olur.

Şəhərlər küç-yol şəbəkəsinə dair yeni layihələndirmə və təhlükəsizlik standartlarını tətbiq etməlidirlər. Bu tədbirlərə nəqliyyat axınının sakitləşdirilməsi və yol sahəsinin isitifadəçilər arasında ədalətli bölgüsü, həmçinin bura piyada keçidlərinin yerləşdirilməsi sahəsində müasir yanaşmalar da daxildir.

Sürücü və piyadalar üçün vacib olan bir sıra qaydaları bilmək və onlara əməl etmək, diqqətli və məsuliyyətli olmaq mədəniyyətdən xəbər verir.

Azərbaycan Respublikası Baş Dövlət Yol Polisi İdarəsi insan həyatına son qoyan qəzaların sayının azalması məqsədilə "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununun 18-ci maddəsini rəhbər tutaraq müvafiq tədbirlər həyata keçirir, reklam xarakterli videoçarxlar nümayiş

etdirir. Tədbirlərin görülməsi yollarda təhlükəli hadisələrin azalmasında müstəsna rol oynasa da, qəzaların baş verməsi davam edir. Bu halların baş verməməsi üçün sürücülük mədəniyyəti yolların təhlükəsizliyi baxımından olduqca vacibdir. Mədəni sürücü digər hərəkət iştirakçılarına kömək edir, özü yol hərəkəti qaydalarını, vəzifələrini bilir və onlara əməl edir.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin göstərişinə əsasən, yeni dərs ilinin başlanması ilə əlaqədar respublikada "Diqqət, uşaqlar!" adı altında "Hərəkətin təhlükəsizliyi" aylığı keçirilir. Tədbirin keçirilməsində əsas məqsəd bunlardır: uşaq və yeniyetmələrin iştirakı ilə yol-nəqliyyat hadisələrinin qarşısının alınması istiqamətində profilaktik tədbirləri gücləndirmək; ümumtəhsil məktəblərində şagirdlərdə təhlükəsiz davranış vərdişləri formalaşdırmaq; tədris prosesinin səmərəliliyinin yüksəldilməsinə Dövlət Yol Polisinin köməyini artırmaq.

Unutmayın ki, yollardakı işarələr, işıqforlar, müxtəlif qurğular sürücü və piyadaların — bir sözlə, bütün hərəkət iştirakçılarının qanuna əməl etməsinə, insanların təhlükəsizliyinə xidmət edir. Hər kəs buna bir nəfər kimi əməl etməyə borcludur. Ancaq çox vaxt piyadalar piyada keçidindən istifadə etməzdən əvvəl vəziyyəti dəyərləndirmirlər. Piyada nəzərə almalıdır ki, maşın sürətlə hərəkət edə bilər və yaxud sürücünün fikri yayındığından yoldakı ani dəyişikliyə hazır olmaz. Ona görə də piyada keçidindən istifadə etməzdən əvvəl sürücünün sizə yol verəcəyinə əmin olmağınız vacibdir. Yollarda bəzilərinin etdiyi kimi deyil, yol hərəkəti qaydalarının tələbinə uyğun hərəkət edin.

Nəticə

Sürətli şəhərətrafı yolların şəhərin küçə və prospetklərinə birləşən yerlərinə xüsusi diqqət ayrılmalıdır. Belə yerlərdə nəqliyyat axınının sakitləşdirmə alətləri istifadə edilməlidir. Nümunə kimi dairəvi və işıqforlarla nizamlanan yol ayrıcları qeyd etmək olar. Yüksək tonnajlı nəqliyyat vasitələri günün sıx hərəkət olan zamanında şəhərlərin küçə və prospektlərindən kənarlaşdırılmalıdır. Nəticədə şəhərlərin daxilində yol-nəqliyyat hadisələri azala bilər.

Ədəbiyyat siyahısı

1.Mənbə: https://www.who.int/news-room/facts-in-pictures/detail/road-safety

2. Federal Avtomobil Yolları İdarəsi (2022). Yol təhlükəsizliyi auditləri (RSA) - təhlükəsizlik. Burada mövcuddur: https://safety.fhwa.dot.gov/rsa/benefits/ .

3. ÜST Ümumdünya Səhiyyə Təşkilatı (2018). Yol təhlükəsizliyi üzrə qlobal status hesabatı . Tech. rep.
Buradamövcuddur: https://nebula.wsimg.com/ec5e8a90fba26266d5d48b8b8c3b6d22?AccessKeyId=CF4982BAFB3AA90D79CB&disposition=0&alloworigin=1 .

4. Yol-Hərəkət-Mühəndisliyi-Və-Təhlükəsizliyi-Dizayn-Filial-İdarə-İş-Nəqliyyat Nazirliyi. (1997). Yol təhlükəsizliyi audit təlimatı.

AVTOMOBİL NƏQLİYYAT- YOL KOMPLEKSİNDƏ EKOLOJİ PROBLEMLƏR VƏ HƏLLİ YOLLARI

İlham Tağıyev[1], Ceyhun Talıbov[1,2], Pərvanə Məmmədova[1], Vüqar Səlimov[1]

1. SOCAR Nəqliyyat İdarəsi 4 saylı Texnoloji Nəqliyyat Departamenti
2. Bakı Mühəndislik Universiteti.
ctalibov@beu.edu.az
BAKI, AZƏRBAYCAN

Xülasə

Məqalədə avtomobil nəqliyyat-yol kompleksi tərəfindən ətraf mühitin çirklənməsi amilləri o cümlədən, hava, su hövzəsi, səs-küy normalarının pozulması faktorları məsələsi araşdırılır. Araşdırma nəticəsində aşkar edilmiş problemlərin həlli kimi yolların layihələndirilməsi zamanı su hövzələri, havanın tərkibinin və səs- küydən qorunması inzibati və texnoloji tədbirlər təklif edilmişdir.

Açar sözlər: ətraf mühit, avtomobil nəqliyyatı, havanın çirklənməsi, nəqliyyat çirkləndiriciləri.

Summary

The article examines the factors of environmental pollution caused by the automobile transport-road complex. The way to solve the problems found as a result of the research -water bodies during the design of highways, of air composition and for noise protection administrative and technological measures have been proposed.

Key words: environment, automobile transport, air pollution, traffic pollutants.

Giriş

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə 2023-cü ildə ölkədə stasionar mənbələrdən və avtomobillərdən atmosfer havasına atılmış çirkləndirici maddələrin həcmi 2022-ci illə müqayisədə 34,5 min ton çoxalaraq ümumilikdə 965,1 min ton təşkil etmişdir. Eyni zamanda bu cirkləndiriçi maddələrin 85,0 faizi və ya 820,8 min tonu avtomobillərdən atılan tullantıların payına düşmüşdür. Bununla da 2023 - cü ildə avtomobillərdən atılmış zərərli maddələrin həcmi , keçən il ilə müqayisədə 6,3 faiz artmış, stasionar mənbələrdən atılmış maddələrin həcmi isə 8,9 faiz azalmışdır. [1]

Yerüstü nəqliyyatın yaratdığı ekoloji problemi təkcə havaya atılan zərərli qazlardan başqa, su obyektlərinin çirklənməsini, şəhərlərdə əsas səs-küy mənbəsi olmasını və ətraf mühitin termal çirklənməsini göstərmək olar. Bu nöqtəyi nəzərdən apardığımız araşdırma, aktuallıq kəsb edir.

Tədqiqat metodu

Səyyar nəqliyyat vasitələrinin istismarı zamanı zərərli maddələr havaya işlənmiş qazlar, yanacaq sistemlərindən çıxan tüstülər və yanacaq doldurma zamanı, həmçinin karter qazları ilə daxil olur. Karbon oksid emissiyalarına yolun topoqrafiyası və nəqliyyat vasitələrinin hərəkəti nümunələri də əhəmiyyətli dərəcədə təsir göstərir.

Məsələn, sürətlənmə və əyləc zamanı işlənmiş qazlarda karbon oksidin miqdarı demək olar ki, 8 dəfə artır. Karbon oksidin miqdarı isə avtomobilin sürəti 60 km/saat olduqda minimum həddə enir. [2]

Avtomobillərdən çıxan işlənmiş qazların atmosferin aşağı təbəqəsinə daxil olması və onların ətrafa yayılma prosesi, stasionar mənbələrdən çıxan qazların yayılma prosesindən əhəmiyyətli dərəcədə fərqlənir. Belə ki, avtomobil nəqliyyatından ayrılan zərərli maddələr avtomobil yollarının yaxınlığında yaşayan və ya fəaliyyət göstərən insanın tənəffüs zonasında olur. [2]

Yer səthinin nəqliyyat və yol emissiyaları ilə çirklənməsi nəqliyyat vasitələrinin magistral yolla hərəkət intensivliyindən asılı olaraq tədricən torpaq səthdə toplanır və hətta yoldan istifadə dayandırıldıqdan sonra da çox uzun müddət zərərli təsirlər davam edir. Torpaqda toplanan zərərli maddələrin bir qismi bitkilər tərəfindən asanlıqla mənimsənilir və onların vasitəsilə qida zəncirindən keçərək heyvanların və insanların orqanizminə keçir [3].

Torpaqdakı zərərli maddələrin digər qışımı isə həll olunaraq tullantı suları ilə daşınır, sonra çaylara və su anbarlarına daxil olur və içməli su vasitəsilə də insan orqanizminə düşə bilir. Su

obyektlərinin çirklənməsi nəqliyyat emissiyalarının yer səthinə axın hövzələrində, yeraltı sulara və birbaşa açıq su hövzələrinə çatması nəticəsində baş verir.

Daxili yanma mühəriklərindən atılan maddələrdən - qurğuşun ən çox yayılmış və zəhərli nəqliyyat çirkləndiricisi hesab olunur. Bəzi məlumatlara görə, yolun kənarında torpaq səthində qurğuşun miqdarı adətən 1000 mq/kq-a qədərdir, lakin çox sıx hərəkət edən şəhər küçələrinin tozunda bu, qurğuşun miqdarı 5 dəfə çox ola bilər.

Havanın çirklənməsi ilə yanaşı, səs-küy də texnoloji tərəqqinin və nəqliyyatın inkişafının eyni dərəcədə ümumi nəticəsidir. Trafik səs-küyünün ətraf mühitə, ilk növbədə insan mühitinə təsiri problemə çevrilib. Yollarımızda ümumi səs-küy səviyyəsi qərb ölkələrindən daha yüksəkdir. Hesab edilir ki, şəhər mühütündə səs-küyün 60-80 % avtomobillərin hərəkəti yaradır.

Həlli yolları

Tədqiqat nəticəsində yuxarıda göstərilən problemləri həlli yolların tərəfimizdən araşdırılmışdır.

Su hövzələri; müəyyən olunmuşdur ki, QOST 31953 neft və neft məhsullarının su məcralarında icazə verilən maksimal konsentrasiyası 0,1-0,3 mq/l təşkil edir. Mövcud normativ sənədlər hazırda çirkab suların yalnız şəhərlərdə və su mühafizə zonalarında toplanması və təmizlənməsini tələb edir. Lakin nəzərə alsaq ki, avtomobil yollarında avtomobillərdən ayrılan zərəli qazların tərkibində olan qurğuşun və qətran bilavasitə avtomobil yollarının üzərinə çökür. Bir müddətdən sonra baş verən atmosfer yağıntıları həmin ağır metal tullantıları avtomobil yolunun üzərindən yuyaraq, yol kənarlarındakı torpaq qatına daşıyır. Bu zaman kənd təsərrüfatı və yaşayış sahələrində qrunt suların çirklənməsi baş verir. Bu səbəbdəndə yağıntıların yola bitişik ərazidə torpağın və su obyektlərinin çirklənməsinin qarşısının alınması zəruri hala çevrilir.

Belə halların qarşısının alınması üçün hərəkət şiddəti yüksək olan yollarda - 1-ci və 2-ci sinif avtomobil yollarında torpaq yatağının və yol geyiminin layihələndirilməsi zamanı bəzi konstruktiv dəyişiklərin tətbiq edilməsi problemin həlli ola bilər. Belə ki, yol kənarlarında suların toplanması və suyun tərkibində zərəli maddələrin deaktivizasiya edilməsi üçün, yolların konstruksiyasında xüsusi drenaj sisteminin tətbiqi problemin həlli kimi təklif edilə bilər.

Hava; ətraf mühütün avtomobillərin zərərli qazlardan çirklənməsinin qarşısının alınmasının geniş yayılmış üsullarından biri, yol kənarı ərazilərdə yaşıllıqların yaradılmasıdır. Ən çox yayılmış və kifayət qədər məntiqli qorunma üsulu yollar boyunca yaşıllıq zolaqlarının yaradılmasıdır. Lakin nəzərə alsaq ki, daha sıx avtomobil yolu infrasturkturu və avtomobil sayı Abşeron yarımadasında yerləşir, o zaman bu rayonun meliorativ şəraitinə uyğun ağac və kolların istifadəsi məqbul sayılmalıdır.

Səs-küy; səs-küy mənbəyini qarşısının alınması üçün qoruyucu ekranların tətbiqi problemin həlli ola bilər. Qoruyucu ekranın effektivliyi onun yuxarı kənarının və qorunan nöqtəni birləşdirən xəttdən yuxarı qalxmasından asılıdır. Ən yaxşı nəticə, təbii olaraq, keçidin yaşayış binalarının hündürlüyü ilə müqayisə edilə bilən hündürlüyə malik olması halında əldə edilir. Ekranları yolun hər iki tərəfində yerləşdirərkən səs şüaları əks olunur. Bu ekranlar şəhər daxilində elə bir istiqamətdə quraşdırmalıdır ki, səs dalğaları əks olunaraq qorunan ərazilərə düşməsin. Bu məqsədlə Bakı- Ələt magistral yolunun Qobustan qəsəbəsi və Kənar dairəvi yolun bir hissəsində istifadə edilir.

Nəticə

Ümumiyyətlə yuxarıda göstərilən problemlərin həlli kimi, inzibati və texnoloji tədbirlərin tətbiqi müsbət rol oynaya bilər və o tədbirlər bunlardır:

İnzibati tədbirlər:

- şəhər yollarında tıxacları azaltmaq məqsədi ilə - təhsil və dövlət müəssisələrinin iş rejiminin korrelyativ paylanması;
- Bakı -Sumqayıt avtomobil yolunda sutkanın müəyyən saatlarında bir və ya bir neçə reversiv hərəkət zolağının tətbiqi;
- tıxaclar yaranan yollarda zamandan asılı olaraq hərəkət sürətinin artırmaq və bu məqsədlə dinamik sürət nişanları istifadə edilməsi
- tranzit magistralların və yükdaşımaları olan yolların yaşayış məntəqələrindən çıxarılması;

Texnoloji tədbirlər;

- yol kənarı su hövzələrinin qorunması məqsədi ilə yolların konstruksiyasında xüsusi drenaj sisteminin tətbiqi;

- səs-küy mənbəyini qarşısının alınması üçün qoruyucu ekranların tətbiqi
- ətraf mühütün avtomobillərin zərərli qazlardan çirklənməsinin qarşısının alınması üçün Abşeron yarımadasının meliorativ şəraitinə daha uyğun olan və mövsümdən asılı olmayaraq yarpaqlı Zeytun ağaclarından istifadənin geniş tətbiq edilməsi

Ədəbiyyat siyahısı

1. Azərbaycanda atmosferə atılan tullantıların həcmi təxminən 35 min ton artıb.https://report.az/ru/ekologiya/v-azerbajdzhane-obem-vybrosov-v-atmosferu-uvelichilsya-pochti-na-35-tys-tonn/
2. Denisov V.V., Kurbatova A.S., Denisova İ.A. və başqaları şəhərin ekologiyası: Dərslik / red. Professor V.V. Denisova.- M.- Rostov n/a: ICC 2008
3. Podgornova N.A. Avtomobil nəqliyyatının ekoloji problemləri və həlli yolları // Gənc alim - 2016
4. СанПиН 2.3.2.1078-01. Гигиенические требования к безопасности и пищевой ценности пищевых продуктов. Санитарно-эпидемиологические правила и нормативы: [введ. 01.09.2002]. М.: Минздрав России, 2002. 266 с.
5. Зигель Х., Зигель А. Некоторые вопросы токсичности ионов металлов. М.: Мир, 1993. 368 с.
6. Лавина С.А. Влияние ацетата свинца и нитрата кадмия на кинетику ферментативных реакций in vitro // Сборник научных трудов Всероссийского НИИ ветеринарной санитарии, гигиены и экологии. 1998. Т.105. С. 119-123